


**№ 4**

**2022**

www.genprosecutor.gov.az



**“Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir.”**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül
yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi,
3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

***Elmi-praktiki jurnalın 4-cü nömrəsi***

***Oktyabr - Dekabr (2022-ci il)***

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Jurnalın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 19.01.2023
60x84 1/8 formatda 202 səhifə həcmdədir.

© "Azərbaycan Prokurorluğu", 2023

# MÜNDƏRİCAT


**ÖLKƏDƏ**

**5** Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfər edib
**16** Soçi şəhərində Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilib
**18** Soçi şəhərində Azərbaycan Prezidentinin Rusiya Prezidenti və Ermənistanın baş naziri ilə görüşü olub
**20** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzairə işgüzar səfər edib
**24** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimində iştirak edib
**27** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistana səfər edib
**31** Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib
**36** Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub
**37** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər
**39** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyaya işgüzar səfər edib
**43** Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Saziş imzalanıb
**44** Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub
**45** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər

**PROKURORLUQDA**

**47** Azərbaycan Respublikası Baş Prokurorluğunda Xarici İşlər Nazirliyi ilə birgə brifinq keçirilmişdir
**50** Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) rəsmi nümayəndələrini qəbul edib.
**51** Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İstanbul şəhərində işgüzar səfərdə olmuşdur
**52** Baş Prokurorluqda "Zəfər Günü" münasibətilə tədbir keçirilmişdir
**53** Baş Prokurorluqda Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüş keçirilmişdir
**54** Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmişdir
**56** Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri ilə görüşüb
**57** Rusiya Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olmuşdur
**58** Baş Prokurorluqda "İnsan hüquqlarının əsas təminatları" mövzusunda konfrans keçirilmişdir
**60** Baş prokuror Kamran Əliyev Rusiyada işgüzar səfərdə olub
**62** Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir
**64** Baş prokuror Tacikistanın ölkəmizdəki səfiri ilə görüşüb
**65** Baş prokuror Kamran Əliyev Tacikistana işgüzar səfərdə olub
**67** Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərinə səfər edib
**68** Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur
**72** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir
**74** Baş prokuror bölgələrdə vətəndaşları qəbul etmişdir
**78** Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilmişdir
**79** Tabe prokurorların yeni köməkçiləri üçün cinayət təqibindən kənar fəaliyyət istiqamətləri üzrə treninq keçirilib
**80** Gəncə şəhərində Vətən Müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş terror hadisələri qurbanlarının anım tədbiri keçirilmişdir
**82** Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə çərçivəsində daxili işlər, gömrük və sərhəd xidməti orqanlarının əməkdaşları üçün təlim keçirilmişdir
**83** Baş Prokurorluqda Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) "Şahid Dindirmə Müsabiqəsinin" hazırlıq (təlim) və final mərhələləri keçirilmişdir
**85** Media və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqələr davam etdirilir
**87** Baş prokuror yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Milli Məclisində görüş keçirilmişdir
**88** Qubada "Söz azadlığı və cəmiyyətin informasiya təhlükəsizliyi" adlı konfrans təşkil edilib
**90** "Korrupsiyaya yox deyək" respublika rəsm müsabiqəsi keçirilib
**90** "Narkomaniya və məişət zorakılığına qarşı mübarizədə vətəndaş məsuliyyəti" adlı tədbir keçirilib
**91** Baş Prokurorluqda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə əlaqədar tədris tədbirləri davam etməkdədir
**92** Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı elan olunmuş müsabiqəyə yekun vurulmuşdur
**92** Prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərin icbari təlimi başlanmışdır
**94** Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Açıq qapı günü" təşkil edilib
**96** Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "9 dekabr – Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə Günü"nə həsr olunmuş dəyirmi masa keçirilmişdir
**98** İşğaldan azad olunmuş ərazilərdə kütləvi məzarlıqlar aşkar edilib
**99** Hərbi Prokurorluqda "Müzəffər Ali Baş Komandan və qalib xalq" mövzusunda elmi-praktiki konfrans keçirilib
**101** Hərbi Prokurorluqda xalqımızın Ümummilli Lideri, nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib
**103** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Naxçıvanda məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların əl işlərindən ibarət sərgidə iştirak ediblər
**104** Naxçıvan Dövlət Universitetinin tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğun fəaliyyəti ilə tanış olublar
**105** Naxçıvan Muxtar Respublikası prokurorluq qurumlarının əməkdaşları Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər
**106** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda fövqəladə hallardan qorunma və davranış qaydaları ilə bağlı tədbir keçirilib
**107** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsi yad edilib
**109** Bakı şəhər prokurorluğunda "Açıq qapı günü" təşkil edilib

# MÜNDƏRİCAT


## BEYNƏLXALQ ƏLAQƏLƏR

**110** Baş Prokurorluq tərəfindən beynəlxalq əməkdaşlıq sahəsində əlaqələr uğurla inkişaf etdirilir
**110** Baş Prokurorluğun nümayəndə heyəti İtaliyanın paytaxtı Roma şəhərinə təşkil edilmiş təlim səfərində olmuşlar
**111** Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkil etdiyi beynəlxalq təlimdə prokurorluq işçiləri iştirak etmişlər
**112** Prokurorluq orqanlarının xarici tərəfdaşlarla əməkdaşlığına dair sazişlərin icrası istiqamətində tədbirlər davam etdirilir
**113** Cinayət aktivlərinin bərpası sahəsində beynəlxalq əməkdaşlıq davam etdirilir
**114** Prokurorluğun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir
**115** Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb
**117** Qazaxıstanın təşkilatçılığı ilə keçirilmiş beynəlxalq elmi-praktiki konfransda Azərbaycan Prokurorluğunun işçiləri iştirak edib
**118** Strasburq şəhərində maliyyə cinayətlərinin istintaqı mövzusunda keçirilən təlimdə prokurorluq işçiləri iştirak etmişlər
**119** Koreyanın Seul şəhərində keçirilmiş beynəlxalq konfransda Azərbaycan Prokurorluğunun nümayəndəsi iştirak etmişdir
**120** Azərbaycan prokuroru Rumıniya Polisində və Sərhəd Xidmətində yoxlamada iştirak etmişdir
**120** Monteneqronun Budva şəhərində, Niderland Krallığının Haaqa şəhərində keçirilmiş seminarlarda, eləcə də Kosta Rikanın paytaxtı San-Xosedə təşkil edilmiş konfransda Azərbaycan Prokurorluğunun əməkdaşları da iştirak etmişlər
**122** İspaniya Krallığının paytaxtı Madriddə BMT-nın Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq Mühafizə Orqanlarının Qlobal əməliyyat şəbəkəsinin 3-cü iclasında Baş Prokurorluğun nümayəndələri iştirak etmişlər
**123** Fransanın paytaxtı Parisdə OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsi tərəfindən təşkil edilmiş tədbirlərdə Azərbaycan Prokurorluğunun nümayəndə heyəti iştirak etmişdir
**124** Baş Prokurorluqda AŞPA-nın nümayəndə heyəti ilə görüş keçirilib
**125** Beynəlxalq ekspertlər tərəfindən prokurorluq əməkdaşlarına "Maliyyə cinayətlərinin araşdırılması" mövzusunda praktiki təlim sessiyası keçirilib
**126** Kişinyov şəhərində Moldovanın Milli Antikorrupsiya Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş beynəlxalq tədbirlərdə Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nümayəndəsi iştirak etmişdir
**127** Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası tərəfindən Astana şəhərində təşkil olunmuş təlimdə Baş Prokurorluğun nümayəndəsi iştirak etmişdir
**128** Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzv dövlətlərin Assambleyasının 11-ci sessiyasında ölkəmizi Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir
**129** Xarici tərəfdaşlarla qurulmuş geniş spektrli əməkdaşlıq əlaqələri çərçivəsində daha bir əyani təcrübə mübadiləsi həyata keçirilmişdir
**131** Baş Prokurorluq İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələri genişləndirir
**131** Prokurorluq işçiləri Avstriyanın Vyana şəhərində təşkil edilmiş beynəlxalq tədbirdə iştirak ediblər
**132** Fransanın Milli Magistratlar Məktəbində (ENM) ermənilərin törətdikləri ekoloji cinayətlər barədə məlumat verilib
**133** Gürcüstanın paytaxtı Tbilisi şəhərində Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi beynəlxalq tədbirlərdə Baş Prokurorluğun əməkdaşı iştirak edib
**134** Qardaş Türkiyənin İstanbul şəhərində Baş Prokurorluğun qoşulduğu Türk Ədliyyə Təlim Şəbəkəsi təsis edilib
**135** Qərbi və Mərkəzi Asiya üzrə Aktivlərin qaytarılması qurumlararası şəbəkəsinin (ARIN-WCA) illik iclası və müvafiq mövzuda treninq keçirilib
**135** Baş Prokurorluğun əməkdaşları Fransanın Strasburq şəhərində təlim keçiblər
**137** BMT-nin ixtisaslaşmış qurumu tərəfindən təşkil edilmiş beynəlxalq tədbirdə Azərbaycan Prokurorluğunun nümayəndəsi ekspert qismində iştirak edib
**138** Prokurorluq əməkdaşı Avstriyanın Vyana şəhərində təşkil edilmiş seminarda iştirak edib
**138** Baş Prokurorluğun əməkdaşları Avropa Şurasının təşkilatçılığı ilə "Müsadirə üsulları – Çətinliklər və Tövsiyələr" mövzusunda keçirilmiş seminarda iştirak ediblər
**139** Azərbaycan Prokurorluğunun əməkdaşları beynəlxalq forumda iştirak ediblər

## PROKURORLUQ VƏ CƏMİYYƏT

**140** Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları
**144** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun maarifləndirmə tədbirləri
**148** Əmək qanunvericiliyinə əməl olunmasına prokuror nəzarəti
**151** Bir şəklin tarixçəsi
**155** Укрепление потенциала для эффективного трансграничного сотрудничества в области уголовного судопроизводства

## İKİ HÜQUQŞÜNAS – İKİ FƏRQLİ HÜQUQİ MÖVQE

**158** Viktimologiya: zərərçəkənin və şahidin hüquqlarının müdafiəsi (2-ci hissə)
**162** Cinayət Məcəlləsinin eyni bir maddəsinin müxtəlif hissələrində də nəzərdə tutulmuş əməllərin törədilməsi cinayətlərin məcmusunu yaradır

## HƏMKARLARIMIZLA MÜSAHİBƏ

**166** Tacikistan Respublikasının Baş prokuroru Yusuf Rəhmonun müsahibəsi

## PROKURORLUĞUN VETERANLARI

**168** Baş prokuror Kamran Əliyev prokurorluqda qulluq keçməsini başa çatdırmaqla təqaüdə çıxan bir sıra işçiləri təltif etmişdir
**169** Prokurorluqda qulluq keçməsini başa çatdırmaqla təqaüdə çıxan işçi Baş prokuror Kamran Əliyev tərəfindən təltif edilmişdir
**170** Qarabağ fədası – "Qarağaf qartalı". Bir prokurorun qəhrəmanlıq hekayəsi
**175** Prokurorluğun veteranı Behbud İsmayılovun müsahibəsi

## HÜQUQİ AKTLAR

**179** Qanunvericiliyə dəyişikliklər

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana rəsmi səfər edib



2022-ci il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsərək, onlara Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları təqdim edilmişdir.

Zəngilan Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular.











Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilan rayonunda "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışında iştirak ediblər.

Komplekslə tanışlıq zamanı prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırdılar.

**Jurnalist:** Xeyirli-uğurlu olsun.

**Prezident İlham Əliyev:** Salam.

**Jurnalist:** Bir il əvvəl gələndə də açılış var idi.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** O vaxt daha yeni təməllər qoyulurdu. Baxın, indi necə olub?

**Jurnalist:** Yaşıl sahəyə çevrilib.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Heyvanlar da gətirildi xaricdən. Həm bunları çoxaldırlar, həm də kəsim aparılır. Abdulkadir də burada məsul şəxsdir.

**Jurnalist:** Cənab Prezident, kompleks daha da böyüyəcəkmi?

**Prezident İlham Əliyev:** Abdulkadir bəydən asılıdır.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Rəhbər odur, o, necə istəsə, elə də olacaq.

**Abdulkadir:** Təbii ki, böyüyəcək. İnşallah, Laçında davam edəcəyik.

**Prezident İlham Əliyev:** Təbii ki, böyüməlidir. Çünki cəmi bir il ərzində belə böyük işin görülməsi artıq gözəl bir nümunədir.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** Dünya artıq kənd təsərrüfatına, heyvandarlığa yönəlib. Başqa çarələri yoxdur.

**Prezident İlham Əliyev:** Keçən il biz burada idik. Boş bir sahə idi, heç nə yox idi. Keçən ilin oktyabr ayında təməlini qoyduq. İndi baxın, bir il keçib, görün, nə qədər gözəl işlər görülüb.

**Jurnalist:** Bundan sonra hava limanı harada açılacaq?

**Prezident İlham Əliyev:** Laçında.

**Jurnalist:** Nə zaman açılacaq?

**Prezident İlham Əliyev:** 2024-cü, yaxud 2025-ci ildə ola bilər.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** O qədər də uzatma.

**Prezident İlham Əliyev:** Çünki orada bir dənə də düz yer yoxdur. Böyük torpaq işləri görməliyik. Çünki uçuş-enmə zolağını salmaq üçün biz dağları kəsirik. Odur ki, əsas vaxt ona gedir. Hələ ki, inşaat işləri başlanmayıb. Hələ biz bir il o dağları kəsə-kəsə gedirik. İnşallah, iki ildən, bəlkə də iki il yarımdan









sonra Laçında da hava limanı olacaq. İnşallah, Qardaşım da gələcək, bərabər açacağıq.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: İnşallah.

Sonra dövlət başçıları komplekslə tanış oldular.

Məlumat verildi ki, layihənin birinci mərhələsində inzibati binalar, 5200 kvadratmetrlik qapalı, 113 min kvadratmetrlik açıq tipli heyvandarlıq kompleksləri, sosial obyektlər, kafe, kinoteatr, istirahət zonası, üzgüçülük hovuzu, xidməti heyətin yaşayışı üçün binalar tikilib. Kompleksə 3500 baş cins qaramal gətirilib və əkinçilik məhsullarının istehsalı həyata keçirilib. Hər iki prezidentin iştirakı ilə ötən il əkin aparılan buğda və arpanın biçini başa çatdırılıb.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "Dost Aqropark"ın bölgəyə gətirdiyi, otlaqlarda bəslənərək yetişdirilən və kəsimi aparılmış heyvanlardan alınan ət məhsullarının paketlərinin üzərinə "Made in Qarabağ" etiketlərinin ilk nümunələrini vurdular.

Dövlət başçıları "Dost Aqropark"ın nəzdində yaradılan Zəngəzur Ağır Atletika Klubunun açılışında da iştirak etdilər. Açılış mərasimində Türkiyənin və Azərbaycanın ağır atletika üzrə milli komandalarının üzvləri, klubun həvəskar idmançıları prezidentlərlə söhbət etdilər.

Diqqətə çatdırıldı ki, "Dost Aqropark"ın ikinci və üçün-




cü mərhələləri üzrə işlər də sürətlə davam etdiriləcək. Layihənin bütün mərhələlərinin başa çatdırılması nəticəsində 6 min hektar sahədə bitki mənşəli istehsal və texnika sahələri yaradılacaq, 10 min baş cins heyvanın yetişdirilməsi üçün maldarlıq, eləcə də toxumçuluq və şitilçilik sahələri salınacaq. Bununla yanaşı, bütün bölgəyə hədəflənən inteqrasiya olunmuş ət emalı və qablaşdırma müəssisəsi qurulacaq, tutumu 100 min ton olan anbar inşa ediləcək. Kompleks, həmçinin bölgənin toxum, gübrə və kənd təsərrüfatı ləvazimatlarına tələbatını ödəyəcək. Qarabağda istehsal olunan məhsulların "Made in Qarabağ" brendi ilə dünya bazarına çıxarılması üçün "Aqro Market" də qurulacaq.

Qeyd edək ki, "Dost Aqropark" türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksidir. Üç mərhələdə həyata keçirilən layihənin təməli 2021-ci il oktyabrın 26-da Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qoyulub. Ötən bir il ərzində "Dost Aqropark"da birinci mərhələ üzrə görüləcək bütün işlər başa çatdırılıb.

Ağıllı kənd təsərrüfatı texnologiyalarının, sıfır tullantı, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinin tətbiq olunacağı "Dost Aqropark" ətraf mühitin və təbiətin mühafizəsi ilə yanaşı, halal qida prinsipi ilə fəaliyyət göstərəcək. Layihə tam başa çatdırıldıqda kompleksdə 500 nəfər işlə təmin olunacaq. Burada ekosistemin yaradılması üçün ümumilikdə 100 milyon dollar dəyərində sərmayə qoyulacaq. Kompleks Azərbaycanın və Türkiyənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək.

***

Daha sonra konsert proqramı təqdim edildi və kompleks barədə videoçarx nümayiş olundu.

***

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə çıxış etdilər.

**Prezident İlham Əliyev dedi:**




– Bu gün Zəngilan rayonunun tarixində unudulmaz bir gündür. Qardaş ölkənin sayın Cümhurbaşqanı, qardaşım Rəcəb Tayyib Ərdoğan Zəngilana təşrif buyurub. Bu, bizim üçün böyük bayramdır, bütün Azərbaycan xalqı üçün böyük bayramdır.

Əziz qardaşımı və onunla bərabər Azərbaycana gəlmiş bütün türk bacı-qardaşlarımızı səmimiyyətlə salamlayıram, "Xoş gəlmisiniz!" deyirəm. Biz düz bir il bundan əvvəl, bax, burada idik, o zaman bura boş sahə idi, heç nə yox idi. Burada "Aqropark"ın təməlini qoyduq. Bu gün artıq burada görülən işlərlə tanış olarkən bir daha gördük ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu hər bir sahədə özünü göstərir və hər bir sahədə gözəl nəticələr verir.

Burada qeyd olundu ki, bu gün Zəngilan üçün xüsusi bir gündür. Düz iki il bundan əvvəl oktyabrın 20-də Zəngilan şəhəri şanlı Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilmişdir. Zəngilanın 27 illik işğalı sona çatmışdır. Məhz bu gündə Zəngilanda olmağınız, əziz qardaşımla bərabər Zəngilan Hava Limanının və bu “Aqropark”ın açılışını etməyimiz, əlbəttə ki, xüsusi məna daşıyır. Bu “Aqropark”ın yaradılmasında əməyi olan hər bir kəsə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Burada qeyd olundu ki, bu, birinci özəl sərmayədir. Artıq bu “Aqropark”ın genişləndirilməsi və digər rayonlarda bu kimi aqroparkların yaradılması bu gün də müzakirə edilmişdir. Xeyirli olsun, uğurlu olsun!

***

**Prezident Rəcəb Tayyib Ərdoğan dedi:**




– Hörmətli qardaşım İlham Əliyev ilə birlikdə bir il əvvəl burada bu “Aqropark”ın təməlini qoymuşduq. İndi qardaşımla birlikdə görülən işləri, qoyulan sərmayəni bu gün birlikdə gözlərimizlə gördük. İndiyədək təxminən 3 min baş cins qaramalın buraya gətirilməsini və bunun, İnşallah, hədəf olaraq 10 min başa çatdırılmasını, haradan-haraya deyərək müəyyən etdik.

Müharibəni görmüş və bu müharibə nəticəsində insanların yaşayışı üçün tamamilə yararsız hala salınmış bu yerlər indi bərəkətli torpaqlara çevrilib. Gələrkən İlham qardaşımla bu barədə danışdıq, indi qısa vaxtda – iki-iki il yarım ərzində su anbarını da inşa edəcəyik dedi. Bu anbar sayəsində buralar daha bərəkətli torpaqlara çevriləcək. Bu bərəkətli torpaqlarda, İnşallah, heyvandarlıqla yanaşı, buğda, qarğıdalı, arpa yetişdiriləcək.

Səhv etmirəmsə, Yunus Əmrə şeirlərinin birində yazırdı ki, Allah bir buğda dənəsindən, bir sünbüldən yüz minlərlə dənə yaradır. İndi burada da bunun bənzərini görəcəyik. Bu sünbüllər, İnşallah, dənələrə çeviriləcək və buradan Azərbaycana, Türkiyəyə və bütün dünyaya göndəriləcək. Bunu unutmayaq, artıq heyvandarlığın, kənd təsərrüfatının dünyada mühüm yer tutmalı olduğu bir zamana giririk. Əminəm ki, İlham qardaşım bu sahədə çox önəmli bir addım atır, bunu reallaşdırır. Bura artıq bir taxıl anbarı, heyvandarlıq baxımından bir bərəkət tarlası və bir çox ölkənin də, İnşallah, qapısını döyəcəyi bölgəyə çevriləcək.

Mən başda İlham qardaşım olmaqla “Dost Aqropark”ın rəhbərlərinə çox-çox təşəkkür edirəm, onları təbrik edirəm.

İnşallah, bu torpaqların bərəkətli torpaqlar olaraq əbədi qalmasını diləyirəm.

Gördüyünüz kimi, indi əlimdə qızıl qulplu qayçı var. Bu, ikincidir. Hava limanını açarkən bir dənə aldıq, birini də indi aldıq. Aqroparkımız xeyirli olsun.

***

Daha sonra dövlət başçıları “Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılışını bildirən lenti kəsdilər.



Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Horadiz-Ağbənd dəmir yolu xəttinin Cəbrayıl rayonundan keçən hissəsində yerləşən Qumlaq stansiyasının təməlini qoyublar.



Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlət başçılarına Horadiz-Ağbənd dəmir yolu xətti və Qumlaq stansiyası barədə məlumat verdi.

Bildirildi ki, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini Azərbaycan Prezidenti 2021-ci il fevralın 14-də qoyub və layihənin 2023-cü ilin sonunda yekunlaşdırılması nəzərdə tutulur.



Dəmir yolu xətti tək xətlidir və ox üzrə uzunluğu 110,4 kilometrdir. Dəmir yolu xətti boyunca 9 stansiya (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd) fəaliyyət göstərəcək. Layihə çərçivəsində, həmçinin 456 süni mühəndis qurğusu, 70 yoldəyişən, 110,4 kilometr uzunluğunda rabitə və işarəvermə xətti istismara veriləcək. Hazırda dəmir yolu xəttinin 62-ci və 71-ci kilometrləri arasındakı ərazidə torpaq yatağı və süni mühəndis qurğularının tikintisi işləri aparılır. Layihələndirilmə və tikinti işləri minatəmizləmə prosesinə paralel davam etdirilir.



Məlumat verildi ki, təməli qoyulan Qumlaq stansiyası ümumilikdə 1,69 hektar ərazini əhatə edir. Stansiya modern üslubda dizayn edilib və platforma, stansiya binası, avtomobil, avtobus və taksi dayanacaqlarından ibarətdir. İstismara verildikdən sonra stansiya gündəlik olaraq 150-200 nəfər sərnişinə xidmət göstərəcək, habelə müvafiq istiqamətlərdə yüklərin səmərəli və təhlükəsiz daşınmasına imkan yaradacaq.

Dövlət başçılarına Ələt-Ağbənd-Naxçıvan-Qars dəmir yolu layihəsi barədə də məlumat verildi.



Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin oktyabrın 20-də təməlqoyma mərasimi keçirilib, əraziyə 15 baş ceyran buraxılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mərasimdə iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan-Türkiyə/Qarabağ Tədbirlər Planına uyğun olaraq bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu tədbirlər çərçivəsində, həmçinin "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin yaradılması nəzərdə tutulub.

Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli-Cəbrayıl-Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilib. Ərazi dəniz səviyyəsindən 603 metr yüksəklikdə, Bakı şəhərindən 340 kilometr, Zəngilan Beynəlxalq Hava Limanından 72 kilometr, Füzuli Beynəlxalq Hava Limanından isə 35 kilometr məsafədə yerləşir.

Məlumat verildi ki, kompleksdə üç mərtəbədən ibarət Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" yaradılacaqdır. Təlim Mərkəzində türkiyəli mütəxəssislər və beynəlxalq təlimçilər tərəfindən Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və digər region ölkələrinin meşə mütəxəssislərinə təlimlər keçiriləcək.

Mərkəzin elektrik təchizatı üçün 180 kilovat gücündə Günəş Elektrik Stansiyasının quraşdırılması planlaşdırılır.

Diqqətə çatdırıldı ki, "Ağıllı Tingçilik"də qabaqcıl texnologiyalar əsasında istixanalar, toxum saxlama mərkəzi, qapalı kök sistemli ting istehsal sahələri, köçürmə sahələri, kölgələndirmə, soyuducu, qablaşdırma və gübrə anbarları, ting tədarük mərkəzi, təlim zonası, maşın və traktor təlim parkları inşa ediləcəkdir. Burada il ərzində yerli iqlim şəraitinə uyğunlaşdırılmış 2 milyon müxtəlif ting yetişdirilərək Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə fondu torpaqlarında meşələrin salınmasında və yaşıllaşdırma işlərində istifadə olunacaq.

Məlumat verildi ki, layihə ərazisində torpaqqazma və doldurma işlərinə bu il iyunun 20-də başlanılıb və layihənin 2024-cü il iyulun 1-də tam yekunlaşdırılmaqla istismara verilməsi nəzərdə tutulur.

Sonra Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkdilər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan əraziyə ceyranlar buraxdılar.

Qeyd edək ki, Azərbaycan ərazisində ceyranların sayının kritik həddə azalması təhlükəsi nəzərə alınaraq ceyran populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 2003-cü ildə Şirvan Milli Parkı yaradılıb və həyata keçirilən intensiv mühafizə tədbirləri nəticəsində ölkəmizdə ceyranların populyasiyası bərpa edilib.

2021-ci ilin noyabr sayımına əsasən, Şirvan Milli Parkının ərazisində 6228 baş ceyran məskunlaşıb.

Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir.

İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin-ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022-2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Azad olunmuş ərazilərdə balıq növlərinin populyasiyasının bərpası üçün də davamlı işlər görülür. İki il ərzində Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə balıq körpələrinin buraxılışı təşkil olunub və bu işlər növbəti illərdə də həyata keçiriləcək.



Oktyabrın 20-də Cəbrayıl şəhərində rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Əvvəlcə dövlət başçıları rəsmi foto çəkdirdilər.

Oktyabrın 20-də Cəbrayıl şəhərində təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.

## Prezident İlham Əliyevin bəyanatı



– Əziz qardaşım, hörmətli Cümhurbaşqanı.

Əziz qonaqlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Əziz qardaşımı Cəbrayılda, Zəngilanda salamlamaq, “Xoş gəlmisiniz!” demək mənim üçün böyük şərəfdir. Bu gün biz birlikdə Zəngilan Hava Limanının açılışını qeyd etdik. Bir il bundan əvvəl əziz qardaşımın iştirakı ilə Füzuli Hava Limanını bir yerdə açdıq, bu gün Zəngilan Hava Limanını açdıq. Yəni, bu, onu göstərir ki, biz bütün xoş günlərdə bərabərik.

Bugünkü gün Qarabağ və Şərqi Zəngəzur üçün çox önəmli bir gündür. Bu gün Zəngilan şəhərinin işğaldan azad olunmasının ikinci ildönümüdür. Düz iki il bundan əvvəl erməni işğalına son qoyuldu. Azərbaycan Ordusu Zəngilan şəhərini azad etdi və məhz belə bir gündə Türkiyə Prezidentinin Azərbaycanda, Zəngilanda və Cəbrayılda olması xüsusi məna daşıyır.

Zəngilanın azad olunmasından bir neçə gün sonra Qubadlı erməni işğalından azad edildi və Azərbaycan Ordusunun bir qruplaşması Laçın istiqamətində irəliləməyə başlamışdı, digər qruplaşma isə Şuşaya istiqamət götürmüşdü. Alınmaz qala sayılan Şuşa noyabrın 8-də erməni işğalından azad edilmişdir,

Azərbaycan Bayrağı qaldırılmışdır və ondan sonra Ermənistan təslim oldu.

Bütün bu şanlı tarix bizim müştərək tariximizdir. Çünki İkinci Qarabağ savaşının ilk saatlarından əziz qardaşım, Türkiyə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycana dəstək ifadə etdi. Bildirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Bu siyasi və mənəvi dəstək savaşın son gününə qədər davam edirdi. Bu, bizə əlavə güc verirdi, bu, bəzi qüvvələrin bu məsələyə müdaxiləsinin qabağını alırdı. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, "Dost Aqropark"ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da – "Dost Aqropark" özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır. Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görür. Yolların, – yolların bir hissəsi artıq hazır vəziyyətdədir, – dəmir yolları, eyni zamanda, 33 tunelin inşası nəzərdə tutulmuşdur. Onların bir neçəsində fəal iş gedir. Tunellərin ümumi uzunluğu 50 kilometrdən çoxdur, 84 körpü tikiləcək, onların bir qismi inşa edilmişdir. Körpülərin ümumi uzunluğu 12 kilometrdir. Bu, ancaq birinci mərhələdə görülən və görüləcək işlərdir. Qarabağı və Şərqi Zəngəzuru tam bərpa etmək üçün daha böyük işlər görüləcək və biz bunu edəcəyik.

Bu gün bizim rəsmi mərasimimiz Cəbrayıl şəhərində keçirildi. Əslində, Cəbrayıl şəhəri yoxdur, çünki bax burada, oturduğumuz yerdə binalar olub, insanlar yaşayıb, həyat qaynayıb. Amma erməni işğalı dövründə ermənilər bizim bütün şəhərlərimizi, kəndlərimizi yerləbir etmişlər. Cəbrayıl şəhərindən bax bu dağılmış binalar qalıb. Bu dağıntılar Birinci Qarabağ savaşında deyil, məhz işğal dövründə ermənilər tərəfindən törədilmişdir. Görün onlarda Azərbaycan xalqına qarşı nə qədər nifrət var idi ki, bütün binaları yerlə-yeksan etdilər. Bunun əsas məqsədi ondan ibarət idi ki, azərbaycanlılar heç vaxt bu torpaqlara qayıtmasınlar, qayıtmağa yer olmasın. Ancaq biz qayıtmışıq, qan tökərək qayıtmışıq, savaşaraq, döyüşərək qayıtmışıq və bu gün artıq həyat bu bölgəyə qayıdıb, Ağalı kəndinin timsalında biz bunu görürük. Dünən mən Ağalı kəndində idim, məktəbə getmişdim. Məktəbdə 70 uşaq oxuyur. Yəni, o uşaqların heç biri buranı görməyib. Hətta onların bir çoxunun valideynləri də işğal dövründə doğulub, bir çoxları işğal baş verəndə özləri uşaq idi. Amma onlar qayıdıblar. Çünki torpaq çəkir, Vətən çəkir və hamımız qayıdacağıq. Bütün keçmiş məcburi köçkünlər qayıdacaqlar. Biz onların qayıdışı üçün əlimizdən gələni edirik, gecə-gündüz çalışırıq və bu bərpa-quruculuq işlərində türk qardaşlarımız bizimlə bir yerdədirlər.

Bu gün Türkiyə-Azərbaycan birliyinin, qardaşlığının növbəti təntənəsidir. Türkiyə kimi qüdrətli ölkə bizim qardaşımızdır, bu, bizim üçün böyük xoşbəxtlikdir. İkinci Qarabağ savaşı, savaşdan sonrakı dövr bu birliyi daha da gücləndirdi. Keçən il biz Şuşada Şuşa Bəyannaməsini imzaladıq və Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldu. Bütün sahələrdə müttəfiq oldu və bu, həm xalqlarımıza ciddi gözaydınlığıdır, eyni zamanda, bölgəyə və dünyaya ciddi mesajdır. Çünki Türkiyə-Azərbaycan birliyi bölgədə çox önəmli bir amildir. Bu, sülh, sabitlik amilidir. Ancaq, eyni zamanda, əgər kimsə yenə də bizə qarşı ədalətsiz hərəkət etmək istəsə, əlbəttə ki, bu amili ciddi nəzərə almalıdır.

Əziz Qardaşımın liderliyi sayəsində Türkiyə son illər böyük uğurlu yol keçib, dünya çapında güc mərkəzinə çevrilib. Türkiyədəki sabitlik, inkişaf göz qabağındadır. Bu gün dünyanın bir çox ölkələrində böhran yaşanır, ölkələr idarəolunmaz vəziyyətə düşür, iqtisadi çətinliklər, sıxıntılar insanların haqlı etirazına səbəb olur. Türkiyə isə inamla irəliləyir, nəhəng layihələr gerçəkləşdirir, bölgədə söz sahibidir, dünyada önəmli güc mərkəzidir. Hər kəs bununla hesablaşmalıdır və hər kəs bilməlidir ki, bu uğurların səbəbkarı mənim qardaşım Rəcəb Tayyib Ərdoğandır. Azərbaycanda Tayyib bəyə çox böyük hörmət, məhəbbət vardır və bunu Azərbaycana gələn hər bir insan görür.

İkinci Qarabağ savaşından sonra Türkiyə-Azərbaycan qardaşlığı, birliyi daha da yüksək pilləyə qalxıb. Yəqin siz də görürsünüz ki, hər yerdə Azərbaycan və Türkiyə bayraqları bir yerdə dalğalanır.

Bu, ürəkdən gələn duyğulardır, bu, əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyətidir və bu, zəmanəmizin tələbidir. Bu gün əziz Qardaşımın böyük heyətlə, hökumət nümayəndələri ilə burada olması bir daha onu göstərir ki, biz hər zaman olduğu kimi, bir yerdəyik və bir yerdə olacağıq. Bundan sonra bölgədə gedən işlər, əlbəttə ki, Türkiyə və Azərbaycanın fəal iştirakı və izni ilə aparılacaq. İstər siyasi təşəbbüslər, iqtisadiyyat, enerji, nəqliyyat – bütün bu sahələrdə bizim işbirliyimiz artıq regional çərçivədən çıxıb, beynəlxalq səviyyəyə qalxıbdır.

Əziz Qardaşım, bu əziz gündə bizimlə bərabər olduğunuz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə xalqına xoşbəxtlik, sülh arzulamaq istəyirəm. Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

***

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı



– Hörmətli cənab Prezident, əziz Qardaşım.

Hörmətli nazirlər.

Sizləri ən səmimi hisslərimlə, məhəbbətlə salamlayıram.

Əvvəlcə, Can Azərbaycanın iki gün əvvəl qeyd etdiyi Müstəqilliyin Bərpası Gününü bir daha təbrik edirəm.

İşğaldan azad edilən qədim Azərbaycan torpaqlarında bir il ərzində ikinci hava limanının açılışında iştirak etmək, ikinci hava limanını həqiqətən müasir dünyanın müşahidə etdiyi şəkildə ən müasir hava limanlarından biri olaraq açmaq bu qədər çətin dövrdən sonra hər ölkənin bacara biləcəyi bir iş deyildir. İndi sağıma, soluma baxıram, işğal dövründə Cəbrayılı nə hala salmışlar. Mən Qardaşımdan soruşdum, dedim, bu ATƏT, Avropa İttifaqı buraları gəlib görmədimi? Yox, gəlmirlər. Niyə gəlmirlər? Çünki öz üzqaralarını görəcəklər, Qərbin etdiklərini görəcəklər. Onlar burada dəstəklədikləri həmin işğal dövründə Cəbrayılı, Qarabağın digər bölgələrini nə hala gətirdiklərini görəcəklər. Təbii ki, bunları görmək istəmirlər. Əslində, onlar nələr törədildiyini bilirlər.

Amma bunu görəndən sonra bu barədə danışdıq, bu işləri mütləq ədalət mühakiməsinə verərək, bunların təzminatını tələb etmək lazımdır. Bunların təzminatını istəyərək onları dalana dirəmək lazımdır. Dünya Qərbi çox yaxşı tanımalıdır, hamımız birlikdə tanıtmalıyıq.

Dağıdılmış, yerlə-yeksan edilmiş bu bölgələr hazırda qardaşım İlham Əliyevin liderliyi ilə bənzərinə az rast gəlinən böyük bir inkişaf həmləsi ilə yenidən dirçəlir. Körpüləri, dəmir yolları, avtomobil yolları, magistralları ilə yenidən bir Azərbaycan inşa edilir. İndi biz bunları yaşayırıq, görürük. Eşidərək deyil, görərək bu ifadələri işlədirik. Bu, təbii ki, başda qardaşım İlham Əliyev olmaqla, bütün komandası ilə əl-ələ verərək atdıqları addımlar, gördükləri işlərlə bu qədər qısa müddətdə Azərbaycan, necə deyərlər, burada sıfırdan başlayaraq yenidən ayağa qalxır.

Bu gün Zəngilanda açılışını etdiyimiz Beynəlxalq Hava Limanı Azərbaycanın qəhrəmanlıq dastanından sonra indi də Qarabağın inkişaf dastanının yazılmasının bir göstəricisidir. Belə mühüm bir layihədə türk şirkətlərinin də yer alması bizim üçün də ayrıca bir iftixar mənbəyidir.

Azərbaycanlı qardaşlarımızın azad edilən torpaqlara qayıtmağa başlamaları da bizi həddindən artıq sevindirir. Böyük Qayıdış prosesi çərçivəsində azərbaycanlı qardaşlarımızın "Ağıllı kənd" konsepsiyasına uyğun inşa edilən Ağalı kəndində məs-

kunlaşmaları ilə Vətən həsrətlərinin, İnşallah, başa çatdığını görürük. Ağalı kəndini gördük, oraya bundan sonra artıq kənd deyə bilmərik. Ora artıq müasir bir şəhər kimi inkişaf edir.

Onun yanında "Dost Aqropark"ı gördük, orada kənd təsərrüfatı, o cümlədən heyvandarlıq sahəsində həqiqətən çox mühüm addım atılmışdır. Bir il əvvəl təməlqoyma mərasiminə gələndə çox fərqli bir ərazi idi. Amma indi kənd təsərrüfatı sahəsində çox ciddi iş görülərək bu ərazinin necə dirçəldildiyini gördük. Burada təxminən üç min baş cins qaramalın olması, bu imkanın da dəyərləndirilərək bir tərəfdən onların kəsimi, digər tərəfdən bəslənməsi, artırılması – bu istiqamətdə görülən işlərlə bu addım həqiqətən də Böyük Qayıdış layihəsinin həyata keçirilməsidir.

Yolda gələrkən hörmətli Qardaşım bəzi məsələləri də mənə izah etdi. Misal üçün, burada ən önəmli məsələ sudur. Su məsələsinə gəldikdə, qısa müddətdə burada su anbarının inşası ilə bu problem də aradan qaldırılacaq. Beləliklə, bu tarlalarda kənd təsərrüfatının inkişafı sayəsində çox ciddi nəticə əldə edəcəklərini söylədilər, həqiqətən bizim də gördüyümüz və inandığımız budur.

Çox qısa müddətdə burada kənd təsərrüfatı sahəsində də ciddi nəticələrin əldə edilə biləcəyini gördük. Ot bağlamalarının düzülüşü bizə o nəticəni göstərir. Biz də tədbiri ot bağlamalarının üzərində oturaraq izlədik. Buna görə də təbrik edirik. Yəni, minaların yerini artıq bunlar alıb. İnfrastruktur problemini tamamilə aradan qaldırmağa çalışırlar. Zənn edirəm ki, bir ildən sonra gələndə Cəbrayıl yolunun çox fərqli vəziyyətdə olacağını görəcəyik. Çünki burada da infrastruktur məsələləri ilə bağlı ciddi addımlar atılır. Burada da "Cengiz", "Kalyon" şirkətlərinin müştərək fəaliyyəti ilə bu addımlar da atılmışdır. Ötən səfərimdən bir il sonra burada asfaltlanma işlərinin aparıldığını, körpülərin inşa olunduğunu, bu gün təməlini qoyduğumuz dəmir yolu ilə bağlı addımların atıldığını gördük. Dəmir yolunun buraya gətirilməsi buradakı inkişaf hərəkatının həqiqətən böyük bir layihə olaraq necə sürətlə həyata keçirilməsinin nümayişi baxımından böyük önəm daşıyır.

Qarabağın inkişaf planı çərçivəsində başda kənd təsərrüfatı, "yaşıl enerji" və "ağıllı şəhərlər" olmaqla, bütün layihələrdə Türkiyə Azərbaycanın yanında olmağa hazırdır.

Artıq həmrəylik əsasında atdığımız addımlar var. Bunları inkişaf etdirərək daha mühüm və nəhəng layihələri birlikdə həyata keçirməyə hazırıq. Təbii ki, mühüm addımlardan daha biri olan - Cəbrayılda təməlini qoyduğumuz "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksi də həmrəyliyimizin rəmzidir.

Hörmətli media nümayəndələri, Naxçıvanı Azərbaycanın qərb rayonları ilə birləşdirəcək Zəngəzur dəhlizi ilə bağlı bəzi dairələrdəki qorxu və narahatlıq mənə görə reallıqdan uzaqdır. Yəni, artıq bütün Qarabağla bağlı atılan bu addımlardan sonra belə bir qorxuya ehtiyac yoxdur. Azərbaycan əmin addımlarla yoluna davam edir. Bu yol bölgənin sülh, əmin-amanlıq və sabitliyinə töhfə verəcəyi kimi, Xəzərdən keçməklə Şərq-Qərb, Orta Dəhliz marşrutları üzərində yerləşən bütün ölkələr üçün ticarət və sərmayə imkanları təqdim edəcək.

Azərbaycan 44 günlük Vətən müharibəsində öz torpaqlarını işğaldan azad edib, 30 ildir verilməyən haqqını geri alıb. Ermənistan ilə müzakirələrdə səmimi addımlar atan və müsbət təkliflər irəli sürən Azərbaycan əsas hədəfinin davamlı sülh, firavanlıq və sabitlik olduğunu ortaya qoyub. Hər zaman söylədiyim kimi, sülhün uduzanı olmaz. Yeganə məqsədimiz bölgəmizin firavan gələcəyini inşa etməkdir.

Azərbaycan-Ermənistan və Türkiyə-Ermənistan normallaşdırma prosesləri bir-birini dəstəkləyəcək şəkildə irəliləməkdədir. Açılan bu fürsət pəncərəsini yaxşı dəyərləndirmək lazımdır.

Hörmətli media nümayəndələri, Cümhuriyyətimizin 100-cü ilini qeyd edəcəyimiz 2023-cü ilin Azərbaycanda da "Heydər Əliyev İli" olaraq qəbul edilməsindən məmnunluq duyuruq. Ümummilli Liderimiz Heydər Əliyevin əziz xatirəsini birlikdə yaşatmağa davam edəcəyik.

Sözlərimi bu düşüncələrlə yekunlaşdırarkən şəxsən mənə və nümayəndə heyətimə göstərilən qonaqpərvərliyə görə xüsusilə millətim adından minnətdarlığımı ifadə edir, təşəkkürümü bildirirəm.

Rəbbim birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!

# Soçi şəhərində Azərbaycan Prezidenti İlham Əliyev ilə Rusiya Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilib

Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında ikitərəfli görüş keçirilib.

Rusiya Prezidenti Vladimir Putin dövlətimizin başçısını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu!

Sağ olun ki, bizə, Soçiyə gəlmisiniz. Əslində bu görüş Sizin





və Ermənistanın baş nazirinin təşəbbüsü ilə, özü də məhz Soçidə təşkil edilib. Görünür, Siz Soçidə havanın yaxşı olacağını nəzərdə tutmusunuz, lakin belə olmadı, payızdır. Bununla belə, mənim fikrimcə, bu görüş əhəmiyyətlidir, vacibdir.



Mən hesab edirəm ki, bu görüşün məqsədi bizim 2020-ci və 2021-ci illərdə nail olduğumuz bütün razılaşmaların yerinə yetirilməsini təmin etməkdir. Siz dəfələrlə qeyd etmisiniz ki, Rusiya münaqişənin nizamlanmasında nəzərəçarpacaq, mühüm rol oynayıb. Hazırda bizim sülhməramlı kontingentimiz öz missiyasını necə yerinə yetirməli idisə, elə də yerinə yetirir. Bu dəyərləndirmənizə görə Sizə təşəkkür edirəm.

Bu gün isə, əlbəttə, bugünkü vəziyyətdə yaranmış şərait barədə danışmaq, hələ həll edilməmiş məsələlərin həlli yollarını axtarmaq lazım gələcək. Bununla əlaqədar mən iqtisadi xarakterli mühüm tərkib hissəni qeyd etmək istərdim: biz üçtərəfli işçi qrupu yaratmışıq, ona baş nazirlərin müavinləri rəhbərlik edirlər. Bizim əvvəllər, hələ iki il bundan qabaq haqqında danışdığımız məsələlərin həlli baxımından onlar kifayət qədər irəliləyiblər. Görünür, burada da əlavə impuls vermək lazımdır. Bilirəm ki, Azərbaycan tərəfi bu istiqamətdə kifayət qədər fəal işləyir.

Gündəlikdəki məsələlərin əhatə dairəsi kifayət qədər genişdir, Sizi görməyə çox şadam. Xoş gəlmisiniz.

***

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Sağ olun, hörmətli Vladimir Vladimiroviç. Dəvətə görə təşəkkür edirəm. Yenidən görüşməyimizə şadam. Biz Sizinlə keçən ayda da, bu ayda da görüşmüşük, ikitərəfli münasibətləri kifayət qədər ətraflı müzakirə etmək və bu münasibətlərdə müsbət dinamikanı qeyd etmək imkanımız olub.

Bugünkü görüş bizim regional məsələlərə həsr edilib. Qarabağ münaqişəsinin nizamlanmasında oynadığınız rola görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. İki il bundan əvvəl imzalanmış üçtərəfli Bəyannamə çoxillik münaqişəyə son qoydu. İndi Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışmaq və hərəkət etmək vaxtı yetişib. Əlbəttə, biz bu məsələdə Sizin şəxsi rolunuzu yüksək qiymətləndiririk. Bir qədər sonra keçiriləcək bugünkü üçtərəfli görüş bizim ilk görüşümüz olmayacaq. Sizin təşəbbüsünüzlə bu cür görüşlər keçirilib və görürəm ki, normallaşma prosesinə çox yaxşı impuls verib. Azərbaycan nisbətən yaxın vaxtlarda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasının əsası olmalı 5 əsas prinsipi irəli sürüb. Bunlar beynəlxalq hüququn fundamental prinsipləridir və mənim fikrimcə, bu əsasda normallaşmaya nail olmaq mümkündür.

Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması isə, əlbəttə, çox ciddi addımlar tələb edən formatdır. Biz bu məqsədlərə nail olmaq işində bundan sonra da şəxsən Sizin fəal rolunuza və Rusiyanın roluna ümid bəsləyirik. Dəvətə görə bir daha sağ olun.

**Prezident Vladimir Putin:** Təşəkkür edirəm.

# Soçi şəhərində Azərbaycan Prezidentinin Rusiya Prezidenti və Ermənistanın baş naziri ilə görüşü olub



Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü olub.

Görüşdə çıxış edən Rusiya Prezidenti **Vladimir Putin** dedi:

– Hörmətli həmkarlar, bu gün biz üç sessiyadan ibarət danışıqlar apardıq. Əvvəlcə Ermənistan nümayəndə heyəti ilə, sonra isə Ermənistanın baş naziri ilə təkbətək danışdıq. Daha sonra Azərbaycan nümayəndə heyəti ilə və Azərbaycan Prezidenti ilə təkbətək danışdıq və sonra iki saat, bəlkə də bir qədər artıq müddətdə üçlükdə söhbət etdik. Bizim ümumi fikrimizə görə bu görüş çox faydalı oldu. Məncə bu görüş bəzi prinsipial məsələlər barədə gələcəkdə mümkün razılaşmalar üçün çox yaxşı ab-hava yaratdı.

Bu gün biz birgə Bəyanatı razılaşdırdıq. Açıq deməliyəm, hər şeyi razılaşdırmaq mümkün olmadı. Əvvəlcədən mütəxəssislər səviyyəsində işlənmiş mətndən bəzi hissələri çıxarmalı olduq. Bununla belə, mən ümumi rəylə razıyam ki, görüş faydalı oldu və bu, bütövlükdə vəziyyətin nizamlanması istiqamətində sonrakı addımlar üçün şərait yaradır. Özü də mən bütövlükdə deyəndə həm yaxın keçmişə aid cari hadisələri, həm də iki il bundan əvvəl baş vermiş hadisələri nəzərdə tuturam. Hər halda o vaxt biz prinsipial məsələlər barədə razılığa gəlməyə nail olduq. Bugünkü diskussiya onu göstərir ki, biz bütün ölkələrimizin gələcəyi barədə də razılığa gələ bilərik. Mən bizim bütün ölkələr dedikdə həm Rusiyanı, həm Azərbaycanı, həm Ermənistanı, həm də bütün region ölkələrini nəzərdə tuturam. Ona görə ki, bu ərazidə yaşayan bütün xalqlar münasibətlərin normallaşmasında maraqlıdırlar. Rusiya öz tərəfindən, qəti və hərtərəfli nizamlamaya nail olmaq üçün nə mümkündürsə edəcək.

Çox sağ olun. Mən öz həmkarlarıma – həm Ermənistanın baş nazirinə, həm də Azərbaycanın Prezidentinə təşəkkür etmək istəyirəm ki, siz Rusiyaya, Soçiyə gəlməyə və bugünkü diskussiyanı aparmağa razılaşdınız. Razılaşdığımız kimi biz əlaqə saxlayacağıq, bu dialoqu və uzun müddət davam edən bu münaqişəyə nöqtə qoymaq üçün zəruri həllərin axtarışını davam etdirəcəyik.

Çox sağ olun, təşəkkür edirəm.

Oktyabrın 31-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Bəyanat imzalayıblar.

**"Azərbaycan Respublikası Prezidentinin,**

**Ermənistan Respublikası baş nazirinin və**

**Rusiya Federasiyası Prezidentinin Bəyanatı**

*31 oktyabr 2022-ci il*

Biz, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2022-ci il oktyabrın 31-də Soçi şəhərində görüşdük və 2020-ci il 9 noyabr, 2021-ci il 11 yanvar və 26 noyabr tarixli üçtərəfli bəyanatların həyata keçirilməsinin gedişatını müzakirə etdik.

Azərbaycan-Ermənistan münasibətlərinin kompleks şəkildə normallaşdırılması, sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı iqtisadi inkişafının təmin edilməsi naminə göstərilən bütün razılaşmalara dönmədən riayət edilməsinə sadiq olduğumuzu təsdiq etdik. Qalan məsələlərin, o cümlədən humanitar məsələlər blokunun təxirə salınmadan həllinə yönəlmiş əlavə səylər göstərmək barədə razılaşdıq.

Rusiya sülhməramlı kontingentinin yerləşdiyi zonada təhlükəsizliyin təmin edilməsinə mühüm töhfəsini qeyd edərək onun regionda vəziyyətin sabitləşməsinə yönəlmiş səylərinə ehtiyac olduğunu vurğuladıq.

Güc tətbiq etməkdən və ya onu tətbiq etməklə hədələməkdən çəkinmək və bütün problemli məsələləri BMT Nizamnaməsinə və 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenliyin, ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının qarşılıqlı tanınması əsasında müzakirə və həll etmək barədə razılığa gəldik.

Regionda davamlı və uzunmüddətli sülhə nail olmaq məqsədilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanmasına fəal hazırlaşmağın vacibliyini vurğuladıq. Mövcud işlənilən təkliflər əsasında məqbul həll yollarının axtarışını davam etdirmək barədə razılaşdıq. Rusiya Federasiyası buna hər vasitə ilə kömək göstərəcək.

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında ictimaiyyətin, ekspert birliklərinin nümayəndələri və dini liderlər arasında Rusiyanın köməyi ilə dialoqu davam etdirmək üçün, həmçinin iki ölkənin xalqları arasında etimadı möhkəmlətmək məqsədilə üçtərəfli parlamentlərarası əlaqələrin cəlb edilməsi üçün müsbət ab-hava formalaşmasının vacibliyini vurğuladıq.

Azərbaycan Respublikasının və Ermənistan Respublikasının liderləri Rusiya Federasiyasının bundan sonra da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında münasibətlərin normallaşmasına, Cənubi Qafqazda sabitliyin və tərəqqinin təmin edilməsinə hərtərəfli şərait yaratmağa hazır olmasını alqışladılar.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyev**

**Ermənistan Respublikasının baş naziri**
**Nikol Paşinyan**

**Rusiya Federasiyasının Prezidenti**
**Vladimir Putin"**

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzairə işgüzar səfər edib





Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ərəb Dövlətləri Liqasının 31-ci Sammitinə ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidentinin dəvəti ilə Zirvə toplantısında Fəxri qonaq statusunda iştirak etmək üçün bu ölkəyə səfər etmişdir.

Əlcəzair şəhərinin Huari Bumedyen Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər qarşıladılar.



Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Şəhidlər abidəsini və Milli Mücahidlər Muzeyini ziyarət edib.

Burada dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Qeyd edək ki, Əlcəzairin azadlığı uğrunda mübarizədə həyatını qurban vermiş döyüşçülərin xatirəsinə ucaldılmış Şəhidlər abidəsi ölkənin müstəqilliyinin 20-ci ildönümü münasibətilə 1982-ci ildə açılıb. Abidənin hündürlüyü 92 metrdir.

Milli Mücahidlər Muzeyi ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, Şəhidlər abidəsinin altında yerləşən və 1984-cü ildə açılmış muzeyin kolleksiyasının böyük hissəsi ölkənin Fransa tərəfindən işğalına və 1830-1962-ci illərdə Fransa müstəmləkəçiliyinə qarşı aparılmış xalq müqavimətinə həsr olunub. Burada rəsm əsərləri ilə yanaşı, müstəmləkəçiliyə qarşı mübarizə aparmış əlcəzairli mücahidlərə aid silahlar, arxiv materialları və döyüş əşyaları, fotoşəkillər və sənədlər, həmçinin müqavimət dövründə fransızların xalq hərəkatı iştirakçılarını cəzalandırmaq üçün istifadə etdikləri edam alətləri nümayiş olunur. Fransa müstəmləkəçiliyinə qarşı hərəkata rəhbərlik etmiş Əmir Əbdülqadirin (Əbdülqadir İbn Muhyiddin) şəxsi əşyaları və silahları, onun 1853-cü ildə fransız rəssam Anj Tisye tərəfindən çəkilmiş və yalnız 1976-cı ildə Fransa tərəfindən ölkəyə qaytarılmış portreti muzeyin ən çox ziyarət olunan kolleksiyaları sırasındadır.

Muzeydə xalq hərəkatının 7 mindən çox iştirakçısının şahid ifadələri toplanıb.

Fransızlar 1830-1962-ci illəri əhatə edən işğal dövründə 1,5 milyondan artıq insanı amansızcasına qətlə yetiriblər. Buna görə də Əlcəzair "1,5 milyon şəhid ölkəsi" adlandırılır. Ümumilikdə 10 milyona yaxın əlcəzairli Fransanın müstəmləkəçilik dövrünün qurbanı olub.

Fransızların Əlcəzairə münasibəti işğal etdikləri digər ərazilərdən fərqli olub. Belə ki, əgər başqa ərazilərin müstəmləkə olduğu qəbul edilirdisə, Əlcəzair Fransanın bir parçası, onun dənizarxası ərazisi sayılırdı.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev muzeyin xatirə kitabına aşağıdakı ürək sözlərini yazdı: “Əlcəzair Xalq Demokratik Respublikasına ilk dəfə səfərə gəlməkdən və qardaş Əlcəzair xalqına dərin ehtiramımın



ifadəsi olaraq Milli Mücahidlər Muzeyini ziyarət etməkdən şərəf hissi duyuram.

Milli Mücahidlər Muzeyi Əlcəzair xalqının şanlı tarixinin ən faciəli və eyni zamanda, ən qürurverici səhifələrindən birini özündə əks etdirən mühüm kompleksdir. Bu muzey Əlcəzair xalqına qarşı misli görünməmiş qəddarlıqla və şiddətlə həyata keçirilən müstəmləkə siyasətinin, müharibə və insanlıq əleyhinə cinayətlərin, müstəmləkəçi qüvvələrə qarşı ümumxalq mübarizəsinin və bir milyon yarım şəhidin canı bahasına qazanılmış müstəqillik qələbəsinin yaddaşlarda qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.





Amansız müstəmləkə əsarətindən qurtulmaq üçün başlanılan azadlıq və müstəqillik mübarizəsi Əlcəzair xalqının böyük şücaətinin, birliyinin, sarsılmaz iradəsinin və qətiyyətinin rəmzi kimi Əlcəzairin tarixinə əbədi olaraq həkk olunmuşdur.

Böyük qurbanlar verərək istiqlaliyyətə qovuşmuş qardaş Əlcəzairin bu gün inkişafını, rifahını görməkdən dost və qardaş ölkənin rəhbəri olaraq böyük qürur hissi keçirirəm.

Milli Mücahidlər Muzeyində mənə göstərilən səmimi qəbula görə təşəkkürümü bildirir, Əlcəzair xalqının qəhrəmanlıq irsinin əbədiləşdirilməsi işində muzeyin fəaliyyətinə uğurlar arzulayıram".

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.

***

Fransanın Əlcəzairdə apardığı siyasətlə Ermənistanın 30 ilə yaxın işğal altında saxladığı Qarabağda yürütdüyü siyasət arasında paralellər aparmaq olar. Rəsmi Parisin ermənipərəst siyasətinin kökündə həm də bu yanaşma dayanır. Ərazisinə görə Afrikanın və ərəb dünyasının ən böyük ölkəsinin 11 milyondan çox vətəndaşına vaxtilə muxtariyyət belə verməkdən







imtina etmiş Fransa indi Qarabağda yaşayan 15-20 min erməniyə müstəqillik tələb edir.

Eyni zamanda, Fransa ordusu öz azadlığını tələb edən əlcəzairlilərə qarşı kütləvi qətliamlar, çoxsaylı müharibə və insanlıq əleyhinə cinayətlər törədib. Eyni cinayətlər Qarabağda yaşayan və erməni işğalına qarşı çıxan azərbaycanlılara qarşı da həyata keçirilib. Məsələn, 1832-ci ildə Əlcəzairin Fransa tərəfindən işğal edilməsinə qarşı çıxan El-Uffia qəbiləsi gecə yatdığı yerdə qılıncdan keçirilib. Bu hadisənin bənzərini biz 1992-ci ildə Xocalıda müşahidə etdik. Bu gün Fransa tərəfindən dəstəklənən Ermənistan o vaxt Xocalının dinc əhalisinə qarşı özü də gecə vaxtı soyqırımı törətdi. Bundan əlavə, həm Fransa, həm də Ermənistan müharibə zamanı Cenevrə konvensiyalarının tələblərini pozaraq qadağan olunmuş silahlardan istifadə ediblər.

Fransanın törətdiyi daha bir faciə isə 1961-ci ilin oktyabrında baş verib. O zaman on minlərlə əlcəzairli Fransa işğalını pisləmək üçün Parisdə nümayişə çıxır. Fransa polisinin açdığı atəş və etirazçıları Sena çayına atması nəticəsində 1500-ə qədər əlcəzairli qətlə yetirilib, mindən çox şəxs həbs olunub. Bu hadisə tarixə “Sena qətliamı” kimi daxil olub. Fransa hakimiyyəti bu faciə ilə bağlı da susqunluq nümayiş etdirib. Fransanın törətdiyi qətliamlara görə məsuliyyəti boynuna almamaq ənənəsi görünür Ermənistana da sirayət edib. 1992-1993-cü illərdə Qaradağlıda, Ağdabanda, Xocalıda və digər yaşayış məntəqələrində azərbaycanlılara qarşı törədilən soyqırımı və qətliamlar, əslində, 1945-ci ildə Setifdə, 1961-ci ildə Parisdə törədilən qətliamlarla oxşardır. Hər iki halda cinayətkarlar planlı şəkildə həyata keçirdikləri qətliamların məsuliyyətini boynuna almayıb. Ermənistan və Fransanın siyasətində daha bir oxşarlıq qanunsuz məskunlaşma ilə bağlıdır. Belə ki, Qarabağda regionun etnik tərkibini dəyişmək üçün Ermənistan tərəfindən Yaxın Şərqdən və digər regionlardan erməni əsilli şəxslərin Azərbaycan torpaqlarına köçürüldüyü kimi, Əlcəzairdə də qanunsuz məskunlaşma siyasəti nəticəsində ölkə əhalisinin 1 milyonunu bu torpaqlarla heç bir bağlılığı olmayan avropalılar təşkil edirdi.

Fransanın daha bir ikiüzlülüyü isə Paris muzeylərində bu ölkənin müstəmləkəsi olan xalqların 21 min nümayəndəsinin kəllə sümüyünün nümayiş etdirilməsidir. Həmin sümüklərin 500-nün əlcəzairlilərə məxsus olduğu bildirilir. Bu gün Azərbaycanın azad olunmuş ərazilərində də kütləvi məzarlıqlar, skeletlər aşkarlanır. Bütün bunlar onu göstərir ki, Fransa ilə Ermənistan arasında bir çox “oxşarlıqlar” mövcuddur və onların heç biri törətdikləri cinayətlərə görə cavab verməyib. Göründüyü kimi, ikili standartlar və riyakarlıq bütün hallarda Fransanın dövlət siyasətinin əsas xəttini təşkil edir. Bu riyakarlıq isə bu gün demokratiya adı altında pərdələnir.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əlcəzairdə Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısının açılış mərasimində iştirak edib

Noyabrın 1-də Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində Fəxri qonaq statusunda iştirak edib.






Əlcəzair Prezidenti Abdelmacid Tebbun Prezident İlham Əliyevi, Zirvə toplantısında iştirak edən dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini qarşıladı.

Azərbaycan və Əlcəzair prezidentləri rəsmi foto çəkdirdilər.

Tunis Respublikasının Prezidenti Kays Sayid Zirvə toplantısını açaraq çıxış etdi, təşkilata sədrliyi Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelmacid Tebbuna təhvil verdi.

Əlcəzair Prezidenti Abdelmacid Tebbun və Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt çıxış etdilər.

Sonra söz Prezident İlham Əliyevə verildi.

Dövlətimizin başçısı Zirvə toplantısında çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Əlcəzair Prezidenti Abdelmacid Tebbun.

Hörmətli Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt.

Hörmətli dövlət və hökumət başçıları, hörmətli nümayəndə heyətlərinin rəhbərləri, xanımlar və cənablar.

İlk növbədə, mən Əlcəzair Prezidentinə və Ərəb Dövlətləri Liqasının Baş katibinə dəvətə görə dərin təşəkkürümü bildirmək istəyirəm. Bunu dostluq və qardaşlıq əlaməti hesab edirəm. Bu mötəbər Sammitdə iştirak etmək və ölkələrimiz arasında birliyi nümayiş etdirmək mənim üçün böyük şərəfdir. Əlcəzairi belə bir xüsusi gündə, Milli Azadlıq Günündə, Milli Ləyaqət Günündə ziyarət etmək məndə xüsusi məmnunluq doğurur. Mən Əlcəzair Prezidentini və hökumətini, bütün Əlcəzair xalqını Azadlıq Günü münasibətilə təbrik edirəm.

Mən bu gün şəhidlərin xatirəsini yad etdim, Şəhidlər memorialını, eləcə də Mücahidlər Muzeyini ziyarət etdim və gördüklərim mənə çox təsir etdi. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır. Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciəni anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik.

Ərəb Dövlətləri Liqası ilə Azərbaycan arasındakı münasibətlərin xüsusi xarakteri var. Bu yay mənə Baş katib cənab Əbul Qeyti Bakıda qəbul etmək şərəfi nəsib olub. Biz gələcək əməkdaşlığımızla bağlı geniş söhbət apardıq. Azərbaycan 2006-cı ildən təşkilatın müşahidəçi statusunda üzvüdür və biz əməkdaşlığımızı genişləndirmək istəyirik.

Bu gün mən Sammitdə Qoşulmama Hərəkatının sədri kimi iştirak edirəm, lakin, eyni zamanda, bizim Ərəb Dövlətləri Liqasına üzv olan dövlətlərlə çox yaxşı münasibətlərimiz var. Əminəm ki, yaxın gələcəkdə də bizim əməkdaşlığımız genişlənəcək, yeni xarakter və yeni dinamika alacaq.

Biz Ərəb Dövlətləri Liqasına üzv olan ölkələrlə ikitərəfli əməkdaşlığa da xüsusi önəm veririk. Biz aramızda olan qarşılıqlı dəstəyi və həmrəyliyi yüksək qiymətləndiririk.

Azərbaycan da Əlcəzair kimi işğaldan əziyyət çəkib. Bizim torpaqlarımız otuz il Ermənistanın işğalı altında qalmışdı. Bütün bu işğal illəri ərzində biz həmişə ərəb qardaşlarımızın dəstəyini, İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss edirdik.

Azərbaycan da öz növbəsində bütün beynəlxalq forumlarda müsəlman qardaşlarımıza öz dəstəyini əsirgəməmişdir. Biz İslam həmrəyliyinə kifayət qədər töhfə vermişik. 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmiş və Azərbaycan IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişdir. Bu idman tədbiri həmrəylik və dostluq bayramına çevrilmişdir.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq arenada mühüm rol oynayır. 120 ölkəni bir araya gətirən Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır. Azərbaycan 2019-cu ildən bu təsisatın sədridir və biz bütün üzv dövlətlərin yekdil səsi ilə seçilmişdik. Bu da bizim mövqeyimizə və siyasətimizə yüksək səviyyəli dəstəyi və rəğbəti nümayiş etdirir. Bizim sədrliyimiz bir daha yekdil qərarla 2023-cü ilin sonuna qədər uzadılmışdır. Biz bunu bir daha siyasətimizə verilən qiymətin əlaməti kimi görürük. Bizim sədrliyimiz COVID-19 dövrünə təsadüf etmişdir və biz bu məsələdə çox fəal idik. Azərbaycan koronavirusla bağlı 80-dən çox ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir. Biz Qoşulmama Hərəkatının Sammitini təşkil etdik. Biz 2020-ci ilin dekabrında keçirilmiş və sırf COVID-19 ilə mübarizəyə həsr edilmiş BMT-nin Baş Assambleyasının xüsusi sessiyasının təşəbbüskarı olduq. Bütün bu təşəbbüslərin bir ümumi məqsədi var idi - ehtiyacı olan ölkələrə dəstək vermək, resursları səfərbər etmək və peyvəndləri əldə etmək imkanı olmayan ölkələrə dəstək göstərmək.

Hörmətli həmkarlar, xatırlayırsınızsa, pandemiyanın əvvəlində peyvəndlərə çıxış ən vacib məsələlərdən biri idi. Hətta inkişaf etmiş bəzi Qərb ölkələri vaksinləri lazım olduğundan beş dəfə, on dəfə çox əldə edirdilər. Amma resursları olmayan ölkələr əziyyət çəkməyə məcbur idi. Beləliklə, Azərbaycan bu məsələdə bir daha peyvənd millətçiliyinə, peyvəndlərin ədalətsiz paylanılmasına qarşı öz səsini ucaltdı və bu, Qoşulmama Hərəkatının da bizim mövqeyimizə dəstəyini gücləndirdi. Biz gələn ilin martında Qoşulmama

Hərəkatının Sammitini keçirməyi planlaşdırırıq. Bu fürsətdən istifadə edib Ərəb Dövlətləri Liqasına üzv olan dövlət və hökumət başçılarını həmin Sammitdə iştirak etməyə dəvət edirəm.



İki il əvvəl Azərbaycan Ermənistan tərəfindən torpaqlarımızın iyirmi faizinin demək olar ki, otuz ilə yaxın davam edən işğalına son qoydu. Aparıcı beynəlxalq qurumların qətnamələrinə və qərarlarına baxmayaraq, Ermənistan bütün qərar və qətnamələrə məhəl qoymamış və Azərbaycanın ərazisinin demək olar ki, 20 faizini qanunsuz olaraq işğal altında saxlamağa davam etmişdi. İşğal zamanı bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdi. Bizim insanlarımız etnik təmizləməyə məruz qalmışdı. Ermənistan 1992-ci ildə hazırda ondan çox ölkə tərəfindən tanınan Xocalı soyqırımını törədib. BMT-nin Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir, lakin bu qətnamələr heç vaxt icra olunmamışdır.

Bu isə bizi başqa bir vacib amilə gətirib çıxarır. Bu da BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi ilə bağlıdır. Bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Amma bizə gəldikdə bu qətnamələr otuz il ərzində kağız üzərində qaldı. Bu, ikili standartdır, bu, yolverilməzdir. Bu, beynəlxalq hüququn norma və prinsiplərinə, ölkələrin öhdəliklərinə selektiv yanaşmadır. Buna görə də ədalətsizlikdən və işğaldan əziyyət çəkmiş bir ölkə kimi Azərbaycan münaqişələrə dair yanaşmaların birləşdirilməsi işinə töhfə vermək üçün aktiv şəkildə fəaliyyət göstərir. Bütün münaqişələrə eyni mövqedən yanaşmaq lazımdır. Münaqişələrə yanaşmalarda ikili standart olmamalıdır. İşğal işğal adlandırılmalıdır.

İki il əvvəl Azərbaycan, qeyd etdiyi kimi, bu münaqişəyə son qoydu. Biz bunu öz gücümüzlə etdik. Biz BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququndan istifadə etdik və ərazilərimizi güc yolu ilə azad etdik. Biz Ermənistanı məğlub etdik. Ermənistan kapitulyasiya etməyə məcbur oldu. İndi isə bizim torpaqlarımız azaddır və biz torpaqlarımıza qayıtmışıq.

Bəs qayıtdıqdan sonra biz nə gördük? On min kvadratkilometrdən çox ərazinin tamamilə məhv edildiyini gördük. Bu ərazi bəzi ölkələrin ərazisinə bərabərdir. Hər bir şey yerlə-yeksan edilmiş, dağıdılmışdır - şəhərlər, kəndlər, binalar, tarixi abidələr, hətta bizim əcdadlarımızın qəbirləri. İşğal zamanı 67 məsciddən 65-i Ermənistan tərəfindən tamamilə dağıdılmışdır. Bu isə terrorçu Ermənistan dövlətinin islamofob mahiyyətinin təzahürüdür.

İndi isə biz şəhər və kəndlərimizi bərpa edirik. Biz "Böyük Qayıdış" adlanan proqramın icrasına başlamışıq. Biz bunu öz resurslarımız hesabına edirik. Əfsuslar olsun ki, beynəlxalq donor təşkilatları bizə bu işdə yardım etmirlər. Biz özümüz bunu edirik. Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar 5 milyondan çox mina basdırmışdı. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı. 2020-ci ilin noyabr ayında müharibə bitdikdən sonra minalar səbəbindən 260-dan çox azərbaycanlı həlak olmuş, yaxud ciddi yaralanmışdır. Biz bu işləri özümüz görürük. Biz torpaqlarımızı özümüz bərpa edəcəyik və artıq proses gedir. Biz Ərəb Dövlətləri Liqasının üzv dövlətlərindən olan qardaşlarımızdan yenə həmrəylik görürük, beynəlxalq təsisatlarda dəstək görürük və buna görə çox minnətdarıq. Ərəb Dövlətləri Liqasına qardaş ölkə Azərbaycanın Prezidenti, Qoşulmama Hərəkatının Sədri olaraq mən sizi bir daha əmin etmək istəyirəm ki, biz həmrəyliyimizi, birliyimizi daha da möhkəmləndirmək üçün əlimizdən gələni edəcəyik.

Mən bu dəvətə görə Prezidentə və Baş katibə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bir daha qeyd etmək istəyirəm ki, belə bir mötəbər auditoriya önündə çıxış etmək mənim üçün böyük şərəfdir. Sizə və xalqlarınıza xoşbəxtlik, rifah və sülh arzu edirəm. Təşəkkür edirəm.

***

Sonra digər dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri çıxış etdilər.

***

Qeyd edək ki, Ərəb Dövlətləri Liqası 1945-ci il martın 22-də Misir, İraq, İordaniya, Livan, Səudiyyə Ərəbistanı, Suriya və Yəmən tərəfindən yaradılıb. Hazırda təşkilata 22 dövlət daxildir. Təşkilatın mərkəz-qərargahı Misirin paytaxtı Qahirə şəhərində yerləşir. Türkiyə təşkilatda daimi müşahidəçi statusuna malikdir.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistana səfər edib





Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Dövlət başçıları və birinci xanımlar birgə foto çəkdirdilər.

Görüşdə çıxış edən Özbəkistan Prezidenti **Şavkat Mirziyoyev** dedi:

– Hörmətli İlham Heydər oğlu, bir daha Özbəkistana xoş gəlmisiniz. Sizi Səmərqənddə görmək mənə çox xoşdur. Çox şadam ki, Siz xanımınız Mehriban Arif qızı ilə birlikdə gəlmisiniz. Ona görə ki, mən demişəm, bu, rəmzi məna daşıyır. Dediyim kimi, sabahkı Sammit rəmzi məna daşıyır, ona görə ki, bu tədbirin əsasını Naxçıvanda qoymuşuq, İlham Heydər oğlu, Sizin Vətəninizdə, atanızın Vətənində. Biz görürük ki, bu istiqamətdə çoxsaylı tarixi hadisələr baş verib. Özbəkistanda bu tarixi hadisə ilk dəfədir. Nə üçün Səmərqənddə təşkil olunması da böyük əhəmiyyət kəsb edir, ona görə ki, sabah Səmərqənddə ilk dəfə olaraq Zirvə Görüşü yeni adla keçiriləcək. Bütün bunlar hamısı qarşılıqlı surətdə əlaqəlidir. Beləliklə, xoş gəlmisiniz!

Danışıqlara başlamazdan əvvəl Sizi böyük Qələbə – 8 Noyabr günü münasibətilə təbrik etmək istəyirəm. Sizin yaxın dostlarınız kimi biz də bu Zəfəri bayram etmişik. Bu münasibətlə Sizi bir daha təbrik edirəm. 12 Noyabr – Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm, – Siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdırlar. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əlbəttə, dediyimiz kimi, bizim münasibətlər strateji əhəmiyyət daşıyır. Bir misal göstərim – bu il Sizinlə üçüncü dəfədir görüşürük. Bu, münasibətlərimizin strateji əhəmiyyətinə dəlalət edir. Siz üçüncü dəfədir ki, Özbəkistana səfər edirsiniz, buna görə Sizə çox təşəkkür edirəm. Əlaqələrimiz sistemli olub və ən başlıcası, konkret nəticələr verir. Bizim komandalar artıq bir-birini tanıyır. Biz Sizin gəlişinizə hazırlaşmışıq, çoxlu ciddi layihələr var, genişproqramlı çoxlu səfərlər olub. Artıq görüşürlər, söhbət edirlər. Hökumətlərarası Komissiyanın iclası uğurla, çox yaxşı keçib və həmkarlar Hökumətlərarası Komissiyanın sədri ilə söhbət ediblər, yaxşı plan nəzərdə tutublar.

***

Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

– Sağ olun, hörmətli Şavkat Miromonoviç.

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Yenidən Səmərqənddə olmağıma çox şadam. Azərbaycanın Vətən müharibəsində Qələbəsi münasibətilə təbrikinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz qardaş özbək xalqının, şəxsən Sizin bizə, ölkəmizə və Azərbaycanın ədaləti bərpa etməsinə münasibətinizi çox yüksək qiymətləndiririk. Biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirdik. Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə Sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaq.







Həqiqətən son vaxtlar biz çox yaxınlaşmışıq. Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən Sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra Sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm, birmənalı şəkildə qeyd etmək olar ki, Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də Sizi təbrik edirəm.



sahələrində nailiyyətlər, həmçinin ipəkçilik sahəsində iki ölkə arasında qurulmuş uğurlu əməkdaşlıq layihəsindən çıxış edərək pambıqçılıq və toxuculuq sahələrində də ölkələrimiz arasında nailiyyətlərin olduğu vurğulandı. Bundan başqa, iki ölkənin regionları arasında əməkdaşlığın təşviqi məqsədilə bu ilin sonunda regionlararası forumun keçiriləcəyi qeyd olundu. Bu Forum çərçivəsində iki ölkənin bir sıra şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması barədə anlaşmaların imzalanacağı müsbət hal kimi vurğulandı. Bu tədbirlərin Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verəcəyi ifadə edildi.

Dövlət başçıları, həmçinin iki ölkə arasında humanitar-mədəni sahədə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd edərək, mədəniyyət qruplarının intensiv qastrol səfərlərinin təşkilinin vacibliyini bildirdilər.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi məna daşıdığı vurğulandı. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə Görüşünün bu tarixi şəhərdə təşkil olunmasının önəmi qeyd edildi.

Əlbəttə, Sizin qeyd etdiyiniz mövzular gündəlikdədir. Biz Sizinlə razılaşdıq ki, qərarlarımızın yerinə yetirilməsinə nəzarət edəcəyik. Sizin qeyd etdiyiniz kimi, bütün istiqamətlər üzrə yaxşı proseslər gedir.

***

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıldı. Xüsusilə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində əldə olunmuş razılaşmaların icrası istiqamətində görülən işlərə toxunuldu, bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu.

Söhbət zamanı maşınqayırma sahəsində əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində müsbət nəticələrin olduğu bildirildi. Əczaçılıq, energetika





Noyabrın 10-da Səmərqənddəki "Əbədi şəhər" kompleksində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin folklor ifalarının təqdimatı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Görüşdə ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə əsaslanan dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, bölgədə vəziyyət və təhlükəsizlik məsələləri müzakirə edildi, Soçi görüşünün nəticələri barədə fikir mübadiləsi aparıldı.

# Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib






Noyabrın 11-də Səmərqənddə Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Prezident İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Dövlət Başçıları Şurasının iclasını açaraq qonaqları salamladı və çıxış etdi, müzakirə olunacaq məsələlərdən, Türk Dövlətləri Təşkilatının qarşısında duran vəzifələrdən və əməkdaşlığın genişləndirilməsi perspektivlərindən danışdı.

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov Səmərqənd Sammitinin türk dövlətləri arasında əlaqələrin daha da inkişafına mühüm töhfə verəcəyini vurğuladı, əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətindən danışdı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxışında Azərbaycanın Vətən müharibəsindəki Qələbəsinin ikinci ildönümü münasibətilə təbriklərini çatdıraraq dedi: "Cənubi Qafqazda sülh prosesi Can Azərbaycanın bütün səylərinə baxmayaraq, hələ də kövrək olaraq qalır. Noyabrın 8-də qeyd etdiyimiz şanlı Qarabağ

Zəfərinin ikinci ildönümündə əziz şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə cansağlığı arzulayıram. İlham qardaşımızın şəxsində Azərbaycan xalqını bir daha təbrik edirəm. Haqlı mübarizəsində olduğu kimi, sülh axtarışında da Azərbaycanın yanındayıq".

Azərbaycan ilə Türkiyənin birgə reallaşdırdığı nəhəng layihələrin dünya miqyasında mühüm əhəmiyyətini xüsusi qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan bildirdi: "Bakı-Tbilisi-Ceyhan neft boru kəməri qlobal miqyasda ən uğurlu enerji layihələri arasındadır. Cənub Qaz Dəhlizi isə Avropaya qaz nəql edəcək dördüncü arteriya olaraq layihələndirilib. Onurğa sütununu Trans-Anadolu təbii qaz boru kəmərinin təşkil etdiyi bu dəhliz əlavə qaz tədarükü ilə daha da genişləndirilə bilər. Xəzər hövzəsi bunun üçün ağla ilk gələn mənbədir. Enerji sahəsində təşkilatımızın nəzdində və ikitərəfli səviyyədə əməkdaşlıqla həyata keçirəcəyimiz ortaq layihələrə bu baxımdan böyük önəm veririk".

Dövlətimizin başçısı Zirvə Görüşündə çıxış etdi.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı




– Hörmətli Şavkat Miromonoviç.

Hörmətli dövlət və hökumət başçıları.

Xanımlar və cənablar.

Son 7 ayda üçüncü dəfə qardaş Özbəkistana səfər edirəm. Aprel ayında Özbəkistanda dövlət səfərində olmuşam, sentyabr ayında Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə Görüşündə iştirak etmişəm. Bu gün yenidən Səmərqənd şəhərində olmaqdan çox məmnunam.

Bu səfərlər zamanı Özbəkistanda gedən genişmiqyaslı quruculuq işləri ilə yaxından tanış olmaq imkanım olmuşdur. Əldə edilmiş nailiyyətlər münasibətilə qardaşım, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və qardaş özbək xalqını təbrik edirəm. Səfərlər zamanı Prezident Şavkat Mirziyoyev ilə apardığım müzakirələr onu göstərir ki, Azərbaycan-Özbəkistan əlaqələri daha da yüksək səviyyəyə qalxmışdır.

Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident Şavkat Mirziyoyevə minnətdarlığımı bildirirəm.

Qardaş Türkiyəyə bir il ərzində təşkilatımızda uğurlu sədrlik münasibətilə təşəkkür edir, qardaş Özbəkistana sədrliyi dönəmində uğurlar arzulayıram.

Hörmətli həmkarlar, Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.

Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə Görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir.

Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir və böyük iqtisadi potensiala, enerji resurslarına, nəqliyyat yollarına və müasir hərbi imkanlara malikdir.

Türk dünyası böyük bir ailədir. Bir-birimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməliyik. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq.

Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Hesab edirəm ki, Türk Dövlətləri Təşkilatının üzvləri olan ölkələrdən kənarda yaşayan soydaşlarımızın hüquqlarının, təhlükəsizliyinin, milli kimliyinin qorunması, onların assimilyasiyaya uğramaması kimi məsələləri artıq təşkilat çərçivəsində daimi əsasda diqqətdə saxlamağın vaxtı gəlib çatmışdır.

Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır. Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti bu imkanlardan məhrumdur.

Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları daim təşkilatın gündəliyində olmalıdır. Bu istiqamətdə lazımi addımlar atılmalıdır.

Azərbaycan dövləti xarici ölkələrdə yaşayan azərbaycanlıların hüquq və azadlığının, təhlükəsizliyinin təmin edilməsinə xüsusi diqqət yetirir. Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik.

Hörmətli həmkarlar, bu həftə Azərbaycan xalqı Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasının ikinci ildönümünü böyük qürur hissi ilə qeyd etdi. İki il əvvəl biz Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyduq, tarixi ədaləti və beynəlxalq hüququ bərpa etdik. Bununla Azərbaycan həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini özü icra etdi.

Otuzillik işğal bitsə də, onun ağır fəsadları hələ də qalmaqdadır. Azərbaycanın 9 şəhəri və yüzlərlə kəndi Ermənistan tərəfindən yer üzündən silinib. Vaxtilə böyük və çiçəklənən şəhər olmuş Ağdam o dərəcədə dağıdılıb ki, xarici ekspertlər onu "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan işğal zamanı 67 məsciddən 65-ni yerlə-yeksan edib, qalan 2 məscid isə ciddi zərər görüb və donuz, inək saxlanılması üçün istifadə olunub. Bu, bütün müsəlman dünyasına təhqirdir. İslamofobiya və türkofobiya Ermənistanın rəsmi ideologiyasının bünövrəsini təşkil edir.

Ermənistan işğal zamanı bizim ərazilərimizdə bir milyondan çox mina basdırıb. Vətən müharibəsindən ötən iki il ərzində 270-ə yaxın Azərbaycan vətəndaşı mina partlayışları zamanı həlak olub və ya ağır yaralanıb.

Azərbaycan işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri aparır. Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq. Bu prosesdə Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Əziz qardaşım, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşada, Füzulidə, Zəngilanda və Cəbrayılda olub.

Mən digər türk dövlətlərinin başçılarını da Qarabağa və Şərqi Zəngəzura dəvət edirəm. Fürsətdən istifadə edərək, mən işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikiləcək məktəbə və Qazaxıstan tərəfindən inşa olunacaq yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm. Bunlar Azərbaycan-özbək və Azərbaycan-qazax xalqları arasında olan qardaşlığın təzahürüdür.

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki il keçməsinə baxmayaraq, Ermənistan sərhəddə hərbi təxribatlarını davam etdirir. Son olaraq sentyabr ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın hərbi təxribatının qarşısını almaq üçün qətiyyətli əks-hücum əməliyyatına başlamağa məcbur oldu.

Ermənistan dünya ictimai rəyini çaşdırmaq üçün əsassız olaraq Azərbaycanı hərbi təcavüzdə günahlandırmağa çalışır. Bu əsassız iddiaları qəti şəkildə rədd edirik. Biz öz torpaqlarımızda vuruşmuşuq və Ermənistan ordusunu məğlub edərək onları əzəli torpaqlarımızdan qovmuşuq. Biz bu gün də Azərbaycan-Ermənistan sərhədi istiqamətində öz doğma torpaqlarımızdayıq.

Oktyabr ayında Praqada və Soçidə qəbul edilmiş birgə bəyanatlarda Azərbaycan və Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Bu, bir daha onu göstərir ki, Qarabağ münaqişəsi tarixdə qaldı.

İkinci Qarabağ müharibəsinin nəticələri bölgə üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir və dəhlizlə bağlı öz ərazisində genişmiqyaslı fəaliyyət həyata keçirir. Zəngəzur dəhlizinin açılmasından bütün region ölkələri faydalanacaq.

Əziz dostlar, biz Bağdad Amreyevin Türk Dövlətləri Təşkilatının Baş katibi kimi fəaliyyətini yüksək qiymətləndiririk. Türk dünyasının birliyinə verdiyi töhfə və xidmətləri nəzərə alınaraq, Bağdad Amreyev Azərbaycanın yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif edilmiş və oktyabr ayının 21-də bu orden mənim tərəfimdən ona təqdim edilmişdir. Bir daha təbrik edirəm.

Çıxışımın sonunda bir daha qeyd etmək istəyirəm ki, biz Özbəkistanı bu Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə görə təbrik edirik, türk dünyası xalqlarına sülh, rifah, xoşbəxtlik arzulayırıq. Sağ olun.

***

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxışında türk dövlətləri arasında informasiya texnologiyalarının, nəqliyyat və tranzit dəhlizlərinin inkişafı ilə bağlı əməkdaşlığın önəmini vurğuladı. O, bu baxımdan üç qardaş dövlətin – Qazaxıstan, Azərbaycan və Türkiyənin ərazisindən keçən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əhəmiyyətini xüsusi qeyd etdi.

Qırğızıstan Prezidenti Sadır Japarov çıxışında ölkəsinin Azərbaycanla münasibətlərinin yeni səviyyəyə yüksəldiyini vurğulayaraq bildirdi: "Son vaxtlar biz mənim əziz dostum Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevlə qarşılıqlı səfərlər edib dövlətlər arasında münasibətlərimizi yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişik".

Macarıstanın Baş naziri Viktor Orban Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında Azərbaycanın mühüm rolunu xüsusilə qeyd edərək dedi: "Mən qardaşım Prezident İlham Əliyevə minnətdarlığımı

bildirmək istəyirəm. Çünki Azərbaycan bizim üçün yeganə real şaxələndirmə şansıdır. Qardaşım İlham Əliyevə, həmçinin bizim Azərbaycan üçün "yaşıl enerji"ni Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan əməkdaşlığına gətirmək təşəbbüsümüzü tamamilə dəstəklədiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Mən bu əməkdaşlığa çox ümid bəsləyirəm".

Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev təşkilat çərçivəsində əməkdaşlıqdan danışarkən bu qurumun Azərbaycanın ərazi bütövlüyünə daim dəstək verdiyini bildirdi: "Bizim əməkdaşlığımız əhəmiyyətli dərəcədə inkişaf edib. Ölkələrimiz qardaş Azərbaycan torpaqlarının işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə Bakını möhkəm dəstəkləməklə yekdilliyimizi bütün dünyaya nümayiş etdirdi".

Təşkilatın yeni Baş katibi Kubanıçbek Ömüralıyev çıxış edərək ona göstərilən etimada görə minnətdarlığını bildirdi, üzv ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün səylə çalışacağını dedi.

Daha sonra bir sıra sənədlər, o cümlədən Səmərqənd Bəyannaməsi imzalandı.

***

Sonra mükafatlandırma mərasimi oldu.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev mərasimdə çıxış edərək Zirvə Görüşündə müzakirə olunan məsələlərin əhəmiyyətindən danışdı, çox mühüm sənədlərin imzalandığını və razılaşmaların əldə olunduğunu qeyd etdi.

Türk dövlətləri arasında dostluğun və tərəfdaşlığın möhkəmlənməsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun xüsusi xidmətlərinin olduğunu vurğulayan Prezident Şavkat Mirziyoyev onların Türk Dünyasının Ali Ordeni ilə təltif edildiklərini bildirdi.

Prezident Şavkat Mirziyoyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova Türk Dünyasının Ali Ordenini təqdim etdi.

Qeyd olundu ki, Özbəkistan Prezidentinin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatı çərçivəsində Əlişir Nəvai adına beynəlxalq mükafat təsis edilib. Həmin mükafatın ilk sahibi türk dünyasının birliyinə və inkişafına verdiyi töhfələrə görə dünyaşöhrətli qırğız yazıçı və ictimai xadim Çingiz Aytmatov olub.

Çingiz Aytmatovun ölümündən sonra layiq görüldüyü Əlişir Nəvai mükafatı Qırğızıstan Prezidenti Sadır Japarova təqdim edildi.

Prezident Sadir Japarov Əlişir Nəvai adına beynəlxalq mükafatın təsis edilməsinin türk dövlətlərinin mədəniyyət sahəsində əməkdaşlığının inkişafının göstəricisi olduğunu vurğuladı.

Türk Dünyasının Ali Ordeni ilə təltif olunmasına görə minnətdarlığını bildirən Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov türk dövlətləri arasında əməkdaşlığın bütün sahələrdə inkişafının vacibliyini qeyd etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu yüksək mükafatla təltif olunmasına görə minnətdarlığını bildirdi, son illərdə türk dövlətləri arasında əməkdaşlığın sürətlə inkişaf etdiyini vurğuladı. Çıxışında Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə həyata keçirdiyi genişmiqyaslı işlərdən söhbət açan Prezident Rəcəb Tayyib Ərdoğan dedi: "Qarabağla əlaqədar çox ciddi mübarizə aparan və bu mübarizəni hazırda infrastrukturun qurulması ilə ən yüksək səviyyədə davam etdirən qardaşım İlham Əliyevin iki ildə bu sahədə nələr bacardığını, nələri ortaya qoyduğunu görürük. Dəfələrlə həmin ərazilərdə tədbirlərə qatılmaq, həyata keçirilən işləri yerində görmək imkanım oldu. Bu işləri yerində gördükdə bir türk olaraq iftixar hissi keçirdim. Çox qısa müddətdə bu qədər nailiyyət həqiqətən bizim üçün qürur mənbəyidir".

***

Sonda xatirə şəkli çəkdirildi.







Noyabrın 11-də Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları "Yaşıl məkan" layihəsi çərçivəsində Səmərqəndin "Registan" meydanında ağac əkiblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ağacəkmə mərasimində iştirak edib.

Qeyd edək ki, mühüm tarixi hadisələrin şahidi olan möhtəşəm "Registan" meydanında ağacəkmə mərasimi türk dünyası sivilizasiyasının yeni mərhələyə qədəm qoymasını təcəssüm etdirir. Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi statusa malik ölkələrin paytaxtlarında da eyni vaxtda təşkil edilən ağacəkmə tədbirləri onlayn qaydada monitorda nümayiş olundu.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tədbirdə çıxış edərək dövlət və hökumət başçılarını qədim Turanın incisi Səmərqənddə salamlamaqdan məmnunluğunu bildirdi, bu Zirvə Görüşündə mühüm sənədlərin, o cümlədən türk dünyası sivilizasiyasında yeni mərhələnin başlanğıcı olan Səmərqənd Bəyannaməsinin imzalandığını vurğuladı.

Prezident Şavkat Mirziyoyev təşkilata üzv və müşahidəçi ölkələrdə ağacəkmə aksiyalarının keçirilməsinin qlobal problemlərdən olan ana təbiətin qorunub saxlanmasına verilən önəmin göstəricisi olduğunu dedi. Ətraf mühitin mühafizəsi ilə bağlı Azərbaycanda uzun illərdir "Yaşıl marafon" proqramı əsasında ağacəkmə aksiyalarının keçirildiyini qeyd edən Prezident Şavkat Mirziyoyev belə təşəbbüslərin təşkilata üzv və müşahidəçi ölkələrdə də davamlı reallaşdırıldığını, qardaş Türkiyədə hər il noyabrın 11-nin Milli Yaşıllaşdırma Günü olduğunu bildirdi.

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub



Noyabrın 11-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

Görüşdə Qurbanqulu Berdiməhəmmədov Vətən müharibəsində Qələbənin ikinci ildönümü münasibətilə özünün və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun təbriklərini Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev öz növbəsində Qurbanqulu Berdiməhəmmədovu Türk Dünyasının Ali Ordeni ilə təltif olunması münasibətilə təbrik etdi.

Dövlətimizin başçısı qeyd etdi ki, Türkmənistan və Azərbaycan bütün sahələrdə qardaşlıq, dostluq münasibətləri nümunəsi göstərir və bugünkü görüş də əlaqələrimizin inkişafına yaxşı təkan verəcək.

Görüşdə energetika, nəqliyyat, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu.



# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 19 il ötür.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

***

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli Liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli Liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu Öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir.











Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir. Bu və digər nailiyyətlərin əsasında Heydər Əliyevin uzaqgörən siyasəti, praqmatik strategiyası, milli dövlətçilik konsepsiyası dayanır.

Xalqımız da öz növbəsində Ulu Öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı öz xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu Öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib və bununla bağlı Tədbirlər Planı təsdiqlənib.

Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın yollarını işıqlandırmaqdadır. Ulu Öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcəkdir.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyaya işgüzar səfər edib






Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması mərasimi ilə bağlı plenar iclas keçirilib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev plenar iclasda iştirak edib.

Rumıniya Prezidenti Klaus Yohannis Prezident İlham Əliyevi, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayeni, Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini və Macarıstanın Baş naziri Viktor Orbanı qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Plenar iclası açan Rumıniya Prezidenti Klaus Yohannis qonaqları salamladı və çıxış etdi. Dördtərəfli sazişin əhəmiyyətindən danışan Rumıniya Prezidenti bildirdi ki, bu sənəd qeyd olunan ölkələr arasında bir sıra mühüm sahələrdə uzunmüddətli əməkdaşlıq üçün təməl yaradır. Həmçinin perspektivdə hələ görülməli işlərin çox olduğunu qeyd edən Rumıniya Prezidenti dedi: "Növbəti mərhələdə sualtı elektrik enerjisi xətti boyunca rəqəmsal xətti çəkməyi hədəfə alarıq. Dəniz nəqliyyat əlaqələrinin bizim Konstantadakı limanımızdan Gürcüstan istiqamətində genişlənməsi nəzərdə tutulur. Bu səylər Azərbaycanla və sonra Mərkəzi Asiya ilə bağlılığı artıracaq. Potensialımızdan yararlanmaq və dayanıqlılığı artırmaq üçün qarşıda bizi çoxlu işlər gözləyir".

Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen isə qeyd etdi ki, bu Saziş Avropa İttifaqını Cənubi Qafqazdakı tərəfdaşlarına daha da yaxınlaşdıracaq və regionlarımıza təmiz enerjiyə keçidə nail olmağa kömək edəcək. Ursula fon der Lyayen sözügedən sənəddə bərpaolunan enerjiyə geniş diqqət ayrılmasından məmnunluğunu ifadə edərək dedi: "Bərpaolunan enerji mənbələrinin artmaqda olan payını inteqrasiya etmək üçün bizə güclü elektrik enerjisi interkonnektorları lazımdır. Məhz buna görə Rumıniya, Gürcüstan və Azərbaycan arasında Qara dənizdən çəkiləcək elektrik xətti olduqca vacibdir. Mən, sadəcə, onu deyə bilərəm ki, bu, çox iddialı bir layihədir. Bu layihə bizi həm rəqəmsal kommunikasiya, həm də enerji üçün Qara dənizin hər iki tərəfindən, həmçinin Xəzər dənizi regionu ilə bağlayacaq. Bərpaolunan enerji mənbələrindən elektrik enerjisini Rumıniya və Macarıstan ərazisindən Avropa İttifaqına gətirməklə bu layihə bizə təchizatın təhlükəsizliyini gücləndirməyə kömək edəcək".

Sonra dövlətimizin başçısı iclasda çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Hörmətli həmkarlar.

Xanımlar və cənablar.

Əvvəlcə, məni bu cür mühüm tədbirə dəvət etdiyinə və ev sahibliyinə görə Prezident Yohannisə təşəkkürümü bildirmək istəyirəm. Bu gün imzalanacaq yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişin icrası Avropanın enerji təhlükəsizliyinə verəcəyimiz ümumi töhfə olacaqdır. Bu Saziş yaşıl enerji dəhlizinin yaradılması istiqamətində atılan mühüm addımdır.

Mən Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenə enerji təhlükəsizliyi və şaxələndirilməsi layihələrində Azərbaycana verdiyi davamlı dəstəyinə görə xüsusi minnətdarlığımı vurğulamaq istərdim.




Bu ilin iyulunda xanım Fon der Lyayenin Azərbaycana səfəri zamanı biz Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladıq və biz həmin sənədin icrasına artıq başlamışıq. Ötən il Azərbaycanın Avropa İttifaqı bazarına təbii qaz ixracı 8,2 milyard kubmetr təşkil etmişdir, bu il 11,3 milyard kubmetrdir. Növbəti il onun həcmi ən azı 11,6 milyard kubmetr olacaq. Gələn il Azərbaycandan ixrac ediləcək təbii qazın ümumi həcmi təxminən 24 milyard kubmetr olacaq. Müqayisə üçün, 2021-ci ildə o, 19 milyard kubmetr təşkil edirdi.

Dünən Dövlət Neft Şirkəti və Romqaz 2023-cü il yanvarın 1-dən Azərbaycandan Rumıniyaya qazın təchizatı barədə müqavilə imzaladılar. Beləliklə, Azərbaycan özünün qaz təchizatının coğrafiyasını Avropa bazarına qədər genişləndirir. Bu, hamı üçün uduşlu vəziyyətdir, çünki Avropaya öz enerji təhlükəsizliyinin qorunması üçün qaz lazımdır, Azərbaycanın isə özünün nəhəng enerji resursları üçün etibarlı bazara ehtiyacı var.

Bu gün biz Avropaya digər enerji körpüsünü salmağa başlayırıq. Ölkəmiz Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmizin strateji investorlarının biri ilə biz 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırırıq. Onların 80 faizi ixrac olunacaq. Biz 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı planlaşdırırıq.

Beləliklə, yalnız təkcə bir qlobal enerji şirkəti Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır. İki gün əvvəl Azərbaycanın Energetika Nazirliyi digər qlobal enerji şirkəti ilə çərçivə sazişini imzalayıb. Həmin şirkət Azərbaycanda 12 qiqavata qədər külək və günəş enerjisinin istehsalına sərmayə qoymağı planlaşdırır. Beləliklə, Azərbaycan ixracının birinci mərhələsində ən azı 3 qiqavatlıq əlavə ötürmə gücü yaradılacaqdır.





Məqsədlərimizə nail olmaq üçün biz səmərəli surətdə çalışmalıyıq. Azərbaycan, Gürcüstan, Macarıstan, Rumıniya Avropa İttifaqı ilə sıx əməkdaşlıq və əlaqələndirmə şəraitində bir komanda kimi işləməlidirlər. Mən hamımıza uğurlar arzulayıram.

Sağ olun.

***

Rumıniya Prezidenti Klaus Yohannis dedi: "Çıxışınız üçün çox sağ olun, Prezident Əliyev. Eyni zamanda, yanaşmanız üçün də təşəkkür edirəm. Hesab edirəm ki, bu, düzgün yanaşmadır. Mən çox nikbinəm ki, bu dəfə iqtisadiyyatlarımızın yaşıl iqtisadiyyata keçid etməsini bizə söyləmək imkanını verən belə bir komandamız var".

Sonra çıxış edən Macarıstanın Baş naziri Viktor Orban hazırkı şəraitdə liderlərin ölkələrinin iqtisadi və enerji təhlükəsizliyini təmin etməli olduqlarını vurğuladı. Hökumət başçısı bütün bunların həll yolunun bərpaolunan enerji mənbələrinin müəyyənləşdirilməsindən və onların Avropaya nəqlindən ibarət olduğunu vurğulayaraq dedi: "Avropa Komissiyasının müdrikliyinə görə biz Azərbaycana çox diqqət yetirdik, onunla əməkdaşlığımızı inkişaf etdirdik. Azərbaycanın və Prezident Əliyevin Avropa İttifaqı ilə əməkdaşlığa həmişə açıq olması təqdirəlayiqdir. Mən özüm də bir il ərzində Avropa İttifaqının həmişə Azərbaycana etibarlı tərəfdaş kimi etibar edə biləcəyinin şahidi olmuşam.

Bu gün enerji sahəsində Macarıstan adından bu sazişi imzalaya bildiyimiz üçün biz Azərbaycandakı, Gürcüstandakı və Rumıniyadakı dostlarımıza, həmçinin Avropa Komissiyasının Prezidentinə minnətdarıq".

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili hazırkı geosiyasi çağırışlar fonunda enerji təhlükəsizliyi sahəsindəki aktual məsələlərin həlli baxımından şaxələndirmənin vacibliyinə diqqət çəkdi. Baş nazir vurğuladı ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Sazişi imzalamaqla ölkələrimiz yaşıl enerji sahəsində sıx əməkdaşlıq etməyə hazır olduqlarını təsdiqlədi.

Rumıniyanın Baş naziri Nikolae Çuke dünyada baş verən hazırkı böhran şəraitində həmrəylik nümayiş etdirməyin və ehtiyatları bir araya gətirməyin vacibliyini qeyd etdi. Baş nazir strateji tərəfdaşlıq haqqında Sazişi enerji sahəsində uzunmüddətli qarşılıqlı əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm addım kimi dəyərləndirərək dedi: "Mən 2023-cü ilin əvvəlindən başlayaraq Azərbaycan qazının Rumıniyaya çatdırılması ilə bağlı razılığa gəlinməsi istiqamətində irəliləyişi alqışlamaq istəyirəm. Bu, çox gözəl xəbərdir, çünki Rumıniyanın enerji təhlükəsizliyi baxımından əlavə bir müdafiəsi olacaqdır. Bir tərəfdən Azərbaycan Respublikası və Gürcüstan Respublikası arasında, digər tərəfdən isə Avropa arasında yaşıl enerji ticarətinin inkişafını nəzərə alaraq, bərpaolunan enerjinin generasiyası üzrə mövcud potensialdan faydalanmaq bu gün heç vaxt olmadığı qədər mühüm əhəmiyyət kəsb edir".

Çıxışlardan sonra yekun iclas keçirildi.

# Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerji sahəsində strateji tərəfdaşlığa dair Saziş imzalanıb





Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb.

Sazişi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rumıniyanın Baş naziri Nikolae Çuke, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Macarıstanın Baş naziri Viktor Orban imzalayıblar.

İmzalanma mərasimində Rumıniya Prezidenti Klaus Yohannis və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen iştirak ediblər.

# Azərbaycan Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub



Dekabrın 17-də Buxarestdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rumıniya Prezidenti Klaus Yohannis ilə görüşü olub.

Görüşdə iki ölkə arasında strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd edildi, yüksəksəviyyəli qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyəti vurğulandı. Hər iki ölkənin müvafiq qurumları arasında sıx əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Söhbət zamanı "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasının əhəmiyyəti qeyd olundu, bu tədbirin Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyi bildirildi. Xüsusilə Avropanın enerji təminatının yaşıl enerji mənbələri hesabına həyata keçirilməsinin əhəmiyyəti vurğulandı və bu işə Azərbaycanın mühüm töhfəsi qeyd olundu.

Görüşdə ikitərəfli münasibətlərlə bağlı da fikir mübadiləsi aparıldı. Yunanıstan-Bolqarıstan İnterkonnektoru işə salındıqdan sonra Azərbaycan qazının qısa müddət ərzində Rumıniyaya nəql edilməsi barədə razılığa gəlindiyi bildirildi və 2023-cü ilin yanvarında bu işə başlanılacağı ifadə edildi. Həmçinin SOCAR-ın Rumıniyada uzun illər uğurla fəaliyyət göstərdiyi vurğulandı, bu fəaliyyətin genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi.

Söhbət əsnasında Azərbaycan-Gürcüstan-Rumıniya marşrutu ilə nəqliyyat-kommunikasiya imkanlarının, yükdaşımaların həcminin artırılmasının mümkünlüyü barədə də fikir mübadiləsi aparıldı. Bunun, eyni zamanda, Xəzər dənizi hövzəsi ilə Qara dəniz hövzəsi ölkələri arasında iqtisadi əməkdaşlıq işinə töhfə verəcəyi qeyd edildi. Bu proseslərin öz növbəsində Mərkəzi Asiya ilə Avropa arasında tranzit əlaqələrinin gücləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.

Eyni zamanda, Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunuldu, bu əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu. Həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqların uğurla davam etdirildiyi bildirildi.



Söhbət zamanı əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər

Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şabran rayonunda "Şabran" İstirahət Kompleksinin açılışında iştirak ediblər.

Dövlətimizin başçısı, birinci xanım və ailə üzvləri kompleksdə yaradılan şəraitlə tanış oldular.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Şabran rayonunun Pirəbədil kəndində yerləşən kompleks paytaxt Bakıdan 147 kilometrlik məsafədədir. Kompleksin ərazisində 12,6 hektar sahədə inşa olunan otel müxtəlif kateqoriyalı 119 nömrədən, birmərtəbəli 10, ikimərtəbəli 20 kottecdən ibarətdir.

Kompleks Azərbaycanda Hindistanın qədim təbabət sistemi – Ayurveda ilə müalicə metodlarını tətbiq edən ilk istirahət mərkəzidir. Burada peşəkar Pançakarma (toksinlərdən azadolma) mütəxəssisləri tərəfindən Hindistan ənənələri əsasında xüsusi orijinal terapiya metodları təklif edilir.

"Ayurveda Spa" mərkəzində gözəllik salonu, 6 prosedur otağı, fin saunası, buxar otağı, istirahət zonası və qapalı hovuz vardır. Burada, həmçinin fitnes və yoqa ilə məşğul olmaq üçün hər bir şərait yaradılıb. Mərkəzdə şəfalı Pançakarma prosedurları, Pranayama seansları, yoqa və həyat tərzi üzrə təlimlər təşkil olunacaq.











Eyni zamanda, kompleksdə “Rübai”, “Ahəng”, “Ocaq” restoranları, “Misra Lobby Lounge”, “Badə Lounge Bar”, “Aura Cafe”, müxtəlif əyləncə və oyun otaqları fəaliyyət göstərəcək.

Oteldə işgüzar görüşlər, konfranslar və xüsusi tədbirlər üçün 180 nəfərlik “Bayatı” və “Şiraz” konfrans zalları yaradılıb. Həm də yaradıcılıq mərkəzi kimi xidmət göstərəcək kompleksdə bəstəkarlar, yazıçılar və rəssamlar üçün kotteclər də nəzərdə tutulub.

Qeyd edək ki, Şabran rayonu turizm marşrutları üzrə mühüm istiqamətlərdən biri olmaq potensialına malikdir. Odur ki, artan tələbata uyğun olaraq rayon ərazisində infrastrukturun formalaşdırılması əsas vəzifələrdən biridir. Prezident İlham Əliyevin istifadəyə verilən yeni istirahət kompleksi ilə tanış olması dövlətimizin bu məsələyə həssas münasibətini nümayiş etdirir.

Beləliklə, bu kompleksin istifadəyə verilməsi bölgələrdə turizm infrastrukturunun və xidmət səviyyəsinin yaxşılaşdırılması baxımından növbəti mühüm addımdır.





# Azərbaycan Respublikası Baş Prokurorluğunda Xarici İşlər Nazirliyi ilə birgə brifinq keçirilmişdir






Oktyabrın 6-da Baş Prokurorluqda erməni silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən 1988-ci ildən bugünədək Azərbaycana qarşı törədilmiş cinayətlərə dair Xarici İşlər Nazirliyi ilə birgə brifinq keçirilmişdir.

Brifinqdə 60-a yaxın ölkənin səfirləri, diplomatik korpusun digər əməkdaşları, ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların nümayəndələri, eyni zamanda yerli və xarici media təmsilçiləri iştirak etmişlər.









Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev brifinqdə çıxış edərək 1980-ci illərin sonlarından Sovet İttifaqı rəhbərliyində təmsil olunan ermənilərin, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporunun Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları, etnik zəmində təxribatları və terror əməlləri ilə başlamış münaqişənin ölkəmizə qarşı hərbi təcavüzlə nəticələndiyini, 1988-ci ilə qədər Ermənistan ərazisində kompakt şəkildə yaşayan 250 mindən çox azərbaycanlının öz tarixi torpaqlarından qəddarlıqla deportasiya edildiyini, həmçinin bir milyona yaxın soydaşımızın məcburi köçkün vəziyyətinə düşdüyünü diqqətə çatdırmışdır.

Bildirilmişdir ki, 1988-1994-cü illəri əhatə edən müharibə zamanı ölkəmizin suverenliyinə qarşı təcavüzkar siyasət konkret cinayətlərin törədilməsi ilə müşayiət olunmaqla Ermənistan silahlı qüvvələri hərbi və mülki şəxslər arasında heç bir fərq qoymadan işğal etdikləri rayon və şəhərlərdə dinc azərbaycanlı əhalini amansızlıqla qətlə yetirmiş, Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə iştirakı ilə Xocalı şəhərində, Kəlbəcərin Ağdaban kəndində, Əsgəranın Meşəli kəndində, Şuşanın Malıbəyli və Quşçular kəndlərində, Xocavəndin Qaradağlı kəndində və digər yerlərdə dinc əhali amansız şəkildə sistematik etnik təmizləməyə və soyqırımına məruz qalmışlar.

İşğal zamanı yüzlərlə yaşayış məntəqəsi, tarixi, dini, mədəni abidələr talan edilməklə urbisidə yol verilmiş, çoxsaylı ekoloji cinayətlər (ekosid) törədilmiş, minlərlə meşə fondu torpaqları məhv edilmiş, qanunsuz sahibkarlıq fəaliyyətləri həyata keçirilmişdir.

Qeyd edilmişdir ki, Vətən müharibəsi dövründə də beynəlxalq konvensiyaların tələblərini pozan erməni birləşmələri Gəncə, Bərdə, Tərtər, Goranboy, Naftalan, Mingəçevir və digər rayonları mərmi və raketlərlə atəşə tutaraq 10-u uşaq, 28-i qadın olmaqla 93 dinc sakinin öldürülməsi, 454 mülki şəxsin yaralanmasına, minlərlə evin dağıdılaraq mülki təyinatlı obyektlərə ziyan vurulmasına səbəb olan müharibə cinayətlərini törətmişlər.

Bununla yanaşı, hərbi təcavüzün davamı olaraq müharibədən sonra işğaldan azad edilmiş ərazilərdə minaya düşmələri nəticəsində 44 şəxsin həlak olduğu,



213 şəxsin isə müxtəlif dərəcəli bədən xəsarətləri aldığı bildirilmişdir.

Baş Prokurorluq tərəfindən hər iki Qarabağ müharibəsi zamanı erməni silahlı qüvvələri tərəfindən yol verilmiş hər bir cinayət faktı üzrə cinayət işləri başlanmaqla təqsirli şəxslərin müəyyən edilərək beynəlxalq məhkəmələrdə məsuliyyətə cəlb edilməsi istiqamətində işlərin davam etdirildiyi diqqətə çatdırılmışdır.

Bununla yanaşı, Azərbaycan Ordusunun əsgər və zabitlərinin torpaqlarımızın işğaldan azad edilməsi zamanı göstərdikləri rəşadət və əzmə, eləcə də əldə olunmuş qələbəyə kölgə sala biləcək bəzi hərbi qulluqçuların döyüş əməliyyatları zamanı həlak olmuş erməni hərbçilərinin meyitləri üzərində təhqiredici hərəkətlər etmələrini, habelə əsir götürülmüş erməni hərbçiləri ilə qeyri-insani rəftarını əks etdirən videogörüntülərlə əlaqədar müvafiq istintaq hərəkətləri aparılmaqla təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi bildirilmişdir.

Baş prokuror Ermənistan Silahlı Qüvvələri tərəfindən dinc yaşayış məntəqələrinin raket atəşinə tutulması, eləcə də erməni hərbi qulluqçularının döyüş əməliyyatları zamanı həlak olmuş azərbaycanlı hərbçilərin meyitləri üzərində təhqiredici hərəkətlər etmələri, habelə əsir götürülmüş azərbaycanlı hərbçilərlə qeyri-insani rəftarı əks etdirən videogörüntülərlə bağlı Ermənistanın hüquq-mühafizə orqanları, o cümlədən Baş Prokurorluğu tərəfindən hər hansı araşdırma aparılmamaqla tədbir görülmədiyini diqqətə çatdırmışdır.

Brifinqdə Ermənistan hüquq mühafizə orqanlarının da analoji addımlar atmaqla beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan vətəndaşlarına qarşı törədilmiş cinayətlərlə bağlı ciddi hüquqi təsir tədbirləri görməyə, açıq və ədalətli araşdırma aparmağa və ictimaiyyəti məlumatlandırmağa çağırılmışdır.

Birifinqdə çıxış edən Xarici İşlər Nazirinin müavini Elnur Məmmədov Ermənistan silahlı qüvvələri tərəfindən hələ birinci Qarabağ müharibəsindən etibarən nəinki azərbaycanlı hərbçilərə, eləcə də mülki şəxslərə qarşı misli görünməmiş qırğınlar törədildiyi, bu günədək 4000-ə yaxın azərbaycanlının taleyi barədə heç bir məlumat verilmədiyi bildirilməklə Ermənistanın səbəbkarı olduğu mina təhlükəsinin bu gün də bölgədə insanların həyatına ciddi hədə olduğunu tədbir iştirakçılarının nəzərinə çatdırmışdır.

Bildirilmişdir ki, Azərbaycan ərazilərində aşkarlanan minaların 2021-ci ildə Ermənistanda istehsal olunması faktı Ermənistanın bir tərəfdən mina xəritələrini hələ də tam olaraq Azərbaycana verməyərək, digər tərəfdən yeni minalar basdırmaqla Azərbaycanlılara qarşı hərbi cinayətlərini davam etdirməklə yanaşı Ermənistan hökuməti tərəfindən törədilən hərbi cinayətlərin qarşısının alınması və ya törədilmiş cinayətlərə görə aidiyyəti şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində bugünədək heç bir əməli tədbir görülməmişdir.

Nazir müavini E.Məmmədov, xarici dövlətlərin diplomatik nümayəndələrinə, Ermənistanın 30 il ərzində Azərbaycana qarşı törətdiyi çoxsaylı hərbi cinayətlərə məsul olan şəxslərin qanun qarşısında cavab verməsini təmin etməsi üçün çağırışların edilməsi müraciətini səsləndirmişdir.

Tədbirdə erməni silahlı birləşmələri tərəfindən törədilmiş cinayətlərə dair geniş təqdimat keçirilməklə 1988-1994-cü illərdə azərbaycanlı mülki əhalinin hədəf alınmaqla törədilən 38 terror hücumu ilə 1105 nəfərin həlak olması, 1180-dən çox adamın yaralanması, hərbi təcavüz nəticəsində 3890 nəfərin itkin düşməsi, Fərrux, Daşaltı və Edillidə aşkar edilmiş əlləri və ayaqları bağlı vəziyyətdə güllələnmiş şəxslərə məxsus kütləvi məzarlıqlar və digər çoxsaylı cinayət faktlarına dair ətraflı məlumat verilmişdir.

Brifinqin yekununda media nümayəndələrinin sualları cavablandırılmışdır.

# Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) rəsmi nümayəndələrini qəbul edib










Oktyabrın 7-də Baş prokuror Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) "Beynəlxalq Ticarət Əməliyyatlarında Rüşvətxorluq" İşçi qrupunun sədri Draqo Kos və OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin (ACN) meneceri Olqa Savranla görüşüb.

Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, tapşırıq və tövsiyələri ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər barədə məlumat verərək, aparılmış hüquqi və institusional islahatlar, milli antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, yeni dövrün tələblərinə uyğun olaraq bu sahədə mühüm strateji sənəd olan "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın effektiv icra vəziyyəti, eləcə də qarşıda duran digər məsələlərə toxunub.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən qonaqlar Azərbaycanda həyata keçirilən antikorrupsiya islahatlarına dair müsbət fikirlərini bölüşmüşlər. Ölkəmizin OECD tərəfindən 5-ci raund çərçivəsində qiymətləndirilməsi prosesi, korrupsiyaya qarşı mübarizədə yeni çağırışlar və digər hüquqi məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb.

# Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İstanbul şəhərində işgüzar səfərdə olmuşdur

Nümayəndə heyəti tərəfindən İstanbulda Ulu öndər Heydər Əliyevin adına park ziyarət edilib, abidəsi önünə əklil qoyularaq Ümumilli liderin xatirəsi ehtiramla yad edilib.

Səfər çərçivəsində İstanbul şəhər Baş prokuroru Şaban Yılmazla ikitərəfli görüş keçirilib.

Kamran Əliyev hər iki ölkənin dövlət başçısı cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ədoğanın sarsılmaz səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulayıb. Baş prokuror Türkiyənin Bartın vilayətindəki kömür mədənində çoxsaylı insan tələfatı ilə nəticələnən partlayışla bağlı həmkarına başsağlığını ifadə edib.

Ölkəmizin nümayəndə heyətini salamlayan İstanbul şəhər Baş prokuroru tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə olduğu kimi, qardaş ölkələrimizin prokurorluq orqanları arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlığını ifadə edərək, Şaban Yılmazın rəhbərliyi ilə nümayəndə heyətinin 2021-ci ilin noyabr ayında ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına mühüm töhfə verdiyini qeyd edib.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, ikitərəfli qarşılıqlı fəaliyyətin səmərəliliyindən danışılıb, Türk Dövlətləri Təşkilatının Baş Prokurorluları Şurası çərçivəsində əməkdaşlığın uğurla aparıldığı vurluğulanıb. İki ölkənin prokurorluq orqanları arasında ənənəvi münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilib.

# Baş Prokurorluqda “Zəfər Günü” münasibətilə tədbir keçirilmişdir



Ölkəmizin ərazi bütövlüyünün bərpasının, əzəli və əbədi torpaqlarımızın azadlığının təcəssümü olan milli bayram – Zəfər Günü münasibətilə noyabrın 5-də Baş Prokurorluqda tədbir keçirilmişdir.

İlk öncə Baş Prokurorluğun rəhbər heyəti xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq dahi şəxsiyyətin unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Tədbirdə vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş hərbçilərin və mülki vətəndaşların əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Baş prokuror Kamran Əliyev prokurorluq orqanları əməkdaşlarını və xalqımızı bayram münasibətilə təbrik etmişdir.

Zəfər Gününün ikinci ildönümünün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qəhrəmanlığı sayəsində Qarabağımıza qovuşduğumuz və uzun illər davam edən münaqişəyə ölkəmizin möhtəşəm Qələbəsi ilə nida qoyduğu, müasir tariximizdə ən əlamətdar və tarixi bir hadisə olaraq ölkəmizin hər bir diyarında üçrəngli bayrağımızın dalğalanması sevinci və təntənəsi ilə qeyd edildiyi bildirilmişdir.

Kamran Əliyev qeyd etmişdir ki, xalqımızın, dövlətimizin qazandığı Zəfərin təməli ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik konsepsiyası və ordu quruculuğunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən inamla reallaşdırılması olmuşdur.

Ölkə Başçısının həyata keçirdiyi köklü islahatların və kompleks tədbirlərin nəticəsi olaraq Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirildiyi, arsenalının ən müasir silah-sursat və hərbi texnika ilə zənginləşdirildiyi, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir Azərbaycan Silahlı Qüvvələrinin formalaşdırıldığı diqqətə çatdırılmışdır.

Bununla yanaşı, həyata keçirilən uğurlu xarici siyasətin və görülən böyük işlərin nəticəsində bütün mö-







təbər beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın Azərbaycanın 20 faiz ərazisini, beynəlxalq səviyyədə tanınmış tarixi torpaqlarını işğal altında saxlamasının təsbit edildiyi qeyd edilmişdir.

Xüsusi vurğulanmışdır ki, həm ordu quruculuğu, həm də balanslaşdırılmış effektiv xarici siyasət Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun düşmən üzərində parlaq qələbəsini təmin etmiş, siyasi-diplomatik yolla Ağdam, Laçın və Kəlbəcər rayonları bir güllə belə atılmadan azad edilərək ölkəmizin ərazi bütövlüyü bərpa olunmuş, Zəfərimiz ölkəmizin regional liderliyini birmənalı təsbit etməklə yeni geosiyasi reallıqlar yaratmışdır.

Baş prokuror azad edilmiş bölgələrdə gerçəkləşən və bütün dünyanı heyrətləndirən quruculuq və bərpa işlərinin əbədi azadlığına qovuşmuş Qarabağ və Şərqi Zəngəzura “Böyük Qayıdış”ın yüksək səviyyədə icrasına rəvac verdiyini bildirməklə ölkə başçısı cənab İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə həyata keçirilən nəhəng infrastruktur layihələrinin, strateji infrastruktur obyektlərinin açılışının, “ağıllı kənd” layihələrinin icrasının əzəli torpaqlarımızın dirçəldilməsinin təminatı olmaqla ölkəmizin gələcək onilliklər üçün dinamik tərəqqisini şərtləndirən strateji inkişaf konsepsiyasına müstəsna töhfə olduğunu diqqətə çatdırmışdır.

Tədbirdə hərbi-siyasi qələbəmizlə başa çatan Vətən müharibəsi zamanı xalqımızla, dövlətimizlə bir cəbhədə dayanan prokurorluq orqanlarının üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirdiyi, xüsusən döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün olan bütün istintaq-əməliyyat tədbirlərini uğurla icra etdikləri qeyd edilmişdir.

Kamran Əliyev bildirmişdir ki, hazırda işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən prokurorluqlarda hüquq qaydasının möhkəmləndirilməsi, prokuror təsir tədbirlərindən istifadə etməklə aidiyyəti dövlət qurumları ilə birlikdə aparılan quruculuq işlərinə səlahiyyətləri daxilində dəstək göstərilməsi istiqamətində prokurorluq əməkdaşlarının xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi məqsədilə yüksək şərait yaradılmış, növbətçilik əsasında fəaliyyət göstərilməsi üçün ayrılmış inzibati binalarda müasir maddi-texniki təchizat təmin edilmişdir.

Bununla yanaşı, prokurorluq orqanları tərəfindən Ermənistan Silahlı Qüvvələrinin törətdikləri müharibə cinayətləri, sülh və insanlıq əleyhinə cinayətlərə görə təqsirli şəxslərin müəyyən edilərək beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilmələri, həmçinin işğal nəticəsində ölkəmizə vurulmuş maddi ziyanın hesablanması istiqamətində müvafiq işlərin davam etdirildiyi qeyd edilmişdir.

Sonda 44 günlük Vətən Müharibəsinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

# Baş Prokurorluqda Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüş keçirilmişdir





Noyabrın 16-da Baş prokuror Kamran Əliyev Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırovla görüşmüşdür.

Rəyasət Heyətinin sədrini və üzvlərini səmimi salamlayan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər barədə məlumat vermişdir.

Kamran Əliyev hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsinin dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edildiyini vurğulayaraq qanunvericilik və institusional islahatlarla ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində effektiv müdafiə mexanizmlərinin formalaşdırıldığını, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsinin mühüm əhəmiyyətini qeyd etmişdir.

Qəbula görə minnətdarlığını bildirən Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov cinayət mühakimə icraatında ittihamı və müdafiəni həyata keçirən təsisatlar olaraq cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi istiqamətində, habelə hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları ilə səmərəli və işgüzar münasibətlərin vacibliyini bildirmişdir.

Görüş zamanı cinayət prosesinin həyata keçirilməsi zamanı meydana çıxan aktual məsələlər üzrə fikir mübadiləsi aparılmışdır.

# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclası keçirilmişdir



24 noyabr 2022-ci ildə Baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçən iclasda ölkəmizin müvafiq dövlət orqanlarının nümayəndələri ilə yanaşı, ölkəmizin aparıcı ali təhsil müəssisələri, akademiyaları, elm ocaqlarını təmsil edən görkəmi hüquqşünaslar və media nümayəndələri iştirak etmişlər.





Elmi-Məsləhət Şurasının iclasını açan Baş prokuror əvvəlki iclasdan keçən dövr ərzində ölkəmizin ictimai-siyasi həyatında, hüquqi dövlət quruculuğunda baş vermiş əhəmiyyətli hadisələr haqqında məlumat vermişdir. Bildirilmişdir ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərin bərpası, mühüm infrastruktur obyektlərinin istifadəyə verilməsi istiqamətində mühüm layihələr icra edilmiş, Zəngilan rayonu Ağalı qəsəbəsinə vətəndaşlarımızın köçməsi ilə Qarabağa böyük qayıdışın təməli qoyulmuş, Şərqi Zəngəzurun iqtisadi potensialını əhəmiyyətli dərəcədə artıracaq Zəngilan beynəlxalq hava limanının təntənəli açılışı olmuş, birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı və dəstəyi








ilə təhsil, sosial, incəsənət və digər sahələri əhatə edən irimiqyaslı tədbirlər həyata keçirilmişdir. Keçən müddət ərzində ölkəmizin hüquq ictimaiyyəti və hüquq sistemimizin inkişafı baxımından mühüm hadisə kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 may 2022-ci il tarixli fərmanı ilə "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxsinin təsis edilməsi xüsusi qeyd edilmişdir.

Daha sonra sədr Kamran Əliyev tərəfindən Şura üzvlüyünə yeni qəbul edilmiş qeyd edilən PHŞ-in icraçı direktoru Samir Mahmudov və Vəkillər Kollegiyasının nümayəndəsi, Mediasiya Şurasının Etika Komitəsinin sədri, 20 saylı Vəkil bürosunun rəhbəri İlhamə Həsənova təqdim edilmişdir. İclasa dəvət edilmiş Konstitusiya Məhkəməsinin hakimi Ceyhun Qaracayev tərəfindən "Hüquq mühafizə orqanlarının fəaliyyətində Avropa Şurasının İşgəncə, Qeyri-İnsani və Ləyaqəti Alçaldan Rəftarın Qarşısının Alınmasına dair Komitəsinin (CPT) standartları" mövzusunda təqdimat keçirilmişdir. Tədbirdə "Prokurorluq orqanlarında peşə hazırlığı metodik vəsait", "Jurnalistlər üçün hüquqi terminlər lüğəti", "Media üçün 555 sual və cavab", "Dövlət qurumlarının Mətbuat xidmətlərinin media ilə qarşılıqlı əlaqələri üzrə metodiki tövsiyə", "Kibercinayətlərin istintaqına dair metodik vəsait", "Maraqlar toqquşması" adlı vəsaitlər ictimaiyyətə təqdim edilmiş, eyni zamanda, Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin veb-saytının təqdimatı keçirilmişdir. Həmçinin, iclasda hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr arasında Baş Prokurorluqda keçirilmiş "Hüquq viktorinası" adlı müsabiqənin qaliblərinə sertifikatlar təqdim olunmuşdur. İclasın yekun mərhələsində gündəlikdə duran məsələlər, o cümlədən müxtəlif hüquqi məsələləri özündə ehtiva edən mövzular üzrə Elmi-Məsləhət Şurasının üzvləri tərəfindən geniş müzakirələr aparılmışdır.





# Baş prokuror Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri ilə görüşüb









Noyabrın 29-da Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində həyata keçirilən "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Twinning" layihəsi çərçivəsində rəhbər komitənin növbəti iclasında iştirak etmək məqsədilə ölkəmizdə işgüzar səfərdə olan Litvanın Xüsusi İstintaq Xidmətinin rəhbəri Jidrunas Bartkusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qonaqları səmimi salamlayan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələri ilə hüquqi müstəvidə, o cümlədən aktivlərin bərpası sahəsində həyata keçirilən institusional və qanunvericilik islahatlarının davam etdirildiyini vurğulayaraq, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və maliyyə istintaqının yaradılması ilə bağlı baxılmaqda olan qanun layihələrinə dair ətraflı məlumat verib.

Görüşdə həmçinin cinayət yolu ilə əldə olunmuş əmlakın müəyyən edilərək izlənilməsi, üzərinə həbs qoyulması, müsadirəsi və sonrakı idarəolunması ilə bağlı görülən işlərin miqyasının genişləndirilməsi və təkmilləşdirilməsi istiqamətində Azərbaycan Prokurorluğununun benefisiarı olduğu tvinninq layihəsinin mühüm əhəmiyyəti olduğunu bildirilib, bu sahədə beynəlxalq əməkdaşlığın zəruriliyi qeyd edilib.

Kamran Əliyev Azərbaycan Prokurorluğunun beynəlxalq və regional təşkilatlarla, həmçinin digər ölkələrin prokurorluq və anti-korrupsiya qurumları ilə səmərəli əməkdaşlığın davam etdirilməsi və həmin qurumlar arasında Avropa İttifaqının institutlarının xüsusi yer tutmasını xüsusi vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən Jidrunas Bartkus layihənin icrasına start verildikdən sonra görülən işlər barədə məlumat verməklə, əmlakların bərpası sahəsində ölkəmizin qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən hazırlanmış qanun layihələrinin işin səmərəliliyinin artırılmasında mühüm rolu olacağını vurğulayıb.

Qarşılıqlı maraq doğuran digər mövzular müzakirə olunaraq, Azərbaycanla Litvanın hüquq mühafizə orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edildi.

# Rusiya Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olmuşdur

12 yanvar 2021-ci il tarixdə Moskva şəhərində Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında imzalanmış 2021-2023-cü illər üçün Əməkdaşlıq Proqramından irəli gələn müddəaların icrası məqsədilə Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlmişdir.

Proqram çərçivəsində korrupsiya cinayətlərinin qarşısının alınması, korrupsiya yolu ilə əldə edilmiş aktivlərin aşkar edilməsi, onların olduğu yerin müəyyən edilməsi mövzusunda dəyirmi masanın və qanunsuz aktivlərin xaricə çıxarılmasının qarşının alınması və digər aktual mövzularda mühazirələr keçirilmişdir.

Noyabrın 30-da Baş prokuror Kamran Əliyev nümayəndə heyətini qəbul edib. Qonaqları salamlayan Baş prokuror ölkələrimiz arasında hərtərəfli, o cümlədən hüquqi sahədə əlaqələrin yüksək səviyyədə olmasını məmnunluqla ifadə edərək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin korrupsiya ilə mübarizə sahəsində qəti siyasi iradəsi nəticəsində aparılmış islahatların əhəmiyyətini vurğulayıb. Səfər zamanı keçiriləcək tədbirlərin həm praktiki həm də nəzəri sahədə prokurorluq əməkdaşlarının inkişafına müsbət təsir göstərəcəyini bildirib.

Rusiya Baş Prokurorluğunun nümayəndələri yüksək qonaqpərvərliyə və səmimi qəbula görə minnətdarlıqlarını ifadə edərək səfərin ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün faydalı olacağını qeyd ediblər.










# Baş Prokurorluqda "İnsan hüquqlarının əsas təminatları" mövzusunda konfrans keçirilmişdir






7 dekabr 2022-ci ildə 10 dekabr "Ümumdünya İnsan Hüquqları Günü" ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Milli Məclisin, həmçinin hüquq-mühafizə orqanlarının, insan hüquqları üzrə təsisatların yüksək vəzifəli şəxsləri, Birləmiş Millətlər Təşkilatı, Avropa Şurası və digər beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatlarının və media nümayəndələrinin iştirakı ilə Baş Prokurorluqda "İnsan hüquqlarının əsas təminatları" mövzusunda konfrans keçirilmişdir.

Konfransda giriş nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev milli dövlətçiliyimizin əsasını qoymuş, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu istiqamətində aparılan islahatlarla insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş kompleks mexanizm və tədbirlərin formalaşdırıldığını bildirməklə insan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən Ulu öndərin müəllifi olduğu Azərbaycan Respub-

likasının ilk milli Konstitusiyasının qəbul olunması ilə ölkəmizdə bu sahədə keyfiyyətcə yeni mərhələnin başlandığını, çoxsaylı normativ-hüquqi aktların, Dövlət proqramlarının qəbul edildiyini diqqətə çatdırmışdır.

Qeyd edilmişdir ki, Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir dövrün çağırışları və cəmiyyətin inkişafından irəli gələn tələblər nəzərə alınmaqla aparılmış məqsədyönlü tədbirlər insan hüquq və azadlıqlarının müdafiəsində səmərəliliyi artırmaqla hüquq müdafiə mexanizmlərinin təkmilləşdirilməsinə, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasının gücləndirilməsinə zəmin yaratmışdır.

Konfransda prokurorluq orqanlarının vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsinin təmin edilməsində digər qurumlarla əlaqəli şəkildə üzərlərinə düşən vəzifələri layiqincə icra etdiyi bildirilməklə bu sahədə birgə əməkdaşlığın önəmi vurğulanmışdır.

Tədbirdə İnsan hüquqlarının müdafiəsi üçün Avropa Şurası alətləri, qaçqınlar, məcburi köçkünlər və insan hüquqları, vətən müharibəsindəki qələbə kontekstində insan haqlarına yeni baxış, insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, insan hüquqlarının təminatında məhkəmə hakimiyyətinin, o cümlədən prokuror nəzarətinin rolu, insan hüquq və azadlıqlarının müdafiə mexanizmlərinin fəaliyyətində vəkillərin yeri və rolu, insan hüquqlarının təmin edilməsində konstitusiya nəzarətinin, habelə Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin rolu, Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasında qadın və uşaq hüquqlarının əhəmiyyəti, uşaq hüquqlarının təmin edilməsində prokurorluq orqanlarının rolu, cinayət prosesinin ayrılmaz tərkib hissəsi kimi azadlıq hüququnun təmin edilməsi mövzularında çıxışlar edilərək, ətraflı müzakirələr aparılmışdır.









# Baş prokuror Kamran Əliyev Rusiyada işgüzar səfərdə olub




Dekabrın 8-də Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti qurumlararası əlaqələrin möhkəmləndirilməsi və regionda təhlükəsizliyə artan təhdidlərin qarşısının alınması üçün birgə səylərin əlaqələndirilməsi məsələlərinin müzakirəsi məqsədilə Moskva şəhərinə səfər edib.






İqor Krasnov dəvətini qəbul etdiyinə görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edərək, qurumlarası münasibətlərin yüksək səviyyədə olduğunu və bunda qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb.

Kamran Əliyev dəvətə görə təşəkkürünü ifadə edərək, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, dövlət başçılarının birgə səyləri və siyasi iradələri sayəsində ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyini qeyd edib. Həmçinin, görüş zamanı cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, iki ölkənin hüquq mühafizə, o cümlədən prokurorluq orqanları arasında konkret cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, eləcə də cinayət törətmiş şəxslərin ekstradisiyası və sair məsələlər ətrafında müzakirələr aparılıb.

Görüşdə Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu iştirak edib.




Baş prokuror Kamran Əliyevin Moskvaya işgüzar səfəri çərçivəsində Rusiya tərəfinin təşəbbüsü ilə Azərbaycan, Rusiya və Ermənistan baş prokurorlarının üçtərəfli görüşü keçirilib.

Kamran Əliyev mina xəritələrinin verilməsinin insanların həyat və sağlamlığının qorunmasında əhəmiyyətini, həmçinin Ermənistan tərəfindən ərazilərimizin minalanma prosesinin davam etdirilməsinin yolverilməzliyini qeyd edib.

Baş prokuror Qarabağa qanunsuz səfərlərin təşkilini və ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarının yolverilməzliyini diqqətə çatdırıb.

1-ci və 2-ci Qarabağ müharibələrindən sonra itkin düşmüş şəxslərin tapılması istiqamətində birgə fəaliyyətin vacibliyinə toxunaraq, bu prosesin davam etdirilməsinin önəmini bildirib.

Eyni zamanda, Azərbaycan tərəfindən 10 noyabr 2020-ci il tarixli, 11 yanvar və 26 noyabr 2021-ci il tarixli üçtərəfli bəyanatlara tam şəkildə riayət olunduğu bildirib.

Görüş çərçivəsində Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq mexanizmləri müzakirə edilib.



# Baş Prokurorluqda Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir









Dekabrın 10-da Baş Prokurorluqda xalqımızın Ümummilli Lideri, Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilmişdir.

Tədbirdən öncə Baş Prokurorluğun rəhbərliyi Fəxri xiyabanda dahi şəxsiyyətin əbədiyaşar xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoymuşlar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülmüşdür.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev hələ sağlığında quruculuq və xilaskarlıq missiyasının öhdəsindən layiqincə gəlməklə xalqımızın Ümummilli Lideri zirvəsinə yüksəlmiş dünya miqyaslı dövlət xadimi Heydər Əliyevin milli dövlətçiliyimizin möhkəmləndirilməsində misilsiz xidmətlərinin, müdrikliyi, uzaqgörənliyi, fədakar əməyi və titanik fəaliyyətinin nəticəsində ölkəmizin bu günkü inkişaf göstəricilərinə nail olduğunu diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, hələ Sovetlər dönəmində Ulu öndərin səyləri nəticəsində hüquq-mühafizə orqanlarında sağlam mənəvi mühitin formalaşması istiqamətində ciddi addımlar atılmış, cinayətkarlığa, xüsusilə onun “Qoy ədalət zəfər çalsın!” çağırışı ilə rüşvətxorluğa və korrupsiyaya qarşı genişhəcmli mübarizə təşkil edilmişdir. Yenidən hakimiyyətə qayıdışından sonra Ümummilli Liderin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində başlanmış hərtərəfli və kompleks

islahatlarla məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun təşəkkül tapması bildirilməklə Ulu öndərin diqqət və qayğısı sayəsində Azərbaycan Prokurorluğunun dövrün tələblərinə uyğun tamamilə yenidən qurulması, cəmiyyətin və dövlətin maraqlarına xidmət edən qurum kimi formalaşdırıldığı xüsusi vurğulanmışdır.

Tədbirdə çıxış edən Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi Orxan İsayev dövlət quruculuğu və idarəetmə prosesində bütün məsələlərə xüsusi diqqətlə yanaşaraq hər bir strukturun fəaliyyətinə və inkişafına diqqət göstərən Ümummilli Lider Heydər Əliyevin məhkəmə-hüquq sisteminin inkişafında müstəsna xidmətlərini qeyd etmiş, hüquqi dövlət quruculuğu yolunda aparılmış islahatların əhəmiyyətindən bəhs etmişdir.

Sonda Baş prokuror Kamran Əliyev prokurorluğun kollektivinin daim Heydər Əliyev ideyalarına sadiq qalmaqla ulu öndərin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən göstərilən yüksək etimadı doğrultmaq üçün bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəklərini bildirmişdir.

Tədbirin sonunda Ümummilli Liderin xatirəsinə həsr olunmuş film izlənmişdir.










# Baş prokuror Tacikistanın ölkəmizdəki səfiri ilə görüşüb












Dekabrın 12-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev Tacikistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Rustam Soli ilə görüşüb.

İlk öncə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Ulu öndərin əziz xatirəsi ehtiramla yad edilib.

Qonağı salamlayan Baş prokuror Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında xalqımızın qələbəsi və ölkəmizin ərazi bütövlüyünün bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsi zamanı prokurorluğun təşkil etdiyi brifinqlərdə iştirakına görə səfirə təşəkkürünü bildirib.

Hüquq mühafizə orqanlarımız arasında illərdir uğurla davam edən səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilərək cinayətkarlığın müxtəlif təzahürlərinə, o cümlədən terrorçuluq, narkotiklərin qanunsuz dövriyyəsi, korrupsiyaya qarşı mübarizə və digər istiqamətlərdə birgə fəaliyyətin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Baş prokuror həmçinin ölkə rəhbərliyinin bilavasitə rəhbərliyi altında işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq bərpa işləri haqda səfiri məlumatlandırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Rustam Soli ikitərəfli münasibətlərə toxunaraq təmsil etdiyi ölkənin Azərbaycanla əlaqələrə böyük önəm verdiyini və iki ölkə arasında münasibətlərin bütün sahələr üzrə dinamik inkişaf etdiyini qeyd edib.

Görüşdə Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Tacikistana işgüzar səfəri ilə əlaqədar fikir mübadiləsi aparılıb.

# Baş prokuror Kamran Əliyev Tacikistanda işgüzar səfərdə olub









16 dekabr 2022-ci ildə Azərbaycan və Tacikistan prokurorluqları arasında işgüzar əlaqələrin möhkəmləndirilməsi məqsədi ilə Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Tacikistan Respublikasının Baş prokuroru Yusuf Raxmonun dəvəti ilə Düşənbə şəhərinə işgüzar səfər etmişdir.

Baş Prokurorluqda keçirilmiş görüş zamanı nümayəndə heyətini salamlayan Baş prokuror Yusuf Raxmon bütün sahələrdə olduğu kimi ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib.

Baş prokuror Kamran Əliyev qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, dövlət başçılarının apardıqları uzaqgörən xarici siyasət nəticəsində ölkələrimiz arasında










əlaqələrinin etibarlı əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq prinsipinə əsaslandığını vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparıldı, həm ikitərəfli, həm də çoxtərəfli formatda, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, hüquqi əməkdaşlıq sahəsində mövcud müqavilə bazasının təkmilləşdirilməsindən danışıldı. Tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edildi.

Görüş zamanı 2023-2024-cü illər ərzində prokurorluqlar arasında Əməkdaşlıq Proqramı imzalandı.

Səfər çərçivəsində Tacikistanın Korrupsiyaya qarşı Mübarizə üzrə Dövlət Maliyyə Nəzarəti Agentliyinin direktoru Süleymon Sultonzode ilə ikitərəfli görüş keçirilib. Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin korrupsiya ilə mübarizə sahəsində qəti siyasi iradəsi nəticəsində aparılmış islahatların əhəmiyyətini vurğulayaraq, ölkəmizdə bu sahədə görülmüş tədbirlər barədə geniş məlumat verib. Həmçinin, qurumlararası əməkdaşlığın genişlənməsi və qarşılıqlı təcrübə mübadiləsinin aparılması məqsədilə korrupsiyaya qarşı mübarizə sahəsində Əməkdaşlıq haqqında Razılaşma imzalandı.

Görüşlərdə ölkəmizin Tacikistandakı fövqəladə və səlahiyyətli səfiri Əlimirzamin Əskərov iştirak edib.

Kamran Əliyev həmçinin Tacikistanda işgüzar səfərdə olan Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müaciblə görüşüb, gələcək əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində nümayəndə heyəti Düşənbənin Dusti meydanındakı Tacikistanın milli həmrəyliyi və dirçəlişi xatirə kompleksində İsmoili Somoni abidəsini ziyarət edərək önünə əklil qoyub. Baş prokuror ölkəmizin Düşənbədəki səfirliyinə gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünü ziyarət edib, əziz xatirəsini ehtiramla yad edib.

# Baş prokuror Kamran Əliyev Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərinə səfər edib









Dekabrın 20-də Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan hüquq mühafizə orqanları rəhbərlərinin yüksək səviyyəli görüşündə iştirak məqsədilə Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində səfərdə olmuşdur.

İclası giriş sözü ilə açan ev sahibi, Krallığın Nəzarət və Korrupsiyaya qarşı Mübarizə üzrə Qurumunun (Nazaha) Prezidenti Mazin bin İbrahim Əl Kahmus yüksək səviyyəli konfransı açıq elan edərək qəbul ediləcək Korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Məkkə Konvensiyasının iqtisadi cinayətkarlığa qarşı işbirliyinə verəcəyi töhfədən danışıb.

Açılış iclasında çıxış edən Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi və rəhbərliyi ilə ölkəmizdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə sahəsində aparılmış genişmiqyaslı islahatlardan, o cümlədən qanunvericilik və institusional tədbirlər haqda görüş iştirakçılarını məlumatlandırıb.

Həmçinin qeyd olunub ki, ölkəmiz İƏT çərçivəsində hüquqi əməkdaşlığa böyük önəm verərək Məkkə Konvensiyasının qəbul olunmasını dəstəkləyir.

57 üzv dövlətin baş prokurorları, ədliyyə, daxili işlər nazirləri, müstəqil antikorrupsiya qurumlarının və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin çıxışlarından sonra Konvensiya layihəsi yekdilliklə qəbul edilib.

Səfər çərçivəsində Baş prokuror Səudiyyə Ərəbistanı Krallığının Nəzarət və Korrupsiyaya Qarşı Mübarizə Qurumununun Prezidenti Mazin bin İbrahim Əl-Kahmus ilə ikitərəfli görüş keçirib. 2023-cü ilin yanvar ayında ölkəmizin Baş Prokurorluğu ilə Krallığın Nazaha Qurumu arasında imzalanması nəzərdə tutulan Əməkdaşlıq haqqında memorandumla əlaqələrimizin bundan sonra yüksələn xətlə inkişaf edəcəyinə əminlik ifadə olunub.

Səfər zamanı Kamran Əliyevlə İNTERPOL-un baş katibi Yurgen Ştok arasında ikitərəfli görüş keçirilib. Görüşdə cinayətkarlıqla mübarizə sahəsində müsbət təcrübənin formalaşması və bu sahədə İNTERPOL-un vacib rolu qeyd olunub.

Tədbirlərdə ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı fövqəladə və səlahiyyətli səfiri Şahin Abdullayev iştirak etmişdir.

# Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti ölkəmizdə səfərdə olmuşdur

Prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatların mühüm hissəsi kimi beynəlxalq əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli formatlar çərçivəsində, eləcə də regional və ixtisaslaşdırılmış beynəlxalq təsisatlarla yeni əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir.







Bu sahədə həyata keçirilən kompleks tədbirlərin məntiqi davamı olaraq, 26 dekabr 2022-ci il tarixdəTürkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti Baş prokuror Kamran Əliyevin dəvəti ilə ölkəmizə rəsmi səfər etmişdir.

Nümayəndə heyəti Fəxri Xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, eləcə də görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarını ziyarət ediblər.

Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan qəhrəman Vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri qoyublar. Həmçinin, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış “Türk şəhidliyi” abidəsi ziyarət edilib.

Daha sonra Azərbaycan Respublikasının Baş Prokurluğunda görüş keçirilib. Tədbir zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdirildiyi xüsusilə qeyd olunub.

Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə qonaqlara ətraflı məlumat verib.

Kamran Əliyev 44 günlük Vətən müharibəsinin ilk anlarından Türkiyə Respublikasının rəhbərliyi və xalqının ölkəmizə öz siyasi və mənəvi dəstəyinə görə minnətdarlığını bildirib, işğaldan azad edilmiş ərazilərimizdə yenidənqurma prosesində mövcud strateji əməkdaşlığın uğurla davam etdirildiyini vurğulayıb.

Səmimi qəbula görə öz təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Hakimlər və Prokurorlar Şurasının Təftiş idarəsinin rəisi Osman Nuri təmsil etdiyi qurumun Azərbaycan ilə əlaqələrin inkişafına böyük önəm verdiyini bildirib. O, iki ölkə arasında mövcud iqtisadi, siyasi, sosial, mədəni əlaqələrin yüksək səviyyədə olmasını və bunun məntiqi nəticəsi kimi xalqlarımızın üzləşdiyi bütün məsələlərdə bir-birinə dəstək verəcəklərini xüsusi vurğulayıb.

Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

Nümayəndə heyəti daha sonra Baş Prokurorluğun Tarix muzeyi ilə tanış olub. Muzeydə Azərbaycan Prokurorluğunun zəngin tarixi, qardaş ölkələrimiz arasındakı münasibətləri əks etdirən ekspozisiyalar, eyni zamanda, ulu öndər











Heydər Əliyevin həyat və yaradıcılığına həsr olunan guşə və eksponatlar qonaqlarda zəngin təəssürat oyadıb.

Sonda xatirə fotoşəkli çəkdirilib.











Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyəti Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərinə səfər etmişdir.

Qonaqlar ilk öncə Ağdamda Birinci Qarabağ müharibəsi dövründə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anmış, məzarları üzərinə tər çiçəklər düzmüş, canından keçmiş şəhidlərimizin ruhunu bir dəqiqəlik sükutla yad etmiş, qazilərimizə şəfa diləmişdir.

Bundan başqa nümayəndə heyəti Qarabağ xanı Pənahəli xanın sarayı və ailə üzvlərinin məzarının yerləşdiyi İmarət kompleksində olmuş, Cümə Məscidini ziyarət etmişlər.

Daha sonra nümayəndə heyəti yol boyu Ermənistan dövlətinin viran qoyduğu məkanlar, yaşayış məntəqələri, tarixi-mədəni abidələrin şahidi olmuşlar.

Nümayəndə heyəti həmçinin, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin fəaliyyəti, şəhərin baş planı və beynəlxalq konfrans zalı ilə tanış olmuş, bundan başqa Şahbulaq qalasını ziyarət etmişlər.

Qonaqlar qısa zamanda görülmüş genişmiqyaslı işlərin onlarda böyük təəssürat yaratdığını, Vətən müharibəsində Türkiyənin ölkəmizə göstərdiyi mənəvi-siyasi dəstəyin məntiqi davamı olaraq quruculuq işlərində də qardaş ölkənin yaxından iştirakının önəmini vurğulamışlar.



Nümayəndə heyəti ölkəmizin prokurorluq orqanlarının, o cümlədən Baş Prokurorluğun yeni inzibati binası, Elm-Tədris Mərkəzi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti ilə tanış olmuşdur.

Səfər çərçivəsində qonaqlar Heydər Əliyev Mərkəzini ziyarət edərək, görkəmli dövlət xadiminin həyat və fəaliyyətini əks etdirən stendlərlə tanış olmuş, onlara Mərkəzdə yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilmişdir.

Daha sonra heyət 44 günlük Vətən müharibəsi zamanı müzəffər Azərbaycan ordusunun işğalçı Ermənistan dövlətini















döyüş meydanında məğlub etməsi nəticəsində ələ keçirdiyi hərbi qənimətlərin nümayiş olunduğu "Hərbi Qənimətlər Parkı"-nda olmuş, qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət etməklə xalqımızın qürur mənbəyi hesab olunan Park qonaqlar tərəfindən böyük maraqla qarşılanmışdır.

Həmçinin, nümayəndə heyəti İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olmuş, eksponatlar barədə onlara ətraflı məlumat verilmişdir.

Qonaqlar Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev, Baş Prokurorluğunun əməkdaşları və veteranları ilə birlikdə Azərbaycan Dövlət Opera və Balet teatrında görkəmli bəstəkar Fikrət Əmirovun "1001 gecə" baletinə tamaşa etmişdir.

Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurasının nümayəndə heyətinin səfəri dekabrın 29-da başa çatmışdır.

# Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclası keçirilmişdir





Dekabrın 27-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluğun fəaliyyət istiqamətləri üzrə görülən işlər, qarşıda duran vəzifələr və işin təşkilinə dair məsələlərə həsr olunmuş Kollegiya iclası keçirilmişdir.

Kollegiya iclasında çıxış edən Baş prokuror Kamran Əliyev ulu öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, qalib və qurucu lider cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə davamlı tərəqqi və dayanıqlı inkişafın təmin olunduğunu bildirməklə dövlətimiz və cəmiyyətimizin tarixinin ən qüdrətli çağlarını yaşadığını diqqətə çatdırmışdır.

Qeyd edilmişdir ki, ölkəmizin qarşıdakı dövr üçün inkişaf strategiyasının, həmçinin sosial, mədəni və humanitar layihələrin həyata keçirilməsində Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti Mehriban xanım Əliyevanın ardıcıl və məqsədyönlü fəaliyyəti mühüm əhəmiyyət kəsb etmişdir.

Baş prokuror "Şuşa ili"ndə Qarabağ və Şərqi Zəngəzurun gələcək inkişafının təmin olunması və zəruri infrastrukturun yaradılması istiqamətində görülmüş tədbirlərlə əzəli torpaqlarından ayrı qalmış sakinlərimizin qürür və sevinclə "Böyük Qayıdış"ının ilk mərhələsinin uğurla gerçəkləşdiyini xüsusi vurğulamışdır.

Kollegiya iclasında ölkəmizdə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsində Azərbaycan prokurorluğu tərəfindən digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə zəruri tədbirlərin görüldüyü bildirilmişdir.




Xüsusilə əvvəlki illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə cinayətlərinin daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılmasının təmin edildiyi qeyd edilmişdir.

İclasda "İşin Təşkili Qaydaları"nın təkmilləşdirilməsi məsələləri ilə bağlı Təşkilat və icraya nəzarət idarəsinin rəisi Tural Aslanov, prokurorluq işçilərinin "Etik Davranış Kodeksi"nin yeni layihəsinə dair Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi Aynur Osmanova, cari kadr məsələləri ilə bağlı Kadrlar idarəsinin rəisi Natiq Hüseynov, xidməti, icra və əmək intizamının möhkəmləndiirilməsi ilə əlaqədar Xidməti araşdırmalar idarəsinin rəisi Kamal Qılıcov və "Elektron prokurorluq" informasiya sisteminin tətbiqi ilə əlaqədar görülmüş işlərə dair Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev məruzələrlə çıxış etmişlər.






Aparılmış müzakirələr ətrafında Kollegiya üzvləri çıxış edərək təkliflərini bildirmiş, sonda Kollegiyanın qərarı ilə "İşin Təşkili Qaydaları"na əlavə və dəyişikliklər, həmçinin "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi" təsdiq edilmişdir.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin hərtərəfli inkişafı istiqamətində prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə etmişdir.

# Baş prokuror bölgələrdə vətəndaşları qəbul etmişdir

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılaraq, onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.***









## GƏNCƏ ŞƏHƏRİ





Oktyabrın 12-də Baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər, Samux, Göygöl, Kəlbəcər və digər rayonlardan olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Daha sonra Baş prokuror Kamran Əliyev Gəncə şəhərində Vətən müharibəsi zamanı Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən terror hadisəsinin olduğu əraziyə gedərək şəhid olan mülki şəxslərin xatirəsini yad edib.

Qəbulda iştirak edən 112 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.










Qəbuldan sonra Baş prokuror Samux, Göygöl və Kəlbəcər rayon, eləcə də Gəncə hərbi prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirməklə onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqlarını diqqətə çatdırıb.

## SUMQAYIT ŞƏHƏRİ



Noyabrın 22-də Baş prokuror Kamran Əliyev Sumqayıt şəhər prokurorluğunun inzibati binasında Sumqayıt şəhəri, Qubadlı və Abşeron rayonlarından olan vətəndaşları qəbul edib.





Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmiş, daha sonra isə Heydər Əliyev Mərkəzinə gələrək Ümummilli Liderin həyat və fəaliyyətinin müxtəlif illərini əks etdirən eksponat və fotoşəkillərlə tanış olub.

Qəbulda iştirak edən 53 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Sumqayıt şəhər prokurorluğunda Qubadlı rayon, Sumqayıt şəhər və hərbi prokurorluqalarının əməkdaşlarının iştirakı ilə müşavirə keçirərək vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkili, ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi ilə bağlı öz tövsiyələrini vermişdir.

Daha sonra Baş prokuror Qubadlı rayon və Sumqayıt hərbi prokurorluqlarına getməklə orada yaradılmış iş şəraiti ilə tanış olmuşdur.









## ABŞERON RAYONU






Dekabrın 2-də Baş prokuror Kamran Əliyev Abşeron rayon prokurorluğunun inzibati binasında Bakı şəhəri, Abşeron və Zəngilan rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.




Qəbulda iştirak edən 33 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Abşeron rayon prokurorluğunda Abşeron və Zəngilan rayon prokurorluqalarının əməkdaşlarının iştirakı ilə müşavirə keçirərək vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkili, ibtidai istintaqın hərtərəfli, tam və obyektiv aparılması, cinayətkarlığa qarşı mübarizənin daha da gücləndirilməsi ilə bağlı öz tövsiyələrini verib.

# Baş Prokurorluqda mülki müdafiə üzrə tədbir keçirilmişdir







Oktyabrın 6-da Baş Prokurorluqda Fövqəladə Hallar Nazirliyi ilə razılaşdırılmaqla təsdiq edilmiş Baş Prokurorluğun 2022-ci il üçün mülki müdafiə üzrə tədbirlər planına müvafiq olaraq Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsi və FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin təşkilatçılığı ilə Baş Prokurorluğunun mərkəzi aparatında fəaliyyət göstərən idarələr üzrə mülki müdafiə məşqinə dair tədbir keçirilmişdir.

Tədbirin keçirilməsində məqsəd fövqəladə hadisələr zamanı funksional vəzifələrin öyrənilməsi, əməkdaşların təhlükəsizliyini təmin edən tədbirlərin həyata keçirilməsi üzrə hazırlıq səviyyəsinin yüksəldilməsi, fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı mülki müdafiə qüvvələrinin praktiki vərdişlərinin artırılması olmuşdur.

Tədbirdə Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin prokuroru Zəkayi Yusifli çıxış edərək mülki müdafiənin təşkili məsələlərinin əhəmiyyətini vurğulamaqla prokurorluq orqanlarında bu istiqamətdə həyata keçirilən ardıcıl tədbirlərdən bəhs etmişdir.

Məşğələdə FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin əməkdaşları İlham Söhbətov, İlqar Əsgərov və Şəmsəddin Hüseynov mövzu ilə bağlı çıxış edərək fövqəladə hadisələrin baş verməsi təhlükəsinin maksimum azaldılması və insanların sağlamlığının qorunmasına yönəldilən tədbirlər barədə ətraflı məlumat vermişdir.

Tədbirin sonunda Fövqəladə Hallar Nazirliyi tərəfindən keçirilmiş qəza-xilasetmə təlimlərinin gedişini əks etdirən sənədli film nümayiş etdirilmişdir.

# Tabe prokurorların yeni köməkçiləri üçün cinayət təqibindən kənar fəaliyyət istiqamətləri üzrə treninq keçirilib





Prokurorluğun fəaliyyət istiqamətlərinin müxtəlifliyi və yerinə yetirdiyi vəzifələrin ictimai əhəmiyyəti prokurorluq işçisinin hazırlıq və peşəkarlıq səviyyəsinə yüksək tələblər qoyur. Həmkarlarımızın fəaliyyətinin bu yüksək tələblərə uyğun qurulması üçün peşə hazırlığı səviyyəsinin təkmilləşdirilməsi istiqamətində davamlı təlim tədbirləri həyata keçirilir.

Bu tədbirlərin davamı olaraq Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Cinayət təqibindən kənar icraatlar idarəsi ilə birgə müvafiq sahədə fəaliyyət göstərən tabe prokurorların yeni köməkçiləri üçün “Cinayət təqibindən kənar fəaliyyət istiqamətlərinin xüsusiyyətləri” mövzusunda treninq keçirilmişdir.

Treninqin başlıca məqsədi peşə hazırlığının artırılması, təcrübədə rast gəlinən problem və çətinliklərin qarşısının alınması olmuşdur. Treninq üzrə tədris tədbirləri cari ilin oktyabr ayının 12-dən 14-dək qarışıq formada: Bakı və Sumqayıt şəhərlərində qulluq keçən işçilər üçün Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin inzibati binasında, digər ərazilərdə qulluq edən işçilər üçün internet üzərindən “Zoom” proqramı vasitəsi ilə distant formada və canlı vaxt rejimində həyata keçirilmişdir.

Treninqə təlimçi qismində Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin təcrübəli işçiləri cəlb edilmiş, tədbirdə dinləyici qismində 27 tabe prokurorluqda xidmət edən 29 prokuror köməkçisi iştirak etmişdir.

Tədbir çərçivəsində inzibati xətalar haqqında işlər üzrə icraat zamanı ekoloji təhlükəsizlik, ətraf mühitin mühafizəsi və təbiətdən istifadəyə prokuror nəzarətinin təşkili məsələləri, eləcə də mülki icraat qaydasında məhkəmədə baxılan işlərdə, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraatlarda, yetkinlik yaşına çatmayanların maraqlarının qorunmasında prokurorun iştirakının təşkili və xüsusiyyətləri ilə bağlı mövzular üzrə tədris aparılmışdır.

Təhlil materiallarından və müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə, treninqin Tədris proqramında nəzərdə tutulmuş tədbirlər vaxtında həyata keçirilmiş, tədris edilmiş əksər məşğələlərin elektron mətni dinləyicilərə təqdim edilmişdir.



Dinləyicilər məşğələlər zamanı tədris olunan materiallara maraq göstərmiş, təlimçilərlə ünsiyyətdə aktiv olmuş, kursun yekunu üzrə müzakirələr zamanı əldə etdikləri bilik və bacarıqlardan razı qaldıqlarını ifadə etmişlər.

# Gəncə şəhərində Vətən Müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş terror hadisələri qurbanlarının anım tədbiri keçirilmişdir

Oktyabrın 17-də Gəncə şəhərində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Baş Prokurorluğun və Xarici İşlər Nazirliyinin əməkdaşlarının, 50-yə yaxın ölkənin səfirləri, diplomatik korpusun, ölkəmizdə fəaliyyət göstərən beynəlxalq təşkilatların nümayəndələrinin, eyni zamanda yerli və xarici media təmsilçilərinin iştirakı ilə Vətən Müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş terror hadisələri qurbanlarının anım tədbiri keçirilmişdir.







Tədbirdən öncə iştirakçılar xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri qoyaraq onun əziz xatirəsini hörmətlə yad etmişlər.

Daha sonra Gəncə Memorial Kompleksini ziyarət edən tədbir iştirakçıları həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə güllər düzərək ehtiramlarını ifadə etmişlər.

Anım tədbirində çıxış edən Baş prokurorun birinci müavini Elçin Məmmədov 44 günlük Vətən müharibəsi zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları tərəfindən Ermənistan silahlı qüvvələrinin törətdikləri hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün istintaq hərəkətlərinin həyata keçirilməklə zəruri tədbirlərin görüdüyünü qeyd etmişdir.

Bildirilmişdir ki, 27 sentyabr 2020-ci il tarixdən etibarən Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə aparılan təcavüzkar müharibə, onun gedişində törədilən digər xarakterli cinayətlərlə bağlı Baş Prokurorluğun İstintaq idarəsində 87 cinayət işi üzrə ibtidai istintaq aparılmaqla 36 şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə barədə qərarlar çıxarılaraq "İnterpol"un Milli Mərkəzi Bürosu vasitəsi ilə beynəlxalq axtarış elan edilmiş, 23 ölkəyə hüquqi yardım haqqında sorğular göndərilmişdir.

44 günlük Vətən müharibəsində döyüş meydanında aciz qalan təcavüzkar erməni silahlı birləşmələrinin beynəlxalq qanunvericiliyi, "Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair" 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq dinc əhalini böyük dağıdıcı qüvvəyə malik operativ-taktiki təyinatlı balistik və kaset tipli raketlərlə atəşə tutması nəticəsində 93 nəfər, o cümlədən 11 azyaşlı və 27 qadının qətlə yetirildiyi, 454 nəfər, o cümlədən 50 azyaşlı və 101 qadının müxtəlif dərəcəli bədən xəsarətləri almaları diqqətə çatdırılmışdır.



Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının 2-ci böyük şəhəri olan Gəncəyə 4, 5, 8, 11 və 17 oktyabr 2020-ci il tarixlərdə xüsusilə gecə saatlarında əhalinin yatdığı vaxt xaincəsinə təşkil olunmuş hücümlar nəticəsində, 10 nəfəri kişi, 10 nəfəri qadın və 6 nəfəri uşaq olmaqla 26 nəfər dinc sakin qəsdən öldürülmüş, 6 ailə tamamilə məhv edilmişdir.

Xəsarət alanlardan 86 nəfəri kişi, 57 nəfəri qadın, 32 nəfəri uşaq olmaqla cəmi 175 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri almış, onlardan 24 nəfəri 60 yaşdan yuxarı, 21 nəfəri 5-18 yaş arası, 11 nəfəri 5 yaşadək olmuşdur.

Eyni zamanda, araşdırmalarla 3875 yaşayış evi və ya mənzil, 33 qeyri-yaşayış obyekti, o cümlədən 2 tam orta məktəb, 1 uşaq poliklinikası, 1 uşaq bağçası və 1 kinoteatr



binası olmaqla ümumilikdə 863.700 m2 təşkil edən sahənin dağıdılması və zədələnməsi nəticəsində milyonlarla məbləğdə maddi ziyan vurulduğu bildirilmişdir.

Bununla yanaşı, müharibədən sonra ölkəmizin Ermənistan silahlı qüvvələrinin növbəti təcavüzü-"mina terroru" ilə qarşı-qarşıya qaldığı bildirilməklə 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan indiyə qədər 44 şəxsin həlak olduğu, 216 şəxsin isə müxtəlif dərəcəli bədən xəsarətləri aldığı xüsusi qeyd edilmişdir.

Tədbirdə çıxış edən Xarici işlər nazirinin müavini Elnur Məmmədov beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc insanların məqsədli şəkildə öldürülməsinin müharibə cinayəti və insanlıq əleyhinə cinayət olduğunu bildirməklə Azərbaycan Respublikasının milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarların ədalət məhkəməsi qarşısına çıxarılması istiqamətində görülən tədbirlər barədə ətraflı məlumat vermişdir.

Daha sonra Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Cavid Musayev çıxış edərək xarici ölkələrin dövlət və ictimai xadimləri, diplomatlar, eləcə də jurnalistlərin Gəncədə baş verənlərlə tanış olarkən Ermənistanin hərbi-siyasi rəhbərliyinin törətdiyi hərbi cinayətin bir daha şahidi olduqlarını, dünya birliyi ölkələrinin bu faciəyə real qiymət verməsinin önəmini diqqətə çatdırmışdır. Ermənistanın hərbi-siyasi rəhbərliyinin törədilən bütün cinayətlərə görə bilavasitə məsuliyyət daşıyır.

Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin Başçısı Niyazi Bayramov xain hücumlar nəticəsində mülki insanların daşınmaz əmlakına dəymiş ziyanın aradan qaldırılması üçün müharibədən sonra dövlət başçısının müvafiq sərəncamı ilə şəhərdə bərpa işlərinə başlanıldığını, evlərinin bərpası mümkün olmayan ailələrə yeni mənzillərin verildiyini, ev əşyalarının alınmasında onlara maddi kömək göstərildiyini, hadisə qurbanlarının və onların yaxın qohumlarının qayğılarının diqqət mərkəzində saxlandığını bildirmişdir.

Anım tədbirinin sonunda media nümayəndələrinin sualları cavablandırılmışdır.

# Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə çərçivəsində daxili işlər, gömrük və sərhəd xidməti orqanlarının əməkdaşları üçün təlim keçirilmişdir






Cari ilin oktyabr ayının 18-dən 20-dək narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi, hüquq mühafizə orqanları əməkdaşlarının peşə vərdişlərinin daha da inkişaf etdirilməsi istiqamətində Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi tərəfindən təşkil edilən "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyətinin xüsusiyyətləri və aktual problemləri" mövzusu üzrə təlim keçirilmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin aktuallığı və praktiki əhəmiyyəti nəzərə alınaraq, distant formada və canlı vaxt rejimində keçirilən təlimdə daxili işlər, gömrük və sərhəd xidməti orqanlarının əməkdaşları dinləyici qismində iştirak etmişlər.

Tədbirə təlimçi qismində Baş Prokurorluğun, habelə Daxili İşlər Nazirliyinin peşəkar əməkdaşları cəlb edilmişlər.

Kurs çərçivəsində dinləyicilərə "Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı milli mübarizə strategiyası, bu sahədə olan problemlərin mahiyyəti və aktuallığı", "İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent təcrübəsi üzrə əməliyyat-axtarış fəaliyyəti gedişində əldə edilmiş dəlillərdən sübut kimi istifadə etmənin mümkünlüyü meyarları" və sair mövzular üzrə məşğələlər tədris edilmişdir.

Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində təlim-tədris tədbirlərinin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulmuşdur.

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) “Şahid Dindirmə Müsabiqəsi” hazırlıq (təlim) və final mərhələləri keçirilmişdir

Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq onlarda hüquqi biliklərin artmasına, praktiki bacarıqlarının formalaşmasına töhfə verilməsi, eləcə də prokurorluq orqanları ilə hüquq ictimaiyyəti, ali təhsil müəssisələri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə Baş Prokurorluq tərəfindən ardıcıl tədbirlər davam etməkdədir.

Belə ki, 22.10.2022-ci il tarixdə Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyi tərəfindən təşkil olunan, dindirmə prosesinin simulyasiyasını nəzərdə tutan “Şahid Dindirmə Müsabiqəsinin” hazırlıq (təlim) mərhələsi keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Baş prokuror yanında Elmi-Məsləhət Şurasının Anti-Korrupsiya Təlim Mərkəzinin rəhbəri Kamal Cəfərov və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Nigar Qələndərli iştirak etmişdir.

“Şahidi dindirmə prosesi” mövzusunda təşkil edilən təlimdə dinləyici qismində isə Azərbaycan Respublikasının müxtəlif universitetlərinin hüquq fakültələrində təhsil alan tələbələr iştirak etmişlər. Təlim zamanı Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin böyük prokuroru Çingiz Əli-zadə və Baş Prokurorluğun İstintaq idarəsinin böyük prokuroru Anar Mirkişiyev tərəfindən dinləyicilərə mühazirələr oxunmuş və onları maraqlandıran suallar cavablandırılmışdır.

Tədbirin davamı olaraq, 05.11.2022-ci il tarixdə Elm-Tədris Mərkəzində ELSA tərəfindən təşkil olunan “Şahidi Dindirmə Müsabiqəsinin” final mərhələsi keçirilmişdir. Azərbaycan Respublikasının müxtəlif universitetlərinin hüquq fakültələrində təhsil alan tələbələrin iştirakı ilə keçirilən müsabiqənin ilkin və yarımfinal mərhələlərində qalib olmuş üç komanda müsabiqənin final mərhələsində iştirak etmişdir.

Müsabiqənin final mərhələsinə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin böyük













prokuroru Çingiz Əli-zadə, Istintaq idarəsinin böyük prokuroru Anar Mirkişiyev və Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı hakim qismində cəlb edilmiş və müsabiqə iştirakçılarının fəaliyyəti onlar tərəfindən qiymətləndirilmişdir. Əvvəlcədən hazırlanmış cinayət və cinayət-prosessual sahələr üzrə kazus əsasında iki nəfərdən ibarət müstəntiq qismində çıxış edən komandalarla xəyali şahid arasında cinayət işi üzrə həqiqətin üzə çıxarılması üçün əhəmiyyətli olan hallara dair məlumatların şahiddən alınması və cinayətin təsvirinin verilməsi məqsədi ilə həyata keçirilən dindirmə prosesinin simulyasiyasını nəzərdə tutan müsabiqənin sonunda qiymətləndirmə nəticəsində verilmiş yekun bala əsasən qalib komanda müəyyənləşdirilmişdir.

Tədbirin sonunda qalib komandanın üzvləri mükafatlandırılmış və onlara sertifikatlar verilmişdir. Eyni zamanda, Avropa Hüquqşünas Tələbələr Assosiasiyasının (ELSA) Bakı İctimai Birliyi tərəfindən müsabiqənin Baş Prokurorluqda keçirilməsinə köməklik və şərait yaratdığına görə Baş prokuror cənab Kamran Əliyevə təşəkkürnamə, habelə müsabiqəyə hakim qismində cəlb edilmiş Baş Prokurorluğun əməkdaşlarına sertifikatlar təqdim olunmuşdur.



# Media və vətəndaş cəmiyyəti institutları ilə qarşılıqlı əlaqələr davam etdirilir









Cinayətkarlıqla mübarizə sahəsində prokurorluq orqanları ilə media və qeyri-hökumət təşkilatlarının işgüzar əlaqələrinin möhkəmləndirilməsi, məlumat mübadiləsi zamanı mövcud qanunvericiliyin tələblərinə əməl edilməsi, istintaq sirri təşkil edən məlumatların ictimailəşdirilməsinin qarşısının alınması məqsədi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunda “Cinayət təqibi, media və vətəndaş cəmiyyəti institutlarının qarşılıqlı əlaqələrinin müasir tendensiyaları” mövzusunda iki günlük treninq keçirilib.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi və Mətbuat xidmətinin birgə təşkilatçılığı ilə ərsəyə gələn bu tədbirdə medianın bütün növ qruplarının (televiziya, radio, çap mətbuatı, xəbər agentliyi, internet portal) və bəzi qeyri-hökumət təşkilatlarının 30-dan artıq nümayəndəsi iştirak edib.

Əvvəlcədən müəyyən edilmiş proqrama əsasən tədbirin ilk günü iştirakçılar qarşısında brifinq formatında çıxış edən Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə, Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov, Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru Kənan Babazadə iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

Həmçinin treninq iştirakçıları xüsusi maraqla Real TV-nin baş direktoru Mirşahin Ağayevin nitqini dinləyib, eləcə də dəyirmi masa formatında keçirilmiş Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Zaur İbrahimovla və Medianın İnkişafı Agentliyinin nümayəndəsi Pərvanə İbrahimova ilə görüşdən məmun qaldıqlarını ifadə ediblər.

Müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə olunan treninq üzrə maarifləndirici tədbirlər Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təyinatına uyğun (brifinq, çıxış, təqdimat, dəyirmi masa və sair) auditoriyalarında davam etdirilib.

Treninqin ikinci günündə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Saleh Hacıyev, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəis müavini Sahib İsmayılov və Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova prezentasiya müşayiət ilə çıxışlar ediblər və iştirakçıları maraqlandıran sualları cavablandırıblar.

Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı, filologiya elmləri doktoru Vüqar Əliyevin sosial media üçün xidməti məlumatların hazırlanma metodikasını və onların mediada yayımlama qaydasını özündə əks etdirən nitqinə treninq iştirakçıları xüsusi maraq göstəriblər.

Baş Prokurorluğun inzibati binalar kompleksində keçirilən media tur çərçivəsində tədbir iştirakçıları Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya ilə, müasir avadanlıqlarla zəngin olan kitabxanalarla,












qabaqcıl texnikalarla təchiz olunmuş kriminalistik və istintaq otaqları ilə, eləcə də mobil kriminalistik laboratoriyalı avtomobillərlə tanış olublar.

Tədbirin yekunu üzrə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli və Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov moderatorluğu ilə keçirilmiş dəyirmi masa zamanı iştirakçılar treninqin təşkili səviyyəsindən və müzakirə obyekti olmuş mövzuların peşəkarcasına tədrisindən razı qaldıqlarını, habelə gələcəkdə də bu kimi maarifləndirici tədbirlərdə iştirak etmək arzusunda olduqlarını ifadə ediblər.

Treninqin sonunda iştirakçılara sertifikatlar təqdim olundu.



# Baş prokuror yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin təşkilatçılığı ilə Azərbaycan Respublikasının Milli Məclisində görüş keçirilmişdir







Prokurorluq orqanlarında həyata keçirilən islahatların mühüm tərkib hissəsi kimi dövlət qulluqçularının bilik və bacarıqlarının hər zaman inkişaf etdirilməsi, peşə vərdişlərinin təkmilləşdirilməsi prioritet məsələlərdən biridir.

Bu istiqamətdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının Anti-korrupsiya Təlim Mərkəzinin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Təlim Mərkəzi tərəfindən dövlət qulluqçuları üçün təşkil edilən silsilə tədbirlər əməkdaşlar tərəfindən rəğbətlə qarşılanmışdır.

Silsilə tədbirlərin davamı olaraq Təlim Mərkəzinin təşkilatçılığı ilə 10 noyabr 2022-ci il tarixində Milli Məclisdə Baş Prokurorluğun bir qrup dövlət qulluqçuları ilə görüş keçirilib.

Tədbiri açıq elan edən Anti-korrupsiya Təlim Mərkəzinin rəhbəri, Milli Məclisin deputatı, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Milli Məclisin fəaliyyəti onun struktur qurumları və gələcək perspektivlər barədə ətraflı məlumat verib.

Tədbirdə iştirak edən Milli Məclisin Aparat rəhbərinin müavini Rüstəm Mahmudov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi, Anti-korrupsiya Təlim Mərkəzinin katibi Nigar Qələndərli dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması istiqamətində görülən işlər barədə görüş iştirakçılarını məlumatlandırmışlar.

Parlamentə dəvət olunan Baş Prokurorluğun dövlət qulluqçuları Milli Məclisin inzibati binası, yeni açılmış Zəfər güşəsi, tarixi, Heydər Əliyevin həyatına həsr edilmiş muzey, Plenar və iclas zallar ilə tanış olublar.

Görüşün sonunda iştirakçılar tərəfindən maraq doğuran suallar cavablandırılıb, eləcə də faydalı fikir mübadiləsi aparılıb.

# Qubada “Söz azadlığı və cəmiyyətin informasiya təhlükəsizliyi” adlı konfrans təşkil edilib





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən dövlət siyasətinin tələblərinə və beynəlxalq standartlara uyğun olaraq, aşkarlıq və şəffaflığın təmin olunması, qərarların qəbulu zamanı vətəndaşların qanuni maraqlarının nəzərə alınması, əsas insan və vətəndaş hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin edilməsi, prokurorluq orqanlarının əsas prioritet istiqamətlərindən biri olmaqla bu sahədə mövcud münasibətlərin inkişaf etdirilməsinə yönələn kompleks islahatlar həyata keçirilməkdədir.



Silsilə tədbirlərin davamı olaraq, 2022-ci il noyabrın 16-da Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən rayon və Sumqayıt hərbi prokurorluqlarının media ilə işləməyə məsul prokurorluq əməkdaşlarının iştirakı ilə Quba rayon Heydər Əliyev Mərkəzində “Söz azadlığı və cəmiyyətin informasiya təhlükəsizliyi” adlı növbəti işgüzar konfrans təşkil edilib.

Konfransda məhkəmə, hüquq-mühafizə, digər dövlət və media qurumlarının, qeyri-hökumət təşkilatlarının, təhsil müəssisələrinin nümayəndələri iştirak edib.



İştirakçılar əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra konfrans iştirakçıları Heydər Əliyev Mərkəzi ilə tanış olublar.

Dövlət himni səsləndirildikdən sonra Vətən uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olunub, yaralılara Allahdan şəfa dilənib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Natiq Abdullayev cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə



prokurorluq orqanları tərəfindən həyata keçirilən kompleks tədbirlərdən söz açıb.

Konfrans zamanı çıxış edən Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev mötəbər tədbirin Quba şəhərində təşkil edilməsindən məmnunluğunu ifadə edib, Quba rayon prokuroru Namiq Muradov təşkil olunmuş işgüzar konfransın əhəmiyyətindən bəhs edərək media və qeyri-hökumət təşkilatları ilə kommunikasiyanın gücləndirilməsi məqsədilə görülən işlərdən danışıb.

Tədbirdə çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarının media siyasətində aşkarlıq, şəffaflıq və hesabatlılıq prinsiplərini rəhbər tutduğunu, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib.

Tədbir zamanı, həmçinin, dövlət qurumlarının sözçüləri, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxışlar edib, birgə əməkdaşlığın perpektivləri barədə təkliflər səsləndirilib.

Konfransın gedişatında iştirakçılara Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətinin əməkdaşı Aysel Hadiyeva "Aktual kibertəhdidlər və mühüm kibergigiyena qaydaları" mövzusunda təlim keçilib.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Tədbir iştirakçıları ağır, çətin və şərəfli peşə olan prokurorluq əməkdaşının gündəlik həyat tərzindən bəhs edən "Valideynimin peşəsi" adlı qısa metrajlı filmə baxıb.

Sonda xatirə şəkli çəkdirilib.



## “Korrupsiyaya yox deyək” respublika rəsm müsabiqəsi keçirilib



Noyabrın 3-dən Baş Prokurorluq və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Ümumdünya Korrupsiyaya Qarşı Mübarizə Gününə həsr olunan “Korrupsiyaya yox deyək!” V-XI sinif şagirdləri arasında respublika rəsm müsabiqəsinə start verilib.

Müsabiqənin keçirilməsində məqsəd uşaq və gənclərin korrupsiyaya qarşı mübarizə üzrə qanunvericilik sahəsində maarifləndirilməsi, məktəblilərin informasiya axtarışına, eləcə də təhsildə yaradıcılığa həvəsləndirilməsi, onların asudə vaxtının səmərəli təşkilindən ibarətdir.

20 noyabr 2022-ci il tarixində rəsmlərin qəbulu başa çatıb.

Rəsmlərin dəyərləndirilməsi üçün Baş Prokurorluq, Elm və Təhsil Nazirliyi, Rəssamlıq Akademiyası, eləcə də Rəssamlar İttifaqının nümayəndələrindən ibarət Müsabiqə Komissiyası təsis edilərək rəsmlər dəyərləndirilmişdir. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində təşkil edilmiş “Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə günü”nə həsr olunmuş dəyirmi masa çərçivəsində müsabiqənin qaliblərinin və fərqlənən iştirakçılarının təltifetmə mərasimi keçirilmiş və onların müəllifi olduqları işlər sərgilənmişdir.

## “Narkomaniya və məişət zorakılığına qarşı mübarizədə vətəndaş məsuliyyəti” adlı tədbir keçirilib







"Liatris Holding"in təşkilatçılığı, Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Ombudsman Aparatının dəstəyi ilə "Narkomaniya və məişət zorakılığına qarşı mübarizədə vətəndaş məsuliyyəti" adlı tədbir keçirilib.

Tədbirdə Baş Prokurorluğun əməkdaşları Kənan Zeynalov, Elvar Həsənov və Hikmət Verdiyev iştirak edib.

Tədbir zamanı, dövlət qurumlarının sözçüləri, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxışlar edib, birgə əməkdaşlığın perspektivləri barədə təkliflər səsləndirilib.

Çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov narkomaniya və məişət zorakılığına qarşı hüquq-mühafizə orqanları tərəfindən aparılan kompleks işlər barədə məlumat verib.

Tədbirdə, həmçinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiə, Elm və təhsil, Səhiyyə, Gənclər və idman nazirliklərinin nümayəndələri, Milli Məclisin üzvləri, QHT rəhbərləri, media nümayəndələri və ekspertlər iştirak edib.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və media nümayəndələri arasında səmərəli fikir mübadiləsi aparılıb.

# Baş Prokurorluqda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə ilə əlaqədar tədris tədbirləri davam etməkdədir





Azərbaycan Respublikasında sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədilə narkomanlığa, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə ümumdövlət vəzifəsi kimi müəyyən edilmişdir. Aparılan islahatlar narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlıq problemlərinin həlli üçün cəmiyyətin, dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin birləşdirilməsini, beynəlxalq əlaqələrin genişləndirilməsini və kompleks mübarizəni zəruri edir.

Azərbaycan Respublikası Baş prokuroru cənab Kamran Əliyevin rəhbərliyi ilə keçirilmiş əməliyyat müşavirəsində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işləri üzrə təcrübədə yol verilən nöqsan və pozuntuların qarşısının alınması məqsədilə təlimlərin davam etdirilməsi qərara alınmışdır. Baş prokurorun 02.12.2022-ci il tarixli Sərəncamına əsasən Baş Prokurorluğun Elm-Tədris Mərkəzi tərəfindən daxili işlər orqanlarının əməkdaşları üçün "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərin tövsifinin, habelə bu qəbildən olan işlərin istintaqının maddi əsasları və prosessual qaydaları" mövzusunda təlim təşkil edilmişdir. Təlim üzrə tədris tədbirləri carı ilin dekabr ayının 6-dan 8-dək dinləyiciləri iş yerindən ayırmadan, distant formada "Zoom" proqramı vasitəsi ilə və canlı vaxt rejimində həyata keçirilmişdir.

Təlimə 19 inzibati ərazi vahidində ibtidai istintaq sahəsində xidmət edən polis orqanlarının 13 bölmə (şöbə) rəisi, 8 baş müstəntiqi və 38 müstəntiqi dinləyici qismində cəlb olunmuş, tədbirdə təlimçi qismində isə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Dövlət ittihamının müdafiəsi, Daxili işlər orqanlarının, habelə Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarələrinin peşəkar işçiləri iştirak etmişlər.

Təhlil materiallarından və müasir informasiya-kommunikasiya texnologiyalardan geniş istifadə etməklə, təlim çərçivəsində dinləyicilərə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı milli mübarizə strategiyası, bu sahədə olan problemlərin mahiyyəti və aktuallığı, xarici ölkələrin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə təcrübəsi, bu növ cinayətlərin tövsifi məsələləri və istintaq metodikası tədris edilmişdir.

## Prokurorluq orqanlarında qulluğa qəbulla bağlı elan olunmuş müsabiqəyə yekun vurulmuşdur

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş «Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə»yə müvafiq olaraq prokurorluq orqanlarına işə qəbul olunmaq istəyən şəxslər üçün elan edilmiş müsabiqəyə yekun vurulmuşdur.

Müsabiqənin sonuncu mərhələsinə buraxılmış 86 namizədin dünyagörüşünü, məntiqi düşünmə qabiliyyətini, prokurorluqda işləmək üçün zəruri olan digər şəxsi keyfiyyətlərini müəyyən etmək üçün koronavirus pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi xüsusi karantin rejiminə dair qaydaların tələblərinə riayət edilməklə 2022-ci il dekabrın 5-dən 13-dək Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən müsahibə keçirilmişdir.

Müsabiqənin nəticələrinə görə yüksək nəzəri bilikləri, hüquqi aktları düzgün tətbiq etmək bacarığı və mövcud vakant ştat vahidlərinin sayı nəzərə alınmaqla, prokurorluğun kadr korpusunun komplektləşdirilməsinin təmin edilməsi məqsədilə müsabiqə üzrə elan edilmiş vakant yerlərin sayı Baş Prokurorluğun Kollegiyasının 13 dekabr 2022-ci il tarixli qərarına əsasən artırılaraq 57 ştat vahidi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun «İşin Təşkili Qaydaları»na əsasən müsabiqə üzrə müvəffəqiyyət qazanmış 57 namizəd 15 dekabr 2022-ci il tarixdən Baş Prokurorluğun Elm-Tədris Mərkəzində (Bakı şəhəri Binəqədi rayonu Dərnəgül yaşayış sahəsi 21-ci Dağlıq küçəsi 3105-ci məhəllə) icbari təlimə cəlb edilmişlər. İcbari təlimi müvəffəqiyyətlə başa vurduqdan sonra peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə almış gənc mütəxəssislər prokurorluq orqanlarında müvafiq vakant ştat vahidlərinə təyin ediləcəklər.

Müvəffəqiyyət əldə etmiş namizədlərdən 6 nəfəri Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda aparılmış Vətən Müharibəsinin iştirakçısı olmaqla müxtəlif medallarla təltif edilmişdir.

## Prokurorluğa qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlərin icbari təlimi başlanmışdır






Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi prokurorluq orqanlarında nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir.

Bu tədbirlərin ən mühüm nəticələri sırasında prokurorluğa qulluğa qəbul olunmaq üçün müvəffəqiyyət qazanmış namizədlərin icbari təliminin məhz Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin maddi-texniki, resurs bazası hesabına təşkil edilməsi xüsusi olaraq qeyd olunmalıdır.















Belə ki, 2022-ci ildə prokurorluğa ilk dəfə qulluğa qəbul olunmaq üçün müsabiqədən müvəffəqiyyətlə keçmiş 57 namizədin cari ilin dekabr ayının 15-də Mərkəzdə əyani şəkildə icbari təliminə başlanılmışdır.

Tədbirin keçirilməsi ilə əlaqədar Mərkəz tərəfindən aktuallığı ilə seçilən, dinləyicilərdə ilkin peşə vərdişlərinin formalaşmasına töhfə verəcək mövzuları əhatə edən təlimin tədris proqramı və tədris-tematik planı tərtib edilmişdir.

Tədris proqramı cinayət hüququ, cinayət prosesi, inzibati hüquq, kriminalistika, prokuror nəzarətinin təşkili, Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququ sahələrini, habelə Baş Prokurorluqda işin təşkili məsələlərini əhatə edən 60-dan artıq mühazirə və praktiki məşğələləri özündə ehtiva edir.

Təlimə prokurorluq, ədliyyə və səhiyyə orqanlarının təcrübəli işçiləri ilə yanaşı Baş prokuror yanında Elmi-Məsləhət Şurasının üzvləri təlimçi qismində cəlb olunurlar.

Peşə biliklərin yiyələnməsində praktiki təcrübənin əhəmiyyəti nəzərə alınaraq, təlim çərçivəsində dinləyicilər Bakı şəhərinin tabe rayon prokurorluqlarında keçirilən istintaq hərəkətləri real şəraitdə müşahidə etmişlər.

İcbari təlim üzrə tədris tədbirləri davam etməklə, təlimin 9 yanvar 2023-cü ildə başa çatdırılması nəzərdə tutulub.

# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Açıq qapı günü" təşkil edilib





Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq Baş Prokurorluq tərəfindən növbəti "Açıq qapı günü" təşkil edilib.

Oktyabrın 28-də Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında keçirilmiş tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə gənc hüquqşünasları tanış etmək olub.

Tədbirdə Bakı Dövlət və "ADA" universitetlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik, Milli Aviasiya, Dövlət Gömrük Komitəsi akademiyalarının hüquq fakültələrində təhsil alan tələbələri iştirak edib.

Qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılıb,





habelə iştirakçılara ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla görülmüş işlər, habelə Azərbaycan Respublikasının Prokurorluğunda müvafiq olaraq həyata keçirilmiş hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat verilib.





Tədbir zamanı Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müvafiq idarələrin fəaliyyəti barədə dinləyicilərə ətraflı danışılıb.

İştirakçılara xarici təhsil müəssisələrində biliklərə yiyələnməklə hazırda prokurorluq orqanlarında xidmət keçən əməkdaşlar barədə məlumat verilib, son dövrlərdə xaricdə ali hüquqi təhsil almış gənc hüquqşünaslar tərəfindən prokurorluq orqanlarına xidmətə qəbul olunmaq üçün maraq göstərildiyi vurğulanıb.

İştirakçılara ağır, çətin və şərəfli peşə olan prokurorluq əməkdaşının gündəlik həyat tərzindən bəhs edən "Valideynimin peşəsi" adlı qısa metrajlı filmi nümayiş olunub.

Gənc hüquqşünaslar inzibati bina, eləcə də kriminalistik texnika ilə əyani olaraq tanış olub, onları maraqlandıran məsələlərlə bağlı ətraflı məlumat verilib, onlarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

Sonda xatirə fotoşəkli çəkdirilib.





# Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "9 dekabr – Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə Günü"nə həsr olunmuş dəyirmi masa keçirilmişdir









Cari ilin 9 dekabr tarixində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Milli Məclis, Elm və Təhsil Nazirliyi, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, Vəkillər Kollegiyası, Auditorlar Palatası, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası, Sosial Tədqiqatlar Mərkəzi, habelə vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirakı ilə "9 dekabr-Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə günü"nə həsr olunmuş dəyirmi masa keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Baş prokurorun müavini – Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov ölkəmizdə mövcud qəti siyasi iradəyə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində aparılan sistemli islahatların müsbət nəticələrindən bəhs etmişdir. Habelə, ötən dövr ərzində qəbul edilmiş dövlət proqramlarının effektiv icrası nəticəsində qanunvericilik








və institutsional mexanizmlərin təkmilləşdirilməsi məsələlərinə də toxunan Baş İdarə rəisi görülmüş tədbirlər nəticəsində dövlət idarəçiliyində elektron xidmətlərin inkişaf etdirilməsi, vətəndaş-məmur münasibətlərində şəffaflığın artırılması, ixtisaslaşmış qurumların fəaliyyətinin daha da optimallaşdırılması barədə də geniş məlumat vermişdir.

Daha sonra dəyirmi masada çıxış edən Elm və Təhsil Nazirinin müavini Firudin Qurbanov, Milli Məclisin deputatı Kamal Cəfərov, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Ramin Vəlizadə və digər natiqlər tərəfindən korrupsiyaya qarşı mübarizənin müxtəlif aspektlərinə toxunulmaqla bu sahədə təmsil etdikləri qurumların rolu və müsbət təcrübələri barədə təqdimatlar edilmiş, qeyd edilən mövzu ətrafında bir sıra səmərəli təkliflər səsləndirilmişdir.

Müzakirələr zamanı bu sosial bəlanın bütün mənfi təsirlərini dəf etmək üçün hər bir dövlət orqanı və vətəndaş cəmiyyətinin bundan sonra da sıx əlaqəli formada fəaliyyət göstərməsinin labüdlüyü qeyd edilmişdir.

Tədbirin sonunda Baş Prokurorluq və Elm və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə orta məktəb şagirdləri arasında keçirilmiş “9 dekabr-Beynəlxalq Korrupsiyaya Qarşı Mübarizə günü”nə həsr olunan “Korrupsiyaya yox deyək!” adlı Respublika rəsm müsabiqəsinin qalib və fərqlənən iştirakçılarının təltifetmə mərasimi keçirilmiş və onların müəllifi olduqları işlər sərgilənmişdir. Mərasimdə Azərbaycan Rəssamlar İttifaqının sədr müavini, Xalq rəssamı Ağəli İbrahimov və digər sənətkarlar da iştirak etmişdir.

# İşğaldan azad olunmuş ərazilərdə kütləvi məzarlıqlar aşkar edilib



Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti, yüksək sərkərdəlik məharəti, birinci xanım Mehriban Əliyevanın dəstəyi, xalqın dəyanəti, əzmkarlığı, hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində 30 ilə yaxın müddətdə işğal altında qalan tarixi torpaqlarımız hərbi və siyasi-diplomatik yolla azad olunub.

İşğaldan azad edilmiş torpaqlarda, o cümlədən Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Ağdam rayonunun Sırxavənd kəndləri, eləcə də Xocalı rayonunun Fərrux kəndində və digər ərazilərdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər aidiyyəti qurumların nümayəndələri ilə birlikdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində kütləvi məzarlıqlar aşkarlanıb.

Azərbaycan Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 115.4-cü, 120.2.7-ci, 120.2.12-ci və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan 450-dən artıq insan meyitinin qalıqları çıxarılaraq ekshumasiya edilib. Həmin meyit qalıqları ilə bağlı 300-ə yaxın məhkəmə-tibbi və 280-dən artıq molekulyar-genetik ekspertizaları təyin olunaraq icraya yönəldilib. Eləcə də şahidlər dindirilib və digər zəruri istintaq-əməliyyat tədbirləri yerinə yetirilib.

Baş prokurorun müavini – Azərbaycanın hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev bu il oktyabrın 26-da qeyd olunan ərazilərə gedərək həmin cinayət işinin istintaqının gedişatı ilə yerində maraqlanıb, müvafiq tövsiyələr və tapşırıqlar verib. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.





# Hərbi Prokurorluqda "Müzəffər Ali Baş Komandan və qalib xalq" mövzusunda elmi-praktiki konfrans keçirilib







"8 Noyabr – Zəfər Günü" münasibətilə Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda 04.11.2022-ci ildə Milli Məclisin deputatlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Müdafiə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və DİN-nin Daxili Qoşunlarının Vətən Müharibəsində iştirak etmiş hərbi qulluqçuları, o cümlədən qaziləri ilə görüş keçirilmiş, "Müzəffər Ali Baş Komandan və qalib xalq" mövzusunda elmi-praktiki konfrans təşkil olunmuşdur.

Tədbirdən öncə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, nəhəng tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, dahi insanın parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Əvvəlcə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin müqəddəs və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla anılıb, qazilərə şəfa diləyiblər.

Tədbiri açıq elan edən Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasim iştirakçılarını, bütün qaziləri və şəhid ailələrini 8 Noyabr – Zəfər Günü münasibətilə təbrik edərək onlara xoş arzularını ifadə edib. Hərbi prokuror bildirib ki, müasir Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin mükəmməl siyasətini zamanın tələblərinə uyğun uğurla davam etdirən Prezident İlham Əliyevin zəngin elmi bilikləri, dərin düşüncəsi, uzaqgörən siyasi strategiyası, sarsılmaz qətiyyəti, yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin, dəyanətinin və əzmkarlığının vəhdəti sayəsində bütün dünyada baş verən neqativ proseslərə rəğmən dövlətimiz qüdrətlənir, işğaldan azad edilmiş ərazilərimiz də daxil olmaqla regionlarımız hərtərəfli inkişaf edir və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı uğurla təmin olunur. Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin qeyd edib ki, ölkəmizin dinamik tərəqqisində və qazanılan ardıcıl uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hərtərəfli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Ölkəmizin sürətli inkişafının Silahlı Qüvvələrin qüdrətlənməsinə də rəvac verdiyini deyən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, son illər Prezident, Ali Baş Komandan İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində Silahlı qüvvələrimizin maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, arsenalı ən müasir silah-sursat, hərbi texnika və digər avadanlıqlarla daha da zənginləşdirilib, həmçinin hərbçilərin sosial vəziyyəti davamlı yaxşılaşdırılıb, mənəvi-psixoloji hazırlıq səviyyəsi və döyüş əhval-ruhiyyəsi artırılıb, bir sözlə müasir tələblərə tam cavab verən, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Azərbaycan Silahlı Qüvvələri formalaşıb. Təsadüfi deyildir ki, "Global Firepower" hərbi-analitika təşkilatının dünya ölkələri ordularının gücü ilə bağlı hazırladığı son hesabatlarda ardıcıl olaraq hər il Azərbaycan Ordusu Cənubi Qafqaz regionunun ən güclü ordusu reytinqini qoruyub saxlayıb. Qeyd olunanlar hərbi uğurlarımızı şərtləndirib və nəticədə düşmənin 2020-ci il sentyabrın 27-dən başlayaraq törətdikləri növbəti təxribatlarının qarşısının alınması zamanı gedən döyüşlərdə





müdrik və qətiyyətli Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri öz qüdrətini və yüksək döyüş hazırlığını, hərbçilərimiz isə peşəkarlığını və qəhrəmanlığını əyani şəkildə sübut edərək zəfərlərimizi və 44 günlük haqq savaşındakı möhtəşəm qələbəmizi təmin ediblər. Vətən müharibəsindən bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə damlası düşmənin bütövlükdə vücudundan dəyərli olan qanları ilə şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşlarının xidməti vəzifələrini layiqincə icra etmələrindən danışaraq əldə olunan tarixi qələbəni Prezident-Xalq-Ordu birliyinin şərtləndirdiyini xüsusi qeyd edib. Hərbi Prokuror vurğulayıb ki, Ermənistanın sentyabr ayındakı növbəti təxribatlarının qarşısı alınarkən müşahidə edilən Silahlı Qüvvələrimizin gücü və hərbçilərimizin şücaəti bir daha sübut edib ki, Prezidentin dediyi kimi: "Dəmir yumruq yerindədir".

Ədliyyə general-leytenantı Xanlar Vəliyev, həmçinin qeyd edib ki, müharibə əlillərinin və şəhid ailələrinin sosial müdafiəsi və onların rifahının yaxşılaşdırılması daim dövlət siyasətinin prioritet istiqamətlərindən olub, bu istiqamətdə geniş dövlət dəstəyi mexanizmləri formalaşdırılıb. Qürurverici və sevindiricidir ki, ölkəmizdə şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilib, onlar müxtəlif növ dövlət təminatı ilə təmin ediliblər. Bu diqqət və qayğının təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Son illərdə ölkəmizdə şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin daha da gücləndirilməsi, o cümlədən bu qəbildən olan insanların sağlamlıq, reabilitasiya və yaşayış şəraitinin yaxşılaşdırılması üçün mühüm tədbirlər həyata keçirilib və bu istiqamətdə işlər uğurla davam etdirilir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də, şəhid ailələri üçün verilən prezident təqaüdünün artırılması məqsədi ilə qısa zaman ərzində ölkə rəhbərinin ard-arda bir neçə fərman və sərəncam imzalaması bu zümrədən olan insanlara göstərilən diqqət və qayğının bənzəri olmayan ən yüksək göstəricisi olub. Təsadüfi deyil ki, dövlətimizin başçısının 2018-ci il prezident seçkilərindən sonra imzaladığı ilk Fərman da şəhid ailələrinin sosial müdafiəsi ilə bağlı olub. Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın mütəmadi olaraq şəhid ailələri və müharibə əlilləri ilə görüşmələri, onların qayğı və problemləri ilə maraqlanmaları, onlara hərtərəfli dəstək göstərmələri, mənzil və avtomobillər təqdim etmələri bu qəbildən olan insanlara dövlət səviyyəsində verilən yüksək dəyərin və göstərilən böyük qayğının təzahürüdür.

Milli Məclisin deputatları Nizami Səfərov "Vətən müharibəsinin başlanmasını labüd edən hallar və məsələyə beynəlxalq hüquqi müstəvidə yanaşma", Aqil Abbas "44 günlük Vətən müharibəsində qələbəmizi şərtləndirən Prezident-Xalq-Ordu vəhdəti", İlham Məmmədov "Müdrik liderin qətiyyəti və mahir siyasi diplomatiyası sayəsində qazanılan möhtəşəm qələbə" və hüquq müdafiəçisi Əhməd Şahidov "Azərbaycanın haqlı mövqeyinin beynəlxalq aləmdə və dünya mediasında tanıdılması" mövzularında ətraflı çıxışlar ediblər və qarşılıqlı fikir mübadiləsi həyata keçirilib.

Daha sonra Müdafiə Nazirliyinin inspektorlar qrupunun inspektoru, ehtiyatda olan polkovnik Abdulla Qurbani və çıxış edən digər şəxslər Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan tarixi qələbədən, eləcə də 44 günlük döyüşlərdə Hərbi Prokurorluğun özünəməxsus rolundan, Silahlı Qüvvələrlə, o cümlədən Müdafiə Nazirliyi və aidiyyəti təşkilatlarla birgə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs ediblər. Eyni zamanda, çıxışçılar Vətən müharibəsində iştirak edən şəxslərə, o cümlədən qazilərə göstərilən diqqət və qayğıya görə Hərbi Prokurorluğun rəhbərinə və kollektivinə dərin minnətdarlıqlarını bildiriblər.

Sonda Hərbi prokuror Xanlar Vəliyev Vətən müharibəsində iştirak etməklə xidməti vəzifələrini layiqincə icra edən şəxslərə dərin təşəkkürünü bildirərək qeyd edib ki, Prezidentin müvafiq sərəncamları ilə Vətən müharibəsi iştirakçılarının mütəmadi olaraq müxtəlif orden və medallarla təltif edilməsi onların xidmətinə verilən yüksək dəyərin təcəssümüdür.

Ardınca Vətən müharibəsində iştirak edən şəxslərə hədiyyələr təqdim olunub, onlar isə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

# Hərbi Prokurorluqda xalqımızın Ümummilli Lideri, nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib

Dekabrın 8-də Hərbi Prokurorluqda xalqımızın Ümummilli Lideri, nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib.





Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, dünyaşöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla anılıb, böyük şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasimdə çıxış edərək qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə millətinə bağlı olan, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran, müstəqilliyə gedən yolumuzu və gələcəyimizi işıqlandıran dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən geniş danışıb.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, şərəfli ömrünü ölkəmizin hərtərəfli inkişafına və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ ulu öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə işlənib hazırlanıb. Onun istefa verdiyi vaxtdan, yəni 1987-ci ilin oktyabrından 1993-cü ilin iyun ayında növbəti dəfə hakimiyyətə qayıdışınadək olan dövrdə ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın tənəzzülə uğraması, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız dahi şəxsiyyət Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub. Ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb, bununla da Azərbaycan tərəqqi yoluna qədəm qoyub. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından söz açan ədliyyə general-leytenantı Xanlar Vəliyev həmin Sərəncamın və onun əsasında hazırlanan tədbirlər planlarının müddəalarının aidiyyəti qurumlar, o cümlədən Hərbi Prokurorluq orqanları tərəfindən böyük qürur və fərəh hissləri ilə uğurla icra olunacağına əminliyini ifadə edib.

Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə





dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 19 il ərzində ölkəmizdə müstəsna əhəmiyyətli nəhəng işlər görülüb, çoxşaxəli köklü islahatlar həyata keçirilib, bütün istiqamətlərdə misli görünməmiş uğurlar əldə olunub. Prezident İlham Əliyevin dərin zəkası, hərtərəfli bilikləri, mükəmməl rəhbərliyi, sarsılmaz qətiyyəti və gərgin əməyi sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm Qələbəmizi də şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib.

Millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyevin verdiyi bütün vədləri əməlləri ilə doğruldaraq, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirməklə xalqın sonsuz məhəbbətini qazandığını vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev dövlətimizin başçısının növbəti dəfə də vədinə əməl etməsindən, işğal altındakı tarixi ərazilərimizin azad olunmasından, bu şərəfli missiyanın həyata keçirilməsi zamanı müşahidə olunan bənzərsiz lider-xalq-ordu vəhdətindən, Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazmaqlarından ətraflı danışıb.

Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına və 44 günlük döyüş əməliyyatlarına rağmən, dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı bu gün də uğurla təmin edilir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində zəngin biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi, səmimiliyi və insanpərvərliyi ilə xalq məhəbbəti qazanmış Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Mehriban xanım Əliyevanın respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü nəhəng işlər dövlətimizin daha da güclənməsinə və xalqın rifahının yüksəlməsinə mühüm töhfələr verməkdədir.

Prezident İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü millətinə həsr edərək Vətən qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması ulu öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, böyük tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman dərin ehtiramla anılacaq.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Naxçıvanda məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların əl işlərindən ibarət sərgidə iştirak ediblər

Oktyabr ayının 4-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Naxçıvanda məhdud fiziki imkanlı şəxslərin və istedadlı qadınların əl işlərindən ibarət sərgi – satışda iştirak ediblər.

Naxçıvan Muxtar Respublikasında istedadlı qadınların və fiziki imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması diqqətdə saxlanılır. Məhdud fiziki imkanlı şəxslər və istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışların təşkil olunması onların sosial təminatı ilə yanaşı, həm də dəyərlərimizin yaşadılmasına xidmət edir.



Sentyabrın 28-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında məhdud fiziki imkanlı şəxslər və istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satış açılmışdır.

Heydər Əliyev Sarayında istedadlı qadınların və məhdud fiziki imkanlıların əl işlərindən ibarət sərgi-satışa ictimaiyyət nümayəndələri ilə yanaşı, ayrı-ayrı kollektivlərin də marağı böyükdür. Muxtar Respublika Prokurorluğunun əməkdaşları sərgi-satışla tanış olub, müxtəlif hədiyyəlik əl işləri alıblar.





Kollektivlərə sərgi-satışa çıxarılan əl işləri və rəsm əsərləri barədə məlumat verilib. Bildirilib ki, sərgi-satışa şəhər və rayonlarda yaşayan istedadlı qadınlar, həmçinin Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri, Heydər Əliyev Uşaq-Gənclər və Texniki Yaradıcılıq mərkəzlərinin qadın dərnək rəhbərləri və üzvləri, ali təhsil müəssisələrinin qadın tələbə və müəllimləri, Naxçıvan Biznes Mərkəzinin emalatxanasında çalışan qadınlar, məhkum qadınlar, eləcə də sərmayə kapitalı verilən qadınlar da olmaqla ümumilikdə 442 şəxsin 10 min 668 yaradıcılıq nümunəsi çıxarılıb.

Prokurorluq əməkdaşları Muxtar Respublikanın yeraltı və yerüstü sərvətlərindən hazırlanmış sənətkarlıq nümunələrinə xüsusi maraq göstərib, istedadlı qadınların əməyini yüksək qiymətləndiriblər.

# Naxçıvan Dövlət Universitetinin tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğun fəaliyyəti ilə tanış olublar

Oktyabr ayının 19-da Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan II kurs tələbələri Naxçıvan Muxtar Respublikası Prokurorluğunda olublar.







Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və Hüquq fakültəsinin hüquqşünaslıq ixtisası üzrə təhsil alan II kurs tələbələri prokurorluq orqanlarının iş prinsipi ilə tanış olublar.

Tələbələrlə görüşdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının əhəmiyyətindən danışıb.

Bildirilib ki, Sərəncamda nəzərdə tutulan vəzifələrin uğurlu icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda görüləcək işlərə dair təsdiq olunan tədbirlər planına əsasən hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr üçün seminar-məşğələlərin keçirilməsi, onların prokurorluqda istintaq olunan cinayət işləri üzrə ayrı-ayrı istintaq hərəkətlərinin aparılmasında iştirakının və kriminalistik texnikanın mövcud imkanlarından səmərəli istifadəsinin, dövlət ittihamçıları ilə birgə dövlət ittihamının müdafiəsi üzrə məhkəmələrdə iştirakının təmin olunması həyata keçirilir. Prokuror diqqətə çatdırıb ki, ötən dövrdə bu istiqamətdə xeyli iş görülüb və bu tədbirlər hazırda da davam etdirilir.

Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi Elman Abbasov Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə Naxçıvan Muxtar Respublikası Prokurorluğunda öz ixtisaslarını daha dərindən öyrənmələri üçün yaradılan şəraitə görə minnətdarlığını bildirib.

Tələbələr Muxtar Respublika Prokurorluğunun iş prosesləri ilə də tanış olublar. Prokurorluğun kriminalistik avtomaşınının və kriminalistik vasitələrin iş prinsipi, ifadənin yerində yoxlanılması qaydaları tələbələrə izah edilib. Həmçinin şübhəli şəxs qismində tutma, təqsirləndirilən şəxs qismində cəlbetmə və ittihamın elan edilməsi qaydaları slaydlar vasitəsilə tələbələrə çatdırılıb.

Sonra prokurorluq əməkdaşları tərəfindən tələbələrə startap, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət sahəsində prokurorluğun rolu, törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxılma qaydası haqqında məlumatlar verilib. Görüşdə həmçinin, hadisə yerinin müayinəsinin aparılması qaydası əyani şəkildə izah olunub, müxtəlif yerlərdən tozlandırma üsulu ilə əl-barmaq izlərinin götürülməsi qaydası göstərilib. Bundan əlavə, tələbələrə prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi də izah edilib, onları maraqlandıran suallar cavablandırılıb.

Tanışlıq zamanı prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları barədə tələbələrə məlumat verilib.

# Naxçıvan Muxtar Respublikası prokurorluq qurumlarının əməkdaşları Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər

Oktyabr ayının 30-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşları Naxçıvan şəhərində yerləşən Azərbaycanın milli rəsm sənətinin görkəmli simalarından olan, ilk realist fırça ustası Bəhruz Kəngərli Muzeyini ziyarət ediblər.



Muzeylə tanışlıq zamanı məlumat verilib ki, Bəhruz Kəngərli Muzeyi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılıb. 2002-ci il iyun ayının 18-də Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə muzeyin açılışı olub. 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bəhruz Kəngərlinin 120 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasında da bir sıra işlər görülüb, Bəhruz Kəngərlinin Azərbaycan Milli İncəsənət Muzeyinin fondunda saxlanılan bir çox əsərlərinin surəti çıxarılaraq Bəhruz Kəngərli Muzeyinə verilib. İlk dəfə olaraq rəssamın əsərlərinin tam külliyyatı albom-kataloq şəklində nəşr edilib. Eyni zamanda, muxtar respublikada yubiley münasibətilə poçt markası buraxılıb, görkəmli rəssamın həyat və fəaliyyətinə həsr olunmuş sənədli film hazırlanıb və Bəhruz Kəngərli Muzeyinin yerləşdiyi bina yenidən qurularaq 2013-cü ildə istifadəyə verilib. Bu gün muzeydə realist rəssamın zəngin irsinə aid yüzlərlə eksponat mühafizə olunur.

Bildirilib ki, 30 il ömür sürən Bəhruz Kəngərli zəngin irs qoyub, yeddi il yaradıcılıq fəaliyyəti ilə məşğul olsa da, 2 minə qədər rəsm əsəri yaradıb. O, realist portret və mənzərə rəsm yaradıcılığının, eləcə də Azərbaycan boyakarlığında realizmin əsasını qoymaqla Azərbaycan bədii sənət xəzinəsinə dəyərli nümunələr bəxş edib, onu yeni ictimai məzmun və janr, yeni təsvir metodu və ifadə vasitələri ilə zənginləşdirib. Azərbaycan boyakarlığında realizmin əsasını qoyan Bəhruz Kəngərlinin əsərlərində zəngin lirika, nikbin əhvali-ruhiyyə duyulur. Bu isə rəssamın vətənə, təbiət gözəlliklərinə bəslədiyi sönməz məhəbbətindən qaynaqlanır.

Diqqətə çatdırılıb ki, muzeyin saytı bu mədəniyyət ocağının ekspozisiyası ilə dünyanın istənilən yerindən tanış olmaq imkanı yaradır. Buna görə də həm Bəhruz Kəngərli Muzeyi, həm də Rəssamlar Parkı yerli sənətsevərlər, eyni zamanda, turistlərin mütəmadi ziyarət etdiyi məkanlardan biridir.





# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda fövqəladə hallardan qorunma və davranış qaydaları ilə bağlı tədbir keçirilib



Noyabr ayının 25-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda fövqəladə hallardan qorunma və davranış qaydaları ilə bağlı Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Təşkilat və icraya nəzarət şöbəsinin böyük prokuroru Razi Quliyev payız-qış mövsümünə hazırlıq və mülki müdafiə işinin təşkilindən danışıb.

Fövqəladə Hallar Nazirliyinin bölmə rəisi, mayor Vüqar Məmmədov əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində görülən işlərdən, eləcə də muxtar respublika ərazisində ehtimal olunan təbii və texnogen xarakterli fövqəladə hadisələr, bu zaman davranış qaydaları barədə məlumat verib, bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlərdən bəhs edib.

Digər çıxış edənlər fərdi yaşayış evlərində qaz və elektrik cihazlarından düzgün istifadə, ilkin yanğınsöndürmə vasitələrinin istismarından, eləcə də dəm qazı və yaranma səbəbləri, ondan qorunma yolları, zəhərlənmə zamanı davranış qaydalarından danışıblar. Vurğulanıb ki, qaz cihazlarından təlimata uyğun düzgün istifadə edilməməsi səbəbindən insan itkisi və xəsarət alması ilə nəticələnən partlayış, yanğın, zəhərlənmə kimi bədbəxt hadisələr baş verir. Bu cür fövqəladə hadisələrin baş verməməsi üçün yaşayış sahələrində standartlara uyğun olmayan qaz cihazlarından istifadə etmək qadağandır. Hər bir məişət qaz cihazının təhlükəsizlik qurğuları daim saz vəziyyətdə olmalı və onlardan istifadə zamanı müəyyən edilmiş təhlükəsizlik qaydalarına tam riayət edilməlidir.

Tədbirdə iştirakçıları maraqlandıran suallara da aydınlıq gətirilib, mövzularla bağlı slayd və videomaterial nümayiş olunub.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsi yad edilib



Dekabr ayının 9-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi anım mərasimi keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu barədə ətraflı məlumat verərək qeyd etdi ki,  Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin tərəqqi və inkişaf yolunu böyük uzaqgörənliklə müəyyənləşdirmiş, xalqımızın müstəqil dövlətçilik arzularını reallığa çevirmişdir. Azərbaycanda müstəqilliyin əbədi, daimi, dönməz xarakter alması, sabitliyin yaranması, milli-mənəvi yüksəlişə, sosial-iqtisadi inkişafa nail olunması ulu öndərin adı ilə bağlıdır.

1969-cu ildə birinci dəfə respublika rəhbərliyinə gələn Ümummilli Liderimiz sosial-iqtisadi böhran içində olan, geridə qalan Azərbaycanı qısa zamanda keçmiş ittifaqın ən qabaqcıl ölkələrdən birinə çevirdi. 1969-1982-ci illər Azərbaycanın tarixinə yüksəliş, tərəqqi və inkişaf dövrü kimi daxil olmuşdur. Müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin dövrdə təməli qoyulmuş potensiala əsaslanır. Ümummilli Liderimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi isə şərəfli xilaskarlıq və quruculuq missiyasına həsr edilmişdir. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşayan və fəaliyyət göstərən ulu öndər müstəqilliyimizin əsasını təşkil edən mühüm tarixi qərarlar qəbul etmiş, muxtar respublikanın erməni təcavüzündən xilas edilməsi, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görmüşdür. Üçrəngli bayrağımızın ilk dəfə 1990-cı il noyabrın 17-də ulu öndərin rəhbərliyi ilə Naxçıvanda qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsinə, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan uğurlu addımlar idi.

Ölkəmiz isə həmin illərdə bunun əksinə hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Belə bir dövrdə xalqımız ümid yeri kimi Ümummilli Liderimiz Heydər Əliyevə üz tutdu, nicatını onun hakimiyyətə qayıdışında gördü. Bu qayıdış Azərbaycanın Milli Qurtuluş tarixinin əsasını qoydu.

Qeyd olundu ki, ulu öndər 1969-cu ildə respublika rəhbərliyinə gəlişi ilə ölkədəki tənəzzülün qarşısını almışdırsa, 1993-cü ildə müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycanı fəlakətlərdən xilas etmişdir. Dahi şəxsiyyətin müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, qətiyyəti, iradəsi sayəsində dövlət müstəqilliyimiz sarsılmaz və dönməz xarakter almışdır. “İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin

iqtisadi-siyasi inkişafına xidmət olmuşdur", – deyən ulu öndər Heydər Əliyevin böyük ideyaları, amalları bu gün də Azərbaycanın yoluna nur saçır, xalqımızı xoşbəxt gələcəyə səsləyir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya kimi dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ulu öndərimizin apardığı siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Biz bu gün fəxrlə deyə bilərik ki, uzun illər həsrətində olduğumuz azadlığa, suverenliyə qovuşmuşuq. Ölkəmiz demokratik bir inkişaf yolu tutub, dünyanın nəhəng dövlətləri sırasında öz yeri, öz seçimi var. Heç şübhəsiz ki, bütün bunlar milli lider Heydər Əliyevin gərgin əməyi və gələcəyə hesablanmış uzaqgörən milli strategiyası hesabına olmuşdur. Heydər Əliyev həyatının mənasını canından artıq sevdiyi xalqına xidmətində görürdü. Hara baxırıqsa, Ümummilli Liderimizin yeri, izi görünməkdədir. Ölkəmizdə aparılan bütün tikinti-quruculuq işləri, iqtisadiyyatımızın inkişafı, peşəkar ordunun yaranışı, mədəniyyətimizin, incəsənətimizin yüksəlişi, məhkəmə-hüquq islahatları məhz onun adı ilə bağlıdır.

Qeyd olundu ki, 1995-ci il noyabrın 12-də Əsas Qanunumuz olan Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi Azərbaycanın dövlət və hüquq tarixində xüsusi yer tutan mühüm hadisələrdən biridir. Milli dövlətin formalaşmasında, hüquq sisteminin və milli qanunvericiliyin inkişafında Konstitusiyanın əhəmiyyəti əvəzsizdir. Müstəqil Azərbaycan Respublikasının milli prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı kimi yalnız və yalnız Heydər Əliyevin dövlətçilik siyasəti, qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

12 dekabr 2003-cü ildə Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyev əbədiyyətə qovuşdu. Ümummili liderimizi cismən bizdən ayıran ötən 19 ildə Azərbaycan cəmiyyəti və ümumilikdə bütün dünya onun şəxsiyyətinin əzəmətini bir daha aydın şəkildə dərk etmiş oldu. Milli lider Heydər Əliyevin böyüklüyü zamanın özü qədər hüdudsuz olduğundan bu adın əhatəsini tam təsəvvürə gətirmək insan təfəkkürünün imkanları xaricindədir. Vaxt bizi onun Tanrı dərgahına qovuşması tarixindən uzaqlaşdırdıqca bu əhatə zaman-zaman daha da genişlənəcək və bizlər nə vaxtsa Ümummilli Lider Heydər Əliyevlə eyni dövrdə yaşadığımıza görə yalnız qürur duyacağıq. Ulu öndər Heydər Əliyevin siyasi kursu – qürurlu keçmişin, uğurlu bu günün və xoşbəxt gələcəyin təməlidir. Bu gün Azərbaycanın müstəqilliyini qorumaq, ulu öndərin siyasətini dəstəkləmək, onun əbədiyaşar ideyalarını həyata keçirmək hər bir azərbaycanlının ən ümdə vəzifəsidir.

Bu gün Azərbaycanda əldə olunan nailiyyətlərin bir səbəbi var: o da inkişafın Heydər Əliyev modeli, Heydər Əliyev quruculuq xəttidir. Ümummilli Liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli siyasi xadim kimi ölkəmizi inamla daha xoşbəxt gələcəyə aparır. Ölkə Prezidentinin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətin nəticəsidir ki, ötən dövrdə Azərbaycan böyük inkişaf yolu keçmiş, sürətli tərəqqi yoluna qədəm qoymuşdur. İqtisadi, siyasi və hərbi sahədə güclü potensial yaradılmışdır. Görülən işlər nəticəsində iki il əvvəl Vətən müharibəsində 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımız 44 gün ərzində müzəffər ordumuz tərəfindən düşmən tapdağından azad olundu.

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən, 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilmişdir. Sərəncamda da qeyd olunur ki, "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyev siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidentı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Məruzə ətrafındakı çıxışlarda Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gördüyü möhtəşəm işlərdən danışıldı.

# Bakı şəhər prokurorluğunda "Açıq qapı günü" təşkil edilib

Gənc hüquqşünasların hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə olan marağını nəzərə alaraq noyabrın 11-də növbəti "Açıq qapı günü" təşkil edilib.

Bakı şəhər prokurorluğunun inzibati binasında keçirilmiş tədbirdə məqsəd prokurorluq əməkdaşları üçün yaradılmış iş şəraiti, istifadədə olan kriminalistik texnika, habelə prokurorluğun tarixi keçmişi ilə gənc hüquqşünasları tanış etmək olub.

Tədbirdə Bakı Dövlət və "ADA" universitetlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik, Milli Aviasiya, Dövlət Gömrük Komitəsi akademiyalarının hüquq fakültələrində təhsil alan tələbələri iştirak edib.

Qonaqlara prokurorluq orqanlarında aşkarlıq və şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunması, habelə ictimaiyyətlə əlaqələrin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər barədə danışılıb, habelə Azərbaycan Respublikasının Prokurorluğunda müvafiq olaraq həyata keçirilmiş hüquqi-institusional islahatlarla bağlı iştirakçılara məlumat verilib.

Tədbir zamanı Bakı şəhər prokurorluğunun bir neçə struktur qurumunun təcrübəli əməkdaşları tərəfindən müvafiq qurumun fəaliyyəti barədə dinləyicilərə ətraflı danışılıb.

Həmçinin, iştirakçılara xarici təhsil müəssisələrində biliklərə yiyələnməklə hazırda prokurorluq orqanlarında xidmət keçən əməkdaşlar barədə məlumat verilib, son dövrlərdə xaricdə ali hüquqi təhsil almış gənc hüquqşünaslar tərəfindən prokurorluq orqanlarına xidmətə qəbul olunmaq üçün maraq göstərildiyi vurğulanıb.

Gənc hüquqşünaslar inzibati bina, eləcə də kriminalistik texnika ilə əyani olaraq tanış olub, onları maraqlandıran məsələlərlə bağlı ətraflı məlumat verilib, onlarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb. Sonda xatirə fotoşəkli çəkdirilib.







# Baş Prokurorluq tərəfindən beynəlxalq əməkdaşlıq sahəsində əlaqələr uğurla inkişaf etdirilir

Prokurorluq əməkdaşlarının peşə hazırlığının yüksəldilməsi, onlar tərəfindən beynəlxalq təcrübənin öyrənilməsi və əldə edilmiş biliklərin təcrübədə tətbiq edilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə prokurorluq əməkdaşlarının təlim kurslarında, treninqlərdə, o cümlədən beynəlxalq tədbirlərdə iştirakı təmin olunur.

Belə tədbirlərin davamı olaraq, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Yelena Qasımova cari ilin 5-7 oktyabr tarixlərində Çexiyanın Telç şəhərində "Regionlarda Kibertəhlükəsizlik və Dayanıqlılıq üçün Rəqəmsal Tərəfdaşlıq" mövzusunda keçirilmiş konfransda iştirak edib.

Konfrans Çex Respublikasının Avropa İttifaqı Şurasına sədrliyi ilə əlaqədar Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində Çex Respublikasının Xarici İşlər Nazirliyi, Regional İnkişaf Nazirliyi və Milli İnformasiya Təhlükəsizliyi Agentliyi tərəfindən təşkil edilib.

Dörd əsas sessiyadan ibarət tədbir zamanı Avropa ölkələrində kibertəhlükəsizlik sahəsində hazırkı vəziyyət, kiber təhdidlər və kiber hücumlar, onlarla mübarizə üsulları, kibertəhlükəsizlik və kiberdavamlılıq sahəsində potensialın artırılması üzrə təcrübə mübadiləsi, bu sahədə beynəlxalq tərəfdaşlığın gücləndirilməsi və sair məsələlər müzakirə olunub.

Konfransda Fransa, Çexiya, İsveç, Estoniya, Moldova, Gürcüstan, Azərbaycan, Ukrayna və bir sıra digər ölkələrin dövlət orqanlarının nümayəndələri və bu sahədə mütərəqqi təcrübəyə malik ekspertləri iştirak ediblər.

# Baş Prokurorluğun nümayəndə heyəti İtaliyanın paytaxtı Roma şəhərinə təşkil edilmiş təlim səfərində olmuşlar

19-21 oktyabr tarixlərində İtaliyanın paytaxtı Roma şəhərində Avropa Komissiyasının Texniki Yardım və İnformasiya Mübadiləsi Proqramı (TAİEX) çərçivəsində İtaliya Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində səlahiyyətli orqanların əməkdaşlığı: aktual çağırışlar və müasir yanaşma" mövzusunda təlim səfəri keçirilmişdir.

Səfərdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin böyük prokuroru Elmir Zeynalov və İstintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Teymur Qarayevin tərkibində nümayəndə heyəti iştirak etmişdir.

Nümayəndə heyətini qəbul edən İtaliyanın Ədliyyə naziri Marta Kartabia ölkələrimiz arasında zəngin tarixi və mədəni irsə köklənən dostluq münasibətlərinin mövcudluğunu vurğulayaraq baş tutan səfərin qarşılıqlı hörmət və etimada əsaslanan ikitərəfli əlaqələrin inkişafına töhvə verəcəyini qeyd etmişdir.

Daha sonra Ədliyyə Nazirliyin Beynəlxalq əlaqələr və hüquqi əməkdaşlıq Baş idarəsinin rəisi Stefano Opilio ilə ikitərəfli görüş keçirilmiş, cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım və ekstradisiya sahəsində ikitərəfli əlaqələrin genişlənməsinin zəruriliyi vurğulanmışdır.

Səfər çərçivəsində İtaliyanın Ədliyyə, Daxili İşlər Nazirlikləri və Baş Prokurorluğun nümayəndələri tərəfindən cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım sahəsində rəqəmsal alətlərin istifadə olunması, cinayət yolu ilə əldə olunmuş əmlakın bərpası və idarə olunması mövzularında təqdimatlar keçirilmiş, həmçinin tərəflər üçün maraq kəsb edən digər məsələlər üzrə də qarşılıqlı fikir mübadiləsi aparılmışdır.






# Beynəlxalq Qızıl Xaç Komitəsinin təşkil etdiyi beynəlxalq təlimdə prokurorluq işçiləri iştirak etmişlər

2022-ci ilin oktyabrın 21-də Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı Nümayəndəliyi tərəfindən təşkil edilmiş Beynəlxalq humanitar hüquq (BHH) pozuntularının araşdırılmasına cəlb olunmuş hüquq ekspertlərin iştirakı ilə hakimlər, prokurorlar və Azərbaycan Respublikası İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) aparatının əməkdaşları üçün bir günlük təlim keçirilmişdir.



Bakı şəhərində yerləşən “Park İnn” otelində təşkil olunmuş sözügedən tədbirdə Baş Prokurorluğun və Hərbi Prokurorluğun əməkdaşları iştirak edərək, Baş Prokurorluğun Elm-Tədris Mərkəzini Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin böyük prokuroru Nigar Əskərova təmsil etmişdir.



Təlim zamanı “Beynəlxalq Humanitar Hüquq Pozuntularının Araşdırılması üzrə Qaydalar”ın təqdimatı həyata keçirilmiş və iştirakçılar sözü gedən sənədin araşdırmalar zamanı tətbiq edilməsi ilə bağlı qrup məşğələlərinə cəlb edilmişlər. BQXK və Beynəlxalq Humanitar Hüquq və İnsan Hüquqları üzrə Cenevrə Akademiyası tərəfindən dərc edilmiş bu Qaydalar beynəlxalq humanitar hüququn pozuntuları üzrə aparılan araşdırmalar zamanı tətbiq olunan prinsip və standartlara aydınlıq gətirmək məqsədi daşımışdır.



# Prokurorluq orqanlarının xarici tərəfdaşlarla əməkdaşlığına dair sazişlərin icrası istiqamətində tədbirlər davam etdirilir





Cari ilin 20 oktyabr tarixində ölkəmizə işgüzar səfərdə olan İran İslam Respublikasının Baş Təftiş Təşkilatının sədr müavini Əhməd Rəhmaniyanın başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ikitərəfli görüş keçirilmişdir.

Qonaqları salamlayan Baş prokurorun müavini-Baş İdarə rəisi Nazim Rəcəbov onlara ölkəmizdə qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korrupsiyaya qarşı mübarizə üzrə həyata keçirilən sistemli islahatların müxtəlif aspektləri barəsində geniş məlumat vermiş, bu istiqamətdə görülmüş işlər çərçivəsində mütərəqqi hüquqi-institusional yeniliklərdən, vətəndaşlara xidmət sektorunda innovativ həlləri özündə ehtiva edən “ASAN xidmət” və “DOST” mərkəzlərinin fəaliyyətindən bəhs etmişdir. Çıxışda həmçinin, antikorrupsiya sahəsində ixtisaslaşmış qurumların fəaliyyətinə də toxunulmuş, prokurorluq orqanlarında aparılmış köklü islahatlar kontekstində Baş İdarənin əldə etdiyi müsbət təcrübələrə dair məlumatlar xarici nümayəndələrin diqqətinə çatdırılmışdır.

İkinci Qarabağ müharibəsi nəticəsində ölkəmizin əldə etdiyi parlaq qələbəyə də toxunan Nazim Rəcəbov həmçinin əlavə etmişdir ki, işğaldan azad edilən ərazilərin inkişafı, milli iqtisadiyyata sürətli inteqrasiyası, orada ən müasir infrastrukturun qurulması hazırda dövlətimizin başlıca prioritetlərindən biri hesab olmaqla, həmin iqtisadi zonalarda şəffaf və əlverişli investisiya mühiti formalaşdırılmışdır.

Səmimi qəbula görə minnətdarlığını bildirən İran İslam Respublikasının Baş Müfəttişliyi Təşkilatının sədr müavini Əhməd Rəhmaniyan Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən islahatları yüksək dəyərləndirmiş, çoxəsrlik dostluq əlaqələrinə malik olan ölkələrimiz arasındakı bu sıx münasibətlərin cinayətkarlığa qarşı mübarizə baxımından da səmərəli olacağından əminliyini ifadə etmişdir. Eyni zamanda təmsil etdiyi ölkədə korrupsiya cinayətlərinin istintaqı və məhkəmə baxışı ilə əlaqədar tətbiq edilən yeni prosessual qaydalar və bu sahədə aparılan elmi tədqiqat işləri barədə məlumat verən xarici nümayəndə heyətinin rəhbəri tərəflərin əldə etdikləri bu uğurlu nümunələrin qarşılıqlı mübadiləsinin əhəmiyyətini qeyd etmişdir.

Görüşün davamında 2018-ci ildə iki qurum arasında imzalanmış “Korrupsiyaya qarşı mübarizənin qarşısının alınması haqqında” Anlaşma Memorandumunun icra vəziyyəti müzakirə edilmiş, əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi fonunda həmin sənəddə əks olunmuş müddəaların gələcək perspektivləri istiqamətində fikir mübadiləsi aparılmışdır.





Sonda qonaqlar Baş İdarənin müasir inzibati binasında yaradılmış səmərəli əmək şəraiti ilə tanış olmuş, qurumun informasiya-kommunikasiya və kriminalistik təchizatı, habelə digər elmi-texniki imkanları barədə məlumatlandırılmışlar.

# Cinayət aktivlərinin bərpası sahəsində beynəlxalq əməkdaşlıq davam etdirilir






18-21 oktyabr 2022-ci il tarixlərində İspaniyanın Madrid şəhərində Aktivlərin Bərpası üzrə Kemden Qurumlararası Şəbəkəsinin (CARIN) 2022-ci il üzrə 18-ci Ümumi Yığıncağı keçirilmişdir. Baş Prokurorluğun Xüsusi Müsadirə Məsələlərinin Əlaqələndirilməsi İdarəsinin rəisi Vüqar Əliyev və idarə prokuroru Əhməd Həsənov aktivlərin bərpasında dövlət-özəl sektor əməkdaşlığı, aktivlərin idarə edilməsi orqanlarının yaradılmasına ehtiyac olan yurisdiksiyaları dəstəkləmək məqsədi ilə bu sahədə ən yaxşı təcrübələrinin öyrənilməsi və cinayət aktivlərinin bərpasında əməkdaşlığın artırılması mövzularına həsr olunmuş tədbirdə iştirak etmişlər.

CARIN şəbəkəsi aktivlərin bərpası sahəsində hüquq-mühafizə orqanlarının ixtisaslaşmış qeyri-rəsmi şəbəkəsi olmaqla, üzv dövlətlərə xarici ölkələrdə yerləşən cinayət aktivləri barədə məlumatların təqdim edilməsi və onların qaytarılmasına dəstək göstərmək vəzifəsi daşıyır və bu sahədə mühüm platforma hesab olunur. Azərbaycan Respublikası 2021-ci ilin aprel ayında adıçəkilən Şəbəkəyə müşahidəçi qismində üzv olmuş və Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin prokuroru həmin Şəbəkəyə əlaqələndirici şəxs kimi təyin edilmişdir.

Qeyd edilən tədbirdə CARIN şəbəkəsinə 27 üzv və müşahidəçi qismində qəbul edilmiş ölkələrin ümumilikdə 54 nümayəndəsi, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Regionlararası Cinayət və Ədliyyə Araşdırma İnstitutu və Dünya Bankı kimi nüfuzlu beynəlxalq təşkilatların əməkdaşları dinləyici qismində iştirak etmişlər.

Tədbirdə həmçinin Amerika Birləşmiş Ştatlarının Marşal Xidməti, Belçika Krallığının Həbs və müsadirə üzrə mərkəzi ofisi, Avropa Komissiyası, “Eurojust”, “Europol”, Avropa Prokurorluğu, İspaniyanın Aktivlərin Bərpası və İdarə edilməsi ofisi, Aktivlərin Bərpası üzrə Qurumlararası Şəbəkəsi Şərqi Afrika (ARİN-East Africa) ofisi, Karib dənizi (ARİN-CARİB) ofisi, Qərbi Afrika (ARİN-West Africa) ofisi, Cənubi Afrika (ARİNSA), Qərbi və Mərkəzi Asiya (ARİN-WCA), Asiya Sakit Okean (ARİN-Asia Pacific) ofisinin əməkdaşları ekspert qismində iştirak edərək iştirakçılarla aktivlərin bərpası sahəsində öz təcrübələri ilə bölüşmüşlər.

Görüşlər zamanı ekspertlər aktivlərin bərpası sahəsində effektiv nəticəyə nail olunması üçün xüsusən maliyyə istintaqı institutunun tətbiqi, cinayət yolu ilə əldə edilmiş əmlakın dərhal dondurulması, məlumat bazalarına sürətli çıxışın təmin olunmasının vacib olduğunu bildirmişlər.

Tədbirin yekununda Rumıniya dövlətinin Dondurulmuş aktivlərin idarə olunması üzrə milli agentliyin əməkdaşı Andrea Tirlea CARİN şəbəkəsinə yeni katib seçilmiş və CARIN şəbəkəsinə növbəti sədrliyin Amerika Birləşmiş Ştatlarına verilməsi, növbəti il üçün yekun tədbirinin isə Belçika Krallığının Brüssel şəhərində keçirilməsi qərara alınmışdır.

# Prokurorluğun beynəlxalq təşkilatlarla qarşılıqlı əməkdaşlığı uğurla davam etdirilir

Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair qarşıya qoyulmuş hədəflərə uyğun olaraq Azərbaycan Respublikasının prokurorluq orqanları bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Belə ki, cari ilin 19-21 oktyabr tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin Hüquq-Mühafizə Orqanları Şəbəkəsinin növbəti 12-ci iclası keçirilmişdir.

Türkiyə, ABŞ, Belçika, Polşa, Rumıniya və digər ölkələrin nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru Zeynal Zeynalov və Baş İdarənin Əməliyyat idarəsinin mühüm işlər üzrə əməliyyatçısı Orxan Qazızadə təmsil etmişlər.

Görüşdə «COVİD-19» pandemiyası və digər fövqəladə hallar fonunda baş vermiş korrupsiya hallarının aşkar edilməsi, araşdırılması və təqib edilməsi zamanı əsas tendensiyalar, çətinliklər, müxtəlif ölkələrdə bu sahədə fəaliyyət göstərən qurumlar arasında qarşılıqlı əməkdaşlıq, iri infrastruktur layihələri və dövlət satınalmalarında korrupsiyanın qarşısının alınması ilə bağlı tədbirlər, korrupsiya hüquqpozmalarının müəyyən edilməsinin müxtəlif mənbələri, həmin qəbildən olan hüquqpozmalara qarşı mübarizədə jurnalistlərin rolu və digər məsələlər barədə ətraflı müzakirələr aparılmışdır.




Sözügedən müzakirələr zamanı çıxış edən nümayəndələrimiz tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış nəticəyönümlü islahatlar, habelə Azərbaycan Respublikası Prokurorluğunun korrupsiya cinayətlərinin istintaqı sahəsində mövcud təcrübəsi barədə məlumat verilmişdir.



# Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb

Prokurorluq orqanlarının mövcud beynəlxalq əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli formatlar çərçivəsində yeni əlaqələrin qurulması hər zaman diqqət mərkəzində saxlanılır.

Baş Prokurorluğun müxtəlif struktur qurumlarını təmsil edən nümayəndə heyətlərinin tərəfdaş ölkələrin prokurorluq və digər hüquq mühafizə orqanlarının fəaliyyəti ilə yaxından tanış olmaq məqsədilə xarici ölkələrə səfərləri müsbət iş təcrübəsinin mənimsənilməsi, peşə vərdişlərinin daha da inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Cari ilin 1 noyabr tarixində Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Özbəkistan Respublikasının Baş Prokurorluğu arasında imzalanmış Əməkdaşlıq Proqramı çərçivəsində bir qrup prokurorluq əməkdaşı Özbəkistanın Daşkənd şəhərinə səfər edib.

Səfərdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov, həmin Mərkəzin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyev, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru İlkin Abdullayev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Teymur Aşurov və Dövlət ittihamının müdafiəsi üzrə idarənin Kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi







və analitik təhlil şöbəsinin prokuroru Yaqut Əliyevadan ibarət nümayəndə heyəti təmsil edib.

Səfər çərçivəsində Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzi ilə Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.

Memorandum hər iki qurum arasında geniş imkanlar açmaqla, birgə təlim proqramlarının hazırlanması və həyata keçirilməsində qarşılıqlı maraq kəsb edən əməkdaşlığı, hüquq elminin və təcrübəsinin aktual məsələləri üzrə qarşılıqlı məsləhətləşmələrin aparılmasını, dövlətlərimizin prokurorluq orqanlarının fəaliyyətinin aktual problemləri, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi, habelə cinayətkarlığa qarşı mübarizə üzrə birgə elmi araşdırmaların təşkili və aparılması üçün tərəfdaşlıq tədbirlərini nəzərdə tutur.





İmzalanma mərasimində iştirak edən Özbəkistan Respublikası Baş prokurorunun müavini Svetlana Artıkova nümayəndə heyətimizi salamlayaraq qurumlarımız arasında olan əməkdaşlığın surətlə inkişaf etdiyini, habelə hüquqi sahədə əməkdaşlığın geniş perspektivlərə malik olduğunu vurğulayaraq, imzalanmış Memorandumun ölkələrimizin prokurorluq orqanları arasında əməkdaşlığın genişlənməsinə, qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyini bildirib.

Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov yüksək qonaqpərvərliyə və səmimi qəbula görə həmkarına minnətdarlığını ifadə edərək, tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də müvəffəqiyyətlə inkişaf etdirildiyini, qurumlarımız arasında olan sıx münasibətlərin təzahürü olaraq intensiv qarşılıqlı səfərlərin gerçəkləşdiyini bildirmiş, Özbəkistan Respublikası Baş Prokurorluğunun Akademiyası ilə həyata keçiriləcək birgə işlərə dair təkliflərini təqdim etmişdir.

Daha sonra nümayəndə heyəti "Cinayət mühakiməsi sahəsində səmərəli transsərhəd əməkdaşlığı üçün potensialın gücləndirilməsi" mövzusunda dəyirmi masada iştirak edərək transsərhəd əməkdaşlığının gücləndirilməsi, bu sahədə ölkədə mövcud olan nailiyyətlər və çağırışlar, institusional və qanunvericilik bazasının təkmilləşdirilməsi kimi məsələləri əhatə edən təqdimatlar keçirmiş, həmkarları ilə səmərəli fikir mübadiləsi aparmışlar.

Tədbir çərçivəsində nümayəndə heyəti Özbəkistan Respublikası Baş Prokurorluğu Akademiyasının, eləcə də Səmərqənd vilayət prokurorluğunun fəaliyyəti ilə yaxından tanış olmuş, dünya şöhrətli tarixi-mədəni abidələri ziyarət etmişlər.

# Qazaxıstanın təşkilatçılığı ilə keçirilmiş beynəlxalq elmi-praktiki konfransda Azərbaycan Prokurorluğunun işçiləri iştirak edib




Cinayətkarlığın müasir inkişaf meyllərinin və regional xüsusiyyətlərinin, ona qarşı mübarizənin yeni üsullarının və qabaqcıl təcrübənin, həmçinin xarici ölkələrin hüquq-mühafizə tədris müəssisələrinin təhsil və elmi resurslarının öyrənilməsi məqsədi ilə Azərbaycan Prokurorluğu elmi-metodiki konfransların, seminarların və müşavirələrin keçirilməsinə xüsusi diqqət yetirir. Eyni zamanda bu tədbirlər nəticəsində cinayətkarlığın kriminoloji tədqiqi sahəsində qarşılıqlı əlaqələr yaranır, beynəlxalq əməkdaşlıq möhkəmlənir və etibarlı tərəfdaşlıq münasibətləri inkişaf edir.

Cari ilin 4 noyabr tarixində Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyasının təşkilatçılığı ilə Qazaxıstan SSR Prokuroru O.S.Seitovun xatirəsinə həsr edilmiş “Hüquq-mühafizə orqanlarının fəaliyyətinin aktual məsələləri” mövzusunda qarışıq formatda (online və offline) beynəlxalq elmi-praktiki konfrans keçirilib.

Tədbirə digər dövlətlərin prokurorluq işçiləri və hüquq sahəsində alimləri ilə yanaşı, online formatda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov, şöbənin böyük prokuroru Nigar Əskərova və şöbə prokuroru Rauf Abdullayev qoşulublar. Konfransın plenar sessiyasında Nigar Əskərova “Azərbaycan Respublikasında prokurorun konstitusion-hüquqi statusu” adlı məruzə ilə rus dilində çıxış edərək, təmsilçilərimiz tədbir iştirakçılarını maraqlandıran suallarını cavablandırıblar.

Sözügedən tədbir çərçivəsində Qazaxıstan tərəfinin təşəbbüsü ilə “Qazaxıstanda və MDB üzv dövlətlərində prokurorun konstitusion-hüquqi statusu” mövzusunda aparılmış müqayisəli-hüquqi tədqiqatda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin iştirakı xüsusi vurğulanaraq, Azərbaycan tərəfinə minnətdarlıq ifadə edilib.

# Strasburq şəhərində maliyyə cinayətlərinin istintaqı mövzusunda keçirilən təlimdə prokurorluq işçiləri iştirak etmişlər








Prokurorluq əməkdaşlarının peşə hazırlığının artırılması, bu sahədə müvafiq qabaqcıl təcrübəyə sahib Avropa Şurasının təsisatlarının imkanlarından istifadə edilməsi daim diqqət mərkəzində saxlanılır.

Qeyd edilməlidir ki, Avropa Şurası və Avropa İttifaqı ilə birgə həyata keçirilən Yaxşı İdarəçilik naminə tərəfdaşlıq (PGG II) regional layihəsi çərçivəsində Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bir sıra mühüm tədbirlər həyata keçirilir.

Bu tədbirlər çərçivəsində cari ilin 7-9 noyabr tarixlərində Fransanın Strasburq şəhərində maliyyə istintaqı mövzusuna həsr edilmiş təlim tədbiri keçirilmişdir.

Gürcüstan, Ukrayna, Moldova və digər dövlətlərin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Baş Prokurorluğunu Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov və Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyev təmsil etmişlər.

Tədbirin ilk günü, 7 noyabr tarixində nümayəndə heyəti Silahlı Qüvvəllərimizin Ali Baş Komandanı, dahi sərgərdə cənab İlham Əliyevin qətiyyəti, xalqımızın dəstəyi və müzəffər ordumuzun rəşadətinin təzahürü olan Zəfər günü münasibəti ilə Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəliyini ziyarət edərək, ölkəmizin daimi nü-

mayəndəsi Fəxrəddin İsmayılovla görüşmüşdür.




Təlim zamanı Avropa Şurası ekspertləri tərəfindən maliyyə istintaqı sahəsində istifadə olunan qabaqcıl metodlar və ən yaxşı təcrübələr, beynəlxalq əməkdaşlıq mexanizmləri və mövcud çağırışlara barədə təqdimatlar keçirilmişdir. Eyni zamanda, dinləyicilər ekspertlər tərəfindən hazırlanmış kazuslara dair praktik məşğələlərdə yaxından iştirak etmişlər.

Tədbirin müvafiq sessiyasında Baş Prokurorluğun əməkdaşları tərəfindən bu sahədə həyata keçirilən institusional və funksional islahatlar barədə iştirakçılara məlumat verilmişdir.

Sonda iştirakçıları maraqlandıran mövzular ətrafında sual-cavab sessiyası keçirilmiş, aidiyyəti mövzular üzrə səmərəli fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində Baş Prokurorluğun nümayəndələri və Avropa Şurasının İqtisadi cinayətlər və əməkdaşlıq şöbəsinin rəhbəri Mustafa Ferati arasında işgüzar görüş keçirilmiş, prokurorluq işçilərinin peşə hazırlığı sahəsində layihənin açdığı yeni imkanlar və əməkdaşlıq perspektivləri barədə səmərəli fikir mübadiləsi aparılmışdır.

## Koreyanın Seul şəhərində keçirilmiş beynəlxalq konfransda Azərbaycan Prokurorluğunun nümayəndəsi iştirak etmişdir



9-11 noyabr tarixlərində Koreya Respublikasının Seul şəhərində hibrid formatda BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) təşkilatçılığı ilə "İdarəetmə, cinayətkarlıq və ədalət mühakiməsinin statistikası" üzrə 6-cı beynəlxalq konfrans keçirilib.

BMT, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) nümayəndələrinin, 80-dən artıq ölkənin, o cümlədən ABŞ, Böyük Britaniya, İtaliya, Litva, Kanada, Avstraliya, Argentina, Koreya və digər dövlətlərin müvafiq qurumlarının təmsilçilərinin və qabaqcıl təhsil müəssisələrinin mütəxəssislərinin də qatıldığı tədbirdə Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin Statistika şöbəsinin rəisi - idarə rəisinin müavini Sahib İsmayılov videokonfrans formasında iştirak edib.

Tədbirdə idarəçilik, cinayətkarlıq və ədalət mühakiməsi sahəsində statistik təhlillərin təkmilləşdirilməsi yolu ilə müsbət nəticələrin əldə edilməsi, ətraf mühit, korrupsiya, insan alveri kimi transmilli cinayətlərin qarşısının alınmasında real göstəricilərin əldə edilməsi, ən yaxşı təcrübələrin öyrənilməsi, kibercinayətkarlıqla mübarizədə süni intellektin perspektivləri və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Konfransda ölkələrin idarəçilik, cinayətkarlıq və ədalət mühakiməsi sahəsində statistik fəaliyyətlərinin təkmilləşdirilməsinin, təhlillərin aparılmasında dolğun məlumatların əldə edilməsinin və qarşılıqlı əməkdaşlığın vacibliyi vurğulanmaqla növbəti konfransın önümüzdəki iki il ərzində keçirilməsi qeyd edilib.

# Azərbaycan prokuroru Rumıniya Polisində və Sərhəd Xidmətində yoxlamada iştirak etmişdir






Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) Rumıniya Respublikasında Mərkəzi İcra Hakimiyyəti və Hüquq Mühafizə Orqanlarında korrupsiyanın qarşısının alınması məqsədilə V Raund dəyərləndirmə çərçivəsində noyabr ayının əvvəlində beynəlxalq ekspert qrupunu həmin ölkəyə ezam etmişdir.

Beynəlxalq Ekspert Qrupunun tərkibində Azərbaycan Respublikası Baş Prokurorluğunun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev Rumıniya Daxili İşlər Nazirliyi, Polis Baş Təşkilatı və Sərhəd Polisi Xidməti üzrə aparıcı dəyərləndirici olmuşdur. Səfər əsnasında həmin ölkənin səlahiyyətli qurumları tərəfindən hazırlanmış hesabat yerində yoxlanılaraq Daxili İşlər Nazirliyinin Daxili Araşdırmalar İdarəsinin, Müfəttişliyinin, əməliyyat-axtarış qurumlarının rəhbərləri, həmçinin Rumıniya Respublikasının korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış prokurorluğu ilə görüşlər keçirilmişdir. Dəyərləndirmə çərçivəsində maraqlar toqquşmasının qarşısının alınması, hədiyyələrin, gəlirlərin və maliyyə maraqlarının bəyan olunması və etik davranış qaydaları, həmçinin əməkdaşların mütəmadi yoxlanılması, hazırlanması və təlimləndirilməsi sahəsində normativ baza və təcrübənin beynəlxalq standartlara uyğunluğu yoxlanılmışdır.

Dəyərləndirmə nəticəsində hazırlanacaq hesabat layihəsi GRECO-nun növbəti plenar iclasına çıxarılacaq. Hesabat qəbul olunduqan sonra müvafiq tövsiyələrin icra olunması üçün Rumıniya hökumətinə təqdim olunması nəzərdə tutulur.

Azərbaycan Respubikasının GRECO-dakı nümayəndə heyətinin rəhbəri Elnur Musayev bundan əvvəl Litva və Şimalı Makedoniya respublikalarının Polisində dəyərləndirmələr həyata keçirmiş, ümumilikdə isə 3 beynəlxalq təşkilatın beynəlxalq eksperti qismində 16 ölkədə dəyərləndirmələr aparmışdır.

# Monteneqronun Budva şəhərində, Niderland Krallığının Haaqa şəhərində keçirilmiş seminarlarda, eləcə də Kosta Rikanın paytaxtı San-Xosedə təşkil edilmiş konfransda Azərbaycan Prokurorluğunun əməkdaşları da iştirak etmişlər

Prokurorluq əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməklə peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və əldə edilmiş biliklərin təcrübədə tətbiq etməsi istiqamətində işlər davam etdirilir. Bu məqsədlə prokurorluq əməkdaşlarının beynəlxalq təlim kurslarında, konfranslarda, seminarlarda və digər tədbirlərdə iştirakı təmin olunur.

Tədbirlərin davamı olaraq, cari ilin noyabr ayı ərzində Baş Prokurorluğun əməkdaşları bir neçə ölkədə beynəlxalq səviyyəli tədbirlərdə iştirak ediblər.











Belə ki, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Samirə Nəcəfzadə, Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti Qədir Məmmədov və Astara rayon prokurorluğunun müstəntiqi Tərlan Həmidov Monteneqronun Budva şəhərində "Transsərhəd mütəşəkkil cinayətkarlıqla mübarizə üzrə prokurorların beynəlxalq forumu" adlı hibrid Multi-TAİEX seminarında iştirak ediblər. Tədbirdə transsərhəd mütəşəkkil cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və ağır cinayətlərə qarşı mübarizədə "Eurojust" və "Europol"un rolu müzakirə edilərək Avropa İttifaqının ən yaxşı təcrübələri istiqamətində fikir mübadiləsi aparılıb.

Baş prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Zəfər Ramazanov Avropa Şurasının Kibercinayətkarlıq üzrə Proqram Ofisi və Avropa İttifaqının Cinayət Ədliyyəsi üzrə Əməkdaşlıq Agentliyinin (Eurojust) təşkilatçılığı ilə Niderland Krallığının Haaqa şəhərində təşkil olunmuş seminarda iştirak edib. Seminar zamanı maddi gəlir əldə etmək məqsədi ilə törədilən kiberhücumlar, habelə kibercinayətkarlığın müxtəlif formaları barədə müzakirələr aparılıb.

Həmçinin, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Nigar Yahyazadə Kosta Rika Respublikasının paytaxtı San-Xose şəhərində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi Kibercinayətkarlıq üzrə Qlobal Tədbirlər (Global Action on Cyber Action Extended GLACY) layihəsi çərçivəsində təşkil edilmiş "Kibercinayətkarlığın qarşısının alınması, istintaqı və mühakiməsində qadınların rolu" mövzusunda olan beynəlxalq konfransda iştirak edib.

# İspaniya Krallığının paytaxtı Madriddə BMT-nın Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq Mühafizə Orqanlarının Qlobal əməliyyat şəbəkəsinin 3-cü iclasında Baş Prokurorluğun nümayəndələri iştirak etmişlər









Cari ilin 15-17 noyabr tarixlərində İspaniya Krallığının paytaxtı Madrid şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GlobE) üçüncü iclası keçirilmişdir.

BMT nümayəndələri, habelə, Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, Böyük Britaniya, Türkiyə, Çin, Albaniya, Qazaxıstan, Özbəkistan və digər dövlətlərin təmsilçilərinin qatıldığı tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokurorunun xüsusi tapşırıqlar üzrə köməkçisi Saleh Hacıyev və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Kamil Kamilli təmsil etmişlər.

İclasda Şəbəkənin illik iş planının icra vəziyyəti, birinci iclasdan hazırkı dövrə qədər olan müddət ərzində korrupsiyaya qarşı mübarizə sahəsində əldə olunmuş nailiyyətlər, korrupsiyaya qarşı mübarizə aparan orqanlar arasında qarşılıqlı hüquqi yardımın səmərəliliyinin artırılması, müvafiq sorğuların cavablandırılması prosesinin sürətləndirməsinin təmin edilməsi məqsədilə yaradılmış Təhlükəsiz Rabitə Platformasının (Secure Communication Platform) funksiyalarının genişləndirilməsi və digər bu kimi məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Görüş zamanı nümayəndələrimiz Azərbaycan Respublikasının Prokurorluğu tərəfindən beynəlxalq əməkdaşlığın ayrı-ayrı sahələri və həmin münasibətlər çərçivəsində görülmüş işlər, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş mütərəqqi islahatlar, sözügedən sahədə hüquq mühafizə orqanlarının qarşılıqlı fəaliyyəti və digər məsələlər barədə iştirakçıları məlumatlandırmışlar.

Bundan başqa, iclas zamanı nümayəndələrimiz GlobE Katibliyinin rəsmiləri və eləcə də iştirakçı dövlətlərin nümayəndələri ilə görüşlər keçirərək korrupsiyaya qarşı mübarizənin müxtəlif aspektləri üzrə müzakirələr aparmışlar.

# Fransanın paytaxtı Parisdə OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsi tərəfindən təşkil edilmiş tədbirlərdə Azərbaycan Prokurorluğunun nümayəndə heyəti iştirak etmişdir

Cari ilin 16-17 noyabr tarixlərində Fransa Respublikasının paytaxtı Paris şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Anti-Korrupsiya Şəbəkəsi (ACN) tərəfindən Şərqi Avropa və Mərkəzi Asiya regionunda korrupsiyaya qarşı mübarizə sahəsində qərar-verənlərin Yüksək Səviyyəli iclası və Şəbəkənin Rəhbər Qrupunun 27-ci görüşü təşkil edilmişdir.



Qeyd edilən tədbirlərdə ölkəmiz Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbovun rəhbərlik etdiyi, tərkibinə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi Səbuhi Alıyev və Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyevin daxil olduğu nümayəndə heyəti tərəfindən təmsil olunmuşdur.



Qurumun noyabrın 16-da keçirilmiş Yüksək Səviyyəli iclası çərçivəsində baş tutmuş yüksək profilli və mürəkkəb korrupsiya cinayətlərinə qarşı hüquq-mühafizə orqanlarının səylərinin gücləndirilməsinə həsr edilmiş sessiyasında nümayəndə heyətinin rəhbəri Nazim Rəcəbov tərəfindən ölkəmizin korrupsiyaya qarşı mübarizə təcrübəsinə dair geniş məlumat verilmiş, eləcə də tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Bununla yanaşı, noyabrın 17-də Şəbəkənin Rəhbər qrupunun qarşılıqlı müzakirə formatında keçirilmiş 27-ci görüşündə Nazim Rəcəbov tərəfindən ölkəmizdə korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil etməsi vurğulanaraq Anti-Korrupsiya Şəbəkəsinin (ACN) növbəti İş Planı və Şəbəkəyə üzv ölkələrin 5-ci monitorinq mərhələsinin Azərbaycan Respublikası tərəfindən tam dəstəklənməsi ifadə edilmişdir.

Aparılmış müzakirələr nəticəsində Şəbəkənin Rəhbər Qrupunun 27-ci görüşündə 2023-2026-cı illər üzrə İş Planı, həmçinin üzv ölkələrdə korrupsiyaya qarşı mübarizə tədbirlərinin səmərəliliyinin dəyərləndirilməsi mexanizminin 5-ci mərhələsinin başlanması ilə bağlı müzakirələr aparılaraq müvafiq qərarlar qəbul edilmiş, habelə növbəti 3 il üçün Şəbəkənin sədri və müavini seçilmişdir.

# Baş Prokurorluqda AŞPA-nın nümayəndə heyəti ilə görüş keçirilib









Noyabrın 22-də Baş prokurorun müavini Elmar Camalov ölkəmizdə səfərdə olan Avropa Şurası Parlament Assambleyasının Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsindən olan nümayəndə heyəti ilə görüşüb. Qonaqları salamlayan Elmar Camalov Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək, insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində Avropa Şurasının qabaqcıl təcrübəsinin öyrənilməsinin önəmli olduğunu qeyd edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata kecjrilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində aparılmış institusional tədbirlər, prokurorluq orqanlarında modernləşmə prosesinin davam etdirilməsi, köklü islahatların aparılması və şəffaflığın təmin edilməsi barədə məlumat verilib. Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən AŞPA-nın komitə üzvü Konstantinos Efstatiu Azərbaycan Respublikasının hüquq sistemində aparılan islahatları müsbət qiymətləndirildiyini vurğulayaraq, AŞPA-nın Hüquq Məsələləri və İnsan Hüquqları Komitəsinin ölkəmizin müvafiq qurumları ilə əlaqələrin inkişafında və qarşılıqlı əməkdaşlıqda maraqlı olduğunu bildirib. Tərəflər arasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılıb. Görüşdə həmçinin Avropa Şurasının Bakı Ofisinin rəhbəri, səfir Petr Zix də iştirak edib.

# Beynəlxalq ekspertlər tərəfindən prokurorluq əməkdaşlarına “Maliyyə cinayətlərinin araşdırılması” mövzusunda praktiki təlim sessiyası keçirilib



Ölkəmizdə korrupsiyaya qarşı mübarizə və aktivlərin bərpası istiqamətində görülən işlər çərçivəsində bu sahədə fəaliyyət göstərən prokurorluq əməkdaşlarının bilik və bacarıqlarının artırılması üçün ardıcıl tədbirlər görülməkdədir.

Qeyd edilən sahədə beynəlxalq təcrübənin mühüm əhəmiyyəti nəzərə alınmaqla, cari ilin 22-23 noyabr tarixlərində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin (UNODC) məsul nümayəndəsi Vladimir Kozin və maliyyə cinayətlərinin araşdırılması üzrə ixtisaslaşmış xarici ekspert Conatan Bentman tərəfindən “Maliyyə cinayətlərinin araşdırması” mövzusunda praktiki təlim sessiyası keçirilib.

Azərbaycan Respublikası Prokurorluğunun struktur və tabe qurumlarının əməkdaşlarının dinləyici qismində iştirak etdiyi interaktiv tədris metodu üzərində qurulmuş təlimdə ekspertlər tərəfindən paralel maliyyə araşdırmaları, əmlakın bərpası sahəsində formal və qeyri-formal əməkdaşlıq mexanizmləri, ayrı-ayrı yurisdiksiyalara məxsus qurumlar tərəfindən istintaqın aparılması strategiyası, habelə koordinasiyası və qarşılıqlı izlənilməsi kimi mövzular üzrə əhatəli təqdimatlar həyata keçirilib. Bununla yanaşı, təlim mövzusunun mənimsənilməsi vəziyyətinin ölçülməsi məqsədi ilə iştirakçılara bir sıra praktiki tapşırıqlar verilməklə, təcrübədə qarşıya çıxan mürəkkəb xarakterli məsələlərə dair suallar cavablandırılıb.

Xarici nümayəndələrin ölkəmizə səfəri çərçivəsində həmçinin, onlarla Azərbaycan Prokurorluğunun bir sıra struktur qurumlarının rəhbər vəzifəli şəxsləri arasında ikitərəfli görüş keçirilmiş, qarşılıqlı fikir mübadiləsi formatında baş tutan görüşdə birgə əməkdaşlığa dair məsələlərin gələcək istiqamətləri müzakirə olunmaqla, aktivlərin bərpası sahəsində ölkəmizdə həyata keçirilən sistemli islahatlara UNODC-un dəstəyi ifadə olunub.



# Kişinyov şəhərində Moldovanın Milli Antikorrupsiya Mərkəzinin təşkilatçılığı ilə keçirilmiş beynəlxalq tədbirlərdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nümayəndəsi iştirak etmişdir








Cari ilin 23-24 noyabr tarixlərində Moldova Respublikasının paytaxtı Kişinyov şəhərində Moldovanın Milli Antikorrupsiya Mərkəzinin (CNA) təşkilatçılığı ilə Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 21-ci illik Peşəkar Konfransı və Baş Assambleyasının İclası keçirilmişdir.

Avropa İttifaqı çərçivəsində fəaliyyət göstərən regional təşkilatların, habelə EPAC/EACN-a tərəfdaş olan ölkələrin korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumlarının yüksək vəzifəli nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev təmsil etmişdir.

Yüksək səviyyəli tədbirin açılış mərasimində çıxış edən Moldova Respublikasının Prezidenti Maya Sandu qonaqları salamladıqdan sonra konfransın işini açıq elan edərək qarşıda duran məqsəd və vəzifələr barədə danışmışdır.

Ardınca tədbir iştirakçıları tərəfindən yüksək səviyyəli korrupsiya cinayətlərinin istintaqı, habelə bu sahədə aparılan məlumat mübadiləsinin beynəlxalq təcrübəsi ətrafında fikir mübadiləsi aparılmış, bu sahədə yaranan problemlər və onların həlli yolları müzakirə edilmişdir.

Görüşün ikinci sessiyasında çıxış edən nümayəndəmiz korrupsiyaya qarşı mübarizənin dövlət siyasətinin başlıca istiqamətlərindən biri olduğunu vurğulamış, həmin sahədə həyata keçirilən mütərəqqi islahatları iştirakçıların diqqətinə çatdırmış, habelə ölkəmizdə korrupsiya cinayətlərinin törədilməsi yolu ilə əldə olunmuş aktivlərin bərpası təcrübəsinə dair təqdimatla çıxış etmişdir.



Tədbirin sonunda təşkilata üzv olan ölkələr tərəfindən "Kişinyov Bəyannaməsi" qəbul edilmiş, habelə, təşkilatın üzvlüyünə 6, müşahidəçi qismində isə 1 qurumun qəbul edilməsi və eləcə də növbəti iclasın İrlandiya Respublikasının paytaxtı Dublin şəhərində keçirilməsi qərara alınmışdır.

# Qazaxıstan Respublikasının Baş Prokurorluğu yanında Hüquq-mühafizə orqanlarının Akademiyası tərəfindən Astana şəhərində təşkil olunmuş təlimdə Baş Prokurorluğun nümayəndəsi iştirak etmişdir



Qazaxıstan Respublikası Baş Prokurorluğunun tabeliyində fəaliyyət göstərən Hüquq-mühafizə orqanları Akademiyası tərəfindən BMT-nin regional ofisi ilə birlikdə cari ilin 22-24 noyabr tarixlərində Astana şəhərində “Kibercinayətlərə dair cinayət işlərinin istintaqının xüsusiyyətləri. Beynəlxalq əməkdaşlıq: təcrübə, vəziyyət, taktika və problemlər” adlı təlim keçirilib.

Təlim çərçivəsində bu sahədə geniş təcrübəsi olan ekspertlər rəqəmsal məlumatların əldə edilməsi və istifadəsi mövzuları ilə çıxışlar ediblər.

Təlimdə Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət təhlükəsizliyi, fövqəladə hallar və sərhəd xidməti orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru Ramil Ədilov iştirak edərək “İnformasiya-kommunikasiya texnologiyalarının cinayət məqsədləri üçün istifadəsinə qarşı mübarizənin təşkili yolları” mövzusunda çıxış edərək ölkəmizdə bu sahədə baş verən cinayət təqibinin xüsusatları barədə məlumat verib.



## Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzv dövlətlərin Assambleyasının 11-ci sessiyasında ölkəmizi Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir



Cari ilin noyabrın 28-də Avstriya Respublikasının paytaxtı Vyana şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzv dövlətlərin Assambleyasının 11-ci sessiyası keçirilmişdir.

Təşkilata üzv ölkələrin yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi tədbirdə ölkəmizi Azərbaycan Respublikasının Baş prokurorunun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

11-ci sessiyasının açılışında IACA-nın dekanı və icraçı direktoru Tomas Ştelzer çıxış edərək Akademiyanın inkişafı ilə bağlı görülən işlər, əldə edilmiş uğurlar və gələcək planlar barədə ətraflı məlumat vermişdir.

Tədbir çərçivəsində çıxış edən Baş prokurorun müavini Heydər Məmmədov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş institusional islahatlar, qanunverici və preventiv tədbirlər barədə geniş məlumat verərək, Respublikamızda “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nın icra vəziyyəti, korrupsiya cinayətlərinin istintaqı zamanı vurulmuş maddi ziyanın ödənilməsi təcrübəsi haqqında, habelə aktivlərin izlənməsi və əmlakın bərpası sahəsində başlanmış Avropa İttifaqının “Tvinninq” layihəsinin implementasiyası üzrə görülmüş işlər barədə tədbir iştirakçıları məlumatlandırılmışdır.

Bundan əlavə sessiya zamanı Akademiyanın fəaliyyəti, 2021-2024-cü illər üzrə İş Proqramı, 2023-cü il üçün nəzərdə tutulmuş büdcə, eləcə də korrupsiyaya qarşı mübarizə və onun qarşısının alınması sahəsində yaranan problemlər və onların həlli yolları kimi mövzular ətrafında geniş fikir mübadiləsi aparılmışdır.

Həmçinin Azərbaycan nümayəndə heyəti ilə Akademiyanın rəhbərliyi, habelə bir sıra ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirilmiş və qarşılıqlı əməkdaşlıq imkanları barədə danışıqlar aparılmışdır. Tərəflərin Assambleyasının 11-ci sessiyasında Azərbaycan Respublikasının Avstriya Respublikasında səfiri və BMT-nin Vyana bölməsində Daimi Nümayəndəsi Rövşən Sadıqbəyli iştirak etmişdir.






# Xarici tərəfdaşlarla qurulmuş geniş spektrli əməkdaşlıq əlaqələri çərçivəsində daha bir əyani təcrübə mübadiləsi həyata keçirilmişdir







Azərbaycan və Rusiya Baş Prokurorluqları arasında imzalanmış 2021-2023-cü illər üçün Əməkdaşlıq Proqramından irəli gələn müddəaların icrası məqsədilə Rusiya Federasiyası Baş Prokurorluğunun nümayəndə heyətinin ölkəmizə səfəri baş tutmuşdur.

Tərəflərin əldə etdikləri müsbət təcrübələrin qarşılıqlı olaraq ötürülməsini nəzərdə tutan səfər proqramının məqsədlərinə uyğun olaraq Baş Prokurorluqda xarici nümayəndələrin iştirakı ilə dəyirmi masa təşkil edilmişdir. Qarşısının alınmasında beynəlxalq əməkdaşlığın müstəsna dərəcədə vacib əhəmiyyət kəsb etdiyi korrupsiya cinayətlərinə qarşı mübarizə sahəsində qanunvericiliyin tətbiqi təcrübəsi, habelə bu növ hüquqpozmaların törədilməsi yolu ilə əldə edilmiş əmlakın xaricdən geri qay-









tarılmasının aktual məsələlərinin müzakirə edildiyi həmin tədbirdə müvafiq təcrübəyə malik olan əməkdaşların təqdimatları nümayiş etdirilmişdir.

Proqram üzrə prokurorluğun struktur qurumlarının nümayəndələrinin dinləyici qismində qatıldığı növbəti tədbirdə xarici həmkarlar tərəfindən son dövrlər qlobal səviyyədə aktuallığı ilə qabaqcıl mübarizə metodlarının tətbiqi şərtləndirən kriptovalyutalardan istifadənin hüquqi statusu və onların xaricə çıxarılmasının qarşısının alınmasına dair qonşu ölkədə formalaşmış yeni təcrübələrdən bəhs edilmişdir.

Daha sonra Azərbaycan Prokurorluğunun struktur qurumlarının işi ilə yaxından tanış olan qonaqlara dövlət orqanında aparılmış struktur islahatlar nəticəsində cinayətkarlığa qarşı mübarizədə yeni tətbiq olunan qabaqcıl hüquqi yanaşmalardan bəhs edilmiş, həmçinin onlar Baş Prokurorluğun yeni inzibati bina kompleksi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binalarında yaradılmış səmərəli əmək şəraiti ilə tanış edilmiş, kriminalistik və digər elmi-texniki imkanlar barədə məlumatlandırılmışlar.

Səfər zamanı ölkəmizin zəngin tarixi, mədəniyyəti və milli irsi barədə müfəssəl məlumatlılığın təmin edilməsi məqsədi ilə nümayəndə heyəti İçərişəhərdə yerləşən UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmiş tarixi-memarlıq abidələri ilə tanış olmuş, eləcə də Heydər Əliyev Mərkəzinə səfər edən qonaqlara orada yerləşən muzey və eksponatlar barədə ətraflı məlumat verilmişdir.



## Baş Prokurorluq İslam Əməkdaşlıq Təşkilatı ilə əlaqələri genişləndirir



Dekabrın 5-6 tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin korrupsiyaya qarşı mübarizə aparan orqanlarının vəzifəli şəxslərinin iclası keçirilib.

İki günlük iclasda İƏT-ə üzv dövlətlərin cari ilin 20-21 dekabr tarixlərində keçiriləcək konfransı və nazirlər səviyyəsində qəbul edəcək korrupsiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Məkkə Konvensiyasının layihəsi müzakirə olunaraq yekun mətni razılaşdırılıb.

Tədbirdə Baş Prokurorluğu təmsil edən Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəisi Erkin Əlixanov ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində aparılmış qanunvericilik və institusional islahatlardan, o cümlədən cinayət yolu ilə əldə edilmiş əmlakların geri qaytarılması sahəsində görülmüş işlərdən danışaraq, ölkəmizin prokurorluq orqanları tərəfindən bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirildiyini vurğulayıb.

## Prokurorluq işçiləri Avstriyanın Vyana şəhərində təşkil edilmiş beynəlxalq tədbirdə iştirak ediblər




Cari ilin dekabr ayının 5-7-də Vyana şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Cinayət Ədliyyəsi və Cinayətlərin qarşısının alınması Komissiyasının (CCPCJ) təşkilatçılığı ilə keçirilmiş "Cinayətlərin qarşısının alınması, cinayət ədliyyəsinin və qanunun aliliyinin inkişafı" ilə bağlı Kyoto Bəyannaməsinin tətbiqinin 2-ci tematik müzakirələrində Baş Prokurorluğun Cinayət Təqibindən Kənar İcraatlar İdarəsinin böyük prokuroru Vüsal Əliyev və Bakı şəhəri Sabunçu rayon prokurorluğunun müstəntiqi Tural Mürsəlov iştirak edib.

Tədbir çərçivəsində Kyoto Bəyannaməsinin icrası istiqamətində qurbanların hüquqlarının təmini, şahid və məlumat verən şəxslərin qorunması, cinayət təhqiqatı prosesinin təkmilləşdirilməsi, həbsxana şəraitinin yaxşılaşdırılması, bərpa və reinteqrasiya yolu ilə cinayətin təkrar törədilməsinin azaldılması, cinayət ədliyyəsi sistemlərində gender imkanlarının gücləndirilməsi, cinayət ədliyyəsi sistemləri ilə ünsiyyətdə olan uşaqların və gənclərin həssaslıqlarının araşdırılması mövzuları üzrə müzakirələr aparılıb.

# Fransanın Milli Magistratlar Məktəbində (ENM) ermənilərin törətdikləri ekoloji cinayətlər barədə məlumat verilib









Fransanın Milli Magistratlar Məktəbi (ENM) tərəfindən xarici dövlətlərin hakimləri, prokurorları, hüquqşünasları və bu sahədə ixtisaslaşmış digər dövlət məmurları və rəsmiləri üçün əyani və distant formatda qısamüddətli beynəlxalq təlimlərin təşkili ilə əlaqədar 2022-ci ildə elan edilmiş müsabiqədə iştirak edilib Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları idarəsinin rəis müavini Günay Əyyubova tərəfindən müvəffəqiyyət əldə olunaraq, 2022-ci ilin 28 noyabr – 4 dekabr tarixlərdə Parisdə təşkil olunan “Ədalət və ətraf mühitin mühafizəsi” mövzusu üzrə kursda səmərəli iştirak edilmiş və xüsusi attestatla təltif edilmişdir.

Kursa Azərbaycan ilə yanaşı Xorvatiya, Misir, Kosova, Fələstin və Nigeriya ölkələrindən hakim və prokurorlar cəlb edilmişlər. Tədris prosesi zamanı ətraf mühitin hüquqi mühafizəsinin elmi problemləri: iqlim dəyişikliyi, Avropanın ətraf mühit hüquqları, ekoloji cinayətin qlobal vəziyyəti, ətraf mühitin qorunması: sərhədsiz ədalətin çağırışları, ətraf mühit məsələlərində Avropa polisi və məhkəmə, Fransada ətraf mühit məsələləri üzrə ixtisaslaşmış cinayət məhkəmələri, ekoloji cinayətlərin araşdırılması, dəniz məsələlərində araşdırmanın xüsusiyyətləri: ixtisaslaşdırılmış bölmə tərəfindən hüquq pozuntularının aşkar edilməsi və qarşısının alınması, milli parklar və dəniz mühafizəsi əraziləri vasitəsilə biomüxtəlifliyin qorunması, ekoloji zərərin bərpası və bu sahəyə aid digər mövzular üzrə mühazirələr dinlənilmiş, mühazirələr ətrafında geniş müzakirələr aparılmışdır. Fransa Kassasiya Məhkəməsi ilə tanışlıq aparılmış, tarixi, strukturu və fəaliyyəti barədə məlumat verilmişdir.

Kursda hər dövlətin nümayəndəsi tərəfindən öz ölkəsində mövcud ekoloji problemlər barədə məlumat verilməsi ilə əlaqədar Günay Əyyubova ermənilər tərəfindən 30 il ərzində Azərbaycanın işğal altında saxladıqları ərazilərində flora və faunaya vurulan ziyan, meşə massivlərinin məhv edilməsi, münbit torpaqların yandırılması, içməli su mənbələrini formalaşdıran çayların toksik maddələrlə çirkləndirilməsi, təbii sərvətlərin talan edilməsi, infrastukturun, evlərin, məscidlərin dağıdılması, məscidlərdə heyvanların, donuzların saxlanılması və törədilən digər ekoloji cinayətlər barədə məlumat vermiş, foto və video materiallarla nümayiş etdirməklə bu faktları xarici ölkələrin təmsilçilərinin və fransalı nümayəndələrinin diqqətinə çatdırmışdır.






# Gürcüstanın paytaxtı Tbilisi şəhərində Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi beynəlxalq tədbirlərdə Baş Prokurorluğun əməkdaşı iştirak edib

Cari ilin 12 dekabr tarixində Gürcüstanın paytaxtı Tbilisi şəhərində Avropa İttifaqının və Avropa Şurasının birgə maliyyələşdirdiyi "CyberEast" layihəsinin Rəhbər Komitəsinin 6-cı iclası, 13-14 dekabr tarixlərində isə Kiber insidentlərin qeydə alınması və məlumat mübadiləsi üzrə layihə üzrə Regional Görüş keçirilib.







Hər iki tədbirdə ölkəmizin müxtəlif dövlət qurumlarının əməkdaşlarından ibarət nümayəndə heyətində Azərbaycan Respublikası Baş Prokurorluğunu Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin böyük prokuroru Elmir Zeynalov təmsil edib.

Tədbirlər çərçivəsində kibercinayətlərin formaları, bu növ cinayətlərin ibtidai istintaqı və cinayət təqibi, ortaya çıxan problemlər və onların həlli yolları, kibercinayətkarlıq sahəsində beynəlxalq əməkdaşlıq, Avropa Şurasının "Kibercinayətkarlıq haqqında" Budapeşt Konvensiyasında nəzərdə tutulan müddəalar, formal və qeyri-formal əməkdaşlıq üsulları, səlahiyyətli dövlət orqanları arasında məlumat mübadiləsi, habelə digər mövzular ətrafında müzakirələr aparılıb, bu sahədə tədbirlərdə iştirak edən ölkələrin milli qanunvericilikləri barədə ətraflı məlumat verilib.

Yekunda "CyberEast" layihəsi üzrə 2023-cü il üçün fəaliyyət planı müzakirə olunaraq kibercinayətkarlığa qarşı mübarizə sahəsində qarşılıqlı əlaqələrin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

# Qardaş Türkiyənin İstanbul şəhərində Baş Prokurorluğun qoşulduğu Türk Ədliyyə Təlim Şəbəkəsi təsis edilib






Prokurorluq orqanlarında həyata keçirilən müasir məzmunlu islahatların mühüm hissəsi kimi beynəlxalq əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli formatlar, eləcə də regional və ixtisaslaşdırılmış beynəlxalq təsisatlar çərçivəsində yeni əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir.

Bu hədəflərə uyğun olaraq tərəfdaş ölkələrin, ən əsas da tarixi bağlarımız, ortaq dinimiz və dilimizlə qardaşlıq münasibəti olan Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hüquq mühafizə orqanları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi prioritet məsələlərdəndir.

Buna misal olaraq, 1 noyabr 2021-ci ildə Bakı şəhərində əsası qoyulmuş Türk Dövlətləri Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının fəaliyyəti xüsusi qeyd edilməlidir.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzi ilə Türkiyə Ədliyyə Akademiyası, Qazaxıstanın Hüquq mühafizə orqanları Akademiyası, habelə Özbəkistan Baş Prokurorluğunun Akademiyası ilə qarşılıqlı əməkdaşlıq haqqında memorandumlar imzalanmaqla, peşə hazırlığının təşkili zamanı bu nüfuzlu tədris qurumlarının imkanlarından geniş istifadə edilir.

Qeyd olunan proseslər çərçivəsində qardaş türk dövlətlərinin hüquq mühafizə orqanları, məhkəmə akademiyaları və təlim mərkəzləri ilə mövcud əməkdaşlıq əlaqələrinin institusionallaşması ilə bağlı əməli addımlar atılmışdır.

Belə ki, 2021-ci ilin oktyabr ayından davam edən danışıqların nəticəsi olaraq, Türkiyəli həmkarların təşəbbüsü əsasında cari ilin 10-14 dekabr tarixlərində Türkiyənin İstanbul şəhərində Türk Ədliyyə Təlim Şəbəkəsinə dair anlaşma memorandumunun imzalanması və bununla əlaqəli təntənəli tədbirlər keçirilmişdir.






Tədbirlərdə Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədovun, Mərkəzin Elmi-tədqiqat işinin təşkili şöbəsinin rəisi Ramin Camalovun və Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin rəisi Əmir Ocaqverdiyevin daxil olduğu nümayəndə heyəti təmsil etmişdir.

Bu tədbirdə Baş Prokurorluğun nümayəndələri ilə yanaşı, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstan dövlətlərinin ümumilikdə 12 ədliyyə və prokurorluq təlim mərkəzləri və akademiyalarının rəhbərləri iştirak etmişlər.

Baş Prokurorluğun da təsisçi kimi yaradılmasında iştirak etdiyi Türk Ədliyyə Təlim Şəbəkəsi orada təmsil olunan qurumların təlim-tədris bazasını daha da gücləndirəcək, əməkdaşlıq imkanlarını genişləndirəcək, hakim və prokurorların təliminə öz töhfəsini verəcəkdir.

Tədbirlər çərçivəsində Baş Prokurorluğun nümayəndələri ilə Macarıstan Ədliyyə Akademiyası Katibliyinin rəisi Viktor Gyore və Macarıstan Respublikası Baş Prokurorluğunun nümayəndəsi, idarə rəisi Barna Miskolci arasında görüş keçirilmiş və əməkdaşlıq imkanları müzakirə edilmişdir.

# Qərbi və Mərkəzi Asiya üzrə Aktivlərin qaytarılması qurumlararası şəbəkəsinin (ARIN-WCA) illik iclası və müvafiq mövzuda treninq keçirilib




14-15 dekabr 2022-ci il tarixlərində Pakistan İslam Respublikasının paytaxtı İslamabad şəhərində Pakistan Milli Hesabatlılıq Bürosunun təşkilatçılığı ilə hibrid formatda Qərbi və Mərkəzi Asiya üzrə Aktivlərin qaytarılması qurumlararası şəbəkəsinin (ARIN-WCA) İllik iclası və «Aktivlərin qaytarılması sahəsində aktual məsələlərə dair treninq» keçirilmişdir.

Azərbaycan Respublikasının Baş Prokurorluğunu tədbirlərdə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis muavini, ARIN-WCA-da müşahidəçi olan Azərbaycan Respublikasından əlaqələndirici şəxs İsmayıl Qayıbov onlayn formatda təmsil etmişdir.

İclasda ARIN-WCA-nın üzvləri olan İran, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Pakistan, Tacikistan, Türkmənistan və təşkilatda müşahidəçi statusuna malik olan Gürcüstan və Ukraynanın cinayət yolu ilə əldə edilmiş aktivlərin qaytarılması sahəsində ixtisaslaşan müvafiq qurumlarının nümayəndə heyətləri iştirak etmişlər.

Dekabrın 14-də keçirilmiş Şəbəkənin İllik iclasını salamlama nitqləri ilə Pakistan Milli Hesabatlılıq Bürosunun Beynəlxalq əməkdaşlıq idarəsinin rəis müavini Abdul Xaliq və Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin regional proqramının əlaqələndiricisi Ceremi Milsom açmışlar. İclas zamanı Katibliyin ARIN-WCA-nın 2022-ci ildə fəaliyyətinə dair hesabatı, ARIN-WCA-nın 2023-cü il üçün sədrliyinin seçilməsi, təşkilatın Rəhbər qrupunun seçilməsi, Şəbəkənin maliyyə məsələləri, 2023-cü ilə dair işin planlaşdırılması və s. məsələlər müzakirə edilərək müvafiq qərarlar qəbul edilmişdir.

Şəbəkənin 2023-cü ilə dair sədrliyi növbəlilik qaydasında Pakistan İslam Respublikasından İran İslam Respublikasına keçmişdir.

15 dekabr tarixində keçirilmiş «Aktivlərin qaytarılması sahəsində aktual məsələlərə dair treninq»də ARIN-WCA ölkələrində cinayətkarlığa qarşı mübarizə və aktivlərin qaytarılması potensialının inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdir. Treninqdə Azərbaycan Respublikasında cinayət aktivlərinin bərpası mövzusunda təqdimatla çıxış etmiş İsmayıl Qayıbov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə müvafiq olaraq Azərbaycan Respublikasının Baş Prokurorluğunda 2020-ci ildən keçirilən islahatlar çərçivəsində yaradılmış Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin funksiyaları və fəaliyyəti, ədlə edilmiş nailiyyətlər, yaxın perspektivdə qarşıda duran hədəflər barədə geniş məlumat vermiş, iştirakçıların suallarını cavablandırmışdır.

# Baş Prokurorluğun əməkdaşları Fransanın Strasburq şəhərində təlim keçiblər




Cari ilin 28 yanvar tarixində Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin Strasburqa işgüzar səfəri çərçivəsində Avropa İnsan Hüquqları Məhkəməsi ilə əldə olunmuş razılığa əsasən 12-14 dekabr tarixlərində Baş Prokurorluq əməkdaşlarının Məhkəməyə, həmçinin Avropa Şurasına təlim səfəri baş tutub.

Səfərdə Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Saleh Hacıyev, Baş





Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini - Kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi və analitik təhlil şöbəsinin rəisi Anar Nəsibov, Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuroru Zamir Paşayev, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin prokuroru Murad Bayramlı və Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru Vüsal Mehrəliyevdən ibarət heyət iştirak edib.

Tədbir çərçivəsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimləri Lətif Hüseynov, Mikola Qnatovski və digər əməkdaşlar nümayəndə heyətini məhkəmənin iş fəaliyyəti ilə tanış edərək, şikayətə baxılma prosedurunun xüsusiyyətləri, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa konvensiyasının müvafiq maddələri üzrə aşkar olunmuş pozuntulara dair məhkəmə təcrübəsi, onların effektiv həlli istiqamətində görülməli olan işlər, habelə məhkəmə presedentinə əlçatanlığın təmin edilməsi barədə ətraflı məlumat verilib. Bundan başqa prokurorluq orqanlarının müxtəlif struktur qurumlarını təmsil edən heyət üzvləri tərəfindən qarşılıqlı maraq doğuran məsələlər üzrə faydalı fikir mübadiləsi aparılıb.

Səfərin növbəti mərhələsində nümayəndə heyəti Avropa Şurasının inzibati binası ilə tanış olub. Avropa Şurası yanında daimi nümayəndəliyinin rəhbəri Fəxrəddin İsmayılov, Məhkəmə qərarlarının icrası üzrə departamentinin nümayəndələri və İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratına Baş Prokurorluqdan ezam olunmuş Elşən Orucov ilə görüşlər keçirilərək məhkəmə qərarların icra vəziyyəti və mexanizmi, həmçinin Avropa Prokurorlarının Məşvərət Şurasının (CCPE) fəaliyyətinə dair geniş məlumat verilib.

Eyni zamanda, səfər zamanı İnsan Hüquqları üzrə İdarəetmə Komitəsinin (CDDH) qrup rəhbəri David Milner tərəfindən Komitənin fəaliyyəti, o cümlədən ekoloji hüquqpozmaların insan hüquqlarına təsiri mövzusunda təlim keçirilib.



# BMT-nin ixtisaslaşmış qurumu tərəfindən təşkil edilmiş beynəlxalq tədbirdə Azərbaycan Prokurorluğunun nümayəndəsi ekspert qismində iştirak edib





Cari ilin 12–13 dekabr tarixlərində Misir Ərəb Respublikasının Qahirə şəhərində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi (UNODC) ilə həmin ölkənin Adminstrativ Nəzarət Qurumunun birgə təşkilatçılığı ilə Şarm əl-Şeyx Bəyannaməsinin icrası üzrə Ekspert görüşü keçirilmişdir.

Dünyanın 40-dan çox ölkəsinin nümayəndələrinin, UNODC və digər beynəlxalq təşkilatların, həmçinin xarici ölkələrin ədliyyə, məhkəmə və antikorrupsiya orqanlarının əməkdaşlarının iştirak etdiyi tədbirdə ölkəmizi eksperti qismində Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəis müavini İsfəndiyar Hacıyev təmsil etmişdir.

Tədbirdə BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin ekspertləri tərəfindən ötən ilin 13-17 dekabr tarixlərində Misirin Şarm əl-Şeyx şəhərində fövqəladə dövrlərdə korrupsiyanın qarşısının alınması və onunla mübarizə sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə dair qəbul edilmiş Bəyannamənin məqsədlərinə xidmət edəcək qeyri-məcburi xarakterli təlimatın hazırlanması üzrə ilkin məsləhətləşmələr aparılmışdır.

Təlimat layihəsinin hazırlanmasına yönəlmiş paralel dinləmələrdə iştirak edən nümayəndəmiz Azərbaycanda fövqəladə vəziyyətlərdə və pandemiya dövründə korrupsiyanın qarşısının alınması sahəsində aparılmış işlər barədə xarici həmkarlara məlumat verərək həmin mövzu və digər sahələr üzrə ümumi müzakirələrdə yaxından iştirak etmişdir.

Tədbirin sonunda UNODC-nin Katibliyi tərəfindən təlimatın ilkin layihəsi qəbul edilərək gələcəkdə məzmununun daha da təkmilləşdirilməsi istiqamətində hökumətlərarası müzakirələrin davam etdiriləcəyi bəyan edilmişdir.



Təlimatın təqdimatının 2023-cü ildə ABŞ-ın Nyu-York şəhərində keçiriləcək BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Assambleyasının 10-cu sessiyası zamanı keçirilməsi nəzərdə tutulur.

## Prokurorluq əməkdaşı Avstriyanın Vyana şəhərində təşkil edilmiş seminarda iştirak edib



Prokurorluq əməkdaşlarının beynəlxalq təcrübəni öyrənməklə peşə hazırlığının yüksəldilməsi istiqamətində işlər daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə prokurorluq əməkdaşlarının təlim kurslarında, o cümlədən beynəlxalq tədbirlərdə iştirakı təmin olunur.

Belə tədbirlərin davamı kimi Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin rəis müavini Samirə Nəcəfzadə 13-15 dekabr tarixlərində Vyana şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Mübarizə İdarəsi (BMTNCİ) tərəfindən “Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı beynəlxalq mübarizədə qadın liderlərə səlahiyyətlərin verilməsi” mövzusunda təşkil olunmuş seminarda iştirak edib.

Tədbirdə terrorizmlə mübarizə və çirkli pulların yuyulmasının qarşısının alınması sahəsi üzrə ekspertlər tərəfindən bu kateqoriya cinayətlərlə mübarizədə gender balansının təkmilləşdirilməsi, cari problemlər və həlli yolları, habelə qadınların cinayətkarlıqla mübarizədəki rolu barədə məlumat verilməklə tədbir iştirakçıları ilə interaktiv formada fikir mübadiləsi aparılıb.

## Baş Prokurorluğun əməkdaşları Avropa Şurasının təşkilatçılığı ilə “Müsadirə üsulları – Çətinliklər və Tövsiyələr” mövzusunda keçirilmiş seminarda iştirak ediblər







Azərbaycan Respublikası Baş Prokurorluğunun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi, Beynəlxalq hüquqi əməkdaşlıq idarələrinin və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları 20-21 dekabr 2022-ci il tarixlərində Avropa İttifaqı və Avropa Şurasının Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramının ikinci mərhələsi çərçivəsində icra olunan “Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi” layihəsi çərçivəsində “Müsadirə üsulları – Çətinliklər və Tövsiyələr” mövzusunda keçirilən seminarda iştirak ediblər.

Tədbirdə beynəlxalq ekspert David Mattan xüsusi müsadirə, məhkumluğa əsaslanmayan müsadirə, genişləndirilmiş müsadirə və müsadirənin digər üsulları, müsadirə məqsədilə maliyyə istintaqı və çirkli pulların yuyulması halları üzrə cinayət təqibi sahəsində yeni tendensiyalarla əlaqə, aktivlərin idarə edilməsi barədə məlumat verilməklə tədbir iştirakçıları ilə interaktiv formada fikir mübadiləsi aparılıb.

# Azərbaycan Prokurorluğunun əməkdaşları beynəlxalq forumda iştirak ediblər










Cari ilin 21 dekabr tarixində Özbəkistanın paytaxtı Daşkənd şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Mərkəzi Asiya Regional Ofisi və Özbəkistan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə Mərkəzi Asiya və Cənubi Qafqaz regionunda "Korrupsiya yolu ilə əldə edilmiş gəlirlərin bərpası üzrə Beynəlxalq Ekspert Forumu" keçirilmişdir. Forum çərçivəsində aktivlərin bərpası sahəsində müasir qlobal yanaşmalar araşdırılmış, Avropa ölkələrində və forum iştirakçısı olan dövlətlərdə bu sahədə həyata keçirilən milli strategiyalar barədə geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikasının Baş Prokurorluğunu tədbirdə Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis müavini İsmayıl Qayıbov, həmin idarənin prokuroru Bəhlul Yaqubov və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Ruhlan Nəsirov təmsil etmişdir.

Nümayəndə heyətinin üzvləri Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsi və Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyət istiqamətlərinə dair ətraflı təqdimatlarla çıxış etmişdir. İsmayıl Qayıbov tədbir çərçivəsində "Uzbekiston-24" dövlət xəbər kanalına verdiyi müsahibədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstəriş və tövsiyələrinə uyğun olaraq Prokurorluq orqanlarında 2020-ci ildən keçirilən islahatlar nəticəsində cinayət aktivlərinin bərpası istiqamətində əldə edilmiş nailiyyətlər barədə məlumat vermişdir.

# Baş Prokurorluğun Mətbuat xidmətinin məlumatları

## Tanışını qəsdən öldürməkdə şübhəli bilinən şəxs tutulub




Oktyabrın 1-i saat 01 radələrində Gəncə şəhəri ərazisində 1976-cı il təvəllüdlü Fuad Əbdülhəlimovun öldürülməsi barədə şəhər prokurorluğuna məlumat daxil olub.

Aparılmış araşdırmalarla zərərçəkmişin tanışı, 1977-ci il təvəllüdlü Aftandil Kərimovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı Fuad Əbdülhəlimovun boğaz nahiyəsinə bıçaqla xəsarət yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Gəncə şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Aftandil Kərimov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. İş üzrə istintaq davam edir.

## Orta məktəbdə azyaşlı uşağın həmyaşıdı tərəfindən zorakılığa məruz qalması faktı ilə bağlı Baş Prokurorluq tərəfindən inzibati xəta haqqında iş üzrə icraat başlanılıb

Prokurorluq orqanları tərəfindən azyaşlıların hüquqların müdafiəsi, xüsusilə onların məişətdə ailə üzvləri tərəfindən və ictimai yerlərdə, o cümlədən təhsil ocaqlarında digər uşaqlar tərəfindən zorakılığa (bullinqə) məruz qalmasının qarşısının alınması və bu cür qanunsuz hərəkətlərə yol vermiş şəxslərin məsuliyyətə cəlb olunması üçün məqsədli tədbirlər davam etdirilir.




Sosial şəbəkələrdə Sabunçu rayonunda orta məktəbdə azyaşlı uşağın həmyaşıdı tərəfindən zorakılığa məruz qalmasına dair yayılmış videogörüntü ilə bağlı aidiyyəti dövlət qurumları tərəfindən görülmüş tədbirlərlə yanaşı Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində də araşdırma aparılmışdır.

Araşdırma nəticəsində İnzibati Xətalar Məcəlləsinin 512-ci maddəsi ilə yetkinlik yaşına çatmayanların xırda xuliqanlığına görə valideynlərinin (və ya onları əvəz edən şəxslərin) məsuliyyətə cəlb olunması üçün əsas müəyyən edildiyindən, faktla bağlı inzibati xəta haqqında iş üzrə icraat başlanaraq baxılması üçün aidiyyəti üzrə Sabunçu rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyasına göndərilmişdir.

Eyni zamanda, hadisənin baş verdiyi təhsil ocağında qanun pozuntularının, onları doğuran səbəb və şəraitin aradan qaldırılmasına dair təqdimat aidiyyəti üzrə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilmişdir.

Baş Prokurorluq vətəndaşlara müraciət edərək uşaqların təlim-tərbiyəsində aidiyyəti təhsil ocaqlarının vəzifəli şəxslərinin məsuliyyəti olması ilə yanaşı valideynlərin də məsuliyyətli olduğunu xatırladaraq bu mühüm məsələyə lazımi diqqətin göstərilməsinin vacibliyini vurğulayır.

## Qanunsuz ağackəsmə faktları ilə bağlı cinayət işləri başlanıb

Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində vətəndaşların ərizələri, media və səlahiyyətli dövlət qurumlarının məlumatları əsasında Bakı və Mingəçevir şəhərləri, habelə Yardımlı və

Balakən rayonları ərazilərində qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırma aparılıb.

Araşdırmalarla paytaxtın Nərimanov rayonu ərazisində fəaliyyət göstərən "İnteks" MMC-nin istifadəsində olan dövlət mülkiyyətində olan torpaq sahəsində, Səbail rayonu ərazisində "Sabah Residence" MTK-nın xüsusi mülkiyyətində olan torpaq sahəsində 22 ədəd ağacın qanunsuz kəsilməsi nəticəsində ekosistemə 194 min manatdan çox məbləğdə maddi ziyanın dəyməsi müəyyən edilib.

Qeyd edilən faktlara görə Cinayət Məcəlləsinin 259.2.3 və 259.2.4-cü (külli miqdarda ziyan vurmaqla, habelə qulluq mövqeyindən istifadə etməklə ağac kəsmə) maddələri ilə cinayət işləri başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.




### Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Özbəkistan Baş Prokurorluğunun ekstradisiya sorğusu təmin edilib




Azərbaycanın Baş Prokurorluğu tərəfindən milli qanunvericiliyin və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrin, o cümlədən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" Kişinyov Konvensiyasının tələblərinə əsasən, Özbəkistan ərazisində cinayət törətməkdə təqsirləndirilən həmin ölkənin vətəndaşı Aşurəliyev Şərəf Xumoyunoviçin cinayət məsuliyyətinə cəlb edilməsi məqsədilə ekstradisiya olunması barədə Azərbaycanın Baş Prokurorluğuna sorğu edilib.

Belə ki, Şərəf Aşurəliyev qabaqcadan əlbir olan bir qrup şəxs halında dələduzluq və rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma cinayətlərini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən barəsində beynəlxalq axtarış elan olunub. Baş Prokurorluq tərəfindən ekstradisiya icraatı aparılaraq Özbəkistan Baş Prokurorluğunun sorğusu təmin olunub. Şərəf Aşurəliyev hər iki ölkənin hüquq mühafizə orqanlarının əməkdaşlarının müşayiəti ilə sorğu edən ölkəyə təhvil verilib.

### #İNSANHÜQUQLARI – Şəxsi həyatın gizli qalmalı olan aspektləri (privatlıq – 1)

Avropa Məhkəməsinin ardıcıl olaraq qeyd etdiyi kimi, "şəxsi həyat" anlayışı fərdin şəxsiyyəti ilə əlaqədar olan aspektləri, məsələn, onun adını, fotosunu və ya fiziki və mənəvi toxunulmazlığını əhatə edir; Avropa Konvensiyasının 8-ci maddəsində nəzərdə tutulmuş təminat ilk növbədə hər bir fərdin digər insanlarla münasibətlərində kənar müdaxilə olmadan şəxsiyyətini inkişaf etdirməsi məqsədini daşıyır. Beləliklə, hər bir fərdin digər şəxslərlə qarşılıqlı münasibətləri dairəsi mövcuddur ki, hətta həmin münasibətlər ictimai kontekstdə formalaşsa belə, "şəxsi həyat" anlayışının tətbiq dairəsinə düşə bilər (Fon Hannover Almaniyaya qarşı (№2) [BP], § 95).



Bundan əlavə, "şəxsi həyat" termini elə geniş əhatə dairəsinə malikdir ki, onun tam anlayışını vermək mümkün deyil, belə ki, o, fərdin fiziki və psixoloji toxunulmazlığını əhatə edir və buna görə də onun identikliyinin bir çox aspektlərini, məsələn, onun cinsi identikliyini və seksual oriyentasiyasını, adını və ya imicinin toxunulmazlığı hüququ ilə əlaqədar elementləri özündə ehtiva edə bilər. O, həmçinin elə fərdi məlumatları əhatə edir ki, şəxs əsaslı olaraq özünün razılığı olmadan onların dərc edilməyəcəyini güman edə bilər ("Aksel Şpringer AG" Almaniyaya qarşı [BP], § 83).

### #HÜQUQİBİLİKLƏRİNİARTIR - Konstitusiya Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsini şərh etmişdir




Konstitusiya Məhkəməsinin Plenumunun 15.09.2022-ci il tarixli qərarına əsasən Cinayət Məcəlləsinin 125-ci maddəsinin mənasına görə, təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma təqsirin birbaşa və ya dolayı qəsd formasında törədilir;

– Cinayət Məcəlləsinin 125-ci maddəsinin dispozisiyasında əks olunan “sair cəhətdən asılılıq” və “amansız rəftar etmə” qiymətləndirmə tələb edən əlamətlər olduğundan, şəxsin təqsirlilik məsələsi həll edilərkən işin bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırılmalı, təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyinin nədə ifadə olunması, zərərçəkmişin təqsirləndirilən şəxsdən asılılığının forması göstərilməli və təqsirləndirilən şəxsin hərəkətləri ilə özünü öldürmə və ya ona cəhd arasında səbəbli əlaqənin mövcudluğu müəyyən edilməlidir. Bundan başqa, qərarda qeyd edilmişdir ki, yetkinlik yaşına çatmayanların şəxsiyyətinin xüsusiyyətləri (şüurun tam formalaşmaması və emosional qeyri-sabitlik) bu kateqoriyadan olan şəxslərə qarşı törədilən Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə nəzərdə tutulan əməlin ictimai təhlükəliliyini artıran hal kimi qiymətləndirilməlidir. Eyni zamanda, yetkinlik yaşına çatmayanlar arasında “bullinq” (zərərçəkmişin bir qrup şəxs tərəfindən təzyiq və aqressiv davranışın hədəfi olması) hallarının, həmçinin internet şəbəkəsində intihara təhrik, sövq edən oyunların, virtual “ölüm qruplarının” yayılması Cinayət Məcəlləsinin 125-ci maddəsinə yeni tərkibin əlavə edilməsi zərurətini yaradır.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, qanunverici tərəfindən yetkinlik yaşına çatmayanları özünü öldürməyə təhrik, sövq, təbliğ və ya köməklik etməyə görə daha ağır cinayət məsuliyyətinin müəyyən edilməsi məqsədəmüvafiqdir. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

### #SORĞUYACAVAB - Şəxsin xəstəxanada ölməsi faktı ilə bağlı Kürdəmir rayon prokurorluğunda cinayət işi başlanmışdır




Baş Prokurorluğun Mətbuat xidmətinə daxil olmuş sorğuya cavab olaraq bildirilir ki, noyabrın 06-sı Kürdəmir Rayon Mərkəzi Xəstəxanasında 2005-ci il təvəllüdlü Şəbinur İsayevanın qeysəriyyə əməliyyatından sonra səhhətinin pisləşməsi nəticəsində ölməsi faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 124.1-ci (ehtiyatsızlıqdan adam öldürmə)maddəsi ilə cinayət işi başlanmışdır.

### Bağlı cinayət “isti izlər”lə açılıb




Prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Salyan rayonu Xocalı kəndi ərazisində qeyri-aşkar şəraitdə törədilmiş ağır cinayətin “isti izlərlə” açılması təmin edilib. Belə ki, noyabrın 18-də Masallı rayonu, Qızılağac kənd sakini 1957-ci il təvəllüdlü Etibar Məmmədovun üzərində xəsarət izləri olan meyitinin Salyan rayonu, Xocalı kəndi ərazisində aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Faktla bağlı Salyan rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə həyata keçirilmiş intensiv istintaq və əməliyyat axtarış tədbirləri ilə Etibar Məmmədovun sərnişin kimi avtomobilinə götürdüyü 1975-ci il təvəllüdlü Müşviq İskəndərovun aralarında yaranmış mübahisə zamanı kəsici-deşici alətlə çoxsaylı xəsarətlər yetirərək onu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib. Müşviq İskəndərov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. Hazırda cinayət işi üzrə istintaq tədbirləri davam edir.

### Səbail Bələdiyyəsinin sabiq sədri barəsində cinayət işi üzrə ibtidai istintaq Baş Prokurorluğun İstintaq idarəsində tamamlanıb




Bəzi media qurumları tərəfindən Səbail Bələdiyyəsinin sabiq sədri Hüseynov Əhməd Həsən oğlunun barəsində Cinayət Məcəlləsinin 178.4-cü (xüsusilə külli miqdarda dələduzluq) maddəsi ilə cinayət işinin başlanmasına dair dəqiqləşdirilməmiş məlumatlar yayılmışdır.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən qeyd olunan informasiya ilə bağlı bildirilir ki, Əhməd Hüseynovun Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi Baş Prokurorluğun İstintaq idarəsində istintaq edilmişdir.

İstintaqla Əhməd Hüseynovun qabaqcadan əlbir olan bir qrup şəxs halında dövlət və bələdiyyəyə məxsus, ümumilikdə 1 milyon 824 min manat dəyərində torpaq sahələrini ələ keçirməyə cəhd etməsi, habelə rəsmi sənədi ilə saxtalaşdırmasına əsaslı şübhələr müəyyən edilmişdir. Əhməd Hüseynova Cinayət Məcəlləsinin 29, 178.4, 309.1, 313 və digər maddələri ilə ittiham elan edilmiş və 27.12.2022-ci il tarixdə cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

### Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin birgə MƏLUMATI – Şəxsin arvadını qəsdən öldürməsi daha sonra intihar etməsi faktı ilə bağlı cinayət işi başlanıb




Dekabrın 29-u saat 21 radələrində paytaxtın Sabunçu rayonu, Maştağa qəsəbəsi ərazisində 1970-ci il təvəllüdlü Elxan Ələsgərov və 1977-ci il təvəllüdlü Mahidə Əsədovanın birgə yaşadıqları evdə ölmələri barədə rayon prokurorluğuna məlumat daxil olmuşdur. Dərhal prokurorluq və polis əməkdaşları tərəfindən ekspert-kriminalistin iştirakı ilə hadisə yerinə və meyitlərə baxış keçirilmiş, digər zəruri hərəkətlər aparılmışdır. İlkin araşdırma nəticəsində Elxan Ələsgərovun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı kəsici-deşici alətlə arvadı Mahidə Əsədovaya xəsarətlər yetirərək qəsdən öldürməsinə, daha sonra həmin alətlə özünə xəsarət yetirərək intihar etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Sabunçu rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) və 125-ci (özünü öldürmə həddinə çatdırma) maddələri ilə cinayət işi başlanmışdır. Hazırda cinayət işi üzrə ibtidai istintaq davam etdirilir.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğu orqanları tərəfindən hüquqi maarifləndirmə tədbirləri davam etdirilir

**Ölkəmizdə aparılan demokratik, o cümlədən məhkəmə hüquq islahatları, hüququn aliliyinin təmini yalnız və yalnız insan amilinə xidmət edir. Demokratik cəmiyyətdə yaşamağın əsas şərtlərindən biri də vətəndaşların hüquqi cəhətdən savadlı olmasıdır. Doğrudur, cəmiyyətin hər bir üzvünün hüquqşünas olması mümkün deyil. Lakin hər bir şəxsin hüquq mədəniyyətinin yüksək olması zamanın tələbidir.**

**Naxçıvan Muxtar Respublikasının Prokurorluq orqanları 2022-ci ildə də cinayətkarlığa qarşı mübarizə sahəsində əsas diqqəti qanunvericiliyin izahı, əhalinin hüquqi maarifləndirilməsi, hüquqi biliklərin təbliğinə yönəltmişdir. Maarifləndirmə sahəsində kütləvi informasiya vasitələrinin, o cümlədən mətbuatın gücündən səmərəli istifadə edilməyə çalışılıb.**




Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi tərəfindən Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin mətbu orqanı **"Şərq qapısı"** qəzetində təşkil olunan "Hüquqi maarifləndirmə günün tələbidir" rubrikasında "İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması hansı məsuliyyətə səbəb olur?", "İnformasiyanın yayılmasına, informasiya mənbəyinin açıqlanmasına yol verilməyən hallar hansılardır?", "Hansı mübahisələrlə bağlı əvvəlcə mediasiya sessiyasında iştirak tələb olunur?, "Əmək məzuniyyəti hissələrə bölünməklə verilə bilərmi?", "Torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi hansı məsuliyyətə səbəb olur?", "Uşaqları zərərli informasiyadan qorumaq valideynlərin həm də mənəvi vətəndaşlıq borcudur" (Məqalə), "Prokurorluq orqanlarına hərtərəfli qayğı göstərilir" (Məqalə), "Sürücü məsuliyyəti, piyada mədəniyyəti" (Məqalə) mövzularında çıxışlar edilib.




Naxçıvan şəhər prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə bağlı Naxçıvan Şəhər İcra Hakimiyyətinin mətbu orqanı olan **"Nuh yurdu"** qəzetində təşkil olunan "Hüquq maarifi" rubrikasında "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanması cinayətdir" və "Kimlər gecə vaxtı görülən işlərə cəlb edilə bilməz?", "Sosial şəbəkələrdə böhtan atma və təhqir etmə cinayət məsuliyyəti yaradır.", "Əmək müqaviləsi hansı müddətə bağlanıla bilər?", "Torpaqların dövlət ehtiyacları üçün alınması səlahiyyəti verilmiş şəxsin səlahiyyətlərinin həyata keçirilməsinə mane olmağa görə inzibati məsuliyyət necə müəyyənləşdirilib?", "Torpaqların dövlət ehtiyacları üçün alınması səlahiyyəti verilmiş şəxsin səlahiyyətlərinin həyata keçirilməsinə mane olmağa görə inzibati məsuliyyət necə müəyyənləşdirilib?", "Ödənişsiz məzuniyyət neçə ay müddətinə verilə bilər?", "Yaşayış sahələrindən istifadə qaydalarının pozulması inzibati məsuliyyət yaradırmı?", "Torpaqlardan səmərəli istifadə və onların mühafizəsi hər kəsin vətəndaşlıq borcudur", "Hansı işçilərin əmək müqaviləsinin ləğvi qadağandır?", "Mənzil kirayə götürərkən yazılı müqavilə bağlamaq lazımdırmı?", "Xüsusi mühafizə olunan təbiət ərazilərindən düzgün istifadə olunmalıdır", "Əmək müqaviləsi üzrə işçiyə sınaq müddəti müəyyən edilməyən hallar hansılardır?", "Azərbaycan Respublikası qanunvericiliyinə əsasən ərin hansı hallarda nikahın pozulmasını tələb etmək hüququ məhdudlaşdırıla bilər?", "Vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi diqqət mərkəzindədir", "Məhdud məsuliyyətli cəmiyyət nədir və öhdəlikləri üçün hansı həddə risk daşıyırlar?", " Müəlliflik hüququ Azərbaycan Respublikasında qanunla qorunur" və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququ qanunla necə müdafiə oluunur?"mövzularında çıxışlar edilib .




Şərur rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə bağlı Şərur Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan **"Şərurun səsi"** qəzetində təşkil olunan "Sorğu guşəsi" rubrikasında "Qanunvericilikdə nikah yaşı necə müəyyən edilir?", "Qətimkan qismində başqa yerə getməmək haqqında intizam tədbirinin tətbiqi əsasları qanunvericilikdə necə müəyyən olunub?", "Şəxs tərəfindən biləbilə yalan ifadə vermə, yalan rəy vermə və ya yanlış tərcümə etmə hansı məsuliyyətə səbəb olur?", "Qonşunun hansı təsirləri qanunsuzdur?", "Qırmızı kitaba daxil edilmiş heyvan və bitki növlərinin qorunması üzrə tələblərin pozulması inzibati məsuliyyətə səbəb olurmu?", "Gərginliyi 1000 voltadək olan elektrik şəbəkələrinin zədələnməsi

və ya gərginliyi 1000 voltdan çox elektrik şəbəkələrinin mühafizəsi qaydalarının pozulmasına görə inzibati məsuliyyətin cəza həddi nə qədərdir?", "Yetkinlik yaşına çatmayanların xırda xuliqanlığa görə valideynlərinin və ya onları əvəz edən şəxslərin məsuliyyəti qanunvericilikdə necə həll olunur?", "Cinayət barədə xəbər verməmə və ya qabaqcadan vəd etmədən cinayəti gizlətmə hansı hallarda məsuliyyətə səbəb olur?", "Torpaqların dövlət uçotundan, qeydiyyatından gizlədilməsi və ya kəmiyyətinə və keyfiyyətinə dair məlumatların təhrif edilməsi hansı məsuliyyətə səbəb olur?", "Yetkinlik yaşına çatmayanların xırda xuliqanlığa görə valideynlərinin və ya onları əvəz edən şəxslərin məsuliyyəti qanunvericilikdə necə müəyyən edilmişdir?", "Məişət səs-küyünə qarşı mübarizə qaydalarının pozulması hansı məsuliyyətə səbəb olur?", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında qanunvericiliyin pozulması ilə bağlı qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulmuşdur?", "Hərbi qeydiyyat sənədlərinin qəsdən korlanması və ya itirilməsi hansı məsuliyyətə səbəb olur?", "Əmək müqaviləsi üzrə işçiyə sınaq müddəti müəyyən edilməyən hallar hansılardır?", "Şahidin və ya zərər çəkmiş şəxsin ifadə verməkdən imtina etməsi hansı məsuliyyətə səbəb olur?" "Qiymət intizamının pozulması hansı məsuliyyətə səbəb olur?", "Valideynlərə kömək göstərməkdən qəsdən boyun qaçırma hansı məsuliyyətə səbəb olur?", "Uşağın ailədə yaşamaq və tərbiyə olunmaq hüququ qanunvericiliklə necə müəyyən olunmuşdur?", "Uşağın öz valideynləri və başqa qohumları ilə ünsiyyətdə olmaq hüququ qanunvericiliklə necə müəyyən olunmuşdur?", "Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma hansı məsuliyyətə səbəb olur?", "Uşaqların təlim-tərbiyəsi, vəzifələrinin valideynlər və ya onu əvəz edən şəxslər tərəfindən yerinə yetirilməsi hansı məsuliyyətə səbəb olur?", "Təhsil haqqında qanunvericiliyin pozulmasına görə qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulmuşdur?" və "Su obyektlərindən və sudan istifadə qaydalarının pozulması hansı məsuliyyətə səbəb olur?" mövzularında çıxışlar edilmişdir




Babək rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə bağlı Babək Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan **"Şərqin səhəri"** qəzetində təşkil olunan "Sorğu guşəsi" rubrikasında "Kommunal borca görə xəbərdarlıq edilmədən təchizatın dayandırılması qanunidirmi?" və "Enerji resurslarının talanması hüquqi məsuliyyət yaradır", "Məişət zorakılığı barədə şikayətlərə hansı dövlət orqanı tərəfindən baxılır?", "Özbaşına tikinti işi aparmaq hüquqi məsuliyyət yaradır", "Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiqetmə ilə bağlı qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulub?", "Yol-nəqliyyat hadisəsi yerindən qaçma hansı halda cinayət məsuliyyəti yaratmır?", "Torpaq üzərində mülkiyyət hüququnun pozulması qadağandır", "Mülkiyyətçi ona məxsus mənzili satmaq istəyir, lakin mənzildə qeydiyyatda olan şəxslərin biri xaricdədir. Bu halda mülkiyyətçi həmin şəxsin razılığı olmadan mənzili sata bilərmi?", "Piyadaya yol verilməməsi qanunvericilikdə hansı məsuliyyət yaradır?", "Yol-nəqliyyat hadisəsi yerindən qaçma hansı halda cinayət məsuliyyəti yaratmır?", "Amnistiya aktı necə qəbul edilir və kimlərə şamil olunur?", "Qanunsuz ağac kəsmək hüquqi məsuliyyət yaradır", "Hansı hallarda işçinin iş vaxtından artıq işlərə cəlb edilməsinə yol verilir?", "Yol-nəqliyyat hadisəsi yerindən qaçma hansı halda cinayət məsuliyyəti yaratmır?", "Əkin yerinin yandırılması hüquqi məsuliyyət yaradır", "İş yerində ixtisara düşən şəxsə işdən çıxma müavinəti və orta əmək haqqı ödənilərkən həmin məbləğdən gəlir vergisi tutulurmu?", "Enerji resurslarının talanmasına görə məsuliyyət", "Qanunsuz ov etmək hüquqi məsuliyyət yaradır", "Hansı şəxslər arasında nikahın bağlanmasına yol verilmir?", "Torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma məsuliyyətə səbəb olurmu?", "Tullantı sularının kənara təyinatsız axıdılmasına görə qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulub?", "Lisenziya olmadan özəl tibbi fəaliyyətlə və ya əczaçılıqla məşğul olmağa görə qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulub?", tarixdə "Əmək və icra intizamının pozulmasına görə intizam məsuliyyəti" (məqalə) və "Tütün məmulatlarının yetkinlik yaşına çatmayanlara satılmasına görə qanunvericilikdə hansı məsuliyyət nəzərdə tutulub?", "Səfərbərlik hazırlığı və səfərbərlik nədir?", "Azərbaycan vətəndaşlığını necə almaq olar?", "Hüquqi şəxs hansı halda müflis olunmuş sayıla bilər?", "Məişət zorakılığı barədə şikayətlərə hansı dövlət orqanı tərəfindən baxılır?" və "Sosial şəbəkələrdə saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə hansı məsuliyyətə səbəb olur?" mövzularında çıxışlar edilmişdir.




Culfa rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə Culfa Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan **"Arazın səsi"** qəzetində təşkil olunan "Hüquqi maarifləndirmə" rubrikasında "Nikahın qeydə alınması və ya nikahın pozulmasının qeydə alınması üçün dövlət rüsumu neçə manat müəyyən edilmişdir?", "Kimlərə və hansı sənədlər əsasında II Qarabağ müharibəsində iştirak etdiklərinə görə müharibə veteranı adı verilə bilər?", "Kimlər müsabiqədən kənar ali təhsil müəssisələrinə qəbul ola bilər?", "Hərbi və xüsusi geyim formalarını qanunsuz

olaraq daşıma inzibati məsuliyyətə səbəb olurmu?", "Nələr daşınmaz əmlakın icbari siğortası üzrə siğorta hadisəsi hesab edilir?", "Hansı hallar daşınmaz əmlakın icbari sığortası üzrə sığorta hesab edilmir?", "Bilə-bilə yalandan təcili yardım xidmətini çağırmaq məsuliyyətə səbəb olurmu?", "Məişət səs-küyünə qarşı mübarizə qaydalarını pozmuş şəxs məsuliyyətə cəlb olunurmu?", "Məktəbdənkənar təhsil müəssisələri və bədən tərbiyəsi-idman təşkilatları tərəfindən uşaq və gənclərin bədən tərbiyəsi və idmanla məşğul olmağa cəlb edilməsi və ya idman yarışlarına buraxılması hansı hallarda məsuliyyətə səbəb olur?", "Qaz, elektrik və ya istilik qurğularında texniki istismar qaydalarının pozulması hansı məsuliyyətə səbəb olur?", "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması və ya onlardan istifadə qaydalarının pozulması hansı məsuliyyətə səbəb olur?", "Mənzilimi icbari qaydada sığortalamadığım təqdirdə məni hansı məsuliyyət gözləyir?" mövzularla çıxışlar edilib.




Ordubad rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə Ordubad Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan **"El həyatı"** qəzetində təşkil olunan "Hüquq guşəsi" rubrikasında "Əmlak üzərinə həbs necə qoyulur?", "Piyadalar tərəfindən yol hərəkəti qaydalarının pozulmasına görə inzibati xəta törətmiş şəxs hansı məbləğdə cərimə edilir?", "Heyvanın vurduğu zərərin əvəzini sahibi ödəməyə borcludumu?", "Kommunal borca görə xəbərdarlıq edilmədən təchizatın dayandırılması qanunidirmi?", "Vəsiyyətnamə dəyişdirilə bilərmi?", "İxtisar zamanı hansı işçilər işdən çıxarıla bilməz?", "Yaxın qohumun adına etibarnamə vermişəm. Həmin etibarnamənin müddətinin bitməsinə hələ 9 ay vardır. Etibarnaməni ləğv edə bilərəmmi?", "İnzibati həbs nədir və kimlərə tətbiq oluna bilməz?", "Atam 5 il bundan əvvəl vəfat edərkən mülkiyyətində yalnız torpaq sahəsi olmuşdur. Lakin atam vəsiyyətnamə qoymamışdır. Hazırda isə həmin torpaq sahəsini satmaq istəyirəm. Bunun üçün nə etməliyəm?", "Torpaq icarəçisinin vəzifələri nədən ibarətdir?", "Amnistiya nədir?", "Vətəndaşın mülkiyyət hüququ hansı hallarda itirilə bilər?", "Vəsiyyətnamənin qüvvədən düşmüş sayılmasının əsasları hansılardır?", "Nəqliyyat vasitəsinin hərəkəti zamanı sürücünün telefonu əldə saxlamaqla ondan istifadə etməsinə görə nə qədər cərimə nəzərdə tutulub?", "Məhkəmənin qərarı əsasında əməliyyat-axtarış tədbirləri necə həyata keçirilir?", "İnzibati həbs nədir? Və kimlərə tətbiq oluna bilməz?", "Hüquqi şəxslərin dövlət qeydiyyatı necə aparılır?", "Sahibkarlıq fəaliyyəti zamanı tam ortaqlıq nə deməkdir?", "Övladlığa götürmənin ləğv edilməsinin əsasları hansılardır?", "Mediasiya nədir?, "Uşaqların tərbiyəsi və təhsilində valideynlərin hüquq və vəzifələri nədən ibarətdir?", "Cinayət təqibi üzrə icraat hansı hallarda başa çatdırılır?", "Vurulmuş ziyana görə kompensasiya necə ödənilməlidir?", "İnzibati xətaya görə məsuliyyəti yüngülləşdirən hallar hansılardır?", "Apelyasiya şikayətinin və ya apelyasiya protestinin verilmə müddətləri nə qədərdir?", "Əmək müqaviləsinin müddəti nə qədər olur?", "Cinayət təqibi nədir?, "On dörd yaşı tamam olmuş şəxs hansı hallarda cinayət məsuliyyətinə cəlb edilir?", "Sübutların anlayışı və növləri hansılardır?", "Xarici ölkədə pasportunu itirmiş şəxsin ölkəyə qayıdışı necə həyata keçirilir?", "Dələduzluq nədir?", "Prosessual müddətlərin qurtarması necə hesablanır?", "Nikah müqaviləsinin məzmunu necə müəyyən olunur?", "Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikası vətəndaşının bu barədə məlumat verməməsi məsuliyyətə səbəb ola bilər?" və "Kimlər cinayət məsuliyyətinə cəlb edilə bilməzlər?" mövzularında çıxışlar edilib.




Şahbuz rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə Şahbuz Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan **"Oğuz səsi"** qəzetində təşkil olunan "Sorğu guşəsi" rubrikasında "Amnistiya nədir, kimlərə şamil olunur?", "Torpaqların (meşə fondu torpaqlarının) zibillənməsi və korlanması, həmçinin, əkin yerinin yandırılmasının cəzası qanunvericilikdə hansı qaydada nəzərdə tutulub?", "Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmənin qanunvericilikdə cəzası nədir?", "Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması, həmçinin başqalarını insan immunçatışmazlığı virusu ilə yoluxdurmanın cəzası qanunvericilikdə hansı qaydada nəzərdə tutulub?", "Sağlam və təhlükəsiz əməyin mühafizəsi şəraitinin təmin edilməsi qanunvericilikdə hansı qaydada nəzərdə tutulmuşdur?" və "Təbii qazın, suyun, elektrik və ya istilik enerjisinin talanmasının cəzası qanunvericilikdə hansı qaydada nəzərdə tutulub?" mövzularında çıxışlar edilib.




Kəngərli rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə bağlı Kəngərli Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan **"Yeni həyat"** qəzetində təşkil olunan "Hüquqi maarifləndirmə günün tələbidir" rubrikasında "Cinayət törədən şəxs hansı hallarda həbs edilə bilməz?", "Azərbaycan

Respublikasında Cinayət məsuliyyətinə cəlb etmə yaşı neçədir?", "Kimlər mirasdan məcburi pay ala bilər?", "İş vaxtı sağlamlığı pozulmuş işçinin hansı hüquq və sosial təminatları var?", "Etibarsızlıq dedikdə nə anlaşılmalıdır və qanunvericilikdə əqdin etibarsızlığına necə anlayış verilmişdir?", "Şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi qaydalarına görə dövlət rüsumlarının məbləği?", "Zəruri müdafiə nədir?", "Yol hərəkəti qaydalarının pozulması cinayət məsuliyyətinə səbəb olurmu?", "Kassasiya şikayəti hansı müddətə verilməlidir?", "Şəxs barəsində yazılmış cərimənin ləğvi və ya azaldılması üçün nə etməlidir?", "Apellyasiya şikayəti hansı müddətdə verilməlidir?" mövzularında çıxışlar edilib.




Sədərək rayon prokurorluğu tərəfindən qanunvericiliyin izahı və hüquqi maarifləndirmə ilə Sədərək Rayon İcra Hakimiyyətinin mətbu orqanı olan "Oğuz yurdu" qəzetində təşkil olunan "Sual-cavab" rubrikasında "Təbii qazın, elektrik və ya istilik enerjisinin və ya onlardan istifadə qaydalarının pozulması qanunvericiliklə hansı məsuliyyətə səbəb olur?", "Ad və soyadı hansı qaydada dəyişmək mümkündür?", "İnternet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi tərəfindən internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması qanunvericilikdə hansı məsuliyyətə səbəb olur?", "Vətəndaşın yaşayış yeri və olduğu yer üzrə qeydiyyatdan keçməməsinə görə inzibati məsuliyyət nəzərdə tutulmuşdurmu?", "Torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi inzibati xətalar qanunvericiliyi ilə hansı məsuliyyətə səbəb olur?", "Qanunvericilikdə tibbi sığorta şəhadətnaməsi necə xarakterizə olunur?", "Meşə fondu sahələrində özbaşına ot biçilməsi və ya mal-qara otarılması, özbaşına yabanı meyvə, qoz-fındıq, göbələk, giləmeyvə yığılması İnzibati xətalar qanunvericiliyinə əsasən hansı məsuliyyətə səbəb olur?, "Yaşayış sahələrindən istifadə qaydalarının pozulmasına görə məsuliyyət qanunvericiliklə hansı qaydada tənzimlənir?", "İstehsalı və ya satılması qadağan olunmuş malların istehsalı və ya satılması, yaxud qadağan olunmuş işlərin yerinə yetirilməsi qanunvericilikdə hansı məsuliyyətə səbəb olur?, "Bilə-bilə yalan izahat və ya rəy vermə, yaxud yanlış tərcümə etmə İnzibati Xətalar qanunvericiliyinə görə hansı məsuliyyətə səbəb olur?", "Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə necə tənzimlənir?", "İstehsalat və məişət tullantıları haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət qanunvericilikdə hansı qaydada tənzimlənir?", "Əkin yerlərinin yandırılmasına görə məsuliyyət qanunvericilikdə hansı qaydada tənzimlənir?", "Əməyin mühafizəsi qaydalarının pozulması inzibati xətalar qanunvericiliyinə görə hansı məsuliyyətə səbəb olur?", "Torpaq üzərində mülkiyyət istifadə və icarə hüququnu pozma qanunvericilikdə necə xarakterizə olunur?", "Torpaq sahəsindən məqsədli təyinatına uyğun olmayan başqa məqsədlər üçün istifadə edilməsi İnzibati Xətalar Məcəlləsinə görə hansı məsuliyyətə səbəb olur?", "Özbaşına tikinti işlərinin aparılması qanunvericilikdə hansı məsuliyyətə səbəb olur?", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət və mübahisələrin həlli necə tənzimlənir?", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət İnzibati Xətalar Məcəlləsində necə müəyyən edilmişdir?", "Torpaqların (meşə fondu torpaqlarının) zibillənməsi və korlanmasına görə İnzibati Xətalar Məcəlləsində hansı məsuliyyət nəzərdə tutulur?", "Əmək qanunvericiliyinin pozulmasına görə məsuliyyət İnzibati Xətalar Məcəlləsində necə tənzimlənir?", "Yaşıllıqların mühafizəsi haqqında qanunvericiliyin pozulması hansı inzibati məsuliyyətə səbəb olur?" və "Qaz, istilik və elektrik enerjisindən istifadə qaydalarının pozulması hansı inzibati məsuliyyətə səbəb olur?" mövzularında çıxışlar edilib.





Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi tərəfindən Naxçıvan Muxtar Respublikası Prokurorluğunun rəsmi veb-saytı olan www.prokurorluq.nakhchivan.az saytında və "Nuhçıxan" İnformasiya Agentliyində yaradılan "HÜQUQ GUŞƏSİ"ndə müxtəlif hüquqi mövzularda 60 halda maarifləndirici material yerləşdirilib.

47 halda www.naxcivanxeberleri.com saytında müxtəlif mövzuda maarifləndirici çıxışlar edilib.

Bu sahədəki tədbirlər davam etdirilir.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi**

# Əmək qanunvericiliyinə əməl olunmasına prokuror nəzarəti

Azərbaycan Respublikası Əmək Məcəlləsinin "Bu Məcəllənin tələblərinə əməl olunmasına nəzarət" adlanan 308-ci maddəsində qeyd olunur ki, işəgötürənlər, işçilər, icra hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən Əmək Məcəlləsinin, eləcə də bütövlükdə əmək qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktların dürüst və eyni cür tətbiq edilməsinə, onların tələblərinin düzgün yerinə yetirilməsinə nəzarəti öz səlahiyyətləri daxilində prokurorluq orqanları, habelə səlahiyyəti Əmək Məcəlləsinin 15-ci maddəsi ilə müəyyən edilmiş müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

"Azərbaycan Respublikasının Əmək Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimlənmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 15 aprel 1999-cu il tarixli 122 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikası Əmək Məcəlləsinin 15-ci maddəsinin birinci hissəsində və 308-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Dövlət Əmək Müfəttişliyi Xidməti həyata keçirir.

Əmək Məcəlləsinin "Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan" adlanan 15-ci maddəsində qeyd olunur ki, Əmək Məcəlləsinin və əmək qanunvericiliyinə dair digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanı, yəni Dövlət Əmək Müfəttişliyi Xidməti həyata keçirir.

Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan, yəni Dövlət Əmək Müfəttişliyi Xidməti səlahiyyəti çərçivəsində əmək qanunvericiliyinin pozulmasında təqsirkar şəxslərdən yol verdikləri hüquq pozuntularının aradan qaldırılmasını tələb etmək, onları Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən olunmuş hallarda və qaydada inzibati məsuliyyətə cəlb etmək və digər məsuliyyətə cəlb olunması üçün müvafiq orqanlar qarşısında məsələ qaldırmaq hüququna malikdir.

Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın, yəni Dövlət Əmək Müfəttişliyi Xidmətinin hüquqları, vəzifələri və fəaliyyət qaydaları müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən təsdiq edilmiş Əsasnamə ilə tənzim edilir.

Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqan, yəni Dövlət Əmək Müfəttişliyi Xidməti Əmək Məcəlləsi ilə və digər normativ hüquqi aktlarla məhkəmənin səlahiyyətinə aid olan məsələlərin həlli üzrə fəaliyyət göstərə bilməz.

Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın vəzifəli şəxslərinin Əmək Məcəllənin və əmək qanunvericiliyinə dair digər normativ hüquqi aktların tələblərinə əməl olunmasına dair qəbul etdiyi qərarların, göstərişlərin işəgötürənlər və işçilər, habelə əmək münasibətlərinin digər iştirakçıları tərəfindən icrası məcburidir.

Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən orqanın, yəni Dövlət Əmək Müfəttişliyi Xidmətinin vəzifəli şəxslərinin qərarlarından və göstərişlərindən inzibati qaydada və (və ya) məhkəməyə şikayət verilə bilər. Müvafiq icra hakimiyyəti orqanı (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi) elektron informasiya sisteminə müvafiq icra hakimiyyəti orqanının real vaxt rejimində inteqrasiya olunmasını təmin etməlidir.

24 avqust 2002-ci il tarixli ümumxalq səsverməsində (referendumda) Azərbaycan Respublikası Konstitusiyasında qəbul edilmiş dəyişikliklərə əsasən Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin I hissəsində "qaydada" sözlərindən sonra "və hallarda" sözləri əlavə edilmiş, "eyni cür və dürüst" sözləri çıxarılmışdır.

Yəni, Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsində göstərilir ki, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir.

Lakin Azərbaycan Respublikası Əmək Məcəlləsinin 308-ci maddəsində "dürüst və eyni cür" ifadəsi hələ də işlənməkdədir. Qeyd etmək istərdim ki, Əmək Məcəlləsində qeyd olunan "eyni cür və dürüst" sözləri adətən sovet qanunverilciliyində daha cox işlədilən sözlərə aiddir.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində prokurorluğun fəaliyyətinin əsas istiqamətləri konkret olaraq göstərilmişdir. Bu fəaliyyətin əsas istiqamətlərinə aid

müvafiq maddədə Azərbaycan Respublikası Əmək Məcəlləsinin "Bu Məcəllənin tələblərinə əməl olunmasına nəzarət" adlanan 308-ci maddəsində qeyd olunmuş işəgötürənlər, işçilər, icra hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən Əmək Məcəlləsinin, eləcə də bütövlükdə əmək qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktların dürüst və eyni cür tətbiq edilməsinə, onların tələblərinin düzgün yerinə yetirilməsinə nəzarəti öz səlahiyyətləri daxilində prokurorluq orqanları həyata keçirilməsi ilə bağlı heç bir müddəa öz əksini tapmamışdır.

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 10-cu maddəsində qeyd olunur ki, normativ hüquqi aktı qəbul edən dövlət orqanına ictimai münasibətlərin müəyyən sahəsinin tənzimlənməsində xüsusi səlahiyyət verilirsə, həmin dövlət orqanının qəbul etdiyi normativ hüquqi akt eyni kateqoriyalı dövlət orqanının həmin sahə üzrə qəbul etdiyi normativ hüquqi aktına münasibətdə daha yüksək hüquqi qüvvəyə malikdir. Ziddiyyət təşkil edən normativ hüquqi aktlar bərabər hüquqi qüvvəyə malikdirsə, konkret münasibətlərə sahə normativ hüquqi aktı tətbiq edilir, bu şərtlə ki, həmin münasibətlər eyni hüquqi tənzimləmə sahəsinə aiddir.

Hüquqi baxımdan isə onu demək olar ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 308-ci maddəsində işəgötürənlər, işçilər, icra hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən bu Məcəllənin, eləcə də bütövlükdə əmək qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktların dürüst və eyni cür tətbiq edilməsinə, onların tələblərinin düzgün yerinə yetirilməsinə nəzarəti öz səlahiyyətləri daxilində prokurorluq orqanları həyata keçirilməsi təsbit olunsa da, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində qeyd olunan prokurorluğun fəaliyyətinin əsas istiqamətlərində bu hal konkret olaraq göstərilməmişdir. Qeyd olunan Qanunun həmin maddəsində həmçinin göstərilir ki, prokurorluğun üzərinə Azərbaycan Respublikasının Konstitusiyasında, bu Qanunda və prosessual qanunvericilikdə nəzərdə tutulmamış vəzifələrin qoyulması yolverilməzdir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin "Əmək qanunvericiliyinin pozulması" adlanan 192-ci maddəsində əmək qanunvericiliyin pozulması halları və ona görə nəzərdə tutulmuş inzibati məsuliyyət müəyyən olunmuşdur.

Bu hallara nəzər salaq: Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə, işəgötürən tərəfindən işçilərin və iş yerlərinin attestasiyasının keçirilməsi qaydalarının pozulmasına, işçiyə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş minimum əməkhaqqından aşağı məbləğdə əməkhaqqı verilməsinə, işçinin əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, əmək qanunvericiliyində nəzərdə tutulmuş müavinət və digər ödənişlərin hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsinə, işçinin məzuniyyət hüquqlarının pozulmasına, işçiyə əmək məzuniyyətinin verilməməsinə, habelə istifadə edilməmiş əmək məzuniyyətinə görə müəyyən edilmiş kompensasiyanın ödənilməməsinə, işçinin əmək müqaviləsinə əmək qanunvericiliyinin tələbləri pozularaq xitam verilməsinə görə, işəgötürən tərəfindən əmək qanunvericiliyində müəyyən edilmiş müddətdə işçiyə əmək kitabçasının açılmamasına, işəgötürən tərəfindən 15 yaşına çatmamış şəxsin işə cəlb edilməsinə, işəgötürən tərəfindən uşaqların onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb edilməsinə, insanın immunçatışmazlığı virusu ilə yaşayan şəxsləri, işləməsinə yol verilməyən peşə növləri və vəzifələr istisna olmaqla, insanın immunçatışmazlığı virusuna yoluxması səbəbinə görə işə qəbul etməkdən imtinaya və ya həmin səbəbdən onları işdən azad etməyə, şəxsin dağınıq skleroz xəstə olması səbəbinə görə onunla əmək müqaviləsi bağlamaqdan imtina edilməsinə və ya əmək müqaviləsinə xitam verilməsinə (işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı, həmçinin belə şəxslərin əməyindən istifadə olunmasına yol verilməyən iş yerlərinə işə götürməkdən imtina edilən hallar istisna olmaqla), Qanunla pedaqoji fəaliyyətlə məşğul olması qadağan edilən şəxslərlə pedaqoji fəaliyyətlə məşğul olmaq üçün əmək müqaviləsinin bağlanılmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər cərimə edilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda inzibati məsuliyyət yaradır.

“Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli Şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 may 2017-ci il tarixli Fərmanına əsasən Azərbaycan Respublikası İnzibati Xətarlar Məcəlləsinin 192-ci maddəsində qeyd olunan inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi baxır.

Doğrudur, İnzibati Xətalar Məcəlləsinin 54.1-ci maddəsinə əsasən, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. Bu səlahiyyət isə “Prokurorluq haqqında” Qanunun 4-cü maddəsində də öz əksini tapmışdır.

Cinayət Məcəlləsinin “Əmək mühafizəsi qaydalarını pozma” adlanan 162-ci maddəsində texniki təhlükəsizlik və ya əmək mühafizəsinin başqa qaydalarına riayət edilməsi vəzifəsi həvalə edilmiş şəxs tərəfindən bu qaydaların pozulması nəticəsində ehtiyatsızlıqdan insan sağlamlığına ağır zərər vurularsa, həmçinin eyni əməllərin ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda və bu əməllər ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda cinayət məsuliyyətinə səbəb olur.

Cinayət Məcəlləsinin “Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi” adlanan 162-1-cı maddəsində isə qeyd olunur ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (on nəfər və ondan çox olan işçilərin sayı nəzərdə tutulur) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi, eyni əməllərin təkrar törədilməsi cinayət məsuliyyətinə səbəb olur.

Bu əməli törətmiş şəxs Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilmiş qaydada işçiləri ilə əmək müqaviləsi bağladıqda, habelə ödəməkdən yayındırılmış vergiləri, işsizlikdən sığorta, icbari tibbi sığorta və məcburi dövlət sosial sığorta haqlarını tamamilə ödədikdə cinayət məsuliyyətindən azad edilir.

Azərbaycan Respublikası Cinayət-Prosessaul Məcəlləsinin 215-ci maddəsində əsasən Cinayət Məcəlləsinin 162 (Əmək mühafizəsi qaydalarını pozma) və 162-1-ci (Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) (cinayət işi prokurorluqda başlandıqda) maddələrinin ibtidai istintaqı prokurorluq tərəfindən aparılır.

“Prokurorluq haqqında” Qanunun 4-cü maddəsində isə prokurorluğun cinayət işi başlayıb ibtidai istintaq aparması onun fəaliyyətinin əsas istiqamətlərindən biridir.

Sonda qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 308-ci maddəsində qeyd olunan işəgötürənlər, işçilər, icra hakimiyyəti orqanları, hüquqi və fiziki şəxslər tərəfindən bu Məcəllənin, eləcə də bütövlükdə əmək qanunvericiliyi sisteminə daxil olan normativ hüquqi aktların dürüst və eyni cür tətbiq edilməsinə, onların tələblərinin düzgün yerinə yetirilməsinə nəzarəti öz səlahiyyətləri daxilində prokurorluq orqanlarının həyata keçirməsi, həm də “dürüst və eyni cür” həyata keçirməsi prokurorluğun fəaliyyətinin əsas istiqamətlərinə aid edilə bilməz.

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. “Hüquq yayın evi”, Bakı, 2017.
2. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. “Hüquq yayın evi”, Bakı, 2021.
3. Azərbaycan Respublikası Cinayət-Prosessaul Məcəlləsi. “Hüquq yayın evi”, Bakı, 2021.
4. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. “Hüquq yayın evı. Bakı, 2021.
5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. “Hüquq yayın evı”, Bakı, 2021.
6. “Normativ hüquqi atlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu. “Hüquq ədəbiyyatı” nəşriyyatı. Bakı.2011.
7. “Prokurorluq haqqında” Qanun. “Hüquq yayın evı”, Bakı, 2021.
8. “Azərbaycan” qəzeti. 19 sentyabr 2002-ci il.



**Faiq Səfərov**

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri**

# Bir şəklin tarixçəsi




1991 – 1992-ci illərdə yeni yaradılmış Sədərək rayon prokurorluğunun müstəntiqi vəzifəsində işləyirdim. 08 fevral 1992-ci il tarixdə, soyuq və çovğunlu bir qış səhəri saat 5 radələrində Sədərək qəsəbəsində kirayə yaşadığım evin qapısı döyüldü. Gələn rayon polis idarəsinin əməkdaşları sərhəddə, postda qətl hadisəsi törədildiyini bildirib polis şöbəsinə getmək üçün arxamca gəldiklərini dedilər. Dərhal hazırlaşıb şöbəyə gəldik. İlkin məlumat belə idi ki, gecə saat 24 radələrində "Ucubiz" adlanan dağda olan yüksəklikdə, rusiyalı əsgərlərin xidmət apardıqları postda bir əsgər avtomatdan açılmış atəşdən qətlə yetirilmişdir. Gecə ikən helikopterlə Zaqafqaziya Dairəsindən generallar gəlib, araşdırma aparırdılar və hadisələri qabaqlayıb bildirim ki, cinayət işinin istintaqı Naxçıvan hərbi prokurorluğunda başlanıb sonradan cinayət işi mülki prokurorluğa göndəriləcəkdir. Rusiyalı zabitlər əminliklə hadisənin yerli mülki şəxslər tərəfindən törədilməsi ehtimalını irəli sürürdülər. Lakin bu fikirlə razılaşmaq olmazdı, çünki, düşmənlərimizlə aramızda olan yüksəklikdəki postda rusiyalı əsgərlər yerləşdirilmişdilər. Postun ətrafı "görünməz məftil" ilə əhatə olunmuşdu. Bu nazik, çətin görünən məftil ayağa dolaşdığına görə məftil döşənmiş sahəni keçmək çətindir. Həmçinin, postun ətrafına "raketnitsa" deyilən fişənglər quraşdırılmışdır. Naməlum şəxs posta yaxınlaşanda ayağı postun ətrafına tarım çəkilmiş məftilə toxunarsa avtomatik havaya fişəng açılır, bu da postda olanlara kiminsə yaxınlaşması barədə məlumat verirdi. O dövrdə Sədərək kəndində də, əhaliyə xəbərdarlıq edilmişdi ki, heç kim dağa qalxmasın, posta yaxınlaşmasın. Çünki rusiyalı əsgərlərə tapşırılmışdı ki, posta yaxınlaşan olarsa xəbərdarlıq edilmədən atəş açılaraq məhv edilsin. Bunu bilən kənd camaatının da həmin yüksəkliyə qalxmaq niyyətləri yox idi.

Polis məlumat almışdı ki, yerli könüllü döyüşçülərdən, kənd sakinlərindən kiminsə bu cinayətlə əlaqəsi yoxdur. Belə olduqda əsaslı şübhələr var idi ki, bunu rusiyalı hərbçilər özləri hansısa motivlə törədiblər.

Həmçinin məlumat gəldi ki, hadisə barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədri Heydər Əliyevə məruzə olunub, o bu işin araşdırılmasını xüsusi nəzarətə götürüb və hadisənin ciddi araşdırılaraq ona məruzə olunması barədə tapşırıq verib.

Bu cinayətin ciddi bir hadisə olduğunu, siyasi qərarlar qəbul edilməsinə səbəb olacağını, tapşırığın da Muxtar Respublikanın rəhbəri tərəfindən verildiyini nəzərə alaraq üzərimizə necə ciddi məsuliyyət düşdüyünü dərk edirdik.

Ona görə də, vaxt itirmədən sərhəd zastavasına gedib, komandanlıqla görüşüb özümü təqdim edərək Sədərək rayon prokurorluğunun müstəntiqi olduğumu bildirdim. Hadisə yerinin mənim də iştirakımla səhər hava işıqlanandan sonra təkrar müayinə edilməsi, qətl vaxtı postda xidmətdə olmuş 2 əsgərin dindirilməsi üçün mənə şərait yaradılmasını xahiş etdim. Komandanlıqdan

**Böyük tarixi səhv**

1991-ci ilin yanvar ayında Azərbaycan Respublikası Milli Məclisinin iclasında millət vəkili Heydər Əliyev tarixi çıxış etdi. Bildirdi ki, "mən uzun müddət respublikadan kənarda olmuşam, Moskvada Mərkəzi Komitədə işləmişəm, orada hansı planlar hazırlandığını bilirəm. Sizlər də respublikada olan vəziyyəti, şəraiti bilirsiniz. Mən də respublikanı bu çətin şəraitdən çıxarmaq üçün hazır konsepsiyalar var, gəlin qüvvələrimizi birləşdirək, ölkəmizi bu vəziyyətdən çıxaraq."

Bu təklif çox düzgün, vaxtında irəli sürülmüşdü. Lakin o vaxtki deputatların və hakimiyyətdə təmsil olunanların uzaqgörən dahi siyasətçi Heydər Əliyevin bu vacib təşəbbüsünü layiqincə qiymətləndirməmələri, ona qarşı düşüncəsiz hərəkətlərə yol verməmələri tarixi səhv idi. Bu da öz acı nəticələrini torpaqlarımızın işğal olunmasında göstərdi.

Həmin sessiyanı canlı yayında izlədikdən sonra qərara gəldim ki, onun arxasınca Naxçıvana gedim. Düşündüm ki, həm Heydər Əliyev kimi bir dahinin olduğu yerdə əmin-amanlıq olar, həm də vətənin qorunması üçün əlimdən gələn nə isə bir iş görə bilərəm. Qeyri-təvazökarlıq kimi görünməsin, 1977-79-cu illərdə Sovet Qoşunlarının Almaniyadakı Qrupunda hərbi xidmət keçib, D-30 markalı 122 kalibr topun komandiri olmuş, əlaçı top komandiri kimi sərrast atəşlə 15 km məsafədən hədəfləri məhv etməyi öyrənmişdim. İllər sonra Ermənistanın Azərbaycana təcavüzü zamanı düşünürdüm ki, bu hərbi ixtisasım vətənin müdafiəsində işə yarayacaq. Türkiyə ilə aramızda olan 11 km-lik sərhədin mənfur qonşularımız ermənilərin işğalından qorunması həmin vaxt vətənimizin qarşısında duran ən vacib məsələlərdən biri idi. Vətənin dar günündə paytaxtda isti evdə oturmaq, heç bir vətənpərvər gəncə yaraşmaz. Odur ki, ailəmi də götürüb Sədərəyə getdim.

hadisə yerinin təkrar müayinəsi ücün şərait yaradılmasına göstəriş verilsə də, postda olmuş 2 əsgərin istirahət etdiklərini bildirərək, onlarla görüşməyə, hadisə barədə ilkin məlumat almağa imkan yaratmadılar. O vaxt rusiyalı komandirlər əsgərlərin dindirilməsinə imkan verməyərək, "əsgərə dincəlmək lazımdır" deməsi məni çox təəccübləndirdi. Vaxt itirmədən Sədərək rayon polis şöbəsinin rəisi Mürsəl İsayev, rəis müavini Miryaqub Seyidov, polis mayoru Vidadi Həsənov və bir neçə polis nəfəri ilə birgə özümüzlə fotoqraf və lazımi ləvazimatlar götürərək yüksəkliyə qalxdıq. Hadisə yerinə çatanda hava işıqlanmışdı, postun ətrafında görünməz məftillər döşəndiyi, "raketnitsa"lar taxıldığını aşkar edib şəkillərini çəkdirdim ki, gecə qaranlıqda kənar şəxsin posta yaxınlaşmasının mümkün olmadığını təsbit edək.

Beləliklə, düşmən snayperlərinin nişangahı altında, şaxtalı, çovğunlu bir şəraitdə hadisə yerinin müayinəsinə başladıq. Səngərə daxil olarkən müəyyən etdik ki, milliyyəti türkmən olan mərhum əsgər (soyadını xatirlamıram) səngərin girişinin qarşı tərəfində deyil, əks tərəfdə oturmuş vəziyyətdə qətlə yetirilib və atəş çöldən naməlum şəxs tərəfindən açılmayıb, qatil içəri daxil olaraq atəş açıb. Deməli qətli törədən şəxs parolu bilib, düzgün deyib ki, əsgər onu döyüş postuna buraxıb, onunla qarşı-qarşıya oturub. Bu onu göstərirdi ki, gələn şəxs kənar adam deyildi, özününkülərdən idi. Atəş içəridən çölə tərəf açılıb, bu da onu təsdiq edirdi ki, qatil qəfildən posta yaxınlaşaraq çöldən içəriyə atəş acaraq qətl törətməyib, əksinə, onu əsgər içəri buraxıb, o da içəri keçib, avtomatdan üzü girişə tərəf atəş açaraq girişin sağ tərəfində olan əsgəri qətlə yetirmişdir.

Hadisə yerinin mükəmməl müayinəsi, hadisə yerindəki bütün maddi sübutların aşkar olunaraq, aşkar olunduğu yer fiksə olunmaqla, cinayət prosessual qanunvericiliyin tələblərinə uyğun surətdə qablaşdırılaraq götürülməsi, hadisənin baş vermə şəraitinin, mexanizminin müəyyən edilməsində, düzgün istintaq fərziyyələri irəli sürülməsində, nəticə etibarilə işin açılmasında mühüm əhəmiyyət kəsb edir. Bütün diqqətimi hadisə yerinin müayinəsinin tam keçirilməsinə cəlb etdim, bu da müsbət nəticəsini verdi.

Səngərin divarlarını təşkil edən içi torpaqla dolu kisələrdə atəş izləri aşkar etdim. Bu izlər məhz giriş tərəfdəki divarlarda idi. Həmin izləri fiksə edəndən, şəkillərini çəkəndən sonra kisələrin boşaldılaraq güllələri tapmaq barədə polis əməkdaşlarına göstəriş verdim. Giriş hissənin divarlarında olan kisələrdən bir neçə 5,45 çaplı güllələr aşkar olunaraq götürüldü. Bu güllələr AK-74 markalı yeni nəsil avtomatın gülləleri idi. Bu silahlardan isə nə polisdə, nə də yerli əhalidə yox idi. Bu hal da cinayətin yerli əhali tərəfindən törədilməsini bir daha istisna edirdi.

Müayinə zamanı hadisə yerində səngərin döşəməsinə sərilmiş samanın altından bir neçə yeni atılmış boş gilizlər tapdıq, götürdük. Həmin gilizlər də 5,45 çaplı silahın gilizləri idi. Hər bir gilizin arxasında nömrələnməsi olur və həmin gilizlərin zavod nömrəsi "83;38" idi. Bu da patronun 1983-cü il istehsalı olduğunu və 38 rəqəmi də buraxılış partiyasının nömrəsini göstərirdi.

Postda xidmət aparan alayın rusiyalı əsgərlərindən birinin silah darağındakı patronlardan birini alıb baxdıqda çox ciddi bir faktı aşkar etdik. Rusiyalı əsgərin silahında olan patronun da nömrələnməsi eyni, "83;38" idi. Bu çox ciddi əhəmiyyətli bir fakt kimi qətlin rusların hərbi hissəsinə məxsus silahdan atəş açılaraq törədildiyini bir daha təsdiq edirdi.

Biz hadisə yerində samanın altından gilizləri tapıb götürən zaman xüsusi hissənin rusiyalı zabitinin çöldə rusiyalı əsgərin başına qapaz vuraraq, söyüşlə "siz necə axtarıb buranı təmizləmişdiniz ki, onlar gilizlər tapdılar" deməsini polis serjantı görərək bu barədə bizə xəbər verdi. Bu da bizi bir daha düşündürdü ki, bunlar cinayətin izlərini itirmək üçün hadisə yerində, üzdə olan sübutları yox ediblər. Lakin fikirləşməyiblər ki, yerdə samanın altındakı gilizləri, divarlarda kisələrin içərisindəki gülləleri tapıb çıxaracaq bir istintaqçı gəlib bunları aşkar edə bilər.

Hadisə yerinin ətrafını da diqqətlə müayinə etdikdə, daha bir ciddi faktı aşkar etdik. Belə ki, dağın zirvəsində olan postun ətrafında hər hansı bir hərəkətin olmadığı bir şəraitdə, səngərdən çıxan bir ayaq izinin üzü Ermənistan ərazisinə doğru getdiyi açıq-aşkar görünürdü və bu bir zabit cəkməsinin izi idi. Dərhal gips məhlulu düzəldib, ayaq izinin əksini götürdüm. Bütün bu istintaq hərəkətlərini protokollaşdıraraq hal şahidləri kimi rusiyalı əsgərlərin, habelə aşkar etdiyimiz halları mübahisələndirə bilməsinlər deyə hərbi hissənin xüsusi hissəsinin zabitinin də iştirakını protokola qeyd etdik. Sonra protokolu oxuyub onlara imzalatdırdım. Hadisə yerinin və müayinə zamanı aşkar olunan bütün sübutların fotoşəkillərini çəkdik. Bu şəkli də hadisə yerindən ayrılarkən yadigar olsun deyə çəkdirdik.

Dağdan enib polis şöbəsinə gəldik. Artıq rayon prokuroru Siyasət Alıyev və rayonun bütün rəhbərləri polis şöbəsində idi. Hadisə yerində aşkar etdiklərimizi rayon prokuroruna məruzə etdim, təcili fotoşəkillərin çap olunmasını fotoqrafdan xahiş etdim.

Ali Məclisin sədri Heydər Əliyevin göstərişi ilə Muxtar Respublika prokurorunun Sədərəkə gələcəyi barədə məlumat verdilər.

Polis rəisinin otağında olarkən hərbi hissədən bir zabit gəlib bildirdi ki, "it gətiriblər, gedirlər kəndə, xüsusi təlim keçmiş itlə cinayəti törətmiş şəxsi müəyyən etsinlər". Naxçıvan Hərbi prokuroru Voytenko və Tbilisidən gəlmiş yüksək rütbəli zabitlər qətlin yerli əhali tərəfindən törədildiyini bildirərək, Naxçıvan Ali Məclisinin o vaxtkı sədri mərhum Heydər Əliyevə də bu cür məruzə etmişdilər. Bunu sübut etmək üçün dəlillər axtarırdılar, daha doğrusu saxta dəlillər yaradırdılar. Bizdən də nümayəndə istəyirdilər ki, onlarla gedək. Nədənsə bizim rəhbərlik onların bu tədbirlərində bizlərdən kiminsə iştirak etməsini istəmədi. Lakin mən rusiyalı zabitləri Sədərək kəndinə tək

buraxmamağı, onlarla getməyi təklif etdim. Fikirləşirdim ki, bizim yanımızda qanunsuz bir hərəkət edə bilməzlər. Təxminən 10-15 dəqiqədən sonra rayon prokuroru və rayon polis şöbəsinin rəisi mənim və polis rəisinin müavini Miryaqub Seyidovun onların arxasınca kəndə getməyimizi məsləhət bildilər. Biz də dərhal "UAZ" markalı maşına əyləşib yeni salınmış qəsəbədən Sədərək kəndinə hərəkət etdik. Yolun yarısında rusiyalı hərbçilərin 2 "UAZ" maşınında kənddən qayıtdıqlarını görüb maşınları saxladıq və düşüb onlara yaxınlaşdıq. Hərbi prokuror Voytenko bildirdi ki, "budur, it iz götürüb bizi bir evə aparıb çıxardı, bu evdə Zeynalovlar ailəsi yaşayır, 4 qardaşdırlar, "döyüşçüdülər", qətli də yaqin ki, onlar törədib." Bu vaxt arxadan rayon icraiyyə komitəsinin sədrinin, rayon prokurorunun, milli təhlükəsizlik nazirliyinin rayon şöbəsinin, polis rəisinin maşınlarının sürətlə gəldiyini gördük, onlar çatıb, maşınlardan düşüb rusiyalı zabitlər ilə görüşdülər. Rayon prokuroru bildirdi ki, biz polis şöbəsindən çıxandan sonra kənddən polisə zəng edib bildiriblər ki, rusiyalı hərbiçilər kəndə gəlib "alman ovçarkası" cinsli iti açıb buraxıblar, it ora-bura qaçmış və Naxçıvan şəhərində xəstəxanada yatan anasına yemək aparmaq üçün əlində isti yeməklər olan çanta ilə evdən çıxan bir kənd sakininin üstünə cumub. Gənc də itdən qorxub əlindəki yemək dolu çantanı atıb qaçaraq həyətə girib, gizlənmişdir. Zabitlər də, guya hadisəni törətmiş şəxsi müəyyən etdikləri qənaətinə gələrək, həmin evdə kimlərin yaşaması barədə kənd sakinlərindən məlumat toplayaraq işlərini bitmiş hesab edib hərbi hissəyə qayıdırdılar.

Hər iki tərəfdən olan şəxslər salamlaşıb, görüşüb hal-əhval tutduqdan sonra rusiyalı zabitlər bildirdilər ki, "budur iş açıldı, it iz götürdü, hadisəni törətmiş şəxsin evini tapdı, şəxs qaçıb gizləndi. Biz işimizi bitirdik, cinayət işini göndərəcəyik, siz istintaqı davam etdirərsiniz." Onların bu əfsanəsinə bizim rəhbərlik qulaq asaraq inanmadıqlarını, araşdırılacağını bildirirdilər.

Rayon prokuroru Siyasət Alıyev hərbi prokuror Voytenko ilə tanış idi. Belə soyuq, küləkli havada Voytenkonun başı açıq olduğunu görüb papağının nə olduğunu soruşdu. Voytenko isə cavabında papağını külək apardığını, tuta bilmədiyini bildirdi.

Bu anda açılmamış bir qətl hadisəsinin əsassız olaraq rayon prokurorluğuna göndəriləcəyini, hərbi hissədə bizim istintaq aparmaq imkanlarımızın məhdud olduğundan bu işin bağlı qalacağını, qatilin məsuliyyətə cəlb olunmayacağını, ən başlıcası isə əsl qatilin öz içərilərində olduğu halda, belə bir ağır cinayəti törətmədiyi halda şübhələrin günahsız yerli əhalinin üzərinə atılacağını nəzərə alaraq həmin vaxt yerində deyilməli olanı demək fürsətini, onların yalanlarını ifşa etmək imkanını qaçırmaq olmazdı.

Həmçinin, hadisənin Ali Məclisin sədri Heydər Əliyevin nəzarətində olması, nəticənin ona məruzə edilməsi zərurəti bir daha işə məsuliyyətlə yanaşmağımızı tələb edirdi. Bu ağır cinayəti törətmədiyi halda günahın Azərbaycan tərəfinin üzərinə atılması dövlətlərarası mübahisəyə səbəb ola bilərdi.

Bu anda dayandığım ikinci siradan cəld önə cıxıb Voytenkoya hamının eşidəcəyi tərzdə belə sual verdim; "yoldaş hərbi prokuror, belə qasırğalı havada əgər sizin başınızdan papağınızı külək aparıbsa, hadisə yerində hansı iy qala bilərdi? Hanı sizin kinoloq, göstərsin görək hadisə yerindən götürülmüş və cinayəti törətmiş şəxsə məxsus olan hansı əşya aşkar etmisiniz ki, onu da itə iylətmisiniz, it də həmin iyin izi ilə gedib cinayəti törətmiş şəxsi tapıb? Siz iti heç hadisə yerinə aparmısınızmı, dağa çıxartmısınızmı? O yüksəkliyə çıxıb düşməyə saatlarla vaxt lazımdır. Siz isə iti bir başa kəndə gətirib açıb buraxmısınız." Bu sualların və faktların qarşısında bütün rusiyalı zabitlər donub qaldılar, gözləmirdilər ki, kimsə bu işləri bilən birisi çıxıb onlara bu sualları verərək onları ifşa edəcək. Rusiyalı zabitlər çaşqın halda heç bir söz deyə bilməyib, dərhal maşınlarına oturub uzaqlaşdılar. Onları belə ifşa etməyim rayon rəhbərliyinin də xoşuna gəlmişdi.

Sədərək rayon polis şöbəsinə qayıtdıqdan az müddət sonra Naxçıvan MR prokuroru Hüseyn Hüseynov Sədərəkə gəldi, vəziyyətlə tanış olub, hadisə yerinə getmək istədiyini bildirdi. Bunun üçün hazırlıqlar görülməyə başlandı, təbii ki, bu məsuliyyətli iş idi. Muxtar Respublika prokurorunun təhlükəsizliyini təmin etmək lazım idi. Hadisə yeri dağın yüksəkliyində, erməni postu ilə üz-üzə idi. O dağa qalxmaq gənc adamlar üçün belə çətin idi, həmçinin buna 2 saatdan da artıq vaxt itiriləcəkdi, vaxt isə çox qiymətli idi. Ona görə də, otaqdan cıxmaq istəyən MR prokuroruna yaxınlaşıb məni dinləməyini, hadisə yerindən əldə etdiyim sübutlarla tanış olmasını, bundan sonra hadisə yerinə getməsinə ehtiyac olub-olmamasına qərar verməsini xahiş etdim. O da razılaşdı. Bu vaxt da fotoqraf şəkilləri cıxarıb tam qurumamış olsa da mənə çatdırmışdı. Mən də hadisə yerinin fotoşəkillərini stolun üzərinə düzdüm, şəkillərdə görünməz məftilləri, postun ətrafına çəkilmiş "raketnitsaları", səngərin içinin şəkillərini, atəşin içəridən bayıra doğru açılmasını təsdiq edən güllə izlərini, tapılmış gilzləri, gülləri, gilizlərin üzərində olan 38;83 saylı nömrənin "Qıvraq polku"nun rusiyalı əsgərlərində olan AK-74 markalı silahların patronlarının nömrəsi ilə eyni olduğunu bir-bir Muxtar Respublika prokuroruna təqdim etdim. Sonra, rusiyalı hərbçilərin gətirdikləri itin iz götürməsini, guya cinayəti törətmiş şəxsi iyin izi ilə müəyyən etmələri cəfəngiyatının necə ifşa olunduğunu izah etdikdən, yaranmış sualları da cavablandırdıqdan sonra Hüseyn Hüseynovda hadisənin necə baş verməsi barədə əsaslı məlumat oldu. Həmçinin, bu cinayətdə kənd sakinlərinin rolu olmadığına əmin oldu və dəstəyi götürüb telefonçu qızdan onu Ali Məclisin sədri ilə birləşdirməsini istədi. Rabitə qurulduqdan sonra işin bütün hallarını rəhmətlik Ümummilli Lider Heydər Əliyevə

bir-bir məruzə etdi. Danışıqdan başa düşdük ki, Zaqafqaziya Dairəsindən gəlmiş yüksək rütbəli zabitlər Ali Məclisin sədrinə qətlin yerli əhali tərəfindən törədilməsi barədə məlumat vermişdilər. Təcrübəli çekist olan Heydər Əliyev işin nə yerdə olduğunu dərhal anlamışdı. Muxtar Respublika prokuroru Hüseyn Hüseynovun bu məruzəsindən sonra xeyli rahatlıq hiss etdik, cünki yerli sakinlərə belə bir ağır cinayət törədilməsində böhtan atılması heç də qəbul olunası hal deyildi.

Qısa sakitlikdən sonra daha hansı ilkin zəruri istintaq hərəkətlərinin təxirə salınmadan aparılmalı olduğunu müzakirə etdikdə, postda olan digər 2 əsgəri müəyyən edərək dindirmək istədiyimi, lakin onların komandanlığının əsgərləri dindirmək üçün şərait yaratmadıqlarını bildirdim. Təbii ki, Muxtar Respublika prokuroru Hərbi prokurora həmin əsgərlərin dindirilməsi, hadisə vaxtı harada olmalarının araşdırılması barədə göstəriş verdi.

Polis əməkdaşları da boş dayanmamışdılar, əməliyyat tədbirləri ilə müəyyən etmişdilər ki, hadisədən bir neçə saat əvvəl həmin postda xidmət aparmalı olan 3 əsgərdən slavyan millətindən olan 2-si türkmən millətindən olan 1 əsgəri postda tək qoyub saat 21 radələrində xidmət apardıqları döyüş postunu özbaşına tərk edərək Sədərək kəndinə enib, kəndin qırağında posta qalxan yola yaxın bir evə gələrək, ev sahiblərinin icazəsi ilə evə daxil olub, isti sobanın yanında saat 23-24 radələrinə qədər oturub gözləmişlər. Əvvəldən hazırlanmış plana uyğun olaraq əsgər qətlə yetirildikdən, 3 avtomat silah quldurluq yolu ilə ələ keçirildikdən, ayağında zabit çəkməsi olan şəxs silahlarla Ermənistana doğru uzaqlaşdıqdan sonra, postlarına qayıtmışlar və əsgər yoldaşlarının qətlə yetirildiyini görüb hərbi hissəyə məlumat vermişlər. Burada çox ciddi bir sual ortaya çıxırdı. Bu 2 əsgər kimin təlimatı ilə silahlarını da postda qoyaraq postu tərk edib, gedib başqa yerdə gözləməli idilər, şərait yaratmalı idilər ki, 1 əsgər rahatlıqla qətlə yetirilsin, 3 yeni model avtomat ələ kecirilsin? Ehtimal ki, bu silahlar Ermənistana tərəf aparılıb orada satılmışdır. Ələ keçirilmiş AK-74 markalı avtomatın birinin qiyməti qara bazarda həmin vaxtki qiymətlə təxminən 100000 manat idi.

Həmin evdə yaşayan sakinlər dərhal dindirildilər, əsgərlərin gəlib onların qapılarını döydüklərini, icazə istəyib bir müddət onlarda olmalarını təsdiq etdilər.

Hadisənin ilk vaxtından hərbi hissə rəhbərliyi, Tbilisidən gəlmiş komandanlıq, xüsusilə də Naxçıvan Hərbi prokuroru Voytenko bildirirdilər ki, postda əsgəri yerli əhali öldürüb, əsassız olaraq yerli əhalini bu ağır cinayətdə ittiham edirdilər.

Lakin, günortadan sonra hərbi prokuror Voytenko Sədərək rayon polis şöbəsinə “suyu süzülmüş vəziyyətdə” gələrək, toplanmış sübutlarla bir-bir tanış oldu, etiraf etdi ki, onların ilk istintaq fərziyyələri əsassız olub, ona görə də cinayət işinin istintaqının Hərbi prokurorluqda davam ediləcəyini bildirdi. Toplanmış sübutlar da cinayət işinə əlavə edilməsi üçün rəsmi qaydada hərbi prokurorluğa göndərildi.

Voytenkonun bu vəziyyətdə rayon polis şöbəsinə gəlməsindən anlaşılırdı ki, bu Ali Məclisin sədri Heydər Əliyev tərəfindən Zaqafqaziya Dairəsindən gəlmiş generallara hadisənin heç də onların dediyi kimi törədilmədiyini, yerli əhalidən kiminsə bu hadisədə iştirakı olmadığı başa salındıqdan sonra baş verib.

Bu hadisənin siyasi tərəfi də var idi. Belə bir xüsusi ilə ağır cinayətin törədilməsinin pərdəarxası nə idi? Elə-belə törədilməmişdi bu cinayət!

Belə ki, bir-iki gün əvvəl İrəvandan bir “UAZ” markalı avtomaşınla ruslara məxsus hərbi hissənin xüsusi hissəsinin bir neçə əməkdaşı keçib Sədərəkə gəlmişdilər. Artıq neçə illərin təcrübəsi göstərirdi ki, xüsusi hissənin əməkdaşları biz tərəfə keçib gələndən sonra hər hansı bir fitnə törədilir, atəşkəs pozulur, onların gəlişi nə isə xoşagəlməz hadisə baş verəcəyindən xəbər verirdi. Söz-söhbət gəzirdi ki, ruslar ermənilərlə aramızda sərhəddə olan hissələrini çıxaracaqlar. Bu cinayət hadisəsi onlara bəhanə kimi lazım idi ki, əsgərlərini postlardan çıxarmaqlarını əsaslandırsınlar. Həqiqətən də, hadisədən sonra rusiyalı əsgərlər təmas xəttindəki postlardan çıxarıldılar. Bu da ermənilərin əl-qolunu açırdı ki, istədikləri zaman mövqelərimizi atəşə tutsunlar.

Bu hadisənin istintaqından alınmalı ibrət dərsi nədir?

Hər bir cinayət hadisəsinin istintaqı zamanı hadisə yerinin müayinəsinə xüsusi diqqət yetirilməlidir. Hadisə yerində cinayətkarın buraxdığı bütün izlər diqqətlə axtarılıb ortaya çıxarılmalı, foto, video çəkilişlərdən istifadə olunmaqla aşkar olunduğu yerdə fiksə edilməli, cinayət prosessual qanunçuluğun tələblərinə uyğun olaraq götürülməli, müvafiq qaydada qablaşdırılmalıdır. Müstəntiq iş üçün əhəmiyyət kəsb edən hər bir halın aşkar edilməsinə, hadisə yerində cinayəti törətmiş şəxs tərəfindən buraxılmış hər bir izin götürülməsinə çalışmalıdır. Ən başlıcası odur ki, müstəntiq hadisə yerində özünü itirməməlidir, bütün diqqətini müayinəyə cəlb etməlidir, kənar müdaxilələr onu yayındırmamalıdır. Hətta düşmən əsgərinin nişangahı altında olsa belə.

Müstəntiq bilməlidir ki, hadisə yerinin rəhbəri odur. Hadisə yerində iştirak edən kriminalistin, ekspertin, mütəxəssisin aşkar etdikləri sübutları, məlumatları dərhal əldə edib təhlil etməli, onlarin işlərini əlaqələndirməli, həmin şəxslərə və əməliyyatçılara iş üçün əhəmiyyət kəsb edən halları təxirə salınmadan araşdırmaq barədə müvafiq tapşırıqlar verməlidir.

**Salman Məmmədli**
**Prokurorluğun veteranı, baş ədliyyə müşaviri, Müharibə veteranı**

# Укрепление потенциала для эффективного трансграничного сотрудничества в области уголовного судопроизводства

Современное развитие региональных процессов подтверждает огромное значение трансграничного сотрудничества. Это совместные конструктивные действия, направленные на развитие отношений между территориями или властями в юрисдикции двух или более государств. В международных отношениях трансграничное сотрудничество неизбежно становится многосторонним, включая не просто количество государств, но и многообразие субъектов сотрудничества.

Сущность трансграничной правовой помощи по уголовным делам заключается в исполнении органами одного государства по запросу компетентных органов другого государства поручений о производстве на своей территории процессуальных действий (и оперативно-розыскных мероприятий) по делу, расследуемому или рассматриваемому в суде запрашивающего государства, а также осуществление других действий в целях обеспечения возможности расследования или рассмотрения такого дела. Запрашивающее государство фактически частично передает свою компетенцию по уголовному делу запрашиваемому государству, но поскольку оно делает это по своей воле, принцип суверенитета этим институтом не нарушается, а, напротив, поддерживается.

Осуществление взаимной правовой помощи в СНГ реализуется в рамках Кишинёвской конвенции, центральным исполнительным органом по которой является Генеральная прокуратура. В то же время, Министерство юстиции является центральным исполнительным органом в рамках Европейской конвенции, однако при этом непосредственным исполнением входящих запросов о правовой помощи занимаются органы прокуратуры.

Основными направления трансграничного сотрудничества являются борьба против незаконного оборота наркотических, их прекурсоров и психотропных веществ, торговли людьми, препятствие незаконной миграции, борьба с терроризмом, экстремизмом и сепаратизмом.

Выделяя основные формы международного сотрудничества в сфере уголовного судопроизводства, можно отметить, что наиболее традиционной является выдача лиц для уголовного преследования или исполнения приговора (экстрадиция). Исполнение запросов (поручений) о производстве следственных и иных процессуальных действий является второй формой. Все мы знаем, что это может быть, например, производство допросов, обысков и других действий, направленных на собирание доказательств; осуществление задержания; вручение процессуальных документов, вызовов и извещений; и др. К третьей форме следует отнести передачу осужденных к лишению свободы лиц для отбывания наказания. Кроме того, в последнее время можно говорить о формировании некоторых новых форм международного сотрудничества по уголовным делам, но это уже скорее будет являться темой для новых научных изысканий, а мы сегодня несколько ограничены регламентом.

Азербайджан может сотрудничать с иностранным государством в вопросах экстрадиции на основе принципа взаимности. На национальном уровне вопросы экстрадиции регулируются Конституцией Азербайджана, Законом Азербайджанской Республики «О выдаче лиц, совершивших преступление» от 15 мая 2001 года, а также Уголовно-процессуальным кодексом и Уголовным кодексом Азербайджана. Эти нормативно-правовые акты совместно с соответствующими международными договорами Азербайджана определяют объем, порядок и условия рассмотрения вопросов экстрадиции между Азербайджаном и другими государствами.

В зависимости от правового механизма сотрудничества в области экстрадиции в Азербайджане действуют два центральных уполномоченных органа. Центральным уполномоченным органом в области экстрадиции в рамках Кишиневской и Минской конвенции является Генеральная прокуратура Азербайджанской Республики, как вы знаете, правовое сотрудничество в рамках СНГ осуществляется именно по этим конвенциям. В частности, за обработку входящих и исходящих запросов об экстрадиции отвечает Управление международного правового сотрудничества. В тех же случаях, когда механизмом выдачи является Европейская конвенция, Генеральная прокуратура координирует весь процесс, осуществляемый иными органами.

Помимо этого, следует помнить, что сотрудничество в рамках уголовного процесса неразрывно связано с сотрудничеством при осуществлении оперативно-розыскной деятельности. Однако далеко не во всех государствах деятельность по раскрытию и расследованию преступлений подразделяется на оперативно-розыскную (полицейскую) и судебно-следственную, особенно на досудебных стадиях процесса.

Азербайджанская Республика с приграничными странами осуществляет сотрудничество по многим направлениям, обусловленным наличием у государств внешних функций. А трансграничное сотрудничество в сфере уголовного судопроизводства входит в качестве важной составной части внешних функций внешних государств и является одним из основных направлений борьбы с преступностью как внутри каждого из государств, так и на международном уровне. Правовую основу международного сотрудничества в сфере уголовного судопроизводства составляют международные договоры, ратифицированные одновременно всеми странами-участницами государствами, а также положения внутреннего законодательства.

В связи с вышесказанным, считаю необходимым привести примеры. Так, в апреле 2002 года договор между Азербайджаном, Грузией и Турцией о сотрудничестве в борьбе против терроризма, организованной

преступности и других видов тяжких преступлений дал толчок развитию и многосторонних связей и сотрудничеству на уровне международных организаций. Борьба с этими видами трансграничных и транснациональных преступлений всегда находится в центре внимания Азербайджанского государства, а эффективной и действенной она может быть только в результате общих усилий.

Народы Узбекистана и Азербайджана сближает близкие национальные обычаи и традиции, общая группа языка, культура и религия. История взаимоотношений между двумя странами начинается с древнейших времён. В течение долгих годов каждое из двух государств были союзными республиками СССР. В 30 годах прошлого века во время массовых репрессий десятки тысяч азербайджанцев нашли укрытие на землях Узбекистана. Сегодня более 40-ка тысяч азербайджанцев активно участвуют в социальной, общественной, экономической и в других областях общественности Узбекистана. 21 июня 2022 во время визита Президента Азербайджанской Республики Ильхама Гейдаровича Алиева в Ташкент состоялась Церемония подписания азербайджано-узбекских документов с участием президента Республики Узбекистан, Шавката Миромоновича Мирзиёева. Следует отметить, что среди подписанных документов было также межправительственное соглашение о сотрудничестве в борьбе с незаконной миграцией и программу сотрудничества на 2022-2024 годы.

Кроме того среди стран братских тюркских народов сотрудничество с Казахстаном также не может остаться без внимания и оно имеет уже достаточно широкую правовую базу, а в области уголовного судопроизводства оно нашло свое отражение в «Договоре о стратегическом партнерстве и союзнических отношениях между Республикой Казахстан и Азербайджанской Республикой», который вступил в силу 27 февраля 2007 года. Согласно Договору « Высокие Договаривающиеся Стороны сотрудничают в области борьбы с терроризмом, организованной преступностью, незаконным оборотом наркотических средств, психотропных веществ, их аналогов и прекурсоров, контрабандой оружия, незаконной продажей и перемещением через границу культурных ценностей, преступлениями в сфере экономической и финансовой деятельности, легализацией доходов, полученных в результате занятия противоправной деятельностью, иными опасными видами преступлений.» (пункт 19). Кроме того в 2007 году также вступил в силу Договор, заключенный между правительствами Азербайджанской Республики и Республики Казахстан о сотрудничестве в области борьбы с терроризмом, незаконным оборотом наркотических средств, психотропных веществ и их прекурсоров, организованной преступностью и ее иными видами". Этот список можно долго перечислять, однако из последних следует отметить следующие. В рамках визита президента Казахстана Касым-Жомарта Токаева в Азербайджан между Баку и Астаной 24 августа 2022 года подписан ряд двусторонних документов. В числе документов, подписанных сторонами, Декларация об укреплении стратегических отношений и углублении союзнического сотрудничества.

Важную роль в укреплении потенциала для эффективного трансграничного сотрудничества в области уголовного судопроизводства имеет подписанная Декларация о союзническом взаимодействии между Азербайджанской Республикой и Российской Федерацией от 22 февраля 2022 года в одном из своих пунктов (пункт 18) гласит: Российская Федерация и Азербайджанская Республика объединяют свои усилия в противодействии и нейтрализации угроз международного терроризма, экстремизма и сепаратизма, транснациональной организованной преступности, незаконного оборота оружия, наркотических средств и их прекурсоров, торговли людьми и преступлений в сфере информационно-коммуникационных технологий, а также других новых вызовов безопасности. В этом контексте Стороны обмениваются информацией и тесно взаимодействуют в выявлении и пресечении каналов финансирования указанной противоправной деятельности.

Кроме документов непосредственной направленности на сотрудничество в области уголовного производства, хотелось бы отметить и заключенный между Российской Федерацией и Азербайджаном в 2010 году договор о сотрудничестве в сфере охраны и эффективного использования водных запасов трансграничной реки Самур. Этот договор способствует предотвращению трансграничных экологических преступлений, таких как загрязнение вод (источников воды), незаконная добыча рыбы и других водных биоресурсов, нарушение правил охраны рыбы и других водных биоресурсов и т.д.

7 июля 2021 года в Санкт-Петербурге руководители прокуратур пяти прикаспийских государств - Азербайджана, России, Ирана, Казахстана и Туркменистана - договорились о сотрудничестве в защите экологии Каспийского моря. Это было предусмотрено декларацией генеральных прокуроров государств прикаспийского региона о сотрудничестве в области охраны окружающей среды и использования природных ресурсов Каспийского моря. Сотрудничество согласно предусматривает работу в сфере таких проблем, как нефтедобыча и негативные последствия от ее осуществления, выбросы вредных отходов производства, незаконное строительство на прибрежной полосе Каспийского моря.

Укреплению трансграничного сотрудничества Азербайджан уделяет внимание даже при заключении договоров со странами, не имеющими общей границы с собой. Свидетельством этому может послужить Договор, заключенный между правительствами Азербайджанской Республики и Румынии о трансграничном сотрудничестве в сфере борьбы с организованной преступностью и международным терроризмом, который был утвержден Законом от 26 ноября 2009 года. При этом стороны договорились сотрудничать в целях пресечения и назначения наказания за такие виды преступлений как:

1. Терроризм и его финансирование;

2. Формы организованной преступности отраженные в национальных законодательствах Сторон.

3. Преступления в сфере экономической деятель-

ности, а также преступления связанные с незаконным приобретением прибыли и отмыванием грязных денег;

4. Нарушение правил миграции и передвижений, проживания в стране и занятости, а также изготовление поддельных паспорта, визы и прочих официальных документов;

5. Преступления в сфере компьютерной информации;

6. Незаконное приобретение, производство, ввоз, вывоз, продажа, оборот и транспортировка оружия, боевых припасов, взрывчатки, отравляющих веществ, химического, биологического и ядерного оружия, товаров, технологий и военной техники стратегического значения;

7. Изготовление фальшивых денег, ценных бумаг и прочих средств безналичного платежа, а также использование их;

8. Преступления против интеллектуальной собственности;

9. Преступления, направленные против жизни, здоровья, чести и достоинства человека, а также против собственности

10. Незаконные финансовые операции и прочие преступления направленные против капитала и товара;

11. Торговля людьми, эксплуатация детей третьими лицами или пособничество;

12. Незаконная торговля человеческими органами и тканями;

13. Незаконная торговля предметами, считающимися историческими, культурными и археологическими ценностями, в том числе металлом и драгоценностями;

14. Коррупционные преступления, преступления равные коррупции либо непосредственно связанные с коррупцией;

15. Преступления связанные с окружающей средой;

16. Кража автомобилей и незаконный их оборот, а также изготовление поддельных документов с этой целью.

Как видим, договоры между Азербайджаном и его партнерами охватывает очень широкий спектр борьбы с преступным миром. Поэтому, возвращаясь к этому же Договору, хотелось бы отметить, что Стороны взяли на себя обязательство расширять сотрудничество в следующих направлениях:

а) розыск скрывающихся от органов следствия, дознания и суда, уклоняющихся от несения наказания, а также без вести пропавших лиц;

б) опознание трупов;

в) определение принадлежности граждан, живущих на территории государства одной из Сторон;

г) осуществление уполномоченными органами согласованных встречных мероприятий и операций.

Азербайджанская Республика является участницей Рамочного соглашения по упрощению процедур трансграничной безбумажной торговли в Азиатско-Тихоокеанском регионе с 2017 года. Целью этого соглашения по упрощению процедур трансграничной безбумажной торговли в Азиатско-Тихоокеанском регионе, соглашения ООН, которое хранится у Генерального Секретаря Организации Объединенных Наций в Нью-Йорке, является ускорение внедрения мер по упрощению цифровой торговли в целях содействия торговле и развитию. Соглашение разработано как универсальный инструмент, доступный для стран с разным уровнем развития, и нацелено на упрощение процедур безбумажной трансграничной торговли (обмена данными) между заинтересованными странами-участницами ЭСКАТО (Экономической и социальной комиссии для Азии и Тихого океана) путем создания специализированного межправительственного механизма для разработки правовых и технических решений.

Соглашение затрагивает исключительно сферу безбумажной торговли и содействует принятию сторонами инновационных мер по упрощению процедур торговли и оперативному переходу к экономике знаний. Кроме того, оно дополняет Соглашение об упрощении процедур торговли Всемирной Торговой Организации и иные (суб) региональные инициативы в сфере безбумажной торговли и электронной коммерции, содействуя эффективному осуществлению таких мер. Как видно, невозможно не отметить исключительное влияние этого соглашения на препятствование совершению многих видов преступлений, таких как фальшивомонетничество, незаконная торговля запрещенными товарами, а также преступлений так или иначе связанных с коррупцией.

Декларация о стратегическом партнерстве между Азербайджаном и Кыргызстаном, подписанная 20 апреля 2022 года в Баку президентами двух стран – Ильхамом Алиевым и Садыром Жапаровым, еще раз показала, что Организация Тюркских Государств (ОТГ) является важной платформой для сотрудничества между государствами-членами и поддерживают интеграционные процессы в Тюркском мире в рамках ОТГ и аффилированных с ней организаций. В документе особенно подчеркивается, что «Стороны отмечают важность укрепления международного сотрудничества по противодействию терроризму, сепаратизму, экстремизму, трансграничной преступности, незаконному обороту наркотических средств и психотропных веществ, торговле людьми, киберпреступлениям, распространению оружия массового поражения и отмыванию денег».

Таким образом, учитывая вышеизложенное, можно прийти к выводу, что Азербайджанская Республика на текущий момент обладает широкой международно-правовой базой для эффективного трансграничного сотрудничества в области уголовного судопроизводства. Тем не менее, учитывая перманентный характер эволюции трансграничной организованной преступности, мы будем продолжать делать шаги, направленные на развитие и укрепление механизмов позволяющий достичь хороших результатов в этой сфере.

**Аскерова Нигяр Аловсат кызы**
**Старший прокурор Отдела стратегического планирования и определения рисков Научно-Учебного Центра Генеральной Прокуратуры**

# Viktimologiya: zərərçəkənin və şahidin hüquqlarının müdafiəsi

(ikinci hissə)

*Məqalənin əvvəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının 2022-ci ilin 3-cü buraxılışında dərc olunaraq, cinayətkarlığın kriminoloji tədqiqində viktimologiyanın yeri, onun anlayışı, tarixi və xüsusiyyətləri həmin nəşrdə əks etdirilmişdir.*

## Viktimoloji məsələlərə milli yanaşma

Son zamanlar Azərbaycan alimləri, jurnalistləri və ictimai xadimləri viktimlik məsələlərinə xüsusi diqqət yetirirlər. Cinayətkarlıqla mübarizədə, onun qarşısının alınmasında viktimoloji aspektlərin mühüm əhəmiyyəti nəzərə alınaraq, milli mentalitet baxımından bu məsələlər təhlil obyekti olur. Həmin təhlil və baxışlardan ayrı-ayrı sahələr üzrə bir neçəsini misal kimi göstərmək olar.



Məsələn, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin eksperti N.R.Qoşqarova "Qadınlara qarşı törədilən zorakılıq cinayətlərinin kriminoloji xarakteristikası" adlı məqaləsində qeyd edir ki, *"Ümumsosial profilaktika həm ailədə zorakılığa şərait yaradan cəmiyyət daxili ziddiyyətlərin neytrallaşdırılması, həm də ailə üzvlərinin şəxsiyyətlərarası münasibətlərindəki ziddiyyətlərin neytrallaşdırılması, latent zərərçəkmişlərin aşkar edilərək onlarla müəyyən işlərin aparılmasını, viktimizasiya prosesinin dayandırılmasını, onun müdafiəsi və reabilitasiyasını qarşısında vəzifə qoyur. Bu vəzifələrin yerinə yetirilməsi ailədə viktimliyin səbəb və şəraitinin aradan qaldırılmasını təmin edən, hər hansı ailədaxili zorakılığa yol verməyən iqtisadi, sosial, hüquq və ideoloji xarakterli geniş tədbirlər kompleksi ilə həyata keçirilir. Təsadüf deyildir ki, cinayətlərin böyük əksəriyyəti məişət zəminində törədilir. Ailə-məişət hüquq pozuntularını törədən şəxslərin hüquq düşüncəsindəki deformasiya şəxsiyyətlərarası ünsiyyət mədəniyyətinin aşağı səviyyədə olması, zorakılığın tətbiq edilməsi ilə bağlı defektli təsəvvürlərlə sıx bağlıdır. Onların mühitində belə təsəvvür formalaşmışdır ki, incidən şəxsə fiziki zorakılıq tətbiq edilməsi normaldır və bu cür də olmalıdır. Hələlik hüquq-mühafizə strukturlarının əməkdaşları ailədə cinayətkar zorakılığın dayandırılması və ailə üzvlərinin viktimliyini önləyən tək real gücdür.... Bu fəaliyyətə psixoloji xidmət mütəxəssislərini cəlb edilməsi məqsədəuyğundur; sahə üzrə məsul şəxslərlə birlikdə böhran mərkəzlərinin praktik psixoloqları konfliktli ailədə iş apara, ailə üzvlərinə individual məsləhətlər verə, ailə təlimləri təşkil edə bilər".*

Məktəb psixoloqu və sosioloq Humay Axundzadənin fikrinə görə, *"Azərbaycanda cəmiyyətdə qarşıya çıxan təhdidə olan reaksiya "qurbanın təqsirləndirilməsi" (victim blaming) tipli reaksiyaların mövcud olan ənənəvi cəmiyyətin klassik davranışıdır. İnsanlar zorakılıq və təcavüz qarşısında öz acizliyini hiss edirlər, amma bunu öz qarşılarında etiraf etməyin yerinə, təkbaşına zorakılığın və ədalətsizliyin qarşısını ala bilməyəcəklərinə görə, adətən qurbanı təqsirləndirməyə başlayırlar. Bu, çox rahat bir nöqteyi-nəzər insanlara ədalətsizlik və zorakılıq qarşısında öz zəifliyini hiss etməmək imkan verir".* Bullinq hədəfi olanın cinsindən asılı olaraq, müxtəlif gender stereotiplərindən istifadə edilir. Məsələn, bu, oğlandırsa, onu ənənəvi kişilik ideallarına uyğun olmadığında təqsirləndirə bilərlər. Bu stereotiplərə dair, kişi özünü və digərlərini müdafiə etməyə, yəni zorakılığı tətbiq etməyə bacarmalıdır. Hədəf qızdırsa, o zaman ittihamçılar böyük ehtimalla onun davranışında təhdidə bəraət qazandıran nəsə

tapacaqlar. Axundzadənin sözlərinə görə, çox vaxt uşaqlar təhdid haqqında valideynlərinə danışmır, və bunu uşağın "özün təqsirkarsan" reaksiyasını almaq qorxusu ilə əlaqələndirir. Hərdən bir uşağın susmasının səbəbi valideynlərlə etibarlı münasibətlərin olmadığı olur. Məsələn, 12 yaşlı Xəqaninin anası oğlunun daim təqib olunduğunu yalnız cırılmış dərsliklər və çoxlu suallardan sonra bilmişdir. Bununla da uşağın pis yatdığının və əsəbi olduğunun səbəbi məlum olmuşdur. Valideyn yaranmış situasiyadan çıxış yolu kimi uşağının özəl məktəbə keçirilməsində görmüşdür.

Psixoloq Aysel Hüseynovanın fikrinə görə, Azərbaycanda bullinq daha çox 11 – 15 yaşlı uşaqlar arasında yayılıb. Statistikaya görə, şagirdlərin 42 faizi bullinq ilə məşğul olduğunu etiraf edib. Onların 20 faizi isə bunu müntəzəm təkrarladığını bildirib. Uşaqlar arasında şayiə yaymaq, təhqiredici zarafatlar etmək, kimisə təkləmək geniş yayılıb. Təzyiqlərə məruz qalan özünü çox pis, çıxılmaz vəziyyətdə hiss edir. Təzyiqi həmişə bir nəfər öz üstünlüyünü nümayiş etdirmək, gəlir, xeyir götürmək və ya sadəcə əylənmək üçün başlayır. Psixoloq bildirib ki, bu cür hallar nəzarətin və tərbiyəvi metodların zəif olduğu məktəblərdə daha çox olur. *"Uşaqların məktəbdə tələbatları təmin edilmədikdə, onları başa düşmədikdə və onlara hörmət etmədikdə belə hallar artır. Lakin müəllimlərin uşaqların tərbiyəsinə ciddi yanaşdıqda, onların psixoloji problemləri ilə maraqlandıqda belə hallar nadir olur.... Bullinqə məruz qalanlar arasında pinti olanlar, səliqəsiz geyinənlər, özünü qəribə aparanlar və görünənlər çoxluq təşkil edir. Çox həssas, ağlağan uşaqlar da asanlıqla bullinqin qurbanına çevrilir. Fiziki zəif zorakılığa qarşı cavab verməyən uşaqlar da eyni aqibət gözləyə bilər".* Aysel Hüseynova hesab edir ki, təzyiq və təqib edən uşaqlar çox vaxt qadağa olmadan böyüyən uşaqlar olur. Onlar valideyn üstünlüyünü qəbul etmir, sözə baxmırlar. Valideynləri onlara çox nəzarət etmir. Sərbəstliyə baxmayaraq, onların böyüklərin diqqətinə və hörmətinə ehtiyacı çox olur. Bu tələbatları ödənilmədiyindən onlarda təcavüzkarlıq formalaşır. Onlarda bu təcavüz bir müddət boğulur, lakin onlar təcavüzkarlığını valideynlərinə qarşı yönəldə bilmir. Ona görə də, uyğun qurban axtarır. Ciddi qayda-qanunların olduğu məktəbdə belə uşaqlara öz davranışına nəzarət etmək asan olur. Lakin cəzasız öz üstünlüyünü, hökmünü göstərmək fürsətini də əldən verməz. Onlar yaxşı və xeyirxah insan olduqları fikri ilə böyümür, özlərini vacib və sevimli hiss etmir, bu səbəbdən də başqa insanların hesabına özünü üstün sayaraq, özünü təsdiqə ehtiyac duyur.

### Zərərçəkənlərin və şahidlərin hüquqlarının müdafiəsinə və viktimoloji aspektlərə dair beynəlxalq müqavilələr

İlk öncə zərərçəkənlərin və şahidlərin hüquqlarının müdafiəsi üçün Avropa İnsan Hüquqları Konvensiyası, eləcə də Avropa İnsan Hüquqları Məhkəməsinin müvafiq qərarları əsasdır və əhəmiyyətlidir. Bundan başqa, məsələnin aktuallığı nəzərə alınaraq, göstərilən sahədəki münasibətlərin tənzimlənməsinə bir çox beynəlxalq müqavilələr və sənədlər xidmət edir. İlk öncə bu növ sazişlər sırasında BMT-nin Baş Assambleyasının 29.11.1985-ci il tarixli 40/34 nömrəli qətnaməsi ilə qəbul olunmuş *"Cinayət və hakimiyyətdən sui-istifadə qurbanları üçün ədalət mühakiməsinin əsas prinsipləri haqqında"* Bəyannaməni göstərmək lazımdır. Bu Bəyannamənin tələblərinə görə şəxs cinayətdən hansı formada (fiziki, maddi, mənəvi) zərər çəkməsindən asılı olmayaraq cinayətin qurbanı sayılır. Dövlət isə qurbanı cinayətdən müdafiə etməlidir. "Cinayətdən müdafiə" deyiləndə yalnız cinayətkarın cəzalandırılması deyil, həm də qurbanın pozulmuş mülki, əmək və digər hüquqlarının ilk növbədə cinayətkarın hesabına bərpası nəzərdə tutulur. Bəyannamə 2 hissədən ibarət olmaqla, onun *"Cinayətin qurbanı"* adlı A hissəsi 4 bölmədən ibarətdir: 1) ədalət mühakiməsinə çatımlılıq və ədalətli davranış; 2) restitusiya; 3) kompensasiya; 4) sosial yardım. Bu 4 bölmənin hər birində cinayət qurbanına münasibətdə dövlətin öhdəlikləri müəyyən edilib. Həmin öhdəliklərin hamısının vahid məqsədi

var: cinayət qurbanının maksimum müdafiəsi. Bəyannamənin 12-ci bəndində hətta qeyd olunub ki, qurban kompensasiyanı hüquqpozucudan və ya digər mənbələrdən tam həcmdə ala bilmədikdə bir sıra cinayətlərə görə dövlət ona maliyyə kompensasiyası verilməsi üçün tədbirlər görməlidir.

*“Cinayət fəaliyyətindən və terrorizmin maliyyələşdirilməsindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında” Strasburq Konvensiyası (1990) və onun davamı olan “Cinayət fəaliyyətindən və terrorizmin maliyyələşdirilməsindən əldə edilən gəlirlərin leqallaşdırılması, axtarışı, həbsi və müsadirə edilməsi haqqında”* Varşava Konvensiyası (2005) da tələb edir ki, ilk növbədə müsadirə edilmiş əmlak sorğu edilən Tərəfə qaytarılsın ki, zərərçəkən şəxslərə kompensasiya verilsin və ya həmin əmlak qanuni sahiblərinə çatdırılsın.

Digər misallar kimi *“Zorakı cinayətlərin qurbanlarına kompensasiya ödənilməsi haqqında”* Strasburq Konvensiyasını (1983), BMT-nin *“İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı”* Konvensiyasının (1984) 13-cü maddəsini, *“İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında”* Avropa Konversiyasını (1987), *“Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında”* Avropa Konversiyasının (1999) 22-ci maddəsini, *“Terrorçuluğun qarşısının alınması üzrə”* Avropa Konvensiyasının (2005) 13-cü maddəsini, *“İnsan alverinə qarşı”* Avropa Konvensiyasının (2005) 3-cü fəslini, *“Cinsi istismardan və cinsi zorakılıqdan uşaqların qorunması haqqında”* Avropa Konvensiyasının (2007) 4-cü fəslini, *“Qadınlara münasibətdə zorakılığın və məişət zorakılığın qarşısının alınması və aradan qaldırılması haqqında”* Avropa Konvensiyasının (2011) 4-cü fəslini, *“Dərman preparatların saxtalaşdırılması və sağlamlıq üçün təhlükəli oxşar cinayətlərlə mübarizə haqqında”* Avropa Konvensiyasının (2011) 4-cü fəslini, *“İdman oyunları ilə manipulyasiya etmə haqqında”* Avropa Konvensiyasının (2015) 21-ci maddəsini, *“İnsan alverinə qarşı”* Avropa Konvensiyasının (2015) 4-cü fəslini və sair beynəlxalq müqavilələri göstərmək olar. Bu konvensiyalarda da zərərçəkmiş və şahidlərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinə toxunulur.

Avropa Şurası tərəfindən qəbul edilən bütün normativ aktların əsas məqsədi daha müasir tələblərə cavab verən normaların üzv dövlətlərinin analoji qanunvericiliyinə və ictimai həyat təcrübəsinə tətbiq etməkdir. Bu prinsip konvensiyalarla yanaşı, zərərçəkənlərin hüquqları ilə bağlı onun qətnamələrinə də aiddir. Ondan ötrü ki, üzv dövlətlərdə yaşayan şəxslərin hüquqları bərabər olsun. Məsələn 1970-ci illərdə Avropa Şurası (77)27 №-li Qərarı ilə diqqətini yönəltdi cinayət qurbanlarına kompensasiya verilməsi məsələsinə, halbuki belə bir kompensasiyanın ödənilməsi əksər üzv dövlətlərdə nəzərdə tutulmamışdır. Sonrakı illərdə Avropa Şurası cinayət qurbanlarının vəziyyətinə toxunan digər tövsiyələr qəbul etdi:

– “Cinayət və cinayət-prosessual hüquq çərçivəsində zərərçəkənlərin vəziyyəti haqqında” R(85)11 №-li tövsiyə;

– “Cinayət qurbanlarına yardım və viktimizasiyanın qarşısının alınması haqqında” R(87)21 №-li tövsiyə;

– “Şahidlərin və ədalət məhkəməsinə kömək edən şəxslərin müdafiəsi haqqında” Rec(2005)9 №-li tövsiyə və sair.

Bəllidir ki, cinayət və cinayət-prosessual hüquqlarda əsas diqqət dövlətlə cinayətkar arasında olan münasibətlərə yönəldilim. Bu kimi ənənəvi yanaşmanı dəyişmək məqsədi ilə qəbul edilmiş tövsiyələr zərərçəkənlərin problemlərini ön plana çəkmişlər.

Odur ki, bu tövsiyələrə cinayət prosesinin bütün mərhələlərində cinayətin qurbanlarının və onların maraqlarının müdafiəsinə yönəldilən rəhbəredici prinsiplər daxil edilmişdir. O cümlədən, polisdə sorğu-sual, mühakimə prosesində iştirakı, kompensasiya ödənişi, şəxsi həyatının gizliliyinin və onun özünün qorunmasının təşkili zamanı zərərçəkənin hüquqları beynəlxalq sazişlərdə əks etdirilmişdir.

Avropa Şurasının Nazirlər Kabinetinin 1987-ci ildə qəbul etdiyi “Cinayət qurbanlarına yardım və viktimizasiyanın qarşısının alınması haqqında” tövsiyədə cinayət qurbanlarına dövlət və qeyri-dövlət təşkilatları tərəfindən kömək və dayaq etmək sisteminin inkişafına dair rəhbəredici prinsiplər daxil edilmişdir. Eyni zamanda bu tövsiyədə üzv dövlətlər tərəfindən zərərçəkənlərlə

bağlı strukturlu proqramın hazırlanmasında görüləsi tədbirlər sadalanmışdır (o cümlədən məişət zorakılığı, cinsi zorakılıq və zorlama cinayətlərin, eləcə də mütəşəkkil cinayətkarlığın və irqçilik qurbanları üçün). Tövsiyədə uşaqlar xüsusi kateqoriyalı qurbanlara aid olduğundan, onlar üçün kömək sisteminin hazırlanması, təşkil edilməsi və genişləndirilməsi nəzərdə tutulmuşdur. Bundan başqa, bu sənəddə üzv dövlətlərə viktimizasiyanın qarşısının alınması üçün tədbirlərin görülməsi, viktimizasiya üzrə elmi tədqiqatların aparılması və cinayət qurbanlarının ehtiyaclarının anlamasına cəmiyyətin səfərbər olunması tövsiyə edilmişdir.

Qeyd olunan tövsiyələr də nəzərə alınmaqla, Avropa Şurası 15.03.2001-ci ildə bütün üzv dövlətləri üçün məcburi olan "Cinayət mühakiməsində zərərçəkənin vəziyyəti" adlı Aralıq Qərar qəbul etmişdir. Bu sənəddə "qurban", "zərərçəkənlərə yardımın təşkili", "cinayət işlərində vasitəlik" və sair terminlərə anlayış verilmişdir. Bu qərar üzv dövlətlərə zərərçəkənin sadalanan hüquqlarının tanınmasını məcbur edir:

– hörmət və etiraf hüququ;
– eşidilmək hüququ;
– məlumat almaq hüququ;
– müdafiə hüququ;
– kompensasiya hüququ.

Göstərilənlər ona dəlalət edir ki, cinayət təqibinin əsas məqsədi – yalnız cinayətkarı ifşa edib, onu məsuliyyətə cəlb etməkdən ibarət deyil, eyni zamanda cinayət prosesini həyata keçirən orqan cinayətkar hərəkətlər nəticəsində vurulmuş ziyanın ödənilməsi məqsədi ilə tədbirlər görməli, cinayət hüququnun ədalət prinsipinə bütövlükdə əməl olunmasına nail olmalı, təkrar viktimizasiyanın qarşısını almalıdır.

### İstifadə edilmiş mənbələr


1. "Kriminologiya" Dolqova A.İ, Moskva, 2002
2. "Kriminologiya" Malkov V.D, Moskva, 2006
3. "Kriminal viktimologiya" Polubinskiy V.İ, RF DİN-nin AETİ, monoqrafiya, Moskva, 2008.
4. "Cinayət qurbanının hərəkətlərinin xüsusiyyətləri" Odinsova M.A., Samara, 2013.
5. "The Origin of the Doctrine of Victimology" Benyamin Mendelson, 1963.
6. "Victimity: Entering the criminal justice system" Brent E., Niderland, 1970.
7. "Viktimoloji faktorlar və cinayətlərin profilaktikası" Rivman D.V., Leninqrad, 1975.
8. "Viktimliyin cinayət-hüquqi əhəmiyyəti" İlyina L.V., Hüquqşünaslıq, 1975.
9. "Crime Victims: An Introduction to Victimology" Andrey Karmen, 2003.
10. "Victimology: Victimisation and Victims" Lorran Volhutter və başqaları, ABŞ, 2009.
11. "Ward. Attitudes toward Rape: Feminist and Social Psychological Perspectives" Kollin A., 1995.
12. "Encyclopedia of Victimology and Crime Prevention" Bonni S. və başqaları, 2010.
13. "Wagner, Nietzsche and Hitler in Kenyan Review" Adorno T.V., 1947.
14. "İntroducing Victimology" Yan van Deyk, Amsterdam, 1997.
15. "Patterns in Forcible Rape" Menahem Amir, Çikaqo, 1971.
16. "The Victim in a Forcible Rape Case: A Feminist View" Pamela Leyks Vud, 1972.
17. "Victimology and rape - the case of the ligitimate victim" Kurt Vays, Sandra Borges, 1973.
18. "Məktəbdə bullinq və laqeyd olmayanların birləşməsi" Krivsova S.V., Moskva, 2011.
19. "Qadınlara qarşı törədilən zorakılıq cinayətlərinin kriminoloji xarakteristikası və önlənməsinə dair" Qoşqarova N.R., Məhkəmə Ekspertizası Mərkəzi, elmi əsərlər məcmuəsi № 59, Bakı, 2013.
20. "Uşaq terroru" Hüseynova A., Milli.Az portalı, 27.04.2015.
21. "Haqq güclünün tərəfindədir – Azərbaycan məktəblərində təhdid" Axundzadə H., OC Media portalı, 16.02.2018.
22. "Zərərçəkənlərin və şahidlərin hüquqlarına münasibətdə prokurorların rolu haqqında" Avropa Prokuror Konsultativ Şurasının qərarı, Strasburq, 30.11.2017.
23. "Zorakı cinayətlərin qurbanlarına kompensasiya ödənilməsi haqqında" Strasburq Konvensiyası, 1983.
24. BMT-nin "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı" Konvensiyası, 1984.
25. "İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konversiyası, 1987.
26. "Cinsi istismardan və cinsi zorakılıqdan uşaqların qorunması haqqında" Avropa Konvensiyası, 2007.
27. "Qadınlara münasibətdə zorakılığın və məişət zorakılığın qarşısının alınması və aradan qaldırılması haqqında" Avropa Konvensiyası, 2011.
28. "İnsan alverinə qarşı" Avropa Konvensiyası, 2015.
29. "Cinayət və cinayət-prosessual hüquq çərçivəsində zərərçəkənlərin vəziyyəti haqqında" Avropa Şurasının R(85)11 №-li tövsiyəsi.
30. "Cinayət qurbanlarına yardım və viktimizasiyanın qarşısının alınması haqqında" Avropa Şurasının R(87)21 №-li tövsiyəsi.
31. "Şahidlərin və ədalət məhkəməsinə kömək edən şəxslərin müdafiəsi haqqında" Avropa Şurasının Rec(2005)9 №-li tövsiyəsi.
32. "Cinayət mühakiməsində zərərçəkənin vəziyyəti" Avropa Şurasının 15.03.2001-ci il tarixli Aralıq Qərarı.
33. "Cinayət nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi barədə iddia verilərkən dövlət rüsumu ödənilməlidirmi?" Namiq Cəfərov https://www.e-huquq.az/az/news/maarifIendirme/41460.html



**Talıb Cəfərov**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini, baş ədliyyə müşaviri**

# Cinayət Məcəlləsinin eyni bir maddəsinin müxtəlif hissələrində də nəzərdə tutulmuş əməllərin törədilməsi cinayətlərin məcmusunu yaradır

Məlum olduğu kimi cinayətlərin məcmusu cinayətlər çoxluğunun formalarından biri hesab olunur. Cinayətlərin çoxluğu isə hər biri müstəqil cinayət tərkibi yaradan iki və ya daha artıq cinayət əməlinin törədilməsini nəzərdə tutur.

Çoxluğun elementi olan konkret cinayətlərin müxtəlif növləri mövcuddur və nəzəriyyədə onlar sadə və mürəkkəb növlərə bölünürlər.

Sadə konkret cinayət bir hərəkətin (və ya hərəkətsizliyin) və bir nəticənin və ya bir hərəkətin və bir neçə nəticənin, yaxud alternativ hərəkətlərin mövcudluğu ilə səciyyələnir.

Mürəkkəb konkret cinayətlər sadə konkret cinayətlərlə müqayisədə daha qəliz struktura malikdirlər. Bu cinayətlərdə törədilmiş əməlin mürəkkəb obyektiv və subyektiv tərəfi olur. ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16 və 18-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 yanvar 2021-ci il tarixli Qərarı)

Hüquq ədəbiyyatında cinayətlərin məcmusu Məcəllənin müxtəlif maddələrində nəzərdə tutulmuş cinayət əməllərinin cəmi kimi qeyd olunur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsində (bundan sonra CM) cinayətlərin çoxluğu termininin adı çəkilməsə də, 16, 17 və 18-ci maddələrində cinayətlərin çoxluğuna aid olan cinayətlərin təkrar törədilməsi, cinayətlərin məcmusu, cinayətlərin residivi və onun növləri ilə bağlı olan məsələlər tənzimlənir.

CM-in 17.1-ci maddəsinə əsasən, bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, həmin cinayətləri törətmiş şəxs onlardan heç birinə görə məhkum olunmamışdırsa və ya qanunla müəyyən edilmiş əsaslar üzrə cinayət məsuliyyətindən azad edilməmişdirsə, habelə bu cinayətlərdən heç birinə görə cinayət məsuliyyətinə cəlbetmə müddəti keçməmişdirsə, cinayətlərin məcmusunu yaradır.

Göstərilən maddənin mahiyyətindən belə nəticəyə gəlmək olar ki, cinayətlərin məcmusu aşağıdakı əlamətlərlə səciyyələnir:

– şəxsin iki və ya daha artıq cinayət törətməsi;

– ona daxil olan cinayətlərin hər birində müstəqil cinayət tərkibi əlamətlərinin mövcudluğu;

– cinayətlərin məhkumluğu olmayan şəxs tərəfindən törədilməsi;

– yalnız müxtəlif cinsli cinayətlərin törədilməsi;

– cinayətlərin müxtəlif vaxtlarda və ya eyni vaxtda törədilib-törədilməməsindən asılı olmayaraq yaranması. ( "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18 mart 2013-cü il tarixli Qərarı)

Burada əsas məqam iki və ya daha artıq müstəqil cinayət tərkibi əlamətlərinin mövcud olduğu cinayətlərin törədilməsidir. Bu məntiqdən çıxış edərək qanunverici CM-nin 17-ci maddəsində "bu Məcəllənin müxtəlif maddələri ilə nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi" ifadəsini qeyd etmişdir. Lakin cinayət məcəlləsində bir maddənin müxtəlif hissələrində ayrı-ayrı müstəqil cinayət tərkibi əməllərinin nəzərdə tutulmasına da rast gəlinir. Məsələn, CM-nin 200 *(İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma)* və 234-cü maddələri *(Qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma).*

Belə ki, CM-nin 200-cü maddəsinin birinci hissəsində *istehlakçıları aldatma, yəni mal satan və ya əhaliyə xidmət göstərən təşkilatlarda, həmçinin ticarət (xidmət) sahəsində fərdi sahibkar qismində qeydə alınmış fiziki şəxslər tərəfindən malın (xidmətin) ölçüsünə, çəkisinə, hesabına, habelə istehlak xüsusiyyəti və ya keyfiyyətinə dair istehlakçıları xeyli miqdarda aldatma* cinayəti nəzərdə tutulmuş, üçüncü hissəsində isə müstəqil cinayət tərkibi yaradan və müstəqil sanksiyaya malik olan *(bilə-bilə pis keyfiyyətli məhsulların istehsalı, satışa buraxılması və ya belə məhsulların satışı, onların keyfiyyətsiz olmasının gizlədilməsi ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin sağlamlığına az ağır və ya ağır zərər vurulmasına səbəb olduqda)* fərqli cinayət əməlləri nəzərdə tutulmuşdur.

CM-nin 234-cü maddəsinin 1-ci *(satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə, saxlama, hazırlama, emal etmə, daşıma)* və 2-ci *(satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satma)* hissələrində müstəqil cinayət tərkibləri yaradan və müstəqil sanksiyaya malik olan iki biri-birindən fərqli cinayət əməlləri nəzərdə tutulmuşdur. Yeri gəlmişkən,

son illərdə respublikamızda narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin törədilməsinin ümumi sayı artmış və bu da həmin cinayətləri törətmiş şəxslərin əməllərinin düzgün tövsif olunması məsələsini aktual edir.

“Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 30-cu maddəsinin 1-ci hissəsində qeyd olunur ki, normativ hüquqi aktın struktur elementləri preambuladan, bölmədən, fəsildən, maddədən, hissədən, bənddən, yarımbənddən və abzasdan ibarətdir. Həmin Qanunun 30-cu maddəsinin 6-cı hissəsində isə göstərilir ki, normativ hüquqi aktın maddəsi hissələri özündə birləşdirən və tamamlanmış normativ müddəanı əks etdirən əsas struktur elementidir. Maddə ərəb rəqəmi ilə nömrələnir və rəqəmdən sonra nöqtə qoyulur.

Qeyd olunan Konstitusiya Qanununun normalarına görə, CM-nin 200.1 və 200.3-cü maddələri, həmçinin 234.1 və 234.2-ci maddələri əslində eyni bir maddənin hissələridir.

Qanunvericiliyin əsas qaydalarından biri ondan ibarətdir ki, cinayət məcəlləsinin hər bir maddəsinin birinci hissəsi əsas müstəqil cinayət tərkibini nəzərdə tutur. Sonraki hissələr isə həmin əməlin ağırlaşdırıcı hallarda tövsifedici əlamətlərini nəzərdə tutur. Müvafiq olaraq maddənin sonrakı hissələrinin sanksiyalarında daha ağır cəza növləri və hədləri müəyyən olunur. Cəza təyini zamanı isə əyər əməl maddənin ağırlaşdırıcı hallarda tövsifedici əlamətləri ilə, yəni sonrakı hissələri ilə tövsif edilmişdirsə, o zaman maddənin daha ağır cəza nəzərdə tutan hissəsinin sanksiyası həddində cəza təyin olunur. Məsələn: CM-nin 177-ci maddəsi ilə əməl tövsif olunarkən, əyər şəxsin əməlində həmin maddənin sonrakı hissələrində nəzərdə tutulmuş ağırlaşdırıcı əlamətlər müəyyən olunarsa o zaman şəxsin əməli ağırlaşdırıcı əlamətləri nəzərdə tutan hissələri ilə bərabər CM-nin 177.1-ci hissəsi ilə də tövsif olunmur. Yəni həmin Maddənin daha ağır cəza nəzərdə tutan müvafiq hissəsi ilə tövsif edilir. (Azərbaycan Respublikası Ali Məhkəməsinin 3 mart 2005-ci il tarixli Plenumunun «Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında» qərarının 18-ci bəndi)

Təcrübədə isə şəxsin əməlinin CM-nin 234-cü maddəsinin 1-ci və 2-ci hissələri ilə (234.1 və 234.2) tövsif olunmasına və həmin maddələrlə təqsirli bilinib cinayətlərin məcmusu qaydasında cəzalandırılmasına dair çox saylı qanuni qüvvəyə minmiş məhkəmə hökmləri mövcuddur. Yaranmış təcrübədə əməl bu cür tövsif olunarkən maddənin hissələri də elə "maddə" adlandırılır. (Əslində bu cür adlandırma yuxarıda istinad edilən "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərinə uyğundur. Belə ki, həmin Qanunun 30.11-ci maddəsində qeyd olunur ki, normativ hüquqi aktda maddənin hissəsinə, bəndinə və ya yarımbəndinə istinad edilərkən, onlar maddə adlandırılır.) Bu qaydada tövsifin CM-nin 17-ci və 66-cı maddələrinə uyğunluğu barədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi şərhi mövcud deyil. “Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 04 mart 2011-ci il 2 saylı Qərarında da bununla bağlı izah yoxdur.

Cinayət Məcəlləsində cinayətlərin məcmusunun anlayışına müvafiq olaraq məcmu qaydasında törədilən cinayətlərə görə cəzanın təyin edilmə qaydası da xüsusi norma ilə tənzimlənmişdir (Maddə 66. Cinayətlərin məcmusu üzrə cəzanın təyin edilməsi). Həmin maddəyə görə cinayətlərin məcmusu üzrə məhkəmə cəza təyin edərkən hər bir cinayətə görə ayrılıqda cəza təyin edərək, az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə və ya təyin olunmuş cəzaları tamamilə və ya qismən toplamaq yolu ilə qəti cəza təyin edir. Bu baxımdan əməllərin cinayətlərin məcmusu qaydasında tövsifinin qanuni və əsaslı olması mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin cinayət qanunvericiliyi sahəsində aparılan islahatlara beynəlxalq hüquq normalarının təsirini nəzərə alaraq xarici təcrübəyə də nəzər yetirmək faydalı olardı.

Roman-german hüquq sisteminə daxil olan Avropa ölkələrinin Cinayət Məcəllələrindəki institutlar sistemini analiz etdikdə görürük ki, cinayətlərin çoxluğunun, xüsusən cinayətlərin məcmusu anlayışının hüquqi tənzimlənməsinə bir o qədər yer verilmir. Bu sahədə əsasən cəza təyini qaydalarına xüsusi diqqət yetirilir.

Qanunvericilik sistemləri bizə daha yaxın olan MDB ölkələrinin cinayət qanunvericiliyinə nəzər salsaq görərik ki, həmin ölkələrin əksəriyyətinin cinayət məcəlləsində cinayətlərin məcmusu anlayışı verilmiş və cinayətlərin məcmusuna cinayət məcəlləsinin müxtəlif maddələrində nəzərdə tutulmuş əməllərin törədilməsi ilə yanaşı bir maddəsinin hissələrində nəzərdə tutulmuş iki və ya daha çox əməlin törədilməsi də daxil edilmişdir.

Belə ki, 05.06.1996-cı il tarixdə qüvvəyə minmiş Rusiya Federasiyasının Cinayət Məcəlləsinin 17-ci maddəsində cinayətlərin məcmusunun anlayışı verilmiş və həmin normada qeyd olunmuşdur ki, cinayətlərin məcmusu üzrə şəxs törətdiyi hər bir cinayətə görə bu Məcəllənin *müvafiq maddəsi və ya maddəsinin hissəsi ilə* cinayət məsuliyyəti daşıyır.

**УК РФ Статья 17. Совокупность преступлений**

1. Совокупностью преступлений признается совершение двух или более преступлений, ни за одно из которых лицо не было осуждено, за исключением случаев, когда совершение двух или более преступлений предусмотрено статьями Особенной части настоящего Кодекса в качестве обстоятельства, влекущего более строгое наказание. При совокупности преступлений лицо несет уголовную ответственность за каждое совершенное преступление по соответствующей статье или части статьи настоящего Кодекса.

2. Совокупностью преступлений признается и одно действие (бездействие), содержащее признаки преступлений, предусмотренных двумя или более статьями настоящего Кодекса.

3. Если преступление предусмотрено общей и специальной нормами, совокупность преступлений отсутствует и уголовная ответственность наступает по специальной норме.

(в ред. Федеральных законов от 08.12.2003 N 162-ФЗ, от 21.07.2004 N 73-ФЗ)

05.04.2001-ci il tarixdə qüvvəyə minmiş Ukrayna Respublikasının Cinayət Məcəlləsinin 33-cü maddəsi – "Şəxs tərəfindən bu Məcəllənin Xüsusi hissəsinin ayrı-ayrı *maddələrində və ya bir maddəsinin ayrı-ayrı hissələrində* nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, şəxs heç birinə görə məhkum edilməmişdirsə cinayətlərin məcmusudur"

**УК Украины Статья 33. Совокупность преступлений**

1. Совокупностью преступлений признается совершение лицом двух или более преступлений, предусмотренных различными статьями или различными частями одной статьи Особенной части настоящего Кодекса, за одно из которых ее не было осуждено. При этом не учитываются преступления, за которые лицо было освобождено от уголовной ответственности по основаниям, установленным законом.

2. При совокупности преступлений каждое из них подлежит квалификации по соответствующей статье или части статьи Особенной части настоящего Кодекса.

(Уголовный кодекс Украины от 05.04.2001 № 2341-III)

01.06.2000-ci il tarixdə qüvvəyə minmiş Gürcüstan Respublikası Cinayət Məcəlləsinin 16-cı maddəsi – "Cinayətlərin məcmusu dedikdə, bu Məcəllənin *maddələrində və ya maddələrinin hissələrində* nəzərdə tutulmuş iki və ya daha çox əməlin törədilməsi başa düşülür. Bu Məcəllənin iki və ya daha çox maddəsində və ya maddələrinin hissəsində nəzərdə tutulmuş cinayət əlamətləri olan əməlin törədilməsi də cinayətlərin məcmusu kimi tanınır.

**УК Грузии Статья 16. Совокупность преступлений**

1. Совокупность преступлений означает совершение двух или более деяний, предусмотренных статьями или частями статей настоящего Кодекса, ни за одно из которых лицо не было осуждено. Совокупностью преступлений признается также совершение деяния, содержащего признаки преступлений, предусмотренных двумя или более статьями или частями статей настоящего Кодекса.

2. Если деяние предусмотрено общей и специальной нормами, совокупность преступлений отсутствует, и лицо подлежит уголовной ответственности по специальной норме.

09 iyul 1999-cu il tarixdə qüvvəyə minmiş Belarus Respublikasının Cinayət Məcəlləsinin 42-ci maddəsi – "Bu Məcəllənin Xüsusi hissəsinin müxtəlif maddələrində *<u>və ya eyni maddənin müxtəlif hissələrində</u>* nəzərdə tutulmuş iki və ya daha çox cinayətin törədilməsi, habelə Xüsusi hissənin eyni maddəsində nəzərdə tutulmuş cinayətlərin törədilməsi hansı ki, onlardan bəziləri başa çatmış cinayət, digərləri isə cinayətə hazırlıq, cəhd və ya iştirakçılıq kimi tövsif edilir və heç birinə görə şəxs məhkum edilməmişdir - cinayətlərin məcmusudur"

**Уголовный Кодекс Республики Беларусь Статья 42. Совокупность преступлений**

1. Совокупностью преступлений признаются совершение двух или более преступлений, предусмотренных различными статьями Особенной части настоящего Кодекса либо разными частями одной и той же статьи, а равно совершение преступлений, предусмотренных одной и той же статьей Особенной части настоящего Кодекса, из которых одни квалифицируются как оконченное преступление, а другие – как приготовление, покушение или соучастие в преступлении, ни за одно из которых лицо не было осуждено. При этом лицо несет уголовную ответственность за каждое совершенное преступление по соответствующей статье настоящего Кодекса.

2. Если преступление предусмотрено различными статьями Особенной части настоящего Кодекса, из которых одна норма является общей, а

другая специальной, совокупность преступлений отсутствует и уголовная ответственность наступает по специальной норме.

Həmçinin 16 iyul 1997-ci il tarixdə qüvvəyə minmiş Qazaxıstan Respublikasının Cinayət Məcəlləsinin 13-cü maddəsi – "bu Məcəllənin müxtəlif maddələrində <u>və ya maddəsinin hissələrində</u> nəzərdə tutulmuş iki və ya daha çox əməlin törədilməsi əgər heç birinə görə şəxs qanunla müəyyən edilmiş əsaslarla məhkum edilməmiş və ya cinayət məsuliyyətindən azad edilməmişdirsə, cinayət əməllərinin məcmusu sayılır".

**УК РК Статья 13. Совокупность уголовных правонарушений**

1. Совокупностью уголовных правонарушений признается совершение двух или более деяний, предусмотренных различными статьями или частями статьи настоящего Кодекса, ни за одно из которых лицо не было осуждено или не было освобождено от уголовной ответственности по основаниям, установленным законом. При совокупности уголовных правонарушений лицо несет уголовную ответственность за каждое совершенное деяние по соответствующей статье или части статьи настоящего Кодекса, если признаки этих деяний не охватываются нормой одной статьи или части статьи настоящего Кодекса, предусматривающей более строгое наказание.

2. Совокупностью уголовных правонарушений признается и одно действие (бездействие), содержащее признаки уголовных правонарушений, предусмотренных двумя или более статьями настоящего Кодекса. При такой совокупности лицо несет уголовную ответственность за каждое совершенное деяние по соответствующим статьям настоящего Кодекса, если признаки одного деяния не охватываются нормой статьи настоящего Кодекса, предусматривающей более строгое наказание за другое деяние.

Avropa Məhkəməsinin formalaşdırdığı hüquqi mövqeyinə əsasən qanunun aydın olması yalnız onun özünün mətni ilə deyil, eləcə də məhkəmə təcrübəsində formalaşan təfsiri ilə şərtləndirilir. Həm Konstitusiyadan, həm də Konvensiyadan irəli gələn hər kəsin qanunsuz cəzalandırılmamaq hüququnun müstəsna əhəmiyyəti isə bu sahəyə aid cinayət-hüquqi qaydaların təfsirindən xüsusi dəqiqliyi və aydınlığı tələb edir. ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 22 fevral 2012-ci il tarixli Qərarı)

Bu baxımdan cinayət məcəlləsinin mətni aydın olmalı və təcrübədə çətinliklər yaratmamalıdır. Nəzərə alınmalıdır ki, hüquq tətbiqedici tərəfindən qanunvericilik normasının yanlış təfsir edilərək başqa qaydada tətbiq olunması hüquqi müəyyənlik prinsipinin pozulmasına gətirib çıxara bilər (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 74-cü maddəsinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39, 40 və 305.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 14 sentyabr tarixli Qərarı). Fikrimcə cinayətlərin məcmusunun anlayışını nəzərdə tutan CM-nin 17-ci maddəsinin mətnində müvafiq dəyişikliyin edilməsi ilə cinayətlərin məcmusunun cinayət-hüquqi tərifinin konkretləşdirilməsi bu uyğunsuzluğu aradan qaldırmış olardı.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanunu;
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi;
3. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.5, 61.1.1 və 65-ci maddələrinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18.03.2013-cü il tarixli Qərarı;
4. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 66.5-ci maddəsinin şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 22.02.2012-ci il tarixli Qərarı;
5. "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16 və 18-ci maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25.01.2021-ci il tarixli Qərarı;
6. "Narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsinə dair cinayət işləri üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun 04.03.2011-ci il tarixli 2 saylı Qərarı;
7. "Oğurluq, soyğunçuluq və quldurluğa dair işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 03.03.2005-ci il tarixli qərarı
8. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin "Cinayət hüququ və kriminologiys" kafedrasının müdiri olmuş, hüquq elmləri doktoru, professor mərhum Firudin Yusif oğlu Səməndərovun redaktəsi ilə nəşr olunmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin kommentariyası;
9. Rusiya Federasiyasının Cinayət Məcəlləsi;
10. Gürcüstan Respublikası Cinayət Məcəlləsi;
11. Belarus Respublikasının Cinayət Məcəlləsi;
12. Qazaxıstan Respublikasının Cinayət Məcəlləsi.



**Rauf Qasımov**
**Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarənin Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru, ədliyyə müşaviri**

# Tacikistan Respublikasının Baş prokuroru Raxmon Yusuf Axmadzodun "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalına müsahibəsi



**– Hörmətli cənab Baş prokuror, icazə verin ilk öncə sıx cədvəlinizə baxmayaraq suallarımıza cavablandırmağa razılıq verdiyinizə görə "Azərbaycan Prokurorluğu" redaksiyası adından Sizə dərin minnətdarlığımızı bildirək. Ölkələrimizin prokurorluq orqanları arasında münasibətlərin hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?**

– Təşəkkür edirəm!

Tacikistan və Azərbaycan Respublikaları arasında diplomatik münasibətlər 29 may 1992-ci il tarixində qurulmuşdur. İkitərəfli siyasi, iqtisadi, mədəni, texniki və hüquqi münasibətlərin inkişafı üçün başlanğıc nöqtəsi isə Azərbaycan Respublikasının Prezidenti, hörmətli İlham Əliyevin 15-16 mart 2007-ci ildə Tacikistan Respublikasına, daha sonra isə Tacikistan Respublikasının Prezidenti, hörmətli İmoməli Rəhmonun Azərbaycan Respublikasına 13-14 avqust 2007-ci ildə səfərləri olmuşdur.

Prezidentlərimizin müdrik və məqsədyönlü siyasəti sayəsində xalq təsərrüfatının demək olar ki, bütün istiqamətlərində əməkdaşlıq qurulmuş, həmçinin İqtisadi-Ticarət Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya yaradılmışdır. Hüquqi yardımın göstərilməsi və qarşılıqlı əməkdaşlıq haqqında ilk Razılaşma iki ölkənin prokurorluq orqanları arasında hələ 1995-ci il oktyabrın 16-da imzalanmışdır.

10 avqust 2018-ci il tarixində Tacikistan Respublikasının Prezidenti, hörmətli İmoməli Rəhmonun Azərbaycan Respublikasına səfəri çərçivəsində bizim strukturlar arasında hüquqi yardımın göstərilməsi və qarşılıqlı əməkdaşlıq haqqında yeni razılaşma imzalanmışdır. Bu gün Tacikistan və Azərbaycanın prokurorluq orqanlarının ikitərəfli əməkdaşlığı yüksək səviyyədə həyata keçirilir.

**– Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin başçılıq etdiyi nümayəndə heyətinin Tacikistana rəsmi səfəri zamanı bizim qurumlarımız arasında 2023 – 2024-cü illər üzrə Əməkdaşlıq haqqında proqram imzalanmışdır. Bu proqramın müddəalarının həyata keçirilməsi hansı imkanları açır?**

– 16 dekabr 2022-ci ildə biz Tacikistanda həmkarım və dostum Azərbaycan Respublikasının Baş prokuroru hörmətli Kamran Bayram oğlu Əliyevi qəbul etmişik və ikitərəfli görüş nəticəsində iki qurum arasında 2023 – 2024-cı illər üzrə Əməkdaşlıq haqqında proqramı imzalanmışdır.

Əməkdaşlıq haqqında proqramda mütəxəssislərimiz arasında müəyyən sahələrdə bilik və təcrübə mübadiləsi nəzərdə tutulub. Bizim əməkdaşların azərbaycanlı həmkarlarından prokurorluğun fəaliyyətinin elektronlaşdırması, kibercinayətkarlıqla mübarizə, cinayət yolu ilə əldə edilmiş aktivlərin və gəlirlərin qaytarılması sahəsində öyrənməyə çox şey vardır. Tacikistanın Baş Prokurorluğu ekstremizm və terrorçuluqla bağlı cinayət işlərinin istintaqı, eləcə də silahlı qüvvələrə və sərhədlərlə nəzarət sahəsində müəyyən təcrübəyə malikdir.

Bu səbəbdən ardıcıl olaraq Düşənbə və Bakıda qarşılıqlı təcrübə mübadiləsi məqsədilə seminarlar təşkil olunacaqdır. Belə görüşlər təcrübə mübadiləsi ilə yanaşı, prokurorlar arasında şəxsi əlaqələrin və mədəni münasibətlərin yaranmasına təkan verəcəkdir.

**– Mərkəzi Asiya regionunun aparıcı ölkələrindən biri kimi Tacikistanın geostrateji yerləşməsi – transmilli mütəşəkkil cinayətkarlıq və terrorçuluqla mübarizə sahəsində müvafiq çağırışları müəyyən edir. Bu istiqamətdə Tacikistanın prokurorluq orqanları qarşısında qoyulan əsas vəzifələr hansılardır?**

– "Tacikistan Respublikasının prokurorluğu orqanları haqqında" Konstitusiya Qanununa əsasən suverenliyin, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün və toxunulmazlığının, demokratik dövlət sisteminin əsaslarının qorunması məqsədilə qanunun aliliyinin təmin edilməsi və qanunçuluğun möhkəmləndirilməsi – Tacikistan Prokurorluğunun əsas vəzifələrindən biridir.

Dövlətimiz Çin, Qırğızıstan, Özbəkistan və Əfqanıstan İslam Respublikası ilə həmsərhəddir. Ən uzun sərhəd Əfqanıstanladır, mürəkkəb relyef nəzərə alınaraq

onun uzunluğu 1425 km-dən artıq təşkil edir. Təəssüf ki, bu ölkədə günü-gündən gərginləşən vəziyyət Tacikistanın, eləcə də bütün Mərkəzi Asiya regionunun və MDB-nin milli təhlükəsizliyi üçün təhlükə yaradır.

Hazırda Əfqanıstanda on minlərlə yaraqlının (silahlının) olduğu 20-dən çox terror təşkilatı fəaliyyət göstərir. Suriya və İraq ərazilərində məğlubiyyətdən sonra Əfqanıstana köçən «İraq və Levante İslam Dövləti» tərəfdarlarının birgə toplanması vəziyyəti daha da gərginləşdirir. Əfqanıstanda yaradılmış "İŞİD Xurasan" adlı şəbəkənin döyüşçülərinin sayı 5 minə çatır. Onların bilavasitə Tacikistanla həmsərhəd olan Əfqanistanın şimal hissəsində cəmləşməsi müşahidə olunur. Bu səbəbdən, biz xarici silahlı-terrorçuların Tacikistan ərazisinə daxil olma cəhdləri və hücumları ilə, güclü narkotik vasitələrin və onların prekursorlarının qaçaqmalçılığı ilə, habelə transmilli mütəşəkkil cinayətkarlığın mürəkkəb növləri və sair problemlərlə rastlaşırıq.

Terrorizmə qarşı mübarizə sahəsində qanunvericiliyə əsasən, Tacikistan Respublikasının Baş Prokurorluğu terrorizmə qarşı mübarizəni həyata keçirən əsas subyektlərdən biridir. Bundan əlavə, cinayət və digər hüquqpozmalara qarşı mübarizədə hüquq-mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi Tacikistan Prokurorluğunun əsas fəaliyyət istiqamətidir. Məhz buna görə də Tacikistan Respublikasının 2021 – 2025-ci illər üçün ekstremizm və terrorizmlə mübarizə üzrə Strategiyasının həyata keçirilməsində əsas məsuliyyət Baş Prokurorluğun üzərinə düşür.

Bu dövlət proqramlı sənəd Tacikistan Respublikasının ekstremizmə və terrorçuluğa qarşı mübarizə sahəsində dövlət siyasətinin məqsədlərini, vəzifələrini və əsas istiqamətlərini müəyyənləşdirir, bu sahədə dövlət hakimiyyəti orqanlarının, qəsəbə və kəndlərin, yerli özünüidarəetmə orqanlarının, vətəndaş cəmiyyəti institutlarının və beynəlxalq təşkilatların səylərinin birləşdirilməsinə yönəlib.

**– Tacikistan Prokurorluğu MDB ölkələrinin baş prokurorlarının Koordinasiya Şurasının fəaliyyəti çərçivəsində də dəyərli əməkdaşlıq təcrübəsinə malikdir. Bu platforma çərçivəsində əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

– MDB-yə üzv dövlətlərin baş prokurorlarının Koordinasiya Şurası 1995-ci ilin dekabrında yaradılmışdır və o vaxtdan bəri MDB prokurorlarının hüquqi əməkdaşlığının mühüm vasitəsidir. MDB ölkələrinin prokurorları Koordinasiya Şurasının Katibliyi vasitəsilə təcrübə və hüquqi məlumat mübadiləsi imkanına malikdirlər.

Qeyd olunanlardan irəli gələrək, Koordinasiya Şurasına 25 yanvar 2000-ci ildə MBD dövlətlərinin başçılarının qərarı ilə təsdiqlənmiş MDB dövlətlərarası orqanı statusunun verilməsi çox vacibdir. Bu status bizə MDB-nin digər struktur orqanları ilə əməkdaşlıq təşkil etməyə imkan verir.

**– Tacikistanlı həmkarlarımızın ixtisaslaşdırılmış prokurorluqların təşkili və fəaliyyəti baxımından dəyərli təcrübələri vardır. Siz MDB ölkələri üzrə həmkarlarınızla hansı qabaqcıl təcrübə ilə paylaşa bilərsiniz?**

– Tacikistan Respublikasının prokurorluq orqanlarının strukturunda iki ixtisaslaşdırılmış prokurorluq fəaliyyət göstərir – bu nəqliyyat prokurorluğudur, eləcə də azadlıqdan məhrumetmə və cəzaların icrası yerlərində qanunların icrasına nəzarət üzrə prokurorluqdur.

Tacikistanın Nəqliyyat prokurorluğu dəmir yolu, hava və avtomobil nəqliyyatında qanunların eyni cür və dürüst icrasına və tətbiqinə nəzarət edir. O, həmçinin nəqliyyatda və yaxın ərazilərdə törədilmiş cinayətlərinin ibtidai araşdırmasını aparır.

Azadlıqdan məhrumetmə və cəzaların icrası yerlərində qanunların icrasına nəzarət üzrə prokurorluq həbs edilmiş şəxslərin saxlanma yerlərində, qəbul məntəqələrində, ilkin saxlama yerlərində, cəzanı icra edən müəssisə və orqanlarda, habelə məhkəmə tərəfindən təyin edilmiş məcburiyyət xarakterli tədbirlərin həyata keçirilmə yerlərdə şəxslərin olmasının qanuniliyinə nəzarət edir.

Məsələn, Nəqliyyat prokurorluğu tərəfindən yalnız 2021-ci ildə 2744 inzibati və 505 intizam icraatı, eləcə də 69 cinayət işi başlanmışdır. Nəqliyyat prokurorluğu cinayət işləri üzrə ibtidai araşdırma aparmaqla, yoxlamaların nəticələrinə əsasən qanun pozuntularına dair 900-dən çox prokurorluq aktı tətbiq etmiş, nəqliyyatda çalışan məmurların qanunsuz əməllərinə qarşı 920-dən çox protest verilmişdir.

Oxşar statistika digər ixtisaslaşmış prokurorluqlar üçün də mövcuddur. Onların işinin nəticələri, aşkar olunan cinayətlərin və hüquqpozuntuların sayı, vətəndaşların hüquq və azadlıqlarının bərpası üzrə görülən işlərin həcmi bu prokurorluqların fəaliyyətinin zəruriliyini əsaslandırır.

**– Bizim tacik həmkarlarımızın fəaliyyəti ilə yaxından tanış olmaq imkanını yaratdığınız üçün Sizə dərin minnətdarlığımızı ifadə etməyə icazə verin.**

– Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərliyinə konstruktiv əməkdaşlıq üçün təşəkkürümü bildirirəm və Azərbaycandan bizim bütün dostlarımızı onlara münasib vaxtda Tacikistana baş çəkməyə dəvət edirəm.

Qonaqlara biz hər zaman şadıq!

# Baş prokuror Kamran Əliyev prokurorluqda qulluq keçməsini başa çatdırmaqla təqaüdə çıxan bir sıra işçiləri təltif etmişdir






"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat və icraya nəzarət idarəsinin rəis müavini, baş ədliyyə müşaviri Zeynalov Rauf Nurəddin oğlu və Dövlət ittihamının müdafiəsi idarəsində şöbənin böyük prokuroru, ədliyyə müşaviri Əliyev Müstəcəb Süleyman oğlunu qulluq keçmələrinə xitam verilmələri ilə əlaqədar Baş prokuror Kamran Əliyev 28.11.2022-ci il tarixdə Baş Prokurorluğun inzibati binasında qəbul edib, Rauf Zeynalov "Azərbaycan Prokurorluğunun 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı, Müstəcəb Əliyev isə "Prokurorluğun fəxri işçisi" döş nişanı ilə təltif etmiş və onlara hədiyyələr təqdim etmişdir.

Görüşdə tədbir iştirakçıları xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkilləri çəkdirmişlər.




# Prokurorluqda qulluq keçməsini başa çatdırmaqla təqaüdə çıxan işçi Baş prokuror Kamran Əliyev tərəfindən təltif edilmişdir





"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 32.2-ci maddəsinə əsasən prokurorluqda qulluqda olmanın son yaş həddinə çatmış Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru, baş ədliyyə müşaviri Hacıyev Rasim Akif oğlunun qulluq keçməsinə xitam verilməsi ilə əlaqədar Baş prokuror Kamran Əliyev dekabrın 24-də Baş Prokurorluğun inzibati binasında qəbul edib, ona "Prokurorluğun fəxri işçisi" döş nişanını təqdim etmiş və hədiyyə təqdim etmişdir.

Baş prokuror görüşdə tədbir iştirakçısı ilə xatirələrini bölüşüb səmimi söhbətlər etmiş və sonda xatirə şəkili çəkdirmişlər.





# QARABAĞ FƏDAİSİ – "QARAGAF QARTALI"

*Bir prokurorun qəhrəmanlıq hekayəsi*



**Ələmdar Məmmədov,**
**Təqaüddə olan baş ədliyyə müşaviri**

*Vətəni sevmək imandandır. Peyğəmbər (s.ə.s.)*
*Vətəni qoruyarsan, Vətən olar,*
*qorumazsan, kəfən olar!*

**Dövlət orqanları sistemində prokurorluğun tutduğu yer, sosial təyinatı elədir ki, bütünlükdə qanunçuluğun vəziyyətinə görə məsuliyyət daşısa da, əsasən nəzarət orqanı kimi fəaliyyət göstərir. Lakin bəzən elə şərait yaranır ki, prokurorluq işçisi karyerasını, hətta həyatını təhlükə altına qoyaraq, vəzifəsinə uyğun olmayan addımlar atmalı olur. Haqqında söhbət açdığımız belə insanlardan biri də Eldar Sultanovdur.**

Eldar müəllimin həyat dəftərini vərəqləyərək, bu qədər fədakarlığın və vətənpərvərliyin haradan qaynaqlandığını düşünür, iş yoldaşım olmuş mühüm işlər üzrə böyük müstəntiq rəhmətlik Ələfsər Əliyevin tez-tez təkrar etdiyi sözləri xatırlayıram. Ələfsər müəllim deyirdi: **"Kişi, anadan kişi doğulmalıdır".** Bəli, qanı fədakarlıqla yoğrulmuş Eldar müəllim əsl azərbaycanlı kişisi kimi vətəni qorumaq üçün doğulmuşdu.



**8 iyul 1946-cı ildə Bakı şəhərində anadan olmuş Eldar Sadıq oğlu Sultanovun yeniyetməlik və gəncliyi keçən əsrin 60 – 70-ci illərinə zəhmətlə dolu, keşməkeşli, lakin sabaha ümüdlü sovet dövrünə təsadüf edirdi.**

Erkən yaşlarından əmək fəaliyyətinə başlayan Eldar Sultanov 1962-1967-ci illərdə L.Şmidt adına zavodda fəhlə işləmiş, 1967-1969-cu illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. Hərbi xidmətini başa vuran Eldar Sultanov 1969-1975-ci illərdə Volodarski adına fabrikdə, 1976-1977-ci illərdə B.Sərdarov adına zavodda fəhlə işləmişdir.1971-1977-ci illərdə ADU-nun Hüquq fakültəsinin axşam şöbəsində təhsil almışdır.

1977-ci ildə prokurorluq orqanlarında işə düzəlib. Stajorluq müddəti bitdikdən sonra Lenin (indiki Sabunçu) rayon prokurorluğunda müstəntiq, 1981-ci ildə baş müstəntiq, 1983-cü ilin aprel ayından həmin rayon prokurorunun köməkçisi vəzifəsində işləmişdir. 1985-ci ildə SSRİ Baş Prokurorluğunun Xarkov şəhərində yerləşən rəhbər kadrlarının ixtisasartırma institutunu əla qiymətlərlə bitirmişdir. 1984-1988-ci illərdə Bakı şəhər prokurorunun müavini, 1988-1992-ci illərdə Əli Bayramlı şəhər (indiki Şirvan) prokuroru vəzifəsində işləmişdir. 1993-1994-cü illərdə Hərbi Prokurorluqda, 1994-2004-cü illərdə Nəsimi rayon prokurorunun köməkçisi vəzifəsində işləmiş, 2004-cü ildə xidmət illərinə görə təqaüdə çıxmış, 23 iyul 2007-ci ildə vəfat etmişdir.

**Eldar Sultanovun həyatının ən keşməkeşli, həm də mənalı anları 1988-1992-ci illərdə Əli Bayramlı şəhər prokuroru vəzifəsində işlədiyi illərə təsadüf edir. Bu həmin dövr idi ki, SSRİ adlı nəhəng super dövləti silkələyən erməni separatizmi özünü açıq şəkildə göstərirdi.**

Belə ki, 1987-ci iln oktyabr ayında ermənilərin Qarabağ arzularını beşikdə boğan Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılmasından sonra, Azərbaycanı arxasız görən düşmənlərimiz açıq hərəkətə keçdilər. 1987–ci ilin noyabrında Parisdə Fransa erməni institutunun və erməni veteranlar assosiasiyasının təşkil etdiyi tədbirdə M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Qarabağ barədə demişdi: "**Mən bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana".**

Qarabağın Ermənistana verilməli olduğu fikrini o, Fransanın "Humanite" (L'Humanité) qəzetinə müsahibəsində də təkrar etmişdi. Hamı yaxşı başa düşürdü ki, A.Aqanbekyan M.Qorbaçovun xəbəri olmadan belə çıxış edə bilməzdi.

**Bir müddətdən sonra 200 mindən artıq soydaşımız Ermənistandan qovuldu. İqtidar və təzə formalaşmağa başlayan müxalifət liderlərinin xalqın ziyanına "ilk müştərək işi" məcburi köçkünləri Qarabağda məskunlaşdırmaq əvəzinə respublikanın müxtəlif şəhərlərində - əsasən Bakı və Sumqayıtda yerləşdirmək oldu.**

"Sülhsevər" və "cəfakeş" ermənilər mərkəzi hökumətin ayırdığı pulları silahlanmağa sərf edəndə, biz düşmənə "göz dağı vermək üçün" tikinti, abadlıq, quruculuq işlərinə başladıq.

İllər ötəcək, SSRİ dağılmaq üzrə olanda, torpaqlar bir-bir işğal olunanda sovet dövlətinin qüdrətinə güvənən iqtidar liderləri "böyük qardaşın" ədalətli mövqe tutacağına xalqı inandırmağa, müxalifət liderləri daha irəli gedərək torpaqların işğalı ilə barışmayan xalqı **"Almanlar Moskvaya gəlib çatmışdılar, lakin qələbə sovetlərin oldu" fikri ilə ovundurmağa çalışacaqdılar!...**



**Eldar müəllim şəhər prokuroru kimi fəaliyyətinin əvvəlində köçkünlərin problemləri ilə maraqlanır, onların acı taleyini yüngülləşdirmək istəyir və bu yolda səyini əsirgəmirdi.**

1989-cu ildə Qarabağda vəziyyət xeyli gərginləşmişdi. Xatirimdədir, avqust ayında yarımilliyin yekunu ilə əlaqədar kollegiya iclası keçirilirdi. Fasilədə bir neçə prokurorla birlikdə nahar edirdik. Eldar müəllim inandırıcı dəlillərlə Qarabağ münaqişəsinin əsl mahiyyətini açıq şəkildə bildirir, ermənilərin işğalçılıq planlarından danışır, Qarabağa yardım məsələsinə toxunurdu. Axı, çoxları hələ də SSRİ adlı nəhəng dövlətin sonunun başlanğıcı olan Qarabağ münaqişəsinin böyüməsinə imkan verməyəcəyinə inanırdı. Məhz bu görüşdən sonra biz, Qarabağla birbaşa əlaqəsi olmayan insanlar münaqişənin mahiyyətini başa düşüb, müvafiq addımlar atmağa başladıq. Həmin görüşdə məlum oldu ki, Eldar müəllim xeyli müddətdir Qarabağa yardım işi ilə məşğul olur.

Haşiyə: 1988-1990-cı illərdə Şuşa rayon DİŞ-nin rəisi işləmiş, təqaüddə olan polis polkovniki **Saadir Məmmədovun** dediklərindən:

- Yol hərəkət qaydalarını pozan yük maşınının sürücüsü DAM-nin işçisinin qanuni tələbinə tabe olmadığına görə maşınla brlikdə şöbəyə gətirilmişdi. Yarım saat keçməmiş Eldar Sultanov telefonla mənə zəng etdi. Edar müəllimlə şəxsi tanışlığım olmasa da, onun Qarabağda nüfuzuna bələd idim. Mən məsələnin mahiyyətini və sürücünün təqsirini Eldar müəllimə çatdırdım. O mənimlə razılaşdı, lakin dedi ki, həmin sürücü Əli Bayramlıdan 9 dəfə Qarabağa səfər edib. Bu sözdən sonra sürücünün xətası olsa da onu buraxdıq...

**1990-cı ilin noyabr ayında Ali Sovetə keçirilən seçkilərə qatılan Eldar müəllim deputat seçildi. Onun namizədliyini şəhərin nəqliyyatçıları irəli sürmüşdülər. Bu, təsadüfi deyildi. Axı, Eldar müəllim artıq bir il idi könüllü sürücülərlə, necə deyərlər, iş birliyində idi. Qarabağa yardımı onlar aparırdılar.**

Əgər 1990-cı ilin noyabr ayına kimi Eldar müəllim Qarabağ əməliyyatlarını (silah-sursat əldə edib göndərmək, maddi yardım etmək və.s.) gizli şəkildə həyata keçirirdisə, parlamentə üzv çeçildikdən sonra bunu açıq-aşkar edirdi.

Parlamentin ilk iclasında məlum oldu ki, Qarabağdakı vəziyyəti bir çoxları bimir və yaxud özünü bilməməzliyə vurur.

Ali Sovetin sədri **Elmira Qafarovanın** - kim könüllü olaraq Qarabağa getmək istəyir? - sualına yalnız Eldar Sultanov müsbət cavab vermişdi. İclas qurtararkən evə gələn Eldar müəllim yol çantasının hazır olduğunu görür.



*Eldar Sultanov həyat yoldaşı Havva xanım və oğlu Elmarla*

**Haşiyə:** Eldar müəllim deyirdi ki, ailəmdən narahat deyiləm. Məni başa düşən, həmişə dəstək olan, uşaqlarımın anası, ömür-gün yoldaşım Havva xanım vardır. Eldar müəllimin həyat yoldaşı Havva xanımın həyatı da keşməkeşli olub. 16 yaşı olanda anasını itirib. Balaca bacı və qardaşına baxmalı olub. Atasına kömək məqsədi ilə 17 yaşından əmək fəaliyyətinə başlayıb. 1971-ci ildə ADU-nun Hüquq fakültəsinin axşam şöbəsinə daxil olub və taleyin işinə bax, 2-ci kursda olarkən Eldar müəllim də həmin qrupda təhsil almalı olub (Eldar Sultanov fakültənin gündüz şöbəsinə daxil olsa da, valideynlərinin çətin maddi durumuna görə öz ərizəsi ilə axşam şöbəsinə keçmiş, gündüzlər işləmişdir.). Tezliklə tələbə yoldaşlığı qəlb dostluğuna çevrilmiş və onlar 1977-cı ildə ailə həyatı qurmuşdular. Bu evlilikdən cütlüyün Elmar və Rüfət adlı iki övladı dünyaya gəlib. Eldar müəllim prokurorluqda, Havva xanım Meşə Təsərrüfatı Nazirliyində inzibati-təsərrüfat şöbəsinin müdiri vəzifəsində, sonralar Mədəniyyət Nazirliyində hüquq məsləhətçisi işləmişdir. Eldar müəllimin Qarabağa - Şuşaya getmək qərarını televiziyanın xəbərlər

bülletenindən eşidən Havva xanım səfər üçün hazırlıq görmüşdü. Əvvəllər Eldar müəllim Qarabağa yardım göstərməklə kifayətlənirdisə, həmin gündən artıq döyüşçü kimi Qarabağın bir hissəsi oldu.

İclasın səhəri günü iki illik məzuniyyət götürərək raykomun 1-ci katibi **Vaqif Cəfərovun** xidməti maşını ilə Şuşaya gələn Eldar müəllim 13 yaşlı oğlu Elmarı da özü ilə aparır. 1990-cı ilin axırı və 1991-ci ilin əvvəlini Qarabağda keçirən Eldar müəllim Şuşa ətrafı kəndləri - **Kosalar, Meşəli, Kərkicahan, Daşaltı** və digər yaşayış məskənlərini gəzir, insanlarla söhbət edir, vəziyyətlə yerində tanış olub əlaqədar təşkilatlara ümumi vəziyyəti çatdırırdı.

**Bir gün xəbər gəlir ki, Qaragaflılar da köçmək istəyirlər.**

Dəniz səviyyəsindən 1760 metr yüksəklikdə Qırxqız dağlarının ətəyində yerləşən **Qaragaf kəndi** təkcə mərd və cəsur insanları ilə deyil, həm də strateji əhəmiyyətinə görə erməilərə qənim kəsilmişdi. Kosalarla Laçın rayonu arasında körpü rolunu oynayırdı bu kənd. Cəmi 16 evdən ibarət 100 nəfərdən bir qədər çox əhalisi olan kəndin azsaylı əhalisi arvadlı-kişili, uşaqlı-böyüklü hamısı silahdan istifadə etməyi bacarırdı, lakin bir müddət əvvəl əhalidən bütün növ silahlar yığılmışdı. Qaragavın itirilməsi Qırxqızın, eləcə də Laçının şimalının itirilməsi demək idi.

Qaragafa gedən ilk deputat və məmur olan Eldar Sultanov **13 yaşlı oğlu Elmarı** da özü ilə aparmışdı. Kənd sakinlərini inandırır ki, köçmək lazım deyil. 3 gün kənddə qalıb istehkamlar qurulmasını təşkil edir. Ermənilər atəş nöqtələrindən kəndi daim təhdid edir, insanlara atəş açırdılar. **Mingəçevir şəhərində hazırlanıb Şuşaya göndərilmiş "Qrad" qurğusundan açılan effektli atəşlə ermənilərin atəş nöqtələri susdurulur. Bundan sonra erməni yaraqlılarının yerləşdiyi Daqrav kəndi "Qrad" atəşinə məruz qaldı.** Qarabağ münaqişəsi vaxtı qaragaflılar 3 dəfə Meşəlini ermənilərdən geri aldılar. Balaca Elmar isə xəstələrə yardım edilməsində, patron daşınmasında böyüklərə kömək edirdi. Bu kəndin camaatı Şuşa işğal olunduqdan sonra da bir neçə gün ermənilərlə döyüşməli oldu.

**Müdriklərdən biri demişdir:** "Atasız-anasız olarsan, səni övladlığa götürərlər, tam olmasa da qismən valideynləri əvəz edərlər. Övladsız olsan, yetim uşaq götürüb böyüdərsən, qismən övladsızlığı unudarsan. Lakin vətən olmasa, vətəni əvəz edəcək heç nə tapmaq olmaz".

**Vətənsiz də insan olan,**
**İnsan kimi yaşayarmı?** *(S.Vurğun).*

Eldar müəllim azyaşlı oğlunu atəş altına apararaq kənd camaatına ürək-dirək verir, həm də sübut edirdi ki, vətəni ailədən, övladlarından üstün tutan nadir şəxsiyyətlərdəndir. Məhz bu şücayətinə görə "Qaragaf Qartalı" deyirdilər Eldar Sultanova.

**Oğlu Elmar Sultanovun dediklərindən:** "Atam növbəti səfərində məni də Şuşaya apardı. Şuşada Adil əmigildə qalırdıq. Sonra atam məni Qaragaf kəndinə apardı. Yadımda qalan odur ki, hər gün atışma olurdu. Mən də yaşıdlarımla yaralılara qulluq edir, lazım olanda patron daşıyırdım".

**Eldar müəllim Şuşada RİH başçısının müavini işləyən Adil Babişevin evində qalırdı. Adil müəllimin oğlu Eminin dediklərindən:** "Eldar əmi birinci dəfə oğlu Elmarla gəlmişdi. Tezliklə Elmarla dostlaşdıq və daim bir yerdə olurduq. Hərdən kəndlərə gedəndə Elmarı da özü ilə aparırdı. Sonralar biz qaçqınlıq dövründə Əli Bayramlıda Eldar əmigildə qalırdıq".

**Haşiyə:** Həmin vaxt Mingəçevir şəhər prokuroru işləyən Bəhruz Mahmudov qonşu respublikada yerləşən hərbi hissə komandirlərindən biri ilə əlaqə yaradıb öz vəsaiti hesabına "Qrad" qurğusunun eskizlərini əldə edərək, Mingəçevir şəhərində yerləşən zavoda gətirir. Zavodun mühəndis-texnk heyəti həvəslə bu işə girişir və gərgin əmək sayəsində 2 "Qrad" qurğusu düzəldirlər. Qurğunun biri də Şuşaya göndərilir. Məhz həmin qurğunun köməyi ilə ermənilərə layiqli cavab verilir, atəş nöqtələri susdurulur...

**Eldar müəllim Qarabağda dəfələrlə ölümlə üz-üzə gəlir. İki dəfə olduğu maşın qəzaya uğrayır, bir neçə dəfə düşmən tərəfi maşın karvanını atəşə tutsa da, Uca Tanrı qoruyur onu.**

Kərkicahanlılar Eldar müəllimdən silah-sursat istəmişdilər. Tikinti materialları daşıyan yük maşınında xeyli silah-sursat var idi. Maşın yolda sürüşür və dərəyə aşmaq üzrə olanda arxa tərəfi qayaya ilişir. Eldar müəllim özü maşının yanında qalıb, sürücünü Turşsu qəsəbəsinə göndərir. Bir neçə saatdan sonra sürücü traktorla gəlir və onlar yükü Kərkicahana çatdırırlar.

Başqa bir vaxtda 15 maşınla Şuşaya gedərkən ermənilər qabaqda gedən iki maşını vururlar. Sürücülər qorxuya düşüb bəziləri qaçıb gizlənirlər. Bu zaman patrul maşını görünür. Eldar müəllim deputat və prokuror vəsiqəsini patrullara göstərərək onlarla birlikdə Şuşaya gedib, əlavə qüvvə ilə qayıdıb yükləri Şuşaya çatdıra bilir. Sual oluna bilər: **Eldar müəllim silah-sursatı necə və haradan alırdı? Əlbəttə, həmişə müharibəyə gəlir mənbəyi kimi baxan ruslardan!**

**1985-1997-ci illərdə Əli Bayramlı Şəhər Prokurorluğunda sürücü işləmiş Həsən Həsənovun dediklərindən:** "Eldar müəllim bütün həyatını və fəaliyyətini Qarabağ problemlərinə həsr etmişdi. 1990-cı ildən sonra, ümumiyyətlə, gec-gec görüşürdük. Eldar müəllim Qarabağa xidməti maşınla getmirdi. Onun tapşırığı ilə dəfələrlə Abşeronda yerləşən hərbi hissələrdən 200 min, 300 min müxtəlif kalibrli patron alıb Şuşaya göndərmişəm. Bu işdə şəhər ziyalıları və imkanlı adamların maddi dəstəyini də qeyd etməliyəm. Şuşa işğal olunandan sonra Eldar müəllimi həmişə məyus görürdüm. Bir müddətdən sonra şəhər prokuroru vəzifəsindən istefaya

getdi. Eldar müəllim xəstə olarkan mənə evinin satılması üçün etibarnamə verdi. Mən müştəri tapıb evi satdım. Satışdan əldə olunan pulu müalicəsinə sərf etdi"...

**Əli Bayramlı (Şirvan) Şəhər Prokurorluğunda dəftərxana müdiri işləyən Qalina Hüseynovanın dediklərindən:** "Mən 1982-ci ildən Əli Bayramlı Şəhər Prokurorluğunda dəftərxana müdiri işləyirəm. Eldar müəllim işlədiyim üçüncü prokuror idi. O, təxminən bir il işə normal gəlib-getdi. Bundan sonra onu az-az görürdük. Bütün vaxtını Qarabağda keçirirdi".

**1988-1990-cı illərdə Əli Bayramlı şəhər DİŞ-nin rəisi işləmiş, təqaüddə olan polis polkovniki Əziz Mövlanovun dediklərindən: "**Eldar Sultanovla ilk gündən səmimi və işgüzar münasibətlərimiz yaranmışdı. 1989-cu ildə Qarabağla əlaqədar hadisələr qızışandan sonra az-az görüşürdük. Çünki,Eldar müəllim vaxtının çoxunu Qarabağda keçirirdi".

**1990-1992-ci illərdə Əli Bayramlı şəhər DİŞ-nin rəisi işləmiş, təqaüddə olan polis polkovniki Hüseynağa Ocaqovun dediklərindən:** "Eldar müəllimlə ilk görüşümüzdən aramızda xoş münasibət yarandı. 1990-cı ildə parlament seçkilərindən sonra Eldar müəllim aylarla Qarabağda olurdu. Bizim şöbənin əməkdaşları da Qarabağ bölgəsinə ezam olunurdular".

1-ci Qarabağ savaşında Ağdam rayon prokuroru vəzifəsində işləmiş Zahid Tağıyevin dediklərindən: "Eldar müəllim bir neçə dəfə Ağdama gəlmişdi.Bir dəfə mənim yanıma gələrək iri çaplı pulemyot istədi. Həmin vaxt ağdamlılara da silah lazım idi. Mən xüsusi xidmət orqanlarının köməyi ilə onun istədiyi silah-sursatı tapıb verdim (Bu həmin Zahid Tağıyevdir ki, 25 fevral 1992-ci ildə Ağdam şəhəri, o cümlədən, prokurorluğun inzibatı binası "Qrad" qurğuları ilə atəşə məruz qalanda postunu tərk etməmiş, digər rayon rəhbərləri ilə birlikdə həyəcanlanmış xalqı sakitləşdirməyə çalışmaqla bərabər, həmin gecə tamah məqsədi ilə 4 nəfərin öldürülməsi ilə nəticələnən qanlı cinayətin açılmasını təmin etmişdir).

Eldar müəllim Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə inanmırdı. Ona görə də **"hər sey Qarabağ üçün"** prinsipi ilə hərəkət edərək bu yolda mübarizə üsulunun bütün forma və metodlarından istifadə edirdi. Təsadüfi deyil ki, DQMV-nin prokuroru V.Vasilenkonun şərəfinə təşkil edilmiş ziyafətdə Eldar da iştirak edirdi.

**Haşiyə:** 1988-ci ilin əvvəllərindən ermənilər uzun illər ərzində hazırladıqları planı - Qarabağın işğal edilməsini həyata keçirməyə başladılar. Bu məqsədlə partiya, sovet orqanlarını ələ almaqla kifayətlənməyib, hüquq-mühafizə orqanlarını da öz oyunlarına qatmışdılar.

**Həmin dövrdə digər hüquq-mühafizə orqanları kimi prokurorluq da erməniləşdirilmişdi. Bütün vilayət üzrə, Şuşa Prokurorluğu istisna olmaqla, cəmi 3 nəfər azərbaycanlı işləyirdi.**

Bunlar vilayət prokurorunun böyük köməkçisi **Şahmalı Məmmədov,** istintaq bölməsinin böyük prokuroru Qənimət Səfərov və Əskəran rayon prokurorunun köməkçisi **Siyasət Aliyev** idi (Bir müddətdən sonra ermənilər Siyasət Aliyevi bıçaqladılar).

Başqa sözlə, dövlət tərəfindən müəyyən edilən və sanksiyalaşdırılan, dövlət məcburetməsi ilə təmin olunan normaları həyata keçirməli olan hüquq-mühafizə orqanlarının işi iflic vəziyyətinə düşmüşdü.

DQMV adlı qurum yarandığı gündən vilayət prokuroru həmişə erməni olmuşdu. Axırıncı erməni prokuror Arkadi Babayan artıq öz erməni xislətini gizlətmirdi. Respublika prokuroru İlyas İsmayılovun təşəbbüsü ilə A.Babayan vəzifəsindən kənarlaşdırıldı və 1988-ci ilin mart ayında kompromis variant kimi vilayət prokuroru vəzifəsinə **Valeri Vladimiroviç Vasilenko** təyin edildi (Vilayət prokurorunu işdən azad edilməsi və vəzifəyə təyin edilməsi SSRİ Baş prokurorunun səlahiyyətinə aid idi). Eyni zamanda vilayət prokoruun müavini vəzifəsinə sonrallar bir neçə rayonda prokuror işləyən **Mübariz Bayramov** gətirildi.

**Moskvanın nümayəndəsi kimi V.Vasilenkonun ədalətli mövqe tutmasından çox şey asılı idi. Bu təyinatdan sonra baş tutan kollegiya iclaslarından birində həmin dövrdə Respublika Prokurorluğunun Ümumi nəzarət şöbəsinin rəisi işləyən İsaxan Vəliyevin təklifi ilə Masallı rayon prokuroru Əzizağa Həsənovun, Kirovabad (Gəncə) şəhər Gəncə rayon prokuroru Mahmud Nəbiyevin iştirakı ilə V.Vasilenkonun şərəfinə verilən ziyafətdə Eldar Sultanov da iştirak edirdi. Biz V.Vasilenkoya Qarabağ həqiqətlərini çatdırmağa çalışırdıq. Bir neçə saatlıq həmin görüşdə Eldar müəllim xüsusi məlumatlılığı ilə fərqlənidi. Sonralar ermənilər V.Vasilenkonu Azərbaycana rəğbətdə təqsirləndirir, ona silah tuşlamaqdan belə çəkinmirdilər. Bu səbəbdən V.Vasilenko ailəsini Xankəndində deyil, Şuşada yerləşdirmişdi.**

1988-1992-ci illərdə Şuşa rayon prokuroru vəzifəsində işləmiş Ələddin Ələsgərov V.Vasilenkonun həqiqətən ədalətli mövqe tutması barədə bu gün də ağızdolusu danışır. Həmin dövrdə rayon prokurorluğunda müstəntiq işləmiş Əhməd Abdullayev də mənimlə söhbətində bu faktı təsdiq etdi.

**Ermənilərin saysız-hesabsız şikayətləri nəticəsində V.Vasilenko 1990-cı ildə vəzifəsindən kənarlaşdırıldı.**

1991-ci ilin axırı 1992-cü ilin əvvəlləri Şuşa ətrafında mühasirə halqası daralırdı. Şuşa RİH-nin başçısı **Mikayıl Gözəlovun** xaincəsinə öldürülməsindən sonra əhalidə ruh düşgünlüyü, pərakəndəlik hiss olunurdu. Ermənilər ətraf kəndləri işğal edirdi. Döyüşlər ara vermirdi. Hər gün Şuşaya şəhidlər gətirilirdi. Eldar müəllim qıtlığı nəzərə alaraq şəhərə xeyli kəfənlik gətirmişdi. Onun xahişini nəzərə alan Şeyx Şuşaya vicdanlı və gənc molla göndərmişdi. Belə bir şəraitdə Eldar müəllim səylərini daha da artırır, özünü bütünlüklə Şuşanın müdafiəsinə

həsr edirdi. Şuşa müdafiə batalyonunun komandiri Ramiz Qənbərovla sıx əlaqədə olan Eldar müəllim hər cür vasitələrdən istifadə edərək şuşalılara kömək edirdi. Sonralar Şuşanın işğalından 5 gün əvvəl şəhid olmuş Ramiz Qənbərovun son sözlərini tez-tez xatırlayırdı Eldar müəllim. Ağır güllə yarası almış gənc və cəsur komandir **"Ölmək istəmirəm, Şuşanı müdafiəsiz qoya bilmərəm",** - deyirdi.



**Eldar Sultanov sonralar müsahibələrinin birində deyəcəkdi:** "Şuşa Xankəndi yolu tamamilə minalanmış, keçilməz olmuşdu. Müdafiə Nazirliyinin rəhbərliyi Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin nümayəndələrinin Şuşaya gəlməsi münasibəti ilə mina xəritəsini istəmiş, yol minalardan təmizlənmiş, lakin Qırmızı Xaç Cəmiyyətinin nümayəndələrinin əvəzinə həmin yolla ermənilər gələrək Şuşanı işğal etmişdilər".

**Eldar müəllim bunun xəyanət, yoxsa diqqətsizlik olduğunu ömrünün axırına kimi öyrənə bilmədi. Müdafiə Nazirliyi və Respublika rəhbərliyi dəfələrlə Baş prokuror Murad Babayevdən Eldar Sultanovun vəzifəsindən kənarlaşdırılmasını tələb etsələr də, Murad Babayev həmişə Eldar müəllimə dəstək olmuşdu. "Müdrik rəhbərlər" Eldar Sultanovu sülh prosesinə mane olmaqda təqsirləndirirdilər. Respublika rəhbərliyi həqiqəti xalqdan gizlədir, həyacan təbili çalanları şayiə yaymaqda təqsirləndirirdilər.**

Şuşanın və Laçının işğalından sonra da Eldar müəllim fəal vətəndaşlıq mövqeyindən çəkinmədi. O, erməni faşizmini ifşa edən faktları yığıb saxlamışdı. İnanırdı ki, vaxt gələcək erməni faşistləri Beynəlxalq məhkəməyə çıxarılacaq və o dövlət ittihamçısı kimi olmasa da, şahid kimi bu prosesdə iştirak edəcək.

**Bəzi deputat yoldaşlarının laqeydliyi, biganəliyi üzürdü onu. Bir dəfə Xocalı faciəsini əks etdirən filmə bir çox deputatların baxmaqdan imtina etməsini heç cür həzm edə bilmirdi. Bəziləri ona irad tutur, digərləri "bir gül ilə bahar olmaz"- deyirdilər.**

1992-ci ilin sonlarında obyektiv (xəstəliyi) və subyektiv (yüksək çinli məmurların az qala düşmən kəsilməsi, təpkisi) səbəblərdən 5 illik konstitutsiya müddətinə bir neçə ay qalmış istefa verməli oldu Eldar müəllim.

Eldar müəllim xidməti işində də fərqlənirdi. O, dəfələrlə Baş prokurorluq tərəfindən mükafatlandırılmışdı. Bakı şəhər prokurorunun müavini vəzifəsində işləyərkən onun dövlət ittihamçısı olduğu cinayət işi ilə əlaqədar Az.tv 3 hissəli film çəkib nümayiş etdirmişdi. Təəssüf ki, bu yazını hazırlayarkən həmin filmi tapmaq mümkün olmadı.

**Sözardı:** Birinci Qarabağ savaşında bizim qəhrəman polis işçilərimizin fədakarlığı danılmazdır. Məhz buna görə də ilk Milli qəhramanlarımızın, dövlət mükafatı ilə təltif olunanların sırasında polis əməkdaşlarının adlarını görəndə iftixar hissi keçirir və onları həmişə yad edirik. Vətənsevər polis əməkdaşlarının ən qaynar yerlərdə olması, həm də onların vəzifə borcu idi. Lakin prokurorun və prokurorluq işçilərinin döyüş bölgəsində olması, əlində silah döyüşməsi, gecə-gündüz silah daşıması vəzifə borcu deyildi. Məhz bu səbəbdən də bir nəfər də olsa prokurorluq işçisi hökumət mükafatı ilə təltif olunmayıb. Bu, həmin dövrdə, xüsusi ilə müstəqillik dövründə quruma rəhbərlik etmiş Baş prokurorların yumşaq desək, diqqətsizliyinin nəticəsidir.

Ümummilli Liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə 1 oktyabr Prokurorluğun peşə bayramı günü elan edildi. Həmin vaxtdan hər il öz vəzifə borcunu ləyaqətlə icra edən onlarla prokurorluq işçisi Prezidentin sərəncamı ilə müxtəlif dövlət mükafatları ilə təltif olunurlar.

İnanıram ki, fəaliyyətinin əvvəlindən bir çox yeniliklərə imza atıb, prokurorluğun fəaliyyətini canlandıran Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev bu məsələ ilə əlaqədar araşdırma aparıb, 1-ci Qarabağ savaşında karyerasını, həyatını, hətta ailə üzvlərini təhlükə altında qoyan Eldar Sultanov kimi fədakar prokurorluq işçilərinin dövlət mükafatına təqdim olunması üçün zəruri addımlar atacaq.

# Prokurorluğun veteranı Behbud İsmayılovun “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalına müsahibəsi



***İsmayılov Behbud Ismayıl oğlu 1981-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdir. 1981 – 1986-cı illərdə RSFSR Kalinin (indiki Tver) vilayətinin prokurorluq orqanlarında işləmiş, 1986-cı ildə Azərbaycan SSR prokurorluq orqanlarına işə qəbul olunaraq, Azərbaycan SSR Prokurorluğunun Ümumi nəzarət şöbəsinin prokuroru, 1990-cı ildən Bakı şəhər prokurorluğunun Mülki işlər üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət şöbəsinin rəisi, 2000-ci ildən Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin böyük prokuroru, 2001-ci ildən Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin rəis müavini vəzifələrində çalışmışdır. 2002-ci ildə ona Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilmiş, 2003-cü ildə o, həmin idarənin rəisi vəzifəsinə təyin olunmuşdur. 2011-ci ildə Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafedrasının müəllimi-prokuroru vəzifəsinə, 2013-cü ildə isə həmin kafedranın rəisi vəzifəsinə təyin edilmişdir.***

***RSFSR prokuroru, SSRİ Baş prokurorları, Azərbaycan SSR prokuroru və Azərbaycan Respublikasının Baş prokurorları tərəfindən Behbud İsmayılova işlədiyi müddət ərzində 14 dəfə həvəsləndirmə tədbirləri tətbiq olunmuşdur. Azərbaycan Respublikası Baş prokurorunun 29 sentyabr 2004-cü il tarixli 09/239-к nömrəli əmri ilə Behbud İsmayılov «Prokurorluğun fəxri işçisi» döş nişanına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli 3068 nömrəli Sərəncamı ilə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilmişdir. Baş ədliyyə müşaviri xüsusi rütbəsindədir.***

***2017-ci ildən təqaüddədir, əmək veteranıdır.***

**– Behbud müəllim, həmkarlarınızın xatırladığı kimi, məsuliyyətli, təmkinli, nəzəri cəhətdən hazırlıqlı bir əməkdaş olaraq prokurorluq orqanlarında xidmətə başladığınız ilk illəri necə xatırlayırsınız? Prokurorluq əməkdaşı kimi formalaşmağınızda ilk növbədə hansı həmkarlarınızın təsirini qeyd etmək istərdiniz?**

– Mən 1981-ci ildə Moskva Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra təyinat üzrə gənc mütəxəssis kimi Rusiya Federasiyası Kalinin (indiki Tver) vilayətinin Kuvşinov rayon prokurorunun köməkçisi vəzifəsinə təyin edilmişəm. Prokurorluqda prokuror, prokuror köməkçisi və müstəntiq ştatları var idi. 10 gün olardı ki, mən prokurorluqda işləyirdim. Prokurorluğun müstəntiqinin icraatında zorlama ilə əlaqədar cinayət işi var idi. Prokurorun yanında əməliyyat müşavirəsində bu cinayət işi üzrə istintaqın gedişatı müzakirə olunanda, mən çıxış edərək qeyd etdim ki, iş üzrə cinayət məsuliyyətindən kənarda qalan cinayətin törədilməsinə köməkçi olan şəxslər var, onların əməllərinə heç bir hüquqi qiymət verilməmiş və konkret olaraq SSRİ Ali Məhkəməsi Plenumunun müvafiq qərarına istinad edərək bildirdim ki, bu nöqsanlar aradan qaldırılmadığı təqdirdə cinayət işi məhkəmə tərəfindən əlavə ibtidai istintaqa qaytarıla bilər. Lakin cavan və təcrübəsiz kadr olduğum üçün prokuror və müstəntiq mənim sözlərimə məhəl qoymadılar. Müstəntiq Belousov İgor Nikolayeviçin mənə istehza ilə dediyi sözləri bu günə kimi yadımdadır: “Sən dünən universiteti bitirmisən, bu gün mənə tövsif dərsləri keçəcəksən?” Qeyd edilən iş məhkəmə tərəfindən əlavə ibtidai istintaqa qaytarıldı, prokuror və müstəntiq intizam məsuliyyətinə cəlb edildilər. Bundan sonra rayon prokuroru məni kabinetinə dəvət edərək mənə inamsızlıq göstərdiyinə görə üzr istədi və geniş əməliyyat müşavirəsində çıxış edərək qeyd etdi ki, istintaqı prokurorluqda və milisdə aparılan və ittiham aktı ilə məhkəməyə göndərilən bütün cinayət işləri üzrə mənim vizam olmadan o, ittiham aktını təsdiq etməyəcək. Mən attestasiya olunaraq xüsusi rütbə alandan sonra prokurorluğun müstəntiqi istintaq qrupuna üzv daxil edildiyindən, prokurorluqda icraatda olan bütün cinayət işlərinin istintaqının aparılması da mənə həvalə edilmişdir. Beləliklə mən prokuror kö-



məkçisi olsam da, müstəntiq kimi də fəaliyyət göstərirdim. Bu fiziki cəhətdən çox çətin olsa da, mənim prokuror əməkdaşı kimi formalaşmağımda böyük rol oynadı və bu işdə mənə ilk real yardımçı mənim rayon prokurorum Azaryev İvan Aleksndroviç olmuşdur. O, mənə cinayət-prosessual, mülki-prosessual, ümumi nəzarət qaydasında hazırlanan müxtəlif sənədlərin tərtib edilməsində, dövlət ittihamının müdafiəsi, vətəndaşların qəbulu sahəsində keyfiyyətli əməli köməklik göstərmişdir. Nəticədə xidməti işimdə əldə etdiyim nailiyyətlərə görə RSFSR prokuroru S.A.Yemelyanovun 03.02.1986-cı il tarixli 21-k №-li əmri ilə mənə təşəkkül elan edildi.

Bu illəri xatırlayarkən bir epizod üzrə də dayanmaq istərdim. 1984-cü il idi. Artıq mən 3 il prokuror köməkçisi vəzifəsində çalışırdım. Bizim rayonda vəzifəli şəxslər tərəfindən tibbi spirtin mənimsənilməsi ilə əlaqədar cinayət işi başlanmışdı və istintaqın aparılması Ostaşkov şəhər prokurorluğunun müstəntiqinə həvalə edilmişdir. Müstəntiq özündən çox razı bir adam idi. Bir gün mən müstəntiqlə söhbət zamanı dedim ki, onun icraatında olan cinayət işi üzrə vəzifəli şəxslər spirti saxta sənədlər tərtib etməklə mənimsəyiblər və konkret olaraq SSRİ Ali Məhkəməsi Plenumunun müvafiq qərarına istinad edərək bildirdim ki, bu səbəbdən onlara RSFSR Cinayət Məcəlləsinin iki maddəsi ilə ittiham elan edilməlidir: "mənimsəmə" və "vəzifə saxtakarlığı". Lakin müstəntiq mənim sözlərimə heç bir məhəl qoymadı, bütün təqsirləndirilən şəxslərə yalnız spirtin mənimsənilməsinə görə ittiham elan etdi, barələrində qətimkan tədbiri seçdi, vəkillərinin iştirakı ilə onları cinayət işinin materialları ilə tanış etdi və ittiham aktını tərtib edərək cinayət işini bizim rayonun prokuroruna təqdim etdi. Prokuror cinayət işini öyrənilməsi üçün mənə vermək istəyəndə mən bildirdim ki, buna ehtiyac yoxdur, çünki mən bu işi bilirəm, müstəntiqlə olan söhbətimin mahiyyətini, işdə olan nöqsanları qeyd etdim və SSRİ Ali Məhkəməsi Plenumunun sözügedən qərarını ona təqdim etdim. Prokuror Ostaşkov şəhər prokurorluğunun müstəntiqini kabinetinə dəvət etdi, mənim iştirakımla işdə olan bütün nöqsanları ona göstərdi, SSRİ Ali Məhkəməsi Plenumunun müvafiq qərarı ilə onu tanış etdi. Müstəntiq, şahmatçıların dili ilə desək, mat vəziyyətinə düşdü. Bundan sonra isə prokuror cinayət işini əlavə ibtidai istintaqa qaytardı.

Hər iki müstəntiqlə təcrübəmdə yaşanan bu iki hadisəni danışmaqda məqsədim ondan ibarətdir ki, prokurorluqda işləyən gənc nəslin nümayəndələri bilsinlər ki, heç vaxt fikir mübadiləsindən qaçmaq, uzaqlaşmaq, yayınmaq lazım deyil, xüsusilə də cinayətin tövsifi məsələlərində, çünki, klassiklər demişkən, həqiqət mübahisələr zamanı üzə çıxır.

**– Sizcə müasir dövrün tələblərinə uyğun olaraq, prokurorla vətəndaşın münasibətləri nəyə söykənməlidir?**

– Hesab edirəm ki, daha düzgün və ya dəqiq desək, prokurorla vətəndaşın münasibətləri nəyəsə söykənməməlidir. Prokurorun vətəndaşla münasibəti qanunun aliliyinə, vətəndaşda prokurorluğun mövqeyinin qanuni və əsaslı olması inamının yaradılmasına söykənməlidir. Əslində bu yanaşma təkcə müasir dövrün tələblərinə uyğun olaraq deyil, həmişə prokurorluq orqanlarında aktual olubdur. Bir çox hallarda bu inamı yaratmaq prosesi bir günün işi deyil, çünki müvafiq yoxlama və









cinayət işinin istintaqının aparılması qanunla müəyyən edilmiş müddətlər tələb edir. Lakin elə hallar olur ki, bu inamı yaratmaq əvəzinə vətəndaşda qanunsuz və əsassız olaraq inamsızlıq mühiti yaradılır.

Belə ki, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin rəisi vəzifəsində işlədiyim dövrdə türk milliyyətindən olan bir vətəndaşı qəbul etdim. Qəbul zamanı müəyyən etdim ki, həmin vətəndaş azərbaycanlı qadınla rəsmi nikaha daxil olmuş, ona özünün pulu ilə Bakı şəhərində mənzil almış və onlar həmin mənzildə yaşamışlar. Müəyyən müddət keçəndən sonra onların arasında narazılıq olmuş, qadın mənzilin qıfılını dəyişərək ərini mənzilə buraxmamışdır. Vətəndaş da arvadının mənzildə olmamasından istifadə edərək, mənzilin qıfılını dəyişərək mənzildən özünün pulu ilə aldığı televizoru və videomaqnitofonu aparmışdır. Arvadının müraciəti əsasında onun barəsində polisdə Azərbaycan Respublikası CM-nin 177.2.3-cü maddəsi ilə (yaşayış sahəsinə daxil olmaqla oğurluğun törədilməsi) cinayət işi başlanmış və istintaq aparılmışdır. Vətəndaş Baş prokuror tərəfindən qəbul edilərkən mən bildirdim ki, bu vətəndaşın əməlində cinayət tərkibi yoxdur, onun barəsində cinayət işinin başlanması haqqında qanunsuz və əsassız qərar ləğv edilməlidir, çünki Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32.1-ci maddəsinə əsasən "nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır." Mənzil və mənzildə olan əmlak onların ümumi mülkiyyətidir, ərlə arvadın hər hansı bir mübahisəsinə isə mülki mühakimə qaydasında məhkəmədə baxılmalıdır. Mənim mövqeyim nəzərə alınmaqla cinayət işinin başlanması haqqında qərar ləğv edildi. Göründüyü kimi, tabe prokurorluq tərəfindən vətəndaşda yaradılmalı olduğu inam Baş Prokurorluq tərəfindən yaradılmışdır. Digər tərəfdən, hesab edirəm ki, hər bir rəhbər işçi tərəfindən vətəndaşlarda onun tabeçiliyində olan və özü etibar etdiyi işçiyə inamın yaradılması və möhkəmləndirilməsinə ciddi diqqət yetirilməlidir. Prokurorluğun səlahiyyətlərinə aid olmayan məsələlərlə əlaqədar verilmiş izahlardan müraciət edən vətəndaşlar narazı olduğu bütün hallarda, Baş Prokurorluğun Qəbul otağında növbətçi prokurorların iştirakı ilə həmin vətəndaşları qəbul etmişəm və inandırmışam ki, həmin prokurorlar da mənim kimi ali təhsilli hüquqşünaslardır, onların izahları mövcud qanunvericiliyin tələblərinə tam uyğundur və heç bir halda şübhə altına alına bilməz.

**– Prokurorluqda işlədiyiniz müddətdə həmkarlarınızdan özünüzə dost qazanmısınızmı?**

– Bəli, işlədiyim müddətdə həmkarlarımdan özümə dostlar qazanmışam. Biz onlarla tez-tez görüşürük. Dostlar da mənim kimi mövcud qanunvericilikdə edilən dəyişiklikləri, ölkədə aparılan islahatları diqqət mərkəzində saxlayırlar və görüşlər zamanı biz həmçinin bu məsələlərlə əlaqədar fikir mübadiləsi aparırıq.










**– Təqaüddə olduğunuz dövrdə əmək və ya digər fəaliyyətlə məşğul olursunuzmu?**

– Mən 15.02.2017-ci ildən təqaüdə çıxmışam, mənimlə bağlanmış əmək müqaviləsi əsasında 16.04.2018-ci ildən Elm-Tədris Mərəzinin Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafedrasının müəllimi-prokuroru vəzifəsində, 04.10.2019-cu ildən 05.10.2020-ci ilədək isə Mərkəzin tədris məsələləri üzrə prokuroru vəzifəsində işləmişəm.

**– Son illər prokurorluq orqanlarında veteranlarımızın təşkilatlanması, onların sosial qayğılarının həlli, həmçinin qiymətli təcrübəsinin gənc prokurorluq əməkdaşlarının inkişafı baxımından istifadəsi üçün zəruri işlər görülmüşdür. Bu işləri necə qiymətləndirirsiniz və bununla bağlı hər hansı tövsiyə və təklifiniz varmı?**

– Mən bu sahədə görülən zəruri işləri dəstəkləyirəm, çünki 22.04.2021-ci il tarixində təsis edilən "Azərbaycan Respublikası Prokurorluq orqanlarının veteran və pensiyaya çıxmış işçiləri" ictimai birliyinin 27 təsisçilərindən biri də mən olmuşam və qeyd edilən işlər həmin ictimai birliyin Nizamnaməsinə uyğun olaraq aparılır.

**– Sonda Sizə ənənəvi sualımızı vermək istərdik. Şərəfli və zəhmətkeş xidmət illərinizin ən yüksək nailiyyəti kimi nəyi hesab edirsiniz?**

– Mən 35 ildən çox prokurorluq orqanlarında xidmət etmişəm. İşlədiyim müddət ərzində barəmdə RSFSR prokuroru, SSRİ Baş prokurorları, Azərbaycan SSR prokuroru və Azərbaycan Respublikasının Baş prokurorları tərəfindən 14 dəfə həvəsləndirmə tədbirləri tətbiq olunmuşdur. Bu o deməkdir ki, 35 xidmət illərimin 14 ilini yüksək nailiyyət illəri kimi qiymətləndirmək olar. Zənnimcə, xidmət illərimin ən yüksək nailiyyəti kimi 2004-cü ildə «Prokurorluğun fəxri işçisi» döş nişanına layiq görülməyim və Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2008-ci il tarixli 3068 nömrəli Sərəncamı ilə «Dövlət qulluğunda fərqlənməyə görə» medalı ilə təltif edilməyim hesab edilə bilər.

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

**«Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi ilə bağlı Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. «Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi ilə bağlı Tədbirlər Planı» təsdiq edilsin *(əlavə olunur).*

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 28 noyabr 2022-ci il
№ 3623

*Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 noyabr tarixli 3623 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikasında 2023-cü ilin «Heydər Əliyev İli» elan edilməsi ilə bağlı Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| 1. | «Heydər Əliyev İli» ilə bağlı yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarların keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Mərkəzi |
| 2. | Yerli və xarici mediada Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən veriliş, sənədli film və videoçarxların nümayiş etdirilməsi, müsahibə və məqalələrin dərc edilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Medianın İnkişafı Agentliyi, Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC), «Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti, Heydər Əliyev Mərkəzi |
| 3. | Azərbaycan Respublikasının şəhər və rayonlarında elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |

| | | | |
|---|---|---|---|
| 4. | Azərbaycan Respublikasının şəhər və rayonlarında «Heydər Əliyev İli»nə həsr olunmuş müxtəlif müsabiqələrin, sərgi, festival və düşərgələrin, konsert və tamaşaların təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 5. | Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən «Heydər Əliyev İli» ilə bağlı tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi |
| 6. | Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri və həftəsonu məktəblərində «Heydər Əliyev İli»nə həsr olunmuş tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Diasporla İş üzrə Dövlət Komitəsi |
| 7. | Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlarda «Heydər Əliyev İli» ilə əlaqədar tədbirlərin təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi |
| 8. | «Heydər Əliyev İli» çərçivəsində idman yarışlarının və beynəlxalq turnirlərin təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Gənclər və İdman Nazirliyi |
| 9. | «Heydər Əliyev İli» ilə əlaqədar ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş etdirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Reklam Agentliyi, Heydər Əliyev Mərkəzi, yerli icra hakimiyyəti orqanları |
| 10. | Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin, kitabların və monoqrafiyaların nəşri | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| 11. | Ali təhsildə yüksək akademik göstəriciləri olan tələbələr üçün «Heydər Əliyev təqaüdü»nün təsis edilməsi | 2023-cü il may—iyun | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, Maliyyə Nazirliyi |
| 12. | Təhsil müəssisələrində «Heydər Əliyev dərsləri»nin keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Elm və Təhsil Nazirliyi, tabeliyində təhsil müəssisəsi olan aidiyyəti dövlət orqanları (qurumları) |
| 13. | «Heydər Əliyev İli» çərçivəsində sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi |
| 14. | Azərbaycan Respublikasının şəhər və rayonlarında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyalarının keçirilməsi və abadlıq işlərinin aparılması | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, mərkəzi və yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |

| | | | |
|---|---|---|---|
| 15. | Azərbaycan Respublikasının «Heydər Əliyev — 100» yubiley medalının təsis edilməsi | 2023-cü il yanvar—may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi (tövsiyə olunur) |
| 16. | Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markalarının və xatirə nişanlarının buraxılması | 2023-cü il mart—may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 17. | Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələrin hazırlanması | 2023-cü il fevral—may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Mərkəzi Bankı (tövsiyə olunur) |
| 18. | Heydər Əliyev Mükafatının təqdimat mərasiminin keçirilməsi | 2023-cü il may | Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyası, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası |

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703; Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 553-VIQD nömrəli, 8 iyul tarixli 581-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 99-4.5-ci maddəyə «206.2-206.4,» rəqəmlərindən sonra «206-1,» rəqəmləri əlavə edilsin.

**2.** 190-cı maddənin «Qeyd» hissəsinə «205-2.1,» rəqəmlərindən sonra «206-1.1,» rəqəmləri əlavə edilsin və həmin hissədə «və 193.2.2-ci» sözləri «, 193.2.2 və 206-1.2.2-ci» sözləri ilə, «və 193.3.2-ci» sözləri «, 193.3.2 və 206-1.3-cü» sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 206-1-ci maddə əlavə edilsin:

**«Maddə 206-1. Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma**

**206-1.1.** Bu Məcəllənin 206-cı maddəsində nəzərdə tutulmuş cinayətin əlamətləri olmadan, əvəzləşdirmə və

digər qarşılıqlı hesablaşma üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər xeyli miqdarda törədildikdə —

cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə edilməklə iki ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır.

**206-1.2.** Eyni əməllər:

**206-1.2.1.** vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə edilməklə törədildikdə;

**206-1.2.2.** külli miqdarda törədildikdə —

cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə və ya cinayətin predmetinin dəyərinin qırx faizi miqdarında cərimə edilməklə iki ildən dörd ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**206-1.3.** Bu Məcəllənin 206-1.1-ci və 206-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər xüsusilə külli miqdarda törədildikdə —

cinayətin predmetinin dəyərinin qırx faizindən altmış faizinədək miqdarında cərimə edilməklə üç ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.».

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 5 noyabr 2022-ci il
№ 619-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli Qanununun tətbiqi və «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. «Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648, № 7, maddə 1241; 2020, № 7, maddə 883, № 11, maddələr 1345, 1356; 2021, № 6 (I kitab), maddə 565, № 12, maddə 1424; 2022, № 5, maddə 452; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 avqust tarixli 1803 nömrəli Fərmanı) 3-cü hissəsinin on altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda on yeddinci abzas əlavə olunsun:

«Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-1-ci maddəsində nəzərdə tutulmuş cinayətə dair iş üzrə — bu işi başlamış Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və ya Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti.».

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti «Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 619-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 6 dekabr 2022-ci il
№ 1896

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; 2021, № 4, maddə 306, № 5, maddə 428, № 6 (I kitab), maddələr 535, 541, 546, 560, № 7, maddələr 701, 705, 711, № 8, maddə 894, № 11, maddə 1208, № 12, maddələr 1306, 1334; 2022, № 1, maddə 2, № 2, maddə 89, № 4, maddə 293, № 5, maddə 435, № 7, maddələr 694, 699, 703; Azərbaycan Respublikasının 2022-ci il 22 iyun tarixli 554-VIQD nömrəli, 29 iyun tarixli 573-VIQD nömrəli və 8 iyul tarixli 581-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddəyə «482.1,» rəqəmlərindən sonra «482-1,» rəqəmləri əlavə edilsin.

**2.** 479-cu maddənin «Qeyd» hissəsində «və 482.2-ci» sözləri «, 482.2 və 482-1-ci» sözləri ilə əvəz edilsin.

**3.** Aşağıdakı məzmunda 482-1-ci maddə əlavə edilsin:

**«Maddə 482-1. Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına qanunsuz pul köçürülməsi fəaliyyəti ilə məşğul olma**

Bu Məcəllənin 479—482-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanın əlamətləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə pul vəsaitlərinin qanunsuz olaraq Azərbaycan Respublikasından xarici ölkəyə və ya xarici ölkədən Azərbaycan Respublikasına köçürülməsi fəaliyyəti ilə məşğul olma, bu əməllər az miqdarda törədildikdə —

inzibati xətanın bilavasitə obyekti olan pul vəsaiti məbləğinin qırx faizindən altmış faizinədək məbləğdə cərimə edilir.».

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 5 noyabr 2022-ci il
№ 620-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» və «Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

«Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11,

maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1, maddə 9, № 12, maddələr 1322, 1324, 1325; 2022, № 6, maddə 590, № 7, maddə 711) 2-ci maddəsinin «Azərbaycan Prokurorluğunun 100 illiyi (1918—2018)» Azərbaycan Respublikasının yubiley medalı;» hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» medalı;

«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» medalı;.

**Maddə 2**

«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

**Maddə 3**

«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikası medalının təsviri» təsdiq edilsin (əlavə olunur).

**Maddə 4**

«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

**Maddə 5**

«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikası medalının təsviri» təsdiq edilsin *(əlavə olunur).*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 5 noyabr 2022-ci il
№ 623-VIQD

*Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir*

**«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ**

**Maddə 1. Təltif edilən şəxslər**

**1.1.** «Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı ilə prokurorluq işçiləri aşağıdakılara görə təltif edilirlər:

**1.1.1.** prokurorluq orqanlarında qulluqda xüsusilə fərqlənməyə və səmərəli fəaliyyətə görə;

**1.1.2.** xidməti vəzifələrin nümunəvi yerinə yetirilməsinə və xidməti fəaliyyətdə əldə etdikləri nailiyyətlərə görə;

**1.1.3.** prokurorluq orqanlarının inkişafında göstərdikləri xüsusi xidmətlərə görə.

**Maddə 2. Təltif edən orqan**

Prokurorluq işçiləri «Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir*

**«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikası medalının təsviri**

**Maddə 1. Medalın ümumi təsviri**

«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikasının medalı (bundan sonra — medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

**2.1.** Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində daxili və xarici çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

**2.2.** Xarici və daxili konturların arasında aşağı hissənin mərkəzində diametri 2 mm olan səkkizguşəli ulduz həkk edilmiş, ulduzun sol tərəfindən başlayaraq qövs boyunca «PROKURORLUQ ORQANLARINDA QULLUQDA FƏRQLƏNMƏYƏ GÖRƏ» sözləri yazılmışdır.

**2.3.** Daxili çevrənin mərkəzində Azərbaycan Prokurorluğunun rəsmi emblemi həkk olunmuş, emblemin sol və sağ tərəflərində palıd yarpağından çələnglər təsvir edilmişdir. Çələnglərin yuxarı hissələrinin arasında, mərkəzdə diametri 3 mm olan səkkizguşəli ulduz həkk olunmuşdur.

**2.4.** Medalın ön tərəfinin səthi nahamardır, yazılar və təsvirlər relyeflidir, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

**3.1.** Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində qızılı rəngli fonda «AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU» sözləri yazılmışdır.

**3.2.** Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

**4.1.** Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, üst və alt hissələrinə 40 mm x 5,5 mm ölçülü qızılı rəngli hamar metal lövhə bərkidilmiş, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

**4.2.** Göy rəngli xara lentin hər iki kənarından mərkəzə doğru ardıcıl olaraq 1 mm enində sarı, 1 mm enində göy, 3 mm enində sarı, 1 mm enində göy və 1 mm enində sarı rəngli şaquli zolaqlar təsvir edilmişdir.

**4.3.** Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**«Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» Azərbaycan Respublikası medalı**




*Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli*
*623-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir*

**«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı haqqında ƏSASNAMƏ**

**Maddə 1. Təltif edilən şəxslər**

**1.1.** «Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı ilə Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, habelə beynəlxalq təşkilatların nümayəndələri aşağıdakılara görə təltif edilirlər:

**1.1.1.** prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə;

**1.1.2.** prokurorluq sahəsində mühüm layihələrin hazırlanmasında və həyata keçirilməsində fəal iştiraka görə.

**Maddə 2. Təltif edən orqan**

«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxsləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövlət orqanının rəhbəri təltif edir.

**Maddə 3. Taxılma qaydası**

«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli*
*623-VIQD nömrəli Qanunu ilə təsdiq edilmişdir*

**«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikası medalının təsviri**

**Maddə 1. Medalın ümumi təsviri**

«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı (bundan sonra — medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 36 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

**2.1.** Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində daxili və xarici çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

**2.2.** Xarici və daxili konturların arasında aşağı hissənin mərkəzində diametri 2 mm olan səkkizguşəli ulduz həkk edilmiş, ulduzun sol tərəfindən başlayaraq qövs boyunca «PROKURORLUQ ORQANLARI İLƏ SƏMƏRƏLİ ƏMƏKDAŞLIĞA GÖRƏ» sözləri yazılmışdır. Səkkizguşəli ulduz ilə yazıların arasında kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

**2.3.** Daxili çevrədə yer kürəsi, onun mərkəzində paralellərin və meridianların kəsişməsi fonunda Azərbaycan Prokurorluğunun rəsmi emblemi təsvir edilmişdir. Emblemin aşağı hissəsində əməkdaşlıq simvolu əks olunmuşdur.

**2.4.** Medalın ön tərəfinin səthi nahamardır, yazılar və təsvirlər relyeflidir, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

**3.1.** Medalın arxa tərəfi hamar səthlidir, mərkəzində qızılı rəngli fonda «AZƏRBAYCAN RESPUBLİKASININ PROKURORLUĞU» sözləri yazılmışdır.

**3.2.** Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

**4.1.** Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, üst və alt hissələrinə 40 mm x 5,5 mm ölçülü qızılı rəngli hamar metal lövhə bərkidilmiş, 37 mm x 50 mm ölçülü düzbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

**4.2.** Tünd qırmızı xara lentin hər iki kənarında 1,5 mm enində və onların hər birindən mərkəzə doğru 4 mm aralı 2,5 mm enində sarı rəngli şaquli zolaqlar təsvir edilmişdir.

**4.3.** Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.

**«Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı**



## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» və «Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» və «Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş «Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə»nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Əsasnamənin 2-ci maddəsində «dövlət orqanı» dedikdə Azərbaycan Respublikasının Baş Prokurorluğu nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə» və «Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə» Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar «Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 623-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 26 noyabr 2022-ci il
№ 1889

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

«Prokurorluq haqqında» Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 688; 2000, № 7, maddə 494; 2002, № 8, maddə 464; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 202; 2005, № 10, maddələr 874, 876, 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddə 1, № 2, maddə 82; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 11, maddə 944; 2011, № 4, maddə 269, № 7, maddə 611, № 11, maddə 987; 2012, № 6, maddə 519; 2014, № 3, maddə 237; 2016, № 6, maddələr 1012, 1017; 2017, № 12 (I kitab), maddə 2238; 2018, № 2, maddə 146; 2020, № 7, maddə 856; 2021, № 5, maddə 432; Azərbaycan Respublikasının 2022-ci il 8 iyul tarixli 584-VIQD nömrəli Qanunu) 38-ci maddəsinin ikinci hissəsi ləğv edilsin.

**Maddə 2**

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 5 noyabr 2022-ci il
№ 624-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

«Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452, № 12, maddə 731; 2002, № 12, maddə 706; 2005, № 10, maddə 902; 2006, № 11, maddə 927; 2007, № 1, maddələr 1, 4, № 2, maddə 82, № 6, maddə 570, № 8, maddə 756, № 11, maddələr 1078, 1081; 2008, № 3, maddə 155, № 4, maddə 250, № 8, maddə 696; 2009, № 6, maddə 399, № 11, maddələr 877, 878; 2010, № 3, maddə 171, № 11, maddə 944; 2011, № 2, maddə 71, № 11, maddə 988; 2012, № 11, maddə 1039; 2014, № 3, maddə 238; 2016, № 2 (I kitab), maddə 193, № 6, maddələr 982, 1018; 2017, № 12 (I kitab), maddə 2243; 2018, № 3, maddə 397, № 12 (I kitab), maddə 2473; 2020, № 7, maddə 828; 2021, № 5, maddə 433, № 8, maddə 902) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 20.8-ci maddə ləğv edilsin;

**1.2.** 20.9-cu və 20.15-ci maddələr aşağıdakı redaksiyada verilsin:

**«20.9.** Prokurorluq işçilərinin (pensiyaya çıxmış işçilər də daxil olmaqla), o cümlədən onların ailə üzvlərinin tibbi təminatı «Tibbi sığorta haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.»;

**«20.15.** Hərbi prokurorluq orqanlarının prokurorluq işçisi olan hərbi qulluqçularına bu Qanun və «Prokurorluq haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müqayisədə hərbi qulluqçular üçün Azərbaycan Respublikası qanunlarına əsasən müəyyən edilmiş daha əlverişli şərtlərlə pensiya, tibbi və başqa növ maddi və sosial təminatlar şamil edilir.»;

**1.3.** 21.1-ci maddəyə «əmək haqqı» sözlərindən sonra «müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi» sözləri əlavə edilsin;

**1.4.** 21.2-1-ci maddədə «bir» sözü «1,25» rəqəmləri ilə əvəz edilsin;

**1.5.** 21.4-cü maddə aşağıdakı redaksiyada verilsin:

**«21.4.** Prokurorluq işçilərinə pul mükafatının verilməsi məqsədilə hər il növbəti il üçün təsdiq edilən dövlət büdcəsində prokurorluq işçiləri üçün müəyyən olunmuş aylıq vəzifə maaşının 3 misli həcmində əlavə vəsait nəzərdə tutulur.».

**Maddə 2**

Bu Qanun 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 5 noyabr 2022-ci il
№ 625-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

### «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 625-VIQD nömrəli Qanununun tətbiqi və «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 534 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 625-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

**1.1.** «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun 21.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

**1.2.** həmin Qanunun 21.1-ci maddəsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Baş prokuroruna münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər prokurorluq işçilərinə münasibətdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

**2.** «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 534 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 471; 2009, № 11, maddə 887) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**2.1.** ikinci abzasda «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun» sözləri «həmin Qanunun» sözləri ilə əvəz edilsin;

**2.2.** ikinci və üçüncü abzaslar müvafiq olaraq dördüncü və beşinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci və üçüncü abzaslar əlavə edilsin:

«Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikası Qanununun 21.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

həmin Qanunun 21.1-ci maddəsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Baş prokuroruna münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər prokurorluq işçilərinə münasibətdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;».

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti «Prokurorluq orqanlarında qulluq keçmə haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Azərbaycan Respublikasının 2022-ci il 5 noyabr tarixli 625-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Fərman 2023-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 8 dekabr 2022-ci il
№ 1898

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 697, 700, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; 2019, № 4, maddə 586, № 7, maddə 1201, № 8, maddə 1367; 2020, № 3, maddə 223, № 5, maddə 518, № 7, maddə 832, № 8, maddə 1010, № 11, maddələr 1332, 1333; 2021, № 6 (I kitab), maddə 541, № 8, maddə 894, № 12, maddə 1336; 2022, № 5, maddələr 434, 437, № 7, maddə 703, № 8, maddələr 821, 828) aşağıdakı məzmunda 83.1-1-ci, 99-5.5-ci və 99-10-cu maddələr əlavə edilsin:

**«83.1-1.** Həm Azərbaycan Respublikasının, həm də ərazisində törədildiyi xarici dövlətin qanunvericiliyinə əsasən cinayət sayılan əmələ görə xarici dövlətin məhkəmə hökmünə əsasən yaranmış məhkumluq barədə məlumat cinayət təqibinin gedişində daxil olduqda və müvafiq hökm Azərbaycan Respublikasında qanunla müəyyən edilmiş qaydada tanındıqda, bu məhkumluq da cinayətlərin residivi zamanı və cəza təyin edilərkən nəzərə alınır.»;

**«99-5.5.** Əvvəllər barəsində cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxsə yenidən cərimə və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbir təyin olunarkən müvafiq olaraq bu Məcəllənin 99-6.3-cü və 99-7.2-ci maddələrində nəzərdə tutulmuş cinayət-hüquqi tədbirlərin aşağı və yuxarı həddinin orta həddindən aşağı cinayət-hüquqi tədbir təyin edilə bilməz.»;

**«Maddə 99-10. Hüquqi şəxsin əvvəllər barəsində cinayət-hüquqi tədbir tətbiq olunmamış hesab edilməsi üçün tələb olunan müddət**

**99-10.1.** Hüquqi şəxs aşağıdakı hallarda əvvəllər barəsində cinayət-hüquqi tədbir tətbiq olunmamış hesab edilir:

**99-10.1.1.** böyük ictimai təhlükə törətməyən cinayətə görə barəsində cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxs həmin cinayət-hüquqi tədbirin icrasını bitirdiyi gündən bir il keçdikdə;

**99-10.1.2.** az ağır cinayətə görə barəsində cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxs həmin cinayət-hüquqi tədbirin icrasını bitirdiyi gündən iki il keçdikdə;

**99-10.1.3.** ağır cinayətə görə barəsində cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxs həmin cinayət-hüquqi tədbirin icrasını bitirdiyi gündən etibarən altı il keçdikdə;

**99-10.1.4.** xüsusilə ağır cinayətə görə barəsində cinayət-hüquqi tədbir tətbiq olunmuş hüquqi şəxs həmin cinayət-hüquqi tədbirin icrasını bitirdiyi gündən etibarən səkkiz il keçdikdə.».

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 29 noyabr 2022-ci il
№ 641-VIQD

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

### Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, № 8, maddə 828) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 522-ci maddə üzrə:

**1.1.** 522.1-ci maddə 522.1-1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 522.1-ci maddə əlavə olunsun:

**«522.1.** Xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması xarici dövlətlərin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında, yaxud Azərbaycan Respublikasında həyata keçirilən cinayət təqibi ilə əlaqədar zərurət yarandıqda bu Məcəllənin 522–525-ci maddələri ilə müəyyən edilmiş qaydada həyata keçirilir.»;

**1.2.** Aşağıdakı məzmunda 522.3-1-ci maddə əlavə edilsin:

**«522.3-1.** Azərbaycan Respublikasının Baş Prokurorluğu xarici dövlətin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında, yaxud Azərbaycan Respublikasında həyata keçirilən cinayət təqibi ilə əlaqədar zərurət yarandıqda xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması barədə bu Məcəllənin 522.6-cı maddəsində nəzərdə tutulmuş qaydada təqdimat verir.»;

**1.3.** 522.4-cü maddənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

**«522.4.** Xarici dövlətin müvafiq səlahiyyətli orqanının sorğusu əsasında bu Məcəllənin 522.3-1-ci maddəsində nəzərdə tutulan təqdimat aşağıdakı hallardan hər hansı biri mövcud olduqda verilir:»;

**1.4.** 522.4.4-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 522.4.5-ci maddə əlavə edilsin:

**«522.4.5.** xarici dövlətlərin məhkəmələri tərəfindən müsadirə edilməsi barədə hökm və ya digər yekun qərar çıxarılmış əmlak Azərbaycan Respublikasında yerləşirsə.».

**2. 523.**1.9-cu maddədə «məhkum olunmuş şəxsə» sözləri «barəsində hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və törədilmiş cinayətə» sözləri ilə əvəz edilsin.

**3.** 524.5.7-ci maddə ləğv edilsin.

**4.** Aşağıdakı məzmunda 525.5-ci və 525.6-cı maddələr əlavə edilsin:

**«525.5.** Bu Məcəllənin 525.4-cü maddəsi müsadirə edilmiş əmlakdan və ya onun dəyərindən zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi və ya müsadirə edilmiş əmlakın qanuni sahibinə qaytarılması hallarına şamil edilmir. Bu fəslin müddəaları çərçivəsində zərər çəkmiş şəxsə vurulmuş ziyanın ödənilməsi və ya əmlakın qanuni sahibinə qaytarılması üçün əmlak və ya onun dəyəri məhkəmə və əmlakın saxlama məsrəfləri çıxılmaqla sorğu edən dövlətə tam həcmdə qaytarılır.

**525.6.** Şəxsin cinayət əməlinə görə məhkum edilməməsi əmlak müsadirəsi barədə xarici dövlətlərin məhkəmələrinin yekun qərarlarının tanınmasını istisna etmir.».

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 29 noyabr 2022-ci il
№ 642-VIQD

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**
*(Çıxarış)*

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinin şərh edilməsinə dair

**15 sentyabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi C.Hüseynin və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü F.Həsənovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) ünvanladığı sorğuda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 125-ci maddəsinin şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 125-ci maddəsində təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırmaya görə məsuliyyət müəyyən edilmişdir.

Sorğuya əsasən, özünü öldürmə həddinə çatdırma işləri üzrə kifayət qədər məhkəmə təcrübəsinin və həmin maddənin rəsmi şərhinin olmaması baş vermiş intihar və ya intihara cəhd hadisələrinin tövsifi zamanı müəyyən çətinliklərə səbəb olur.

Belə ki, cinayət hüquq nəzəriyyəsində və təcrübədə özünü öldürmə həddinə çatdırma cinayətinin subyektiv cəhətinin dolayı qəsd ilə törədilməsi mübahisəsiz olsa da, birbaşa qəsd və ya ehtiyatsızlıqdan törədilməsinin mümkünlüyünə, yəni təqsirin formalarına dair fikir ayrılıqları vardır.

Cinayət Məcəlləsinin 125-ci maddəsi ilə nəzərdə tutulmuş əməlin təqsirin qəsd və ya ehtiyatsızlıq formasında törədilməsinin dəqiqləşdirilməsi isə residivin və cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Həmçinin sorğuverən qeyd etmişdir ki, Cinayət Məcəlləsinin 125-ci maddəsinin dispozisiyasında əks olunan "maddi və ya xidməti cəhətdən asılılıq", "ləyaqətini mütəmadi olaraq alçaltma", "hədə-qorxu gəlmə" anlayışları aydın olsa da, "sair cəhətdən asılılıq" və "amansız rəftar etmə" anlayışlarının cinayət qanununda açıqlanmaması bu cinayətin tövsifində müəyyən çətinliklər yaradır.

Beləliklə, vahid istintaq və məhkəmə təcrübəsinin formalaşdırılması, cinayət qanunvericiliyi normalarının eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədi ilə özünü öldürmə həddinə çatdırma cinayətinin birbaşa qəsdlə və ya ehtiyatsızlıqdan törədilməsinin mümkünlüyünün və Cinayət Məcəlləsinin 125-ci maddəsinin dispozisiyasında əks olunan "sair cəhətdən asılılıq" və "amansız rəftar etmə" anlayışlarının şərh olunması zərurəti yaranmışdır.

...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinin mənasına görə, təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxsi onunla amansız rəftar etmə, onun ləyaqətini mütəmadi olaraq alçaltma, ona hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma təqsirin birbaşa və ya dolayı qəsd formasında törədilir.

**2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci maddəsinin dispozisiyasında əks olunan "sair cəhətdən asılılıq" və "amansız rəftar etmə" qiymətləndirmə tələb edən əlamətlər olduğundan, şəxsin təqsirlilik məsələsi həll edilərkən işin bütün faktiki halları hərtərəfli, tam və obyektiv araşdırılmalı, təqsirləndirilən şəxsin hərəkət və ya hərəkətsizliyinin nədə ifadə olunması, zərərçəkmişin təqsirləndirilən şəxsdən asılılığının forması göstərilməli və təqsirləndirilən şəxsin hərəkətləri ilə özünü öldürmə və ya ona cəhd arasında səbəbli əlaqənin mövcudluğu müəyyən edilməlidir.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun
## Q Ə R A R I
*(Çıxarış)*

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsinə dair

**28 sentyabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Gəncə Apellyasiya Məhkəməsinin müraciəti üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri T.Muxtarovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri E.Rəhimovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri Ş.Məmmədov və B.Məmişovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, G.Cəfərov Sabirabad Rayon Məhkəməsinin 9 fevral 2016-cı il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 177.2.3 və 177.2.4-cü maddələri ilə təqsirli bilinib 3000 manat cərimə cəzasına, Cinayət Məcəlləsinin 29, 232.1-ci maddələri ilə təqsirli bilinərək həmin Məcəllənin 62-ci maddəsi tətbiq olunmaqla 1 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, Cinayət Məcəlləsinin 66.3-cü maddəsinə əsasən cəzaları tam toplamaq yolu ilə qəti olaraq 1 il müddətinə azadlıqdan məhrum etmə və 3000 manat cərimə cəzalarına məhkum edilmişdir. G.Cəfərov azadlıqdan məhrum etmə cəzasını 16 iyun 2016-cı il tarixində çəkib qurtarmış, cəriməni isə 12 fevral 2019-cu il tarixində dövlət büdcəsinə tam ödəmişdir.

Bundan sonra G.Cəfərov 9 oktyabr 2020-ci il tarixində Cinayət Məcəlləsinin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətmişdir.

Goranboy Rayon Məhkəməsinin 17 fevral 2021-ci il tarixli hökmü ilə G.Cəfərov Cinayət Məcəlləsinin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək 1 il 6 ay müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmişdir.

Dövlət ittihamçısı həmin hökmdən apellyasiya protesti verərək G.Cəfərov qəsdən az ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqdan sonra yenidən hazırkı hökm üzrə 9 oktyabr 2020-ci il tarixində qəsdən az ağır cinayət törətdiyindən, onun əməlində cinayətlərin residivi olduğunu nəzərə alaraq G.Cəfərova cinayətlərin residivinə görə cəza təyin edilməsini xahiş etmişdir.

Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 24 iyun 2021-ci il tarixli qərarına əsasən apellyasiya protesti təmin edilməmiş, Goranboy Rayon Məhkəməsinin 17 fevral 2021-ci il tarixli hökmü dəyişdirilmədən saxlanılmışdır.

Dövlət ittihamçısı tərəfindən verilmiş eyni məzmunlu kassasiya protesti əsasında Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin Cinayət Kollegiyası) 5 yanvar 2022-ci il tarixli qərarı ilə apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilmiş və iş yeni apellyasiya baxışına göndərilmişdir.

Ali Məhkəmənin Cinayət Kollegiyası "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2 və 83-cü maddələrinin şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 2010-cu il 22 dekabr tarixli Qərarını rəhbər tutaraq belə nəticəyə gəlmişdir ki, məhkum qeyd edilən hökm üzrə Cinayət Məcəlləsinin 66.3-cü maddəsinə əsasən qəti olaraq təyin edilmiş 3000 manat cərimə cəzasını 12 fevral 2019-cu il tarixində tam icra etdiyinə görə onun məhkumluğunun ödənilməsi müddətinin axımı 12 fevral 2019-cu il tarixindən başlanmış və məhkumluğu ödənilmədiyi dövrdə yenidən az ağır cinayət əməli törətmişdir. Ali Məhkəmənin Cinayət Kollegiyası hesab etmişdir ki, apellyasiya instansiyası məhkəməsi Cinayət Məcəlləsinin 61.1.1-ci maddəsi ilə cinayətlərin residivini cəzanı ağırlaşdıran hal kimi nəzərə almayaraq maddi hüquq normalarını pozmaqla qərar qəbul etmişdir.

Müraciətdə göstərilir ki, məhkum əvvəlki hökmlə iki əsas cəzaya, yəni azadlıqdan məhrum etmə cəzasına və cərimə cəzasına məhkum edilmiş, hər iki cəzanı çəkib qurtarmışdır.

Məhkuma əvvəlki hökmlə təyin edilmiş hər iki cəza əsas cəza olduğundan və Cinayət Məcəlləsinin 83.4 və 83.4-1-ci maddələrində yalnız əsas və əlavə cəzaya münasibətdə məhkumluğun ödənilməsi müddətləri tənzimləndiyindən, iki əsas cəzaya münasibətdə isə Cinayət Məcəlləsində konkret norma olmadığından, bu məsələ məhkəmə təcrübəsində müxtəlif yanaşmalara səbəb olur.

Müraciətdə həmçinin qeyd olunur ki, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2 və 83-cü maddələrinin şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 2010-cu il 22 dekabr tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyə görə, Cinayət Məcəlləsinin 68.2-ci maddəsində nəzərdə tutulmuş cəzalar toplandıqda məhkumluğun ödənilmə müddətinin axımı cinayətlərin və ya hökmlərin məcmusu üzrə təyin edilmiş qəti cəzanın çəkilib qurtarması və ya cəzadan azad edilmə anından başlayır.

Lakin Konstitusiya Məhkəməsinin qeyd edilən Qərarı qəbul edilərkən Cinayət Məcəlləsinin 18.4.4-cü maddəsi Məcəlləyə daxil edilməmişdi və cinayətin təsnifatından və cəzanın növündən asılı olmayaraq bütün qəsdən törədilmiş cinayətlərə görə məhkumluqlar cinayətin residivi müəyyən edilərkən nəzərə alınırdı.

Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası müraciətdə göstərilən cinayət işi üzrə mövcud hüquqi məsələyə məhkəmələrin və ittiham tərəfinin müxtəlif yanaşmalarının olmasını əsas gətirməklə, cinayətin residivi və məhkumluq institutlarının hüquqi müəyyənlik prinsipinin tələbləri baxımından yenidən şərh edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4-cü maddəsi yalnız azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların yaratmış olduğu məhkumluğu nəzərdə tutur.

**2.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4 və 83.4-1-ci maddələrinin məzmununa görə, cinayətlərin və ya hökmlərin məcmusu üzrə azadlıqdan məhrum etmə ilə yanaşı digər cəzaya məhkum olunmuş şəxs məhkumluğun ödənilmədiyi və ya götürülmədiyi dövrdə yenidən qəsdən cinayət törətdikdə, onun əməli cinayətin residivini yaradır.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**QƏRARDADI**

*(Çıxarış)*

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyektiv cəhətinin şərh edilməsinə dair

**12 oktyabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov (məruzəçi-hakim) və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şirvan Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221-ci maddəsində nəzərdə tutulmuş cinayətin subyektiv cəhətinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim İ.Nəcəfovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Şirvan Apellyasiya Məhkəməsinin hakimi İ.Abdullayevin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri M.Mustafayev və V.Babayevin mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şirvan Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət edərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221-ci maddəsində nəzərdə tutulmuş xuliqanlıq cinayətinin subyektiv cəhətinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, məhkəmənin icraatında olan cinayət işinin materiallarına görə, E.Hüseynov Cinayət Məcəlləsinin 221.3-cü maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Sabirabad Rayon Məhkəməsinin 22 sentyabr 2021-ci il tarixli qərarına əsasən E.Hüseynovun əməli Cinayət Məcəlləsinin 221.3-cü maddəsindən həmin Məcəllənin 128-ci maddəsinə tövsif edilmiş, zərərçəkmiş şəxslə barışdığına görə Məcəllənin 73.2-ci maddəsinə əsasən cinayət məsuliyyətindən azad edilmiş və iş üzrə icraata xitam verilmişdir.

Birinci instansiya məhkəməsi mövqeyini tərəflər arasında mübahisənin səbəbsiz və ya hər hansı bəhanə ilə deyil, əsaslı səbəbdən yaranması, təqsirləndirilən şəxsin zərərçəkmiş şəxsi birbaşa qəsdlə vuraraq ona bədən xəsarəti yetirsə də, onun ictimai qaydanı pozmaq niyyətinin olmaması, hadisənin baş verdiyi məkanın ictimai yer hesab edilməməsi ilə əsaslandırmışdır.

Birinci instansiya məhkəməsinin qərarından dövlət ittihamçısı tərəfindən apellyasiya protesti verilmişdir.

Şirvan Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 15 dekabr 2021-ci il tarixli hökmünə əsasən apellyasiya protesti qismən təmin olunmaqla birinci instansiya məhkəməsinin qərarı ləğv edilmiş, təqsirləndirilən şəxs Cinayət Məcəlləsinin 128-

ci maddəsi ilə təqsirli bilinərək ona 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzası təyin olunmuş və "8 Noyabr-Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 5 noyabr 2021-ci il tarixli Qərarının 2.1-ci bəndi tətbiq olunmaqla həmin cəzadan azad edilmişdir.

Apellyasiya instansiyası məhkəməsi təqsirləndirilən şəxsin əməlinin tövsifi ilə bağlı birinci instansiya məhkəməsinin gəldiyi nəticə ilə razılaşmış, lakin cinayət məsuliyyətindən azad etmə ilə bağlı normanın tətbiqində səhvə yol verildiyi üçün protesti qismən təmin etməklə, həmin səhvi aradan qaldırmışdır.

Apellyasiya instansiyası məhkəməsinin hökmündən dövlət ittihamçısı kassasiya protesti vermiş, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının 18 may 2022-ci il tarixli qərarı ilə protest təmin edilərək hökm ləğv edilmiş və cinayət işi apellyasiya instansiyası məhkəməsində yeni məhkəmə baxışına təyin olunmuşdur.

Müraciətdən görünür ki, Ali Məhkəmənin Cinayət Kollegiyası qeyd olunan nəticəyə gələrkən mövqeyini onunla əsaslandırmışdır ki, baş vermiş hadisə ailədə, mənzildə, qohumlar arasında şəxsi münaqişə zəminində, intiqam hissi ilə və ya zərərçəkmişin təşəbbüsü və onun qanunsuz hərəkətləri nəticəsində baş vermədiyi halda, məhkəmə təqsirləndirilən şəxsin əməlini şəxsi münaqişə zəminində baş vermiş sağlamlığa yüngül zərər vurma olaraq qiymətləndirmişdir. Hadisənin baş verdiyi yerin şəxsi ev, mənzil olmamaqla kafe olması (faktiki fəaliyyət göstərməsə belə), yolun kənarında, insanların gediş-gəlişinin olduğu yer olmaqla ictimai yer hesab olunması, həmçinin hadisə zamanı içəridə və kafedən kənarda başqa şəxslərin olması, eyni zamanda cinayətin subyektiv cəhəti olan niyyətin müəyyən edilməsi zamanı cinayət hadisəsinin qisas, intiqam hissi ilə törədilməməsi, əvvəllər tərəflərin aralarında bu səbəbdən belə bir münaqişənin olmaması, cinayətin məhz cüzi səbəbdən baş verməsi nəzərə alınmamışdır.

Şirvan Apellyasiya Məhkəməsi tərəfindən hazırkı iş üzrə təqsirləndirilən şəxsin əməlinə hüquqi qiymət verilən zaman xuliqanlıq cinayəti ilə bağlı formalaşmış təcrübə nəzərdən keçirildikdə, belə əməllərin tövsifinə dair fərqli yanaşmalar olduğu müəyyən edilmişdir.

Göstərilənlərə əsasən, müraciətedən vahid məhkəmə təcrübəsinin formalaşdırılması və qanunvericiliyin hüquq tətbiqedənlər tərəfindən eyni qaydada tətbiq edilməsinə nail olmaq, eləcə də hüquqi müəyyənlik prinsipinin tələblərinə əməl edilməsi məqsədi ilə Cinayət Məcəlləsinin 221-ci maddəsində təsbit edilmiş xuliqanlıq cinayətinin subyektiv cəhətinin şərh edilməsini xahiş etmişdir.

...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 49, 62, 68 və 69.2-ci maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərardadının təsviri-əsaslandırıcı hissəsində göstərilən hallar nəzərə alınsın.

**2.** Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərardadının təsviri-əsaslandırıcı hissəsində göstərilən əsaslara görə Şirvan Apellyasiya Məhkəməsinin müraciəti üzrə konstitusiya işinin icraatına xitam verilsin.

**3.** Qərardadın surəti 7 gün müddətində Şirvan Apellyasiya Məhkəməsinə göndərilsin.

**4.** Qərardad "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

*(Çıxarış)*

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177 və 178-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi baxımından və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 318 və 391.8-1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair

**31 oktyabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Gəncə Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177 və 178-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi baxımından və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 318 və 391.8-1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri T.Muxtarovun, Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 25-ci maddəsinin I hissəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 177 və 178-ci maddələrinin və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 318 və 391.8-1-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir.

Müraciətdən görünür ki, Gəncə şəhər Nizami Rayon Məhkəməsinin 24 yanvar 2022-ci il tarixli hökmü ilə E.Babayev Cinayət Məcəlləsinin 178.2.2, 180.2.2 və 180.2.4-cü maddələri ilə məhkum edilmişdir. Belə ki, o, 2 mart 2019-cu il tarixində S.Həsənovanı pulunu bankomatdan çıxarmaqda kömək edəcəyi adı ilə aldatmış, sonuncunun plastik kartını bankomata saldıqdan sonra kartın şifrəsinin düzgün olmadığını bildirməklə kartda olan 512 manat pulu çıxardaraq ələ keçirmişdir.

11 mart 2019-cu il tarixində E.Babayev Z.Hüseynova bankomatdan pul çıxararkən onu pulun çıxarılmasında köməklik göstərəcəyi adı ilə aldatmış, bankomatın işləmədiyini bildirib, Z.Hüseynovaya məxsus kartda olan 543 manat pulu bankomatdan çıxardaraq ələ keçirmişdir.

Bundan sonra 5 iyul 2019-cu il tarixində S.Məmmədova özünə məxsus plastik kartdan pul çıxardarkən E.Babayev sonuncunun qarşısına keçib bankomatda pul olmadığını bildirərək qolundan tutub itələməklə həyat və sağlamlıq üçün təhlükəli olmayan zor tətbiq etmiş, pul bankomatdan çıxdıqdan sonra isə həmin məbləği S.Məmmədovanın gözü qarşısında götürərək qaçmaqla soyğunçuluq etmişdir.

E.Babayev Gəncə şəhər Nizami Rayon Məhkəməsinin hökmündən apellyasiya şikayəti verərək cəzasının yüngülləşdirilməsini xahiş etmişdir.

Gəncə Apellyasiya Məhkəməsi tərəfindən işə baxılarkən hazırkı vəziyyətdə şəxsin əməlinin Cinayət Məcəlləsinin 177.2.3-1-ci maddəsi yaxud həmin Məcəllənin 178-ci maddəsi ilə tövsif edilməsinə dair təcrübədə müxtəlif yanaşmalar olduğu müəyyən edilmişdir.

Müraciətedənin qənaətinə görə, hazırda mövcud olan istintaq və məhkəmə təcrübəsinə əsasən istinad edilən cinayət işinin birinci və ikinci epizodlarında əks edilmiş cinayət əməlləri bəzi hallarda oğurluq kimi, bəzi hallarda isə dələduzluq kimi tövsif edilir ki, bu da Konstitusiyanın 25-ci maddəsinin I hissəsinin pozulması ilə nəticələnir.

Həmçinin müraciətdə göstərilmişdir ki, hər iki maddənin sanksiyasındakı cəzaların (azadlığın məhdudlaşdırılması və azadlıqdan məhrum etmə) növləri və hədlərinin eyni olmasına baxmayaraq, dələduzluq cinayət əməlinin sanksiyasında əlavə olaraq cərimə cəzasının nəzərdə tutulması Cinayət Məcəlləsinin tələbləri baxımından dələduzluq cinayətinin oğurluqdan daha yüngül cinayət hesab edildiyini göstərir.

Müraciətedən hesab edir ki, qanunverici Cinayət-Prosessual Məcəlləsinin 391.8-1-ci maddəsində apellyasiya instansiyası məhkəməsində təqsirləndirilən şəxsin əməlinin Cinayət Məcəlləsinin 178.2.2-ci maddəsindən, həmin Məcəllənin 177.2.2 və 177.2.3-1-ci maddələrinə tövsif edilməsi, yəni daha ağır cinayət üzrə ittihamın irəli sürülməsi ilə bağlı müvafiq prosessual hərəkətlərin edilməsinə dair məhdudlaşdırıcı norma müəyyən etmişdir.

Göstərilənlərə əsasən Gəncə Apellyasiya Məhkəməsi hüquq tətbiqetmə təcrübəsinin vahidliyinin və bununla da hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə, bərabərlik hüququ baxımından Cinayət Məcəlləsinin 177 və 178-ci maddələrinin, eləcə də Cinayət-Prosessual Məcəlləsinin 318 və 391.8-1-ci maddələrinin şərh edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Təqsirkarın ödəniş kartını əldə etməyə yönəlmiş aldatmada ifadə olunan hərəkətləri gizli şəkildə talamaq niyyəti ilə pul vəsaitinə çatmağı asanlaşdırmaq üçün həyata keçirildiyi hallarda, əməl Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178-ci maddəsi ilə dələduzluq deyil, həmin Məcəllənin 177-ci maddəsinə uyğun olaraq oğurluq kimi tövsif edilməlidir.

**2.** Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 318-ci maddəsinin mənasına görə, məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, məhkəmə öz təşəbbüsü ilə ittihamın ağırlaşdırılmasına dair qərar qəbul edə bilməz.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 391.8-1-ci maddəsinin tələbinə əsasən, apellyasiya instansiyası məhkəməsi əvvəlki ittihamla müqayisədə daha ağır cinayət üzrə ittihamın irəli sürülməsinə dair müvafiq protest olduğu təqdirdə, işin birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar qəbul edə bilər.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177 və 178-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi baxımından və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 318 və 391.8-1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsi üzrə 31 oktyabr 2022-ci il tarixli Qərara dair hakim İsa Nəcəfovun

## XÜSUSİ RƏYİ

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177 və 178-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsi baxımından və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 318 və 391.8-1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsi üzrə 31 oktyabr 2022-ci il tarixli Qərarına hörmətlə yanaşaraq, bildirirəm ki, Qərarın nəticəvi hissəsi ilə qismən razı deyiləm.

Ona görə də, qərar üzrə xüsusi rəyimi bildirməyi zəruri hesab edirəm.

Təqsirləndirilən şəxs bankomatdan pulunu götürmək istəyən zərərçəkmişin bankomat əməliyyatlarını bilmədiyini gördükdə, ona özünü xeyirxah şəxs kimi qələmə verərək, öz yardımını ona təklif etmişdir. Niyyəti isə zərərçəkmişin hesabında olan pulu götürmək olmuşdur. Zərərçəkmiş təqsirkarın yardımının xeyirxaqlığına səmimiyyət ilə yanaşaraq kredit kartını ona vermiş, sonra isə kodunu bildirmişdir.

Təqsirkar öz hərərkətlərində zahirən xeyirxah olsa da, niyyət və məqsədində məkirli olmuşdur. Aldatmaq yolu ilə zərərçəkmişin puluna sahib olmaq istəmişdir.

Oğurluq cinayətlərində cinayətkarın hər bir hərəkəti, cinayətin törədilməsinin başlanğıc anından sonadək gizli şəkildə olur. (Cinayət Məcəlləsinin 177.1-ci maddəsi).

Yəni oğurluq cinayətinin obyektiv tərəfi dələduzluq cinayətinin obyektin tərəfindən bu xüsusiyyətinə görə fərqlənir.

Məhz buna görə də. cinayətkar tərəfindən cinayətin predmetinin – pulun – vicdanlıcasına yanılan zərərçəkmişə "– bankomatda pul yoxdur" deyib, aldadaraq onun gözündən yayındırılmış şəkildə götürülməsi oğurluq kimi qiymətləndirilə bilməz.

Deməli, müraciətdə qeyd edilən hallarda, cinayətkarın əməli də dələduzluq (Cinayət Məcəlləsinin 178-ci maddəsi) kimi tövsüf edilməlidir.

**Hakim:** **İsa Nəcəfov**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
**Q Ə R A R I**
*(Çıxarış)*

## Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 12.2, 85 və 114.2.3-cü maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 65.1 və 318-ci maddələri və Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin II hissəsi baxımından şərh edilməsinə dair

**18 noyabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze (məruzəçi-hakim), Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şirvan Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 12.2, 85 və 114.2.3-cü maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 65.1 və 318-ci maddələri və Azərbaycan Respublikası Konstitusiyasının 127-ci maddəsinin II hissəsi baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.Qvaladzenin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Şirvan Apellyasiya Məhkəməsinin hakimi K.Başirovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin hakimi K.Əkbərovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü İ.Həsənovanın mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə elmlər doktoru S.Əliyevin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Şirvan Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 12.2, 85 və 114.2.3-cü maddələrinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəlləsi) 65.1 və 318-ci maddələri və Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 127-ci maddəsinin II hissəsi baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə göstərilmişdir ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin səfərbərlik üzrə çağırılmış sabiq hərbi qulluqçusu Z.Cəfərov 12 əsgəri aldadaraq onları ordu sıralarından erkən tərxis etmək üçün 5 yanvar 2021-ci il və 11 yanvar 2021-ci il tarixlərində hər birindən 300 manat olmaqla, ümumilikdə 3600 manat pul əldə etmişdir.

İbtidai araşdırma orqanı Z.Cəfərovun əməlini vahid niyyətlə əhatə olunan əməl kimi deyil, məhz hər bir şəxsə münasibətdə müstəqil əməl olaraq qiymətləndirmiş, buna görə də, hər bir epizod üzrə ələ keçirilmiş məbləğ 500 manatdan az olduğu üçün Füzuli Hərbi Prokurorunun böyük köməkçisinin 3 noyabr 2021-ci il tarixli qərarı ilə Z.Cəfərov barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 178.2.3, 333.3 və 32.4, 312.1-ci maddələri ilə cinayət işinin başlanılması Cinayət-Prosessual Məcəlləsinin 39.1.2-ci maddəsinə əsasən rədd edilmiş və qeyd olunan əməllər üzrə İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə inzibati xəta haqqında iş üzrə icraatın başlanılması üçün toplanmış materiallar Füzuli Hərbi Prokuroruna təqdim edilmişdir.

Füzuli Hərbi Prokurorunun 5 noyabr 2021-ci il tarixli qərarı ilə Z.Cəfərovun barəsində İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə icraat başlanılmış və materiallar baxılması üçün Füzuli Hərbi Məhkəməsinə göndərilmişdir.

Füzuli Hərbi Məhkəməsinin 29 dekabr 2021-ci il tarixli qərarına əsasən inzibati xəta haqqında işdə cinayətin əlamətləri olduğuna görə, inzibati xəta haqqında iş üzrə icraata xitam verilmiş, Füzuli Hərbi Prokurorluğunun 3 noyabr 2021-ci il tarixli cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərarının ləğv edilməsi və Z.Cəfərov barəsində cinayət işinin başlanması məsələsinə baxılması üçün materiallar Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna göndərilmişdir.

Həmin qərarla müəyyən edilmişdir ki, Z.Cəfərovun tərxis olunmaq istəyən hər bir əsgərdən 300 manat pul istəməsi hər dəfə müstəqil yaranmış niyyət kimi deyil, vahid qəsdlə əhatə olunan əməl kimi qiymətləndirilməli və Z.Cəfərovun əsgərlərdən aldığı cəmi 3600 manat miqdarında pul vahid niyyətlə əldə olunduğundan, onun əməli vurulmuş zərərin bu miqdarına uyğun tövsif olunmalıdır. Məhkəmə hesab etmişdir ki, Z.Cəfərovun əməlində dələduzluq cinayətinin tərkibi vardır.

Məhkəmə qeyd olunan qərarı qəbul edərkən İnzibati Xətalar Məcəlləsinin 85 və 114.2.3-cü maddələrinə əsaslanmışdır. Həmin maddələrə əsasən, icraatında inzibati xəta haqqında iş olan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) fiziki şəxs tərəfindən törədilmiş inzibati xətada cinayət əlamətlərini aşkar etdikdə, materialları prokurora, ibtidai istintaq və ya təhqiqat orqanına göndərir. İnzibati xəta haqqında işdə cinayətin əlamətləri olduqda, iş üzrə materiallar prokurora, təhqiqat və ya istintaq orqanına göndərildikdə, inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi haqqında qərar çıxarılır.

Məhkəmənin qərarından Füzuli Hərbi Prokuroru tərəfindən apellyasiya protesti verilmiş, həmin protest əsasında işə baxan Şirvan Apellyasiya Məhkəməsi hesab etmişdir ki, işin halları baxımından Füzuli Hərbi Məhkəməsinin gəldiyi nəticənin qanuniliyi həm Konstitusiyada və beynəlxalq hüquqi sənədlərdə məhkəmələrin bitərəfliyinə, qərəzsizliyinə, ittiham və müdafiə funksiyalarını öz üzərinə götürməməsinə dair təsbit edilən prinsiplərə, həm də müəyyən prosessual qərarların preyudisiallığı baxımından qeyri-müəyyəndir. Belə ki, Cinayət-Prosessual Məcəlləsinin 65.1-ci maddəsinə əsasən, cinayət prosesini həyata keçirən orqanın ləğv edilməmiş qərarı həmin məsələ üzrə yeni qərar çıxarılmasına yol vermir. Cinayət prosesini həyata keçirən orqanın qərarı, şəxsin cinayət təqibini istisna edən qərarlardan başqa, hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarılması ilə əlaqədar məcburi qüvvəyə malik deyildir.

Müraciətdə o da qeyd edilmişdir ki, məhkəmə baxışının hədlərini təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamla məhdudlaşdıran və məhkəmənin öz təşəbbüsü ilə ittihamı ağırlaşdırmaq səlahiyyətini nəzərdə tutmayan Cinayət-Prosessual Məcəlləsinin 318-ci maddəsi, həmçinin cinayət-prosessual normaların analogiya üzrə inzibati xətalara dair işlər üzrə icraatda tətbiq edilməsinin mümkünlüyünə dair Konstitutiya Məhkəməsi Plenumunun formalaşmış hüquqi mövqeyi baxımından, inzibati xəta haqqında işə baxan məhkəmənin İnzibati Xətalar Məcəlləsinin 12.2, 85 və 114.2.3-cü maddələrində təsbit olunmasa da, cinayət işinin başlanmasının rədd edilməsi haqqında ibtidai istintaq orqanının qərarının ziddinə qərar qəbul etmək səlahiyyəti mümkün görünmür.

Göstərilənlərə əsasən Şirvan Apellyasiya Məhkəməsi şəxsin eyni əməlinə görə cinayət işinin başlanılmasının rədd edildiyi və inzibati xəta haqqında icraatın başlanması üçün materialların göndərildiyi halda, inzibati xəta haqqında işə baxan məhkəmənin (səlahiyyətli orqanın) İnzibati Xətalar Məcəlləsinin 85-ci maddəsini rəhbər tutmaqla cinayət əlamətlərinin mövcudluğuna görə işin geri qaytarılması ilə bağlı səlahiyyətinin olub-olmaması ilə əlaqədar məsələyə aydınlıq gətirilməsi, bununla da vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına və qüvvədə olan qanunvericilik normalarının eyni qaydada tətbiq edilməsinə nail olmaq, eləcə də hüquqi müəyyənlik prinsipinin tələblərinə əməl edilməsi məqsədi ilə Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir.

...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini və "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** İstintaq orqanının cinayət işinin başlanmasının rədd edilməsinə dair ləğv edilməmiş qərarının mövcudluğu Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 85-ci maddəsinə uyğun olaraq hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xətada cinayət əlamətləri aşkar edildikdə, materialların prokurora, ibtidai istintaq və ya təhqiqat orqanına göndərilməsinə mane olmur.

**2.** Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində prokurorun Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 85-ci maddəsinə uyğun olaraq məhkəmə tərəfindən ona göndərilmiş materiallar üzrə cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərara baxılması qaydasının tənzimlənməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

**3.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**4.** Qərar rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**5.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

*(Çıxarış)*

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin və həmin Məcəllənin 314-cü maddəsinin "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8 və 9-cu maddələri baxımından şərh edilməsinə dair**

**29 noyabr 2022-ci il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin və həmin Məcəllənin 314-cü maddəsinin "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8 və 9-cu maddələri baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyid, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Ə.Novruzov, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri E.Rəhimov, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin rəisi A.Əliyev, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təqdim edilmiş mülahizələri və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin və həmin Məcəllənin 314-cü maddəsinin "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Yaşıllıqların mühafizəsi haqqında" Qanun) 8 və 9-cu maddələri baxımından şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Cinayət Məcəlləsinin 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində əksini tapan "xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələri" və "kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər)" ifadələrinin məzmunu və əhatə dairəsi ilə bağlı təcrübədə fikir ayrılığı vardır.

Bır sıra hallarda "xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələri" anlayışının geniş təfsir olunaraq Azərbaycan Respublikasının Torpaq Məcəlləsi (bundan sonra – Torpaq Məcəlləsi) ilə müəyyən edilən "yaşayış məntəqələrinin torpaqları" və "sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı torpaqlar" anlayışları ilə eyniləşdirilməsi qanunsuz ağac kəsmə cinayətlərini törətmiş şəxslərin cinayət məsuliyyətindən kənarda qalmasına səbəb olur.

Sorğuverənin fikrincə, Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyində yaşayış məntəqələrinin torpaqları anlayışı geniş müəyyən olunmaqla, həmin torpaqlara meşə fonduna daxil olmayan və xüsusi mülkiyyətdə olan həyətyanı

və bağ sahələrindəki yaşıllıqlar və kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər) ilə yanaşı, ümumi istifadədə olan yaşıllıqlar (park, meşə-park, bağ, bağça, bulvar ərazisində olan və digər yaşıllıqlar), məhdud istifadəli yaşıllıqlar (məhəllədaxili, təhsil, tibb, mədəni-məişət, sənaye müəssisələrinin və digər obyektlərin ərazisində olan yaşıllıqlar) və xüsusi təyinatlı yaşıllıqlar daxil edilmişdir. Bu baxımdan "yaşayış məntəqələrinin torpaqları" anlayışının Cinayət Məcəlləsinin 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində əksini tapmış "xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələri" anlayışı ilə eyniləşdirilməsi məqsədəuyğun hesab edilə bilməz.

Sorğuda o da qeyd olunur ki, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu (bundan sonra – "Torpaq islahatı haqqında" Qanun) ilə sovxoz və kolxozların torpaqları pay torpaqları şəklində kənd təsərrüfatında istifadə məqsədilə vətəndaşların xüsusi mülkiyyətinə verilmişdir. "Kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar (əkinlər)" anlayışının məzmunu qanunvericilikdə müəyyən edilmədiyindən, xüsusi mülkiyyətə verilmiş pay torpaqlarının bütövlükdə Cinayət Məcəlləsinin 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndində göstərilən normanın təsir dairəsinə düşməsi də mübahisə doğurur.

Sorğuda həmçinin göstərilir ki, bələdiyyə mülkiyyətində olan torpaq sahələrindəki yaşıllıqların mühafizəsi sahəsində bələdiyyələrin vəzifələri nəzərə alınaraq, yaşıllıqların məhv edilməsinin qarşısının alınmamasına görə müvafiq vəzifəli şəxslərin Cinayət Məcəlləsinin 314.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin subyekti olub-olmaması ilə bağlı məsələyə aydınlıq gətirilməsi hüquqi müəyyənlik prinsipinin tələblərinə əməl edilməsi baxımından məqsədəuyğun olardı.

...

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

**1.** Kənd təsərrüfatı məqsədi ilə vətəndaşlara verilmiş pay torpaqlarında məhz kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqlar Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 259-cu maddəsinin "Qeyd" hissəsinin 1-ci bəndinin təsiri altına düşür və həmin torpaqlarda yalnız kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqların (əkinlərin) kəsilməsi (götürülməsi) cinayət məsuliyyəti üçün əsas hesab edilə bilməz.

**2.** Fiziki və hüquqi şəxslərin xüsusi mülkiyyətində olan sənaye, nəqliyyat, rabitə və digər təyinatlı torpaq sahələrindəki, habelə yaşayış məntəqələrinin torpaqlarındakı yaşıllıqların (xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqlar və kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə olunan bitkilərdən ibarət olan yaşıllıqlar istisna olmaqla) götürülməsi müvafiq normativ hüquqi aktlara uyğun olaraq səlahiyyətli dövlət orqanlarının (bələdiyyələrin) qərarı ilə həyata keçirilə bilər.

**3.** Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 57, 83.0.6 və 85.4-cü maddələri ilə müəyyən olunmuş tələblərə riayət edilməklə müvafiq icra hakimiyyəti orqanı tərəfindən tikintiyə icazənin verilməsi həmin ərazidə tikinti işlərinin aparılması məqsədilə yaşıllıqların kəsilməsi (götürülməsi) halında cinayət məsuliyyətinin yaranmasını istisna edir.

4**.** "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun 8 və 9-cu maddələrinin mənasına əsasən bələdiyyə mülkiyyətində olan torpaq sahələrindəki yaşıllıqlara münasibətdə bələdiyyələr yaşıllıqların mühafizəsi tədbiri olaraq qanun pozuntularının qarşısının alınması vəzifəsini daşıyırlar.

**5.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**6.** Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

**7.** Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASINN BAŞ PROKURORLUĞU**

**ƏMR**

**№ 15/38**

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin və "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi" nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 27 dekabr 2022-ci il tarixli 06 nömrəli qərarının icrasının təmin edilməsi barədə**

*Bakı şəhəri* *27.12.2022-ci il*

Baş Prokurorluqda idarəçilik, icra və əmək intizamı, kadrlarla iş, sənəd dövriyyəsi, prosessual rəhbərlik və nəzarət fəaliyyətinin təşkili məsələlərini, həmçinin Baş Prokurorluğun struktur qurumları və prokurorluq sisteminə daxil olan digər qurumları arasında, o cümlədən tabe prokurorluqlar ilə münasibətləri, tabe prokurorluqda işin təşkili və iş bölgüsünün əsaslarını tənzimləyən Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları" (bundan sonra- Qaydalar) Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmişdir.

Qaydaların tələblərinə əsasən, Etik Davranış Kodeksinin təcrübədə tətbiqi vəziyyəti, o cümlədən Etik Davranış Komissiyasının qəbul etdiyi qərarlar dövri olaraq Elm-Tədris Mərkəzində ümumiləşdirilir. Bunun nəticəsində müəyyən edilmiş presedentlər nəzərə alınaraq, Mərkəz tərəfindən Etik Davranış Kodeksinin tətbiqinə dair praktiki təlimatlar və etik dilemma nümunələri hazırlanır. Mərkəz bu sahədə xarici təcrübəni öyrənməklə və prokurorluq işçilərinin intizam məsuliyyətinə cəlb olunması ilə bağlı əmrlərin təhlili əsasında, onların rast gələ biləcəyi problemləri proqnozlaşdırır. Bu problemlərin qarşısının alınması üçün Mərkəz tərəfindən hazırlanan təkliflər vaxtaşırı Etik Davranış Komissiyasında müzakirə edilir, müzakirə nəticəsində Etik Davranış Kodeksinə müvafiq dəyişikliklər edilməklə, qaydalar təkmilləşdirilir.

Ötən müddət ərzində qanunvericiliyə edilmiş dəyişikliklər, o cümlədən Qaydaların və Kodeksin tətbiqi prosesində ortaya çıxan çətinliklər Qaydaların və Etik Davranış Kodeksinin normayaratma fəaliyyətinin mütənasiblilik, sistemlilik və digər prinsiplərinə uyğun olaraq təkmilləşdirilməsini zəruri etmişdir.

Qeyd olunanlara əsasən, Baş Prokurorluğun bütün struktur qurumları və tabe prokurorluqlar tərəfindən irəli sürülmüş təkliflər əsasında Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər, eləcə də Azərbaycan Respublikası Prokurorluğu işçilərinin yeni Etik Davranış Kodeksinin layihələri hazırlanaraq təsdiq edilməsi üçün Baş Prokurorluğun Kollegiyasının müzakirəsinə çıxarılmışdır.

Baş Prokurorluğun 27 dekabr 2022-ci il tarixli Kollegiya iclasında Baş Prokurorluğun "İşin Təşkili Qaydaları"nda dəyişikliklər və "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiya iclasının qərarının icrasını təmin etmək məqsədilə, "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10 və 11-ci maddələrini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

**1.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 30 iyul 2020-ci il tarixli 02 nömrəli qərarı ilə təsdiq edilərək Azərbaycan Respublikası Baş prokurorunun 30 iyul 2020-ci il tarixli 10/82 nömrəli əmri ilə icraya yönəldilmiş Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 27 dekabr 2022-ci il tarixli 06 nömrəli qərarı ilə təsdiq edilmiş dəyişikliklər 01 yanvar 2023-cü il tarixdən qüvvəyə minsin və bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**2.** Azərbaycan Respublikası Baş Prokurorluğunun Kollegiyasının 27 dekabr 2022-ci il tarixli 06 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğu İşçilərinin Etik Davranış Kodeksi" 01 yanvar 2023-cü il tarixdən qüvvəyə minsin və bütün prokurorluq orqanlarında tətbiq edilsin.

**3.** Azərbaycan Respublikası Baş Prokurorluğunun "İşin Təşkili Qaydaları"nda təsdiq edilmiş dəyişikliklərə uyğun olaraq qısa müddət ərzində Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Naxçıvan Muxtar Respublikasının Hərbi prokurorluqları tərəfindən "İşin Təşkili Qaydaları"nda dəyişikliklərin hazırlanıb təsdiq olunması, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Bakı şəhər prokurorluğu tərəfindən isə müvafiq dəyişikliklərin hazırlanıb təsdiq üçün təqdim olunması təmin edilsin.

**4.** Əmrin icrasına nəzarət Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini və müavinlərinə, Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinə həvalə edilsin.

**5.** Əmr elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və bütün tabe prokurorluqlara göndərilsin, "Azərbaycan Prokurorluğu" jurnalında dərc edilsin və "Prokurorluğun Normativ Xarakterli Hüquqi Sənədlərinin Reyestri"nə daxil edilsin.

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**Kamran Əliyev**

## Dərc olunması üçün jurnala material göndərmək istəyənlərin diqqətinə!

### *Redaksiyaya göndərilən materialların (əlyazmaların) tərtibatı aşağıdakı tələblərə cavab verməlidir:*

1. Əlyazma kağız və elektron daşıyıcılarda birbaşa, yaxud elektron poçt vasitəsilə aşağıda göstərilən ünvana (Azərbaycan Respublikası Baş Prokurorluğu Elm-Tədris Mərkəzinin ünvanına) təqdim edilir (WinWord mətnində).
2. Mətn, haşiyələr də daxil olmaqla, Times New Roman şrifti (Yunikod) ilə yığılmalıdır.
3. Haşiyələr ardıcıllıqla düzülməli və nömrələri səhifələrdəki istinadlara uyğun olmalıdır. Biblioqrafiya bloku ГОСТ Р 7.0.5 – 2008 standartına uyğun olaraq tərtib edilməlidir.
4. Məqalələrin həcmi 12 səhifədən çox olmamalıdır. Digər materialların həcmi redaksiya heyəti ilə razılaşdırılmalıdır.
5. Əlyazma müəllif tərəfindən imzalanmalıdır.
6. Müəllifin adı, soyadı, atasının adı, vəzifəsi, rütbəsi, elmi dərəcəsi, telefon, faks nömrələri, elektron poçt ünvanı və digər əlaqə vasitələri barədə məlumat ya ayrıca, ya da məqalənin bir hissəsində əks olunmalıdır.
7. Materiala əlavə olunmuş fotoşəkillər yüksək keyfiyyətli olmalıdır.
8. Əlyazmalardakı məlumatların və haşiyələrdə göstərilən mənbələrin həqiqiliyinə müəllif cavabdehlik daşıyır.
9. Əlyazma (fotoşəkil) bu tələblərə cavab vermədikdə, material (fotoşəkil) çap edilmir, yaxud müəllifə mətndə düzəlişlərin aparılması təklif olunur.
10. Materialların çapı üçün müəllifdən ödəniş tələb olunmur.

## Materiallar Baş Prokurorluğun Elm-Tədris Mərkəzinə göndərilə bilər.

